# AZƏRBAYCAN

**6-7'2021**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** İntiqam QASIMZADƏ

**Baş redaktor müavini:** Südabə AĞABALAYEVA

**Məsul katib:** Vüsal NURU

***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Elçin, Musa Yaqub, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Afaq Məsud, Paşa Əlioğlu, Asim Yadigar, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu**

**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya* –
498-78-10
493-28-32
493-2834
*Mühasibat* –
493-29-41

**Çapa imzalanıb:**
24.06.2021
**Sifariş 1101**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
12,5 çap vərəqi
18,2 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru

**Qiyməti**
**1 manat 50 qəpik**

**Bakı şəhəri,**
**"Azərbaycan"**
**nəşriyyatının mətbəəsində**
**ofset üsulu ilə çap olunur**

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:


İNTİQAM QASIMZADƏ – Şuşanın dolayları ................................................ 3

### P O E Z İ Y A

FƏXRƏDDİN ƏSƏD – Şeirlər........................................................................ 11
SÜLEYMAN ABDULLA – Şeirlər................................................................. 34
MUSA ƏLƏKBƏRLİ – Şeirlər........................................................................ 69
ZEYNAL VƏFA – Şeirlər............................................................................. 132
ZAHİD AFŞAR ELOĞLU – Şeirlər.............................................................. 148
MƏLAHƏT MƏHRUQ – Şeirlər.................................................................. 152

### N İ Z A M İ G Ə N C Ə V İ – 8 8 0

Nizami Gəncəvi yaradıcılığında astrologiya və astronomiya elmləri ............. 16

### N Ə S R

ALPAY AZƏR – Ömürlük sırğa (povest) ....................................................... 45
TAHİR TAİSOĞLU – Asılqan buynuzu (roman) ........................................... 82
VÜSAL NURU – Dörd nömrəli kağız (hekayə) .......................................... 139

### T Ü R K D Ü N Y A M I Z

NƏCMƏTTİN TURİNAY – Yunus Əmrə .................................................... 145

### Y E N İ T Ə R C Ü M Ə L Ə R

İMDAT AVŞAR – Bitməyən roman ............................................................. 154
LEONİD İVANOV – Milad gecəsində .......................................................... 168

### Q Ə R İ B M E H D İ N İ N 8 5 Y A Ş I

QƏŞƏM NƏCƏFZADƏ – Qərib Mehdi tənhalığı ....................................... 172

### K A M İ L Ə F S Ə R O Ğ L U N U N 7 0 Y A Ş I

ƏHMƏD OĞUZ – Adsız rəngin çalarları ..................................................... 175

### T Ə N Q İ D V Ə Ə D Ə B İ Y Y A T Ş Ü N A S L I Q

PAŞA ƏLİOĞLU – I Şah Təhmasib dövrü Azərbaycan ədəbiyyatında Nəsimi təsiri ................................................................. 180

### İ S T İ - İ S T İ

NƏRGİZ CABBARLI – Mübariz Cəfərlinin "Ərəfə" romanı ...................... 186

### K İ T A B R Ə F İ ...............................191

*İntiqam QASIMZADƏ*

# ŞUŞANIN DOLAYLARI




30 il əvvəl işğal olunmuş torpaqlarımızın erməni tapdağından qurtulması uğrunda 2020-ci il sentyabr ayının 27-dən noyabrın 10-a kimi davam edən 44 günlük II Qarabağ müharibəsi müzəffər ordumuzun qələbəsi ilə qurtardı. Şimal qonşumuz Rusiyanın vasitəçiliyi ilə Ermənistan məğlubiyyət aktına qol çəkdi və darmadağın edilmiş ordusunun qalıqlarını torpaqlarımızdan çıxardı. Vətənin azadlığı uğrunda son damla qanına kimi çarpışan igid əsgərlərimizin döyüş salnaməsinin zirvəsi, heç şübhəsiz, Şuşa uğrunda döyüşlər, Şuşa qalasının 28 illik əsarətdən qurtulması oldu.

Hər bir azərbaycanlının qəlbində Şuşa şəhərinin xüsusi yeri var; ilk növbədə, əlbəttə, musiqi, muğam beşiyi kimi; bu da təbiidir – bizim ruhumuz musiqiylə yoğrulub. Musiqi bizim mənəvi qidamızdır. Daha sonra təbiəti ilə, ab-havası ilə. Bir dəfə Şuşaya gələn insan ömrü boyu unuda bilməz bu şəhəri. Burda dünyaya göz açıb, burda yaşamış insanlar Şuşasız yaşaya bilməz. Yaşasa da, ömrü-günü yarımçıq olar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu fikri bütün azərbaycanlılara şamil etmişdi; demişdi: “Biz Şuşasız yaşaya bilmərik.” Həqiqətən də, hər bir azərbaycanlı 28 il idi ki, bu hisslə yaşayırdı. Elə ona görəydi ki, Ali Baş Komandan İlham Əliyevin tapşırığı və xeyir-duası ilə şir ürəkli xüsusi təyinatlı igidlərimiz dırnaqlarıyla sıldırım qayalara dırmaşıb, gözlənilmədən şəhərə girdilər, düşmənlə əlbəyaxa döyüşdə onun belini qırdılar, qovub şəhərdən kənara atdılar. Şuşa azad edildikdən sonra nər igidlərimiz, qəhrəman Azərbaycan əsgəri işğalçı erməni ordusunu qabağına qatıb elə bir hücuma keçdi ki, bir gün ərzində – noyabr ayının 9-da 27 kənd işğalçılardan təmizləndi. Ermənistan və qondarma “Dağlıq Qarabağ Respublikası”nın qoşunları artıq döyüşmək iqtidarında deyildilər. Hamiləri Rusiya

bu dəfə də onların qanının arasına girdi. Gecəylə tələm-tələsik, üzərinə vasitəçilik missiyası götürüb, ordumuzun müzəffər yürüşünün qarşısını aldı. Müttəfiqi Ermənistana kapitulyasiya aktına qol çəkdirdi və dərhal, ildırım sürəti ilə sülhməramlı qoşununu Azərbaycana yeritdi; “xilaskar” rus ordusunu.

Üstündən yeddi ay keçəndən sonra, hamıya yaxşı məlum olan bu hadisələri təkrarən niyə yada salıram?! Ona görə ki, müharibə dayandırıldığı gündən biz azərbaycanlılar 30 ilə yaxın erməni əsarətində qalmış dədə-baba torpaqlarımıza gedərək diz çöküb uzun illər gözü yolda qoyduğumuzçün ondan üzr istəməyə cəhd etmişik. Ötən bu yeddi ayı Şuşamızı, mədəniyyət qibləgahımızı ziyarət etmək arzusu ilə yaşamışıq. 30 il dözmüşük, 6-7 ay dözə bilmirik. Bu da başa düşüləndir; artıq Şuşa bizdədir. Prezidentimiz neçənci dəfədir Şuşaya səfər edir, Cıdır düzündə Novruz bayramı tonqalı yandırır.

Deyir: istək və səbr insanı arzusuna çatdırar. Elə də oldu. Aprelin son günləri Heydər Əliyev Fondundan mənə zəng vurdular: “İntiqam Qasımzadənin evidir?”. Dedim “bəli, özüdür danışan.” Soruşdular: “Siz, gərək ki, Şuşada anadan olmusuz?”. “Elədir. 1943-cü il avqust ayının 12-də.” “Mayın əvvəllərində Şuşada ənənəvi “Xarı bülbül” festivalı keçiriləcək. Siz də ora dəvətlisiz”.

Mayın 11-də koronavirusla bağlı bütün vacib prosedurlardan keçdikdən sonra gecə saat 2-də Filarmoniyanın həyətində 12 nəfərlik “Mersedes” markalı mikroavtobuslarda Qarabağa yola düşdük. Karvanımız böyük idi. On - on iki maşın olardı. Səfər yoldaşlarımızın arasında hər sahədən adam vardı; incəsənət işçiləri, alimlər, yazıçılar və s.

Azneft meydanından sağa dönüb Salyan yoluna çıxdıq.

Sürücü salonun işıqlarını söndürmüşdü. Bir neçə dəqiqədən sonra artıq uzun bir yolun hələ 15-ci kilometrində idik, yavaş-yavaş sərnişinlərin göz qapaqları bir-bir qapanmağa başladı. Deyəsən mən də mürgüləyirdim.

Hər tərəf zülmət qaranlıqdı. Arxa cərgədəki müsafirlərdən ikisi xırda-xırda nə barədəsə söhbət edirdilər. Hiss edirdim ki, huş aparır məni. Gözlərimin önündə balaca, səliqəli Şuşa həyəti canlanır... Atam zabit paltarında doqqazdan həyətə girib çağırır: Sona, Sona! Çıxırıq eyvana: anam, böyük qardaşım Daşqın, bir də – mən, iki yaşlı balaca İntiqam. Anamgil tələm-tələsik düşürlər həyətə. Mənsə durub matdım-matdım baxıram. Atam anamı öpüb, qüvvətli sağ əliylə Daşqını qucağına alır. Sonra mənə baxıb: “Ay maşallah, bu da yavaş-yavaş böyüyür, adam olur, deyəsən” – deyir. Qucağına alıb öpür məni. Sonra keçirik otağa; atam gətirdiyi sovqatları yığır stolun üstünə. Xeyli qənd parçasını anama verib: “Sona, bunları qoy bağlı bir yerə, uşaqlara şirinçay eləyərsən” – deyir. Daha sonra şirin çay düzəldirlər, soyutmaqçün nəlbəkiyə töküb mənə verirlər. Mən acgözlüklə – marçamarç, birnəfəsə çayı içirəm. 2 yaşında ilk dəfə idi ki, mənə şirin çay verirdilər. Aldığım ləzzətdən gözlərim yaşarır. Atamgilin də gözləri yaşarır; ağlayırlar.

Mənim o zaman, yəni 1945-ci ildə, dediyim kimi, cəmi ikicə yaşım vardı; bu danışdıqlarım mənim yadımda qala bilməzdi. Çox sonralar, atam dünyasını dəyişəndən sonra keçən günlərdən, müharibə dövründən (1941-1945-ci illər müharibəsindən) maraqlı söhbətlər eləyən anamdan eşitmişdim bunları. O şirin çay hadisəsinin də çox təsirli bir tarixçəsi var.

Görkəmli ədəbiyyatşünas-alim, əsl Azərbaycanlı – vətəndaş Abbas Zamanov bir dəfə “Azərbaycan” jurnalına gəlmişdi (onda mən tənqid şöbəsinin müdiri idim), mənə qayıtdı ki, sənin atan, rəhmətlik Böyükağa, bilirsən necə kişiydi?! Ananızı necə sevirdi?! Həyatının mənası siz – uşaqlarıydı. 1944-cü ildə onu ön cəbhədən Tiflisə, hərbi qəzetə keçirmişdilər; 41-dən 44-ə qədər o,

rota komandiri kimi səngər həyatı yaşamışdı; odun-alovun içindən çıxmışdı. O zaman qəzetdə bizə hərbi pay verirdilər; içində də iki parça qənd olurdu. Atan onları yemirdi; bir qutusu vardı, ora yığırdı. İmkan düşəndə həftəsonu iki günlük Şuşaya, sizi görməyə gedirdi, o qəndləri də sizə aparırdı".

Bəli, Şuşada o zaman insanlar çox ağır günlər yaşayıblar. Yadıma düşmüşkən orasını da deyim ki, müharibə vaxtı Şuşanın KQB-si erməni olub, özü də min cür alçaq üsullarla şuşalıları qorxudur, incidirmiş.

Maşında hər adam yata bilmir; mən bir az mürgüləsəm də, az sonra ayıldım. Bayaq arxa cərgədə oturub xırda-xırda söhbət eləyən müsafirlərin (hər ikisi musiqiçiydi) çənələri yaman qızışmışdı; toy çalmaqlarından danışırdılar. Mənim ayıldığımı görüb tarzən çox nəzakətlə: "Deyəsən, qoymadıq yatasız?" – dedi. Cavab verdim ki, "yatmırdım, gözlərimin acısını alırdım". Deyəsən, indi də məni söhbətə çəkmək istəyirdi, soruşdu: "Siz də festival iştirakçısısız, yoxsa...". "Yox – dedim, - mən qonaq kimi dəvət olunmuşam". "Şuşalısız?". "Elə də demək olar...". "Başa düşmədim". "Atam bakılıydı, həyatımın da böyük hissəsini Bakıda yaşamışam. Amma anam şuşalı idi; üstəlik də, mən Şuşada anadan olmuşam. Dünyaya göz açanda ilk dəfə ciyərlərimə Şuşanın havasını almışam. Sonra Şuşanın suyunu içmişəm. Gözlərim gördüklərini dərk etməyə başlayanda Şuşanın gözəlliklərini – Cıdır düzünü, Daşaltını, İsa bulağını görmüşəm. İlk addımlarımı da Şuşanın o zaman başdan-başa daş döşənmiş küçələrində atmışam". Tarzən qardaşımız: "Onda sizin Şuşada eviniz də var yəqin ki?.." – deyə dərhal maraqlandı. "Bizim yox, ana babamın. İnsan cildinə girmiş şeytan törəmələri 1937-ci ildə babam Nəsir kişini şərləyib xalq düşməni kimi tutdurandan sonra, anası, qardaşı, bacıları – hamısı evi buraxıb Şuşadan çıxıblar. Anam da özündən kiçik bacı və qardaşını götürüb gəlib Bakıya. Şuşadakı o evin əvvəlcə quru divarları qalmışdı. Son vaxtlar dayımla getmişdik, heç o da yox idi, eləcə boş həyət idi. Sovet hökuməti də elə erməni kimi bir şeydi. Neçə-neçə evin ocağını söndürmüşdü, ailəni başsız qoymuşdu". Cavabım yol yoldaşımıza, deyəsən, təsir eləmişdi, daha sual vermədi.

Gözlərimi yumdum. Yollarımız son illər əladır. Maşınımız sanki güzgü üstü ilə sürətlə şütüyüb gedir; çox rahatdır. Amma mən Şuşaya heç vaxt bu yolla getməmişəm. Həmişə Yevlax – Ağdam – Şuşa yolu ilə gedərdik. İndi Ağdam ərazisi başdan-başa minalanıb; təmizləyib qurtarmayıblar hələ. Xəyalım məni 1989-1990-cı illərə aparır. O zaman mən həmkarım və dostum Aleksandr Qriçlə AzTV-də "Bayatı" adlı ədəbi veriliş hazırlayırdıq. Qış fəsli idi. Verilişin birini Natəvana həsr etmək qərarına gəldik. Əlbəttə, çəkiliş aparmaqçün Şuşaya getməliydik. Şuşaya isə yol o zamankı Dağlıq Qarabağ Vilayətinin ərazisindən: ermənilərin yaşadığı Əsgərandan və Xankəndinin yaxınlığından keçirdi. Oralar isə quldurlar, ekstremistlər və cürbəcür həşəratlarla dolu idi. Vilayətdə xüsusi vəziyyət şəraiti elan olunmuşdu. AzTV-nin rəhbərliyi bizə yox demədi, dedilər ki, risk edirsizsə, gedin. Qərara gəldik ki, gedək.

Getdik. Əsgərandan başlayaraq, ta Şuşaya kimi, postlar və postlarda əli avtomatlı rus əsgərləri. Allah qorudu, heç bir hadisə baş vermədi. Dolaylarla qalxdıq Şuşaya. Şuşa büsbütün qar içindəydi. Küçələrdə növbətçi hərbçilər gözə dəyirdi.

Mehmanxanada yerləşdik. İki gün, iki gecə qaldıq Şuşada. Natəvanın evində çəkilişlər apardıq. İncəvara, hər şey qaydasınca gedirdi. Verilişin əvvəlini çəkmək qalırdı: Natəvanın məşhur büstü qarşısında tamaşaçılarla görüşüb məkanı və verilişin mövzusunu müəyyənləşdirməliydik. Yerimizi tutub çəkilişə başlamaq istəyirdik ki, əli avtomatlı bir rus əsgəri yaxınlaşıb: "burda çəkiliş

aparmaq olmaz" – dedi. Atan yaxşı, anan yaxşı – nə qədər dilə tutduq, qılığına girdik, başa saldıq ki, "bura hərbi obyekt deyil, şairənin heykəlidir" – mümkün olmadı. Rejissorumuz Səyavuş Məmmədovun hərbi xidməti Rusiyanın şimalında keçmişdi, onların, görünür, dilin bilirdi; əsgəri kənara çəkib nə dedi, nə demədi, əlini də şinelinin cibinə saldı, gördük ki, əsgər burulub yan küçəyə getdi. İyirmi dəqiqə ərzində biz də işimizi görüb qurtardıq. Sən demə, Səyavuş ona deyibmiş ki: "Брат, даю тебе червонец, двадцать минут погуляй по другой улице. Обещаю ничего не взорвём" (Qaqaş, bir onluq verim sənə, get 20 dəqiqə o biri küçələrdə növbə çək. Qorxma, heç yeri partlatmarıq).

Veriliş vaxtı-vaxtında çıxdı ekrana: pis də alınmamışdı. Amma təəssüf ki, bir müddət sonra AzTV-yə bir müxalifətçini gətirib sədr qoydular, o da rus dilində olan verilişlərin demək olar ki, hamısının, o cümlədən də, "Bayatı" verilişinin lent yazılarını pozdurdu: "Bunları neynirsiz saxlayırsız, biz müstəqil ölkəyik, öz dilimiz var". Çox təəssüf ki, bizdə belə düşüncəli adamlar indi də yox deyil.

Hava işıqlanmışdı. Yol isə getdikcə korlanırdı; maşın adamı atıb-tuturdu. Artıq Füzuli rayonunun ərazisindəydik. Müsafirlər ayılmışdılar. Yolun sağını-solunu seyr etdikcə, adam dəhşətə gəlirdi. Sanki bu torpaqlardan qədim dövrlərin vəhşi qəbilələri, barbarlar keçib getmişdilər; özlərindən sonra salamat bir şey qoymamışdılar; yol boyu böyüklü-kiçikli bütün kəndləri dağıdıb, xarabazara çevirmişdilər; bu mənzərə kilometrlərlə qurtarmaq bilmirdi. Evlər bir yana, təbiətə qəsd etmişdilər. Ekoloji terror göz qabağında idi. Erməni işğalçılarının sağlam düşüncəyə, məntiqə sığmayan vəhşiliyinin nəticələrini öz gözlərinlə görmək çox ağır idi. Maşında: ara-sıra "bu nədi belə?", "vay, vay, vay – ora baxın bir", "bunlar daş-divarla vuruşurmuşlar?", "bu, talançılıqdır, başqa adı yoxdu bunun" replikaları eşidilirdi.


*Füzuli rayonu*

Məndən bir qədər aralı tanınmış teatrşünas-alim Məryəm Əlizadə oturmuşdu, gördüklərindən dəhşətə gəlmişdi; üzünü mənə tutub: "Ay İntiqam, bunlar niyə belə eləyiblər axı? İşğal eləmişdiz, hazır evdi də, girin yaşayın. Xoşunuza gəlmir, genişləndirin, düzəldin. Yenisini tikin. Yaşayın da. Vurub dağıtmaq niyə?". "Xislətləri belədir... – dedim. – Bakılıların belə bir sözü var: ziyanavər. Ziyanavərdilər də...".

Maşın karvanı qəhrəman Azərbaycan əsgərlərinin qanları, canları hesabına düşməndən təmizlədikləri ərazilərlə irəlilədikcə, qarşımızda yaşıl meşələrlə örtülü Qarabağ dağları füsunkar gözəllikləri ilə yüksəlirdi. O dağların 30 ilə yaxındı ki, gözləri yolda idi; bizi – öz doğmalarını gözləyirdilər. Bizdən əvvəl bu dağətəyi yamaclardan nər oğullarımız keçmişdilər. Neçə-neçə gənc cəngavərimizin qanı tökülmüşdü bu torpaqlara. İndi – may ayının bu günəşli günlərində bu yaşıl çəmənlər, gah orda, gah burda topa-topa, hərdən də tək-tək qızaran al qırmızı lalələr o şəhid balaların qanlarının nişanələriydi. Müharibə dəhşətləri Füzuli rayonunda adamı iliyinə qədər sarsıdırdı; yolboyu taləzar çəmənliklər, yüzlərlə, minlərlə uçuq evlər, torpağın sinəsinə dağ kimi çəkilmiş səngərlər, qazmalar, lentlərlə haşiyələnmiş saysız-hesabsız “mina”, “mina”, “mina” xəbərdarlıqları... – Lənətə gəlsin goreşən erməni işğalçıları; quzğunlar!!!

Bir xeyli də getdikdən sonra sürücülər maşınlarımızı yolun sağına verib dayandılar; qarşıda şlaqbaum vardı.



“Niyə dayandıq? Bu nə şlaqbaumdur?!” Müsafirlər maşınlardan yola tökülüşdülər. Bura kiçicik bir hərbi məntəqə idi. Əllərində silah, iri qamətli iki zabit bizə yaxınlaşdı; sifətləri tuncdandı sanki. Amma gözlərində bir işıq, doğmalıq vardı. Bu yerlərin sahibləri kimi çox rahat idilər. Əvvəlcə salamlaşdılar, sonra “xoş gəlmisiz” deyib izah etdilər ki, bir-iki saat dayanıb Rusiyanın sülhməramlılarını gözləməli olacaqsız, saat 10-da onlar gələcək və sizi erməni kəndlərindən keçirib ta Şuşaya qədər ötürəcəklər.

Düzü, bir qədər məyus olduq; qurtarmadı bəs bu erməni əngəli?! Görünür, yox, hələ bir qədər də dözüm və səbr lazım olacaq. Neylək, dözərik; iki yüz ildən artıq dözmüşük, bir az da dözərik. İntəhası, sübh tezdən, özü də bu yolun ortasında; bir stəkan isti çay da yox... bir az çətindir. Amma camaatımız əl-üzlərini yuyub rahatlanandan sonra, telefonlar düşdü işə; “fotosessiyalar” başladı. Bir az da keçdi, milli geyimli gənc bir qız sazını sinəsinə sıxıb gözəl bir mahnı oxudu. Dalınca da birini; Qarabağın havası qızın səsini açmışdı...

Nəhayət, sülhməramlılar gəlib çıxdılar. Protokolla razılaşdırılmış bir sıra prosedur əməliyyatlarından sonra, yola düzəldik; silahla təchiz olunmuş rus hərbi maşınının biri karvanımızın qabağında, biri də arxasında. İstər-istəməz ünvansız bir sual verdim: “Prezidentimiz də sülhməramlıların müşayiəti ilə gedir Şuşaya?”. Sürücü cavab verdi sualıma: “Xeyr, Prezident, Zəfər Yolu ilə gedir; birbaşa. O yol hələ hazır deyil, çox ağır yoldu. Bizim maşınlar orayla gedə bilməz, sınıb qalarıq yarı yolda”. Bu gözəl səfərin bir qanqaraldan məqamını da deyim, – deməyə bilmirəm – ondan sonra hələlik nöqtəsini qoyaq bu söhbətin. Karvanımız ermənilər yaşayan kəndlərin içiylə keçdikcə, yüksəkliklərdə qondarma “Qarabağ Respublikası”nın Ermənistanın bayrağını xatırladan bayraqları görünürdü. Əlbəttə, bu bizi çox qıcıqlandırırdı; “alçaqlığa bax, rusun arxasında tülkü kimi gizlənib bayraq yellədir...”.

...Şuşanın dolaylarını qalxdıqca, ürəyimiz həyəcan hissi ilə çırpınırdı. Oxucu yəqin təsəvvür edər, sevincimizin həddi-hüdudu yox idi. “Xarı bülbül” festivalının başlanmasına lap az qalırdı, maşınlarımızı birbaşa Cıdır düzünə sürdülər.

O gün, mayın 12-də ordakı o möhtəşəm təntənəni Cıdır düzü tarix boyu görməmişdi; nə Cıdır düzü, nə Şuşa, nə də şuşalılar... Təkrarolunmaz, ecazkar təbiətin qoynunda qurulmuş səhnədəki toy-büsatı: Azərbaycanda yaşayan xalqların mahnılarını, rəqslərini seyr edib dinlədikcə hamımızın qəlbi qürur hissi ilə dolurdu. Mən düşünürdüm: biz yaxşı xalqıq, biz gözəl ölkəyik. Həm də dözümlü və polad kimi möhkəmik.



Konsertdən sonra Cıdır düzünün lap kənarına gəlib qayalar üstündən Daşaltına, dərə boyu burula-burula axan Daşaltı çayına baxdıqca adamın gözü qaralırdı. Və dərhal da bu sıldırım qayaları dırmaşıb Şuşanı vəhşi düşmən caynağından qoparıb xilas edən qəhrəman oğullarımızı – 21-ci əsrin qladiatorlarını düşündüm. Bu möhtəşəm çal-çağır onların şərəfinə idi. Ürəyimin çığırtısını eşitdim: “Eşq olsun Şuşanın xilaskarlarına! Eşq olsun!!!”

Sabahı, mayın 13-də Festivalın ikinci günü yenə Cıdır düzündə, yenə həmin səhnədə daha bir möhtəşəm konsert baş tutdu, bu səfər daha çox Qarabağa, Şuşaya, Azərbaycana həsr olunmuş mahnılar, simfonik əsərlər, romanslar, ariyalar ifa edildi. O gün böyük sənətkar Alim Qasımovla qızı Fərqanənin ifasında “Qarabağ şikəstəsi” Cıdır düzünün daşına, torpağına, səmasına həkk olundu. Və biz şərəfsiz erməni quldurlarına şərəflə yaşamağın parlaq nümunəsini göstərdik. Azərbaycanın qürurlu, məğrur Prezidenti, qələbəmizin memarı İlham Əliyevin, Xanımı Mehriban Əliyevanın və övladlarının festivalın hər iki günü xalqla birlikdə şənlənmələri, sevinclərini xalqın sevincinə qatmaları bu bayram şənliklərini daha da rövnəqləndirdi.

Festivalın birinci günü nahardan sonra 4 nəfər səfər yoldaşımla qaldığımız mehmanxanadan şəhəri gəzməyə çıxdıq. “İlahi, bu nə məxluqatdı belə, Şuşanı nə günə salıblar?!”. Salamat bina tək-tük gözə dəyirdi...

Mən Şuşanı tanıyan bir adam kimi qabağa düşmüşdüm. Məni ayaqlarım gətirib vaxtı ilə Mədəniyyət evinin olduğu yerə çıxardı; yox idi Mədəniyyət evi – “qədim mədəniyyəti olan xalq”ın övladları yerli-dibli yox etmişdilər Mədəniyyət evini. Amma burda ürəyimizi açan bir mənzərə ilə qarşılaşdıq; Azərbaycan mədəniyyətinin üç böyük nümayəndəsinin: Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli və Bülbülün vaxtı ilə erməni barbarları tərəfindən güllələnmiş heykəlləri yan-yana, bərpa edilmiş halda sanki bizi salamlayırdılar. Bu, ürəyimizi qürur hissi ilə doldurdu. Qısa müddət ərzində, müharibədən sonra cəmi beş aya yüksək səviyyədə səliqə-sahmana salınmış bu məkan azərbaycanlıların kim olduqlarından xəbər verirdi.

Dühalar qarşısında təzim edib, onların nəzərlərinin tuşlandığı səmtə, düz Bazarbaşı deyilən yerə – Cümə məscidinə tərəf yollandıq. Mən getmirdim, uçurdum elə bil; məscid ilahi qüvvəsi ilə özünə çəkirdi məni.

Cümə məscidi artıq bərpa olunmuşdu, amma içəri keçə bilmədik. Çünki səhərisi gün bayram namazı qılınacaqdı burda – hazırlıq işləri gedirdi; “Xarı bülbül” festivalı müqəddəs Ramazan bayramı gününə təsadüf etmişdi. Əlbəttə, bu elə-belə təsadüf deyildi, təşkilatçılar hər bir şeyi, ən incə məqamları belə, düşünmüşdülər. Xeyli gəzib-dolandıq Şuşanı; əldən düşənə kimi.

Hava yavaş-yavaş qaralırdı; biz də şam yeməyinə getməliydik. Üzümü tanınmış tarzən Zamiqə tutub: “Ustad, indi bunun yoxuşu qalxmağı da var ey...” – dedim. Dedi: “İntiqam müəllim, narahat olmayın, bu saat onu da həll edərəm”. Elə bu vaxt yanımızdan hərbi maşın keçirdi, Zamiq müəllim əl edib saxladı onu. Sürücünün yanında bir zabit oturmuşdu; gördü gələn qonaqlardandır-nədir, yoxsa Zamiqi tanıdı, özü düşüb bizi maşına dəvət etdi və sürücüyə tapşırdı ki, qonaqları dedikləri yerə apar.

Hər şey gözəl idi; qan təzyiqim də yerindəydi, əhvalıma da söz ola bilməzdi. Amma bir arzum hələ də ürəyimdəydi; gedib anamgilin həyətinə baş çəkə bilməmişdim. Düzdü, dediyim kimi, onların evlərindən əsər-əlamət qalmamışdı, uçuqlarının daşlarını da daşımışdılar; son dəfə 1980-ci illərin axırlarında gördüyümə görə, bircə həyətin tən ortasında babamın əkdiyi daşarmud ağacı yerindəydi, onun da şax budaqlarından birinə qonşu öz həyətindən zivə çəkib bağlamışdı – külək mələfələri, balışüzlərini yellədirdi.

Sonralar həmin armud ağacı 90-cı illərdə mən bərk sətəlcəm olanda yuxuma girmişdi...

*...Neçə gün idi qızdırmam düşmürdü; ha dava-dərman eləyirdilər, xeyri olmurdu. Axır, məni birtəhər razı salıb rentgenə apardılar. Həkim: “Sətəlcəmdir, – dedi, – penisilin, bir də sulfakomfakain vurmaq lazımdır”.*

*İkinci iynədən sonra yuxuda gördüm ki, babamın ömrümdə olmadığım, uşaq vaxtı yalnız uçuq divarlarını gördüyüm evində xəstə yatıram, sübh tezdən ayılmışam, bir yüngüllük hiss edirəm canımda; bədənim də bumbuzdur. Əynimdə yataq paltarı, durub pəncərəyə yaxınlaşdım. Hər tərəf süd kimi ağappaq idi; möhkəm qar yağmışdı. Armud ağacı da büsbütün qara bürünmüşdü; ürəyim armud istədi. Yadıma düşdü ki, anam deyərdi: “daşarmudu ilk qar yağanda yığıb yeyərlər; onda şipşirin, həm də sulu olur. Uşaqlıqda biz səhər-səhər gedərdik ağacın altına, görərdik ki, qarda çoxlu çuxurlar var; tökülən dəymiş armudların çuxurlarıydı – əlimizi o çuxurlara salıb*

*yığardıq armudları". Mən də qapını açıb həyətə çıxdım. Anam tez üzünü görmədiyim babamın kürkünü gətirib çiynimə atdı. Armud ağacının altına getdim; həqiqətən də, qarda xeyli çuxur vardı. Əyildim, bir-bir bu çuxurlardakı armudları yığmağa başladım. Elə bu vaxt ayıldım; bumbuz idim. Başımın ağrısı da keçib getmişdi. Canımda bir yüngüllük hiss edirdim.*



Xülasə, proqrama görə Festivalın ikinci günü veriləcək qala-konsertə az qalmış gözdən yayınıb getdim həyətimizi axtarmağa. Yaxınlıqda olmalıydı; Təzə məhəllədə – Cıdır düzündən bir az aşağıda. Çətinliklə tapdım. Çünki həyətlər kol-kos içindəydi, böyürtkanlıq basmışdı həyətləri; kimsəsiz qalanda belə olur. Sağ-sol qonşuların evlərini səmt götürüb həyətimizi təxmin etdim. Məni çətinə salan armud ağacı idi – yox idi. Axır kol-kosun içində kötüyünü tapdım. Görünür, kəsib odun əvəzi yandırıblar. Bir nəslin izi beləcə silinib...

Məyus və kor-peşman qayıtdım Cıdır düzünə.

İlahi, nə yaxşı ki, Şuşa əbədidir, Cıdır düzü də yerindədir; Cıdır düzünün saf, təmiz, məlhəm havasını çəkdim içimə, ciyərdolusu bir nəfəs aldım.

Hamı toplanmışdı artıq; festival iştirakçıları – sənətçilər də, qonaqlar da. Kimlər yox idi burda?! Ölkəmizin sayılan, seçilən ziyalıları: yazıçılar, bəstəkarlar, jurnalistlər, görkəmli musiqiçilər. Bu insanlarla görüşdükcə, hal - əhval tutduqca içimdəki boşluq dolurdu; yavaş-yavaş özümə gəlirdim.

Nəhayət, Prezidentimiz İlham Əliyev ailəsi ilə gəldi və konsert başladı. Bu, çox yüksək səviyyədə hazırlanmış bir konsert idi. Arxa cərgədə oturub ətrafı seyr edə-edə biri-birindən gözəl ifaları dinləyir və düşünürdüm: Bax, bu gün, bu anda, burdakı ifaçılar da, tamaşaçılar da buranın, bu gözəl torpağın əsl sahibləridirlər; necə də rahatdırlar. Hamının üzü gülür, hamı xoşbaxtdır; şuşalılar da, şuşalı olmayanlar da.

Düşünürdüm; hər şey gözəldir, hər şey yerindədir. Amma... Amma bu iki gündə bir şey mənim diqqətimdən yayınmadı; Şuşada bircə uşaq belə gözümə dəymədi. Bu isə o demək idi ki, əsl həyat Şuşaya qayıtmayıb hələ. Düzdür, küçələrdə hərəkət vardı: minik maşınları, yük maşınları, hətta ağır tonnajlı maşınlar nəsə aparır, nəsə daşıyırdılar; şəhərin müxtəlif yerlərində bünövrələr qoyulur, binalar tikilir, bərpa işləri gedirdi. Amma bütün bunlarla bərabər, mənim zənnimcə, Şuşaya dinc həyat uşaqlarla qayıdacaq, uşaqlarla gələcək. Mütləq gələcək. Buna isə bu gün artıq heç kimin şübhəsi yoxdur.

Mayın 12-si və 13-də Cıdır düzündəki "Xarı bülbül" toy-büsatı bizi buna inandırdı.

***Bakı, 22 iyun 2021-ci il***

# ♦ Poeziya



***Fəxrəddin ƏSƏD***

***1***
Susmaq ağac kimi.
Qoy qoparsınlar
qolunu, budağını
pöhrə-pöhrə,
yaşıl-yaşıl.
Heç kim,
heç zaman kəsə bilməz
üsyan edən sükutun
sözünü!

***2***
Sükut röya kimi
adamı ancaq
yaşıllıqlarla dolu küçələrin
xoşbəxt səhərlərinə aparır.

***3***
Dünya
qəfil sükuta dala,
hər şey ilkinliyində ola.
əvvəlkitək təbiət
vəhşi gözəlliyində.
Təkcə quşlar,
təkcə ağaclar
anlasa, könüldən anlar...

***4***

Qar yağır
xumar-xumar, yuxulu-yuxulu,
qaranlıqların sükutu xoflu.
Divar saatı da
susur bu gecə,
ürkək-ürkək, gizlicə-gizlicə
qapım döyüləcək indicə...

* * *

Şər qarışınca
evlərin işıqları
qız yanağıtək
pəncərə şüşəsindən asılır...

* * *

Bədirlənmiş Ay doğdu,
qarşıdakı pəncərədən
havalandı səs:
“nə bu sevda,
nə ayrılıq olaydı?!”

* * *

Məcnun söyüd:
əl dəyməyən,
sığal görməyən saçları dağınıq.
Külək öpə-öpə, oxşaya-oxşaya darayır.
yuvadakı quşcığaz
uçur budaqdan-budağa, yarpaqdan-yarpağa.
sən hara atlandın, dəli könlüm?
bizim uçmağa qanadımız yox!

* * *

Qarışqa azadlığı!
nə gözəl şeydi
gecə-gündüz,
gözdən-könüldən uzaq
yuvaya ruzi daşımaq:
İri ölçülü çəkmələrə rast gələnəcən
Yaşamaq!!!

* * *

Döyürəm qapıları,
döyürəm gecə-gündüz.
bütün qapılar səssiz,
bütün qapılar kimsəsiz.
Yer üzündəkitək
göy üzünün də qapıları cəftəsizdi -
məni yox eşidən!

* * *

Ulduzlar elə bil say çöpləridi
səhər görüləcək işləri
baxa-baxa hesablayırsan.
Sonra xəyalları üstünə gəlirsən,
qayğılara bölürsən.
Qəfil baş qaldıran ağrılar
sənə xatırladır:
ayaqları yorğana görə uzatmalı!
Xəyallar səni qoymaz yatmağa...
gözlərimi ovxalaya-ovxalaya
bir zamanlar mən də cəhd etdim
ulduzları saymağa,
gedib, gedib sonsuzluğa düşdüm.
Qonşu qadının üzünü göyə tutub
sərxoş ərini qarğımağından bilirəm
biz Səma adamıyıq!
demək, Günəşə daha yaxınıq.
Nə qədər yaxın olsaq da,
ağlıma gəlmədi
qış gecələri,
kirayə evlərdə
Günəşi üstümə çəkib yatmaq.

* * *

Ax, o uzaq illər,
əlçatmaz illər
Sizin həyətinizdəki
yelləncəyi xatırladır;
külək əsdikcə yellənən
xaraba evin qapısını...

* * *

Yumruq boyda ürəyin
bitib-tükənmir sualları:
Ay doğanda gecə yarı,
xəyalların qanadları
nədən sarı?!

* * *

Qarışıq yuxular kimidi
böyük şəhərlərin yaddaşı.
günlərin bir günü
adicə əşya kimi,
üzünə gülə-gülə
səni elə unudarlar ki.
Ha səslə, ha harayla:
axı bu, sənsən,-
ay tanıdılar ha!
Küçələrin birində
sözlər də dolaşar dilinin ucunda
yanından ötən xanımdan soruşanda:
-Bağışlayın
bu yuxudan necə çıxmaq olar?!
Payız səmasıtək
tutqun gözlərlə baxar sənə,
bilərsən o da
qarışıq yuxulardan ayılmayıb hələ.
Fəqət, elə çıxıb qaçmaq,
uzaqlaşmaq istəyər ki, -
şəhər yuxularından
hələ heç kimin
ayılmadığını bilə-bilə...

* * *

Kor qadındı,
gümüşü saçları,
ala gözləri vardı.
Tək-tənha yaşayardı,
tayqulaq pişiyi
damlarda siçan tutmaqdan
qır qoxuyardı...
Küçəmizdən keçirəm:
nə evlər əski evlərdi,
nə də damlar qır qoxuyur.

Kor qadın kimi
qoluma girən külək
ürəyimdən keçənləri oxuyur.

* * *

Qranit qaya parçası:
gecə-gündüz küləklər sığal çəkir
bu kələ-kötür daşa.
Köhnə kişilərə oxşayır, -
daha çox,
uzun illər öncə
çiynində oturub qucaqladığım başa...

* * *

Zalımlar,
zalım inşaatçılar,
beləmi tikilir ev?!
Qapım payıza açılır,
Pəncərəm bahara.

* * *

Yanıqlı-yanıqlı oxuyur Bülbül,
Uzaq nöqtələri birləşdirən düz xətt kimi
yaşadığım illər
gəlib keçir gözlərimin qarşısından:
sönür içimdəki hayqırtı...

* * *

Gözlərim yaşaranadək gülürdüm
gecə fanarlarının işığına uçub gələn
işıldaquşların rəqsinə.
İndi də baxdıqca gözlərim yaşarır
dibçəkdəki bənövşəmin
solğun təbəssümünə...

# Nizami Gəncəvi yaradıcılığında astrologiya və astronomiya elmləri

***Artıq üç aydır ki, "Nizami söhbətləri" ədəbi layihəsinə start vermişik. Ədəbi layihədə "Nizami ili" çərçivəsində hər N.Gəncəvi yaradıcılığını dərindən bilən ədəbiyyatşünasla müsahibəmiz dərc olunur. Sonda isə bütün ədəbi söhbətlər bir kitabda toplanacaq.***

***Budəfəki qonağımız, filologiya üzrə fəlsəfə doktoru, dosent Hacı Firudin Qurbansoydur. Firudin müəllimlə söhbət zamanı Nizami Gəncəvinin əsərlərində astronomiya və astrologiya elmləri ilə bağlı məsələləri müzakirə etdik.***

**–Nizami Gəncəvi "Xosrov və Şirin"də yazır ki, "Neçin yer sabitdir, ulduzlar səyyar? Кim ona "get" dedi, buna "tut qərar"?" Bu suala əlavə olaraq sual vermək istəyirəm ki, orta əsrin insanı üçün ulduz elmi nə dərəcədə vacib idi və göy cisimləri onların həyatında hansı rola sahib idi?**

–Əbu Məhəmməd İlyas ibn Yusif ibn ibn Zəki ibn Müəyyəd Şeyx Həkim Nizami Gəncəvi (1141-12.3.1209) bəşər tarixində azsaylı unikal zəka və poetik istedad sahibi ariflərdən biridir. Əsərlərindən elmin əsasları öyrənilən görkəmli alimləri "Badi əz-zəman", – zamanın unikumu, – və ya "Auhəd əz-zəman", – dövrün bir dənəsi adlandırırdılar. Bu adları özündə ehtiva edən şairimizin "Xəmsə"sindəki elmi faktları – Elmlər Akademiyası sistemində mövcud olan və hələ olmayan bütün institutların tədqiq sferasını görürük. Şeyx, çoxsaylı elmi faktları özünün alimlik spektrini nümayişdən ötrü yox, yerli-yerində, hansısa mətləbi daha yaxşı izah etmək üçün söyləyir. Göstərdiyiniz beytdə Şeyx külli-mövcudatın yaradıcısı Allah Təalanın qüdrətini əyani göstərmək məqsədilə buyurur.

Əldə olan faktlar onu göstərir ki, Orta yüzillik insanı çağdaşlarımızdan həm fiziki, həm ruhani, həm də zəka imkanları ilə daha üstündür. Məişət komfortumuz və rabitə kommunikasiyalı texniki vasitələrimizin gündən-günə inkişaf və təkmilləşmədə olan kamilliyi bizi sevinməyi bacarmayan, xoşbəxt olmağı yadırğamış, şübhələr içində boğulan cılız ruhlu özündənmüştəbeh, adamayovuşmaz səviyyəsinə endirib. Ona görə də, Orta yüzil insanını özümüzdən intellekt baxımından geri qalan kimi təsəvvür edirik.

Qədim və Orta yüzil cəmiyyətlərindəki elmi, mənəvi sfera ilahi harmoniya çevrəsindəydi. Dəbistan və mədrəsələrdə bütün elmlər vəhdətdə öyrənilirdi; Ruhani elmlər – Qurani-Kərim, Hədis, Peyğəmbərlər tarixi, – Bədən elmləri – tibb – anatomiya, fiziologiya, xəstəliklər, tədavü vasitələri, əzcazçılıq, cərrahiyyə, – təbiət elmləri – nəbatat, heyvanat, qiymətli daşlar, metallar, – filologiya elmləri – qrammatika, bəlağət, fəsahət, şeir – riyaziyyat elmləri – hesab, cəbr, sirli kvadratlar, həndəsə-mühəndislik, memarlıq, – musiqi elmi – nəzəri, xanən-

də və sazəndə ifaçılığı, – ulduz elmi – astronomiya və astrologiya kimi sahələrindən hər bir öyrənci məlumatlanırdı. Elmlərin bu ahəngdarlığı orta yüzilin kamil insanını ərsəyə gətirdi.

Ulduz elmini bilməklə həm ictimai-siyasi hadisələri proqnozlaşdırmaq, həm də əkinçilik və bağçılıqda yüksək məhsuldarlıq, uğurlu evlənmək, uşaq tərbiyəsinin yönünü tapmaq, səhhət salamatlığına nail olmaq məsələlərini





düzgün həll etmək mümkündür.

**–Bəziləri düşünür ki, Nizami ulduz elminə inanmırdı, sadəcə, bu, onun üçün estetik kateqoriya idi. Bu barədə siz necə düşünürsünüz?**

–Şeyx Nizami Gəncəvi ilk dastanı "Məxzən ül-əsrar"dan – "Sirlər xəzinəsi"ndən – başlayaraq, bütün əsərlərində Ulduz elmi məlumatından gen-bol istifadə edib. "Həft peykər" dastanı isə astronomiya özülü üzərində qurulub. Ulduz elminə böyük marağı və məhəbbəti olan Şeyx, yalançı münəccimləri ifşa etmiş, onları kahinlərə tən tutmuşdu:

***Dəftəre-əflakşünasan besuz!***
***Dideyi-Xurşidpərəstan beduz!***

*Tərcüməsi:*

***Əflakşünasların, – münəccimlərin, – dəftərlərini yandır,***
***Günəşə pərəstiş edənlərin gözlərini kor et.***

Şeyx nücum elmini pərəstiş olunma səviyyəsində göstərmək istəyən "əflakşünas"lara qəzəbini göstərmiş, ancaq həqiqi elm kimi qəbul etdiyi nücuma da bitərəf qalmamışdı.

Əsl astrologiya elmindən məlumatlı olmasını isə Şeyx böyük fəxrlə etiraf edirdi. "Xosrov və Şirin" əsərində Şeyx Nizami Gəncəvi ulduz elmindən yüksək dərəcədə xəbərdar olduğunu belə qələmə alıb:

***Mənəm danestə dər por gari-alim,***
***Be Təfsiro be Nəhv, əsrare-aləm.***
***Həme Zice-Fələk cədvəl be cədvəl,***
***Be Üstürlabe-hikmət kərdəəm həll.***

***Ke porsid əz mən əsrare-Fələkra,***
***Ke məluməş nəkərdəm yek be yekra.***

*Tərcüməsi:*

***Alimlər toplumunun içində bunların bilicisi mənəm:***
***Təfsirdə, Nəhvdə, Dünyanın sirlərində,***
***Fələklərin Zicində, Horoskop cədvəllərini***
***Hikmət Üstürlabında həll edirəm.***
***Kim mənə fələklərin sirləri barədə sual versə,***
***Heç kəsi məlumatsız buraxmaram.***

Şeyx Həkim Nizami Gəncəvi ictimai-siyasi hadisələrin gərginliyinin yaşam nəticəsi kimi infarkt keçirdiyi vaxt "Xosrov və Şirin"də özünün Şir bürcündə dünyaya gəlməsini də xüsusi qeyd edib:

***Fələk dər taleəm Şiri nəmudə əst,***
***Və leykin Şiri-pişminəm, çe sud əst?***

*Tərcüməsi:*

***Fələk taleyimi Şir yaradıbdır,***
***Lakin yundan düzəlmiş şirəm, nə faydası var?***

"Yundan düzəlmiş şir" – deməklə, Şeyx heç bir fiziki gücü olmayan uşaq oyuncağı ilə özünün fiziki durumunu müqayisə edir. Bu halını başqa beytlərdə də söyləyir:

***Mən ke səre-səbziyəm nəmand çuyəd,***
***Lale zərdo bənəfşə sepid.***
***Baz mandəm zena tənu məndi***
***Əz koləh dari və kəmərbəndi.***
***Xedməti mərdovar migərim,***
***Rastira kənun nə an mərdim.***

*Tərcüməsi:*

***Mənim söyüd kimi yaşıllığım gedib,***
***Laləm saralıb, bənövşəm isə ağarıb.***
***Zəiflikdən əldən düşdüm,***
***Papaq qoymaq və kəmər bağlamağa taqətim yoxdur.***
***Mən kişi kimi xidmət edərdim,***
***İndi isə, doğrusu, mən daha o kişi deyiləm.***

Şeyx Nizami Gəncəvinin "qeyb"ə əl uzadan ulduz elminə inanmaz – fərziyyəsini bu elmdən və Qurani-Kərimdən az xəbəri olanlar söyləyə bilər. Bizə elə gəlir ki, proqnozlaşdırmalara münasibət məsələlərində "qeyb" yox, "məchul" sözü yerinə düşür. "Məchul" sözünün kökü "cəhl"dəndir, bilməzlik anlamına gəlir. Allah-Təala gizlində olanı istədiyi vaxt insanlara bəyan edir.

Dindən xəbərsizlər və ya məlumatı az olanlar belə iddia edir ki, astrologiya ilə məşğul olmaq haramdır, çünki qeybi ancaq Allah bilir. Guya, bu barədə danışan adamlar Allaha şərik qoşur. Məsələni aydınlaşdırmaq üçün birinci növbədə "Qeyb" nədir?" – sualına cavab verməliyik.

"Qeyb" göz qabağında olmayan, gizli mənasına gəlir. "Ənam" surəsinin 50, 59, 73-cü ayələrində "Qeybi ancaq Allah bilir" hökmü keçir. Bu hökm 11 "Hud", 123; 18 "Kəhf", 26; 25 "Fürqan", 8; 27 "Nəml", 65; 34 "Səbə", 48; 35 "Fatir", 38; 49 "Hücərat", 18 ayələrində də var.

Qeybə iman barədə 2 "Bəqərə", 3, 33; 6 "Ənam", 59; 10 "Yunis", 20; 16 "Nəhl", 77; 35 "Fatir", 18; 36 "Ya, Sin", 11; 67 "Mülk", 12 ayələri xəbər verir.

Qeybin bilinməsi 31 "Loğman", 34; 72 "Cin", 26-27 ayələrində keçir.

Peyğəmbərlərdən qeybi bilənlər haqqında 6 "Ənam", 50; 72 "Cin", 28 ayələrində məlumat var.

Cinlər qeybi bilməzlər hökmü 34 "Səbə", 14; 72 "Cin", 10 ayələrində əks olunub.

Hər bilinməyən qeybdir – demək düz deyil. Göz qabağında olmayan, ancaq elmi məntiqlə araşdırılıb tapılana qeyb deməzlər. Elmi düşüncə qabiliyyətinə görə insanların hamısı eyni səviyyədə ola bilməz. Eyni dərslikləri oxuyan tələbənin biri alimlərlə mübahisələrə qoşula bilir, digəri isə oxuduqlarından çox az məlumatı xatırlayır. Hər hansı bir məsələnin kiminçünsə asan olan həllinin bir başqası üçün həllolunmaz görünməsi mümkündür. Buradan belə nəticə çıxır ki, kimin üçünsə gizli qalan mətləb bir başqası üçün aydın ola bilər. Deməli, elmi təfəkkürlə kəşf edilə bilənlər qeyb deyil. Müəyyən əlamətlər məcmusunun məntiqi əlaqələndirilməsi elmi qənaətlərə gəlməni təmin edir.

**–Bəs bu dediklərinizi daha aydın başa düşmək üçün Qurani-Kərimin hansı ayələrinə müraciət edə bilərik?**

– 31 "Loğman" surəsinin 34-cü ayəsində buyurulur: بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ
إِنَّ اللَّهَ عِنْدَهُ عِلْمُ السَّاعَةِ وَيُنَزِّلُ الْغَيْثَ وَيَعْلَمُ مَا فِي الْأَرْحَامِ ۖ وَمَا تَدْرِي نَفْسٌ مَاذَا تَكْسِبُ
غَدًا ۖ وَمَا تَدْرِي نَفْسٌ بِأَيِّ أَرْضٍ تَمُوتُ ۚ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

***Tərcüməsi:*** "Həqiqətən, o saatı (qiyamətin qopacağı vaxtı) ancaq Allah bilir. Yağışı göydən O yağdırır, bətnlərdə olanı O bilir. Heç kəs səhər nə kəsb edəcəyini (savab, yaxud günah qazanacağını), heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır!"

Ayədə xüsusi şriftlə nəzərə çatdırılan məqamlar, Qurani-Kərimin nazil olduğu zaman üçün qeyb sayılırdı.

Yüzillər boyu həşəratların, quşların, heyvanların hərəkətinə, ağac və kollardakı yarpaqların durumuna görə, müxtəlif meteoroloji hadisələri baş verməzdən bir neçə saat öncə söyləyiblər, adi müşahidəçilik qabiliyyətilə bu mümkündür. Bunu heç cür qeybi bilmək iddiası ilə Allaha şərik qoşmaq kimi mənalandırmaq olmaz.

Müasir tibbi cihazların ixtirasından qabaq yüzillər boyu əlamətə görə də bətndəkinin qız və ya oğlan olduğunu əvvəlcədən demək mümkün idi. Əgər hamilənin qarnı yuxarı doğru meyillidirsə oğlan, aşağı doğru istiqamətlənirsə qız doğulacağı aydın idi. Bunu oğlanların daha çox mənəvi, qızların isə dünyəvi olması ilə yozurdular. Qadınlar dünyaya və dünya malına daha çox bağlı olur. Heç fikir vermisiz, hətta qaz cihazını yandırandan sonra heç nəyə lazım olmayan qaralmış kibrit çöpünü belə, o dəqiqə atmırlar, bir neçə saniyə saxlayandan sonra tullayırlar... Kişilər isə lazımsızı o dəqiqə özlərindən kənarlaşdırırlar.

Allahın iznilə elm inkişaf edir, onun imkanlarının sərhədləri zaman-zaman genişlənir. Qiyamət gününün vaxtından başqa, demək olar ki, heç nə; yağışın nə vaxt yağacağı, yaxud bətndəkilərin oğlan və ya qız olacağı indi qeyb sayılmır! “Bəs bu necə baş verir?” – Suala başqa bir Quran ayəsi aydınlıq gətirir:

81 “Təkvir” surəsinin 25-ci ayəsində Allah-Təala buyurur:

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

وَمَا هُوَ عَلَى الْغَيْبِ بِضَنِينٍ

***Tərcüməsi:*** “O, qeyb (vəhyi olduğu kimi təbliğ etmək və sizə öyrətmək) barəsində xəsis deyildir.”

Bu ayə insanları daha çox bilməyə, hətta gizlində olanı da öyrənməyə cəhd etməyə çağırır. Bu ayənin hikmətilə, ana bətnində nə olduğunu, indi ginekologiya laboratoriyasındakı kompüter texnikasında nəinki görmək, hətta şəklini, videosunu çəkmək də mümkündür.

Kosmik stansiyaların göndərdiyi görüntülü məlumata görə, istənilən coğrafi ərazi üçün meteoroloji mərkəzlər tərəfindən bir neçə günün hava proqnozu öncədən tərtib olunur.

Hər bir ictimai-siyasi, iqtisadi, tibbi sahənin elmi proqnozlaşdırmaya böyük ehtiyacı var. Bütün elmi kəşflər Allahın böyük lütfilə insana verdiyi imkan sayəsində gerçəkləşir. Bu lütfə görə, iki yüz il öncəki ən fantaziyalı insanın ancaq xəyal edə biləcəkləri indi bizim gündəlik həyatımızın adi gerçəklikləridir. Təyyarə, kino, televiziya, Yer kürəsinin fövqünə çıxan kosmik uçuşlar, mobil rabitə, günü-gündən təkmilləşən kompüter texnikası, internet... ancaq və ancaq elmi proqnozlaşdırmalar hesabına mümkün olmuşdur. Proqnozlaşdırmalar olmazsa, inkişaf yoxdur! İnkişaf yoxdursa, qövm ölümə məhkumdur! İslamın əsl mahiyyətinə zidd “proqnozlaşdırmanın günah olması” kompleksi gündəlik həyatın məişət problemlərinə diqqəti daha çox cəlb edir, fövqəl dövlətlərin İslam dünyasını əsl mahiyyətindən uzaqlaşdırmaq siyasətilə uyğundur.

**–Bəs onda zaman-zaman nə üçün Qiyamət gününü praqnozlaşdırıblar və insanlar dönə-dönə bu yalana inanıblar?**

–Olub belə hadisələr. Məsələn, Bağdad münəccimi Əbu əl-Fəzl Xazini əvvəlcədən, Ay təqvimilə hicri 29 cumada əl-axirə 582-ci, – miladi 16 sentyabr 1196, – ildə, çərşənbə axşamı günü qiyamətin qopacağını İslam aləminə elan etdi. Həmin vaxtda beş səyyarənin Tərəzi bürcündə olacağından nəticə çıxaran münəccim bu qənaətə gəlmişdi. Tərəzi bürcünü o, Qiyamət günü qurulacaq günahları və savabları çəkən tərəzi kimi qəbul etmişdi. Qiyamət gününün nə vaxt olacağı qeyb sahəsinə aiddir, onu ancaq Allah bilir – həqiqətini unudan insanlar Xaziniyə inandılar. Hətta Ənvəri təxəllüslü qüdrətli şair belə, çaşıb həmin günə aid şeir yazdı. Onların əleyhinə danışsalar da, alimləri heç kəs dinləmək istəmirdi. Həyəcandan insanlarda müsəlmana yaraşmayan bədbinlik, sabaha inamsızlıq baş qaldırdı. Heç kəs əməli işlə məşğul olmaq istəmir, hüzn dolu nigaranlıqla bu məşum günü gözləyirdi. Adamlar daha da kasıblayır, yeni ailələr qurulmur, stress ovqatı baş alıb gedirdi. Vəlvələdən yüzlərlə insan dünyasını dəyişirdi. Düzdür, həmin gün qiyamət qopmadı, – ancaq uzaq Maçində Çingiz xan dünyaya gəldi. Qəzəbli insanlar az qala Ənvərini öldürəcəkdilər. Qiyamətin qopacağına dair bu cür tarixi faktlar xristian aləmində daha çoxdur, insanları qorxu içində saxlamaq üçün, çox təəssüf ki, hələ də müəyyən dairələr tərəfindən hər iki-üç ildən bir yalan proqnoz verməklə onu gündəmə gətirilir.

**–Nizami astroloji obrazlardan istifadə etsə də, zəmanəni pisləyərkən yazırdı ki, dövr pisləşib, kişilər qadınlar kimi nücuma inanırlar. Bu ziddiyyəti necə anlayaq?**

–Burada elə də böyük ziddiyyət yoxdur. Kişilər ulduz elmindən fəaliyyətlərini düzgün qurmaq üçün dəsatür kimi, qadınlar isə fəaliyyətsizlikləri müqabilində fal yerində faydalanmışlar. Söhbət fəaliyyətsizliyin erkəkləri qadınxislət etməsindən, bunun da qiyamətin bir əlaməti olduğundan adamları xəbərdar etməkdi.

**–Taleyin quyruqsuz bir ulduz ikən, / Quyruqtək arxaya neçin düşürsən? – Firudin müəllim, bu misraları sırf ulduz elmi baxımından necə anlamalıyıq?**

–Quyruqlu ulduz dedikdə komet nəzərdə tutulur. Çox sürətlə fəzada hərəkət edərkən səthində olan ən yüngül maddələrin mayeyə dönmədən buxarlanması – subblimasiya halı baş verir kometdən ayrılan buxar soyuyub buzlaşır və quyruq kimi görünür. İslam kosmologiyasında bu “zənəb” adlanır. “Zənəb” ərəb sözüdür və quyruq, yəni Quyruqlu ulduz, komet – yunanca tüklü deməkdir, quyruğuna görə belə adlanıb, – deməkdir. İndiyə qədər Günəşin ətrafında dövr edən iyirmi beş min belə ulduz müşahidə edilmişdir. Onlar Günəşə yaxın olduqları zaman buxarlanma daha çox getdiyindən, “quyruqları” daha uzundur. 1943-cü ildə müşahidə edilmiş ən böyük komet “quyruğu”nun uzunluğu 198 milyon km olub.

“Zənəb” sözünə Şeyxin əsərlərində ara-sıra rast gəlirik. “Xosrov və Şirin” dastanında Xosrovun ikinci dəfə təxtə oturması fəslində Şeyx yazır:

***Zənəb Mərrixra mikərdə dər kas,***
***Şodə şeşmi-Zühəl həm xabeyi-Ras.***

*Tərcüməsi:*

***Zənəb, – komet, – Mərrixi, – Mars səyyarəsini, – kasasına salırdı,***
***Zühəlin gözü Rasla başını yastığa bir qoyurdu.***

Mərrix – Mars səyyarəsidir, müharibələri, düşmənliliyi himayə edəndir. Zənəbin – kometin görünməsi təbiətdə, talelərdə kataklizmlərin, aclıq və səfalətin olacağından xəbər verir. Zühəl – Saturn səyyarəsi qara rəngi ilə talesizliklərin himayəçisidir. Ras əl-havva, – ərəbcə, “İlantutanın başı”, – alfa ulduzu, Oxatana nəzərən 23 dərəcə 9 dəqiqə vəziyyətindədir. Ulduz elmində bu ulduzlardan ancaq Rəs əl-havva istifadə olunur, əxlaqsızlığın, pozulmuş zövqün, qadın sayəsində bədbəxt olmağın himayəçisi sayılır. Son 40 ildə dünya miqyasında olan dəyişiklikləri anlamaq üçün təncim elmindən də xəbərdar olmaq lazımdır. Beytdən məqsədi qarışıq, nizamdan çıxan zəmanənin xarakterini göstərməkdir.

***Ze kame-Zənəb zəhri əngixtənd,***
***Məhe-çərxra dər golov rixtənd.***

*Tərcüməsi:*

***Zənəbin ağzından zəhər götürdülər,***
***Göyün sferasındakı Ayın boğazına tökdülər.***

İskəndərin anasına son məktubunu yazması bəhsində şair kometin rəmzi mənasından istifadə edib. Beytin mənası həyatının sona çatması barədə anasını məlumatlandırmaqdı. “Çərx” sözü burada həm göyün sferasını, həm də taleyi mənalandırır.

Göstərdiyiniz beytdən çıxan məna budur ki, sən talesiz olmaya-olmaya, günahların arxasına qoşmaqla, özünü məhv etməyə çalışma.

**–Bənatinnəş – Böyük ayı bürcündə bir-birindən aralı olan yeddi sabit ulduza, Pərvin isə bir-birinə yaxın görünən Ülkər ulduzlarına deyilir. Şəra – parlaq ulduzdur. Əyyuq – kəhkəşanda olan bir ulduzun adıdır. Bu sadaladıqlarım N.Gəncəvi əsərlərində tez-tez xatırlanan ulduzlardandır. Sualım canı budur ki, sizcə, Nizami Gəncəvi nə üçün bu qədər ulduzlara müraciət etməyə, qəhrəmanlarının üstün sifətlərini göylər səltənətindən qidalandığını əks etdirməyə maraqlı idi?**

–“Bənat ün-nəş” Böyük Ayı bürcünün ərəbcə adıdır, “ölünün qızları” deməkdir. Sapılca şəklində düzülmüş bu yeddi ulduzu ərəblər atalarının tabutunun ardınca ağlaya-ağlaya gedən qızlar şəklində təsəvvür etmişlər. Sürəyya bürcündə də yeddi ulduz var. Yeddilərin mənası çoxdur; yeddi səyyarə, yeddi metal, yeddi daş-qaş, həftənin yeddi günü, yeddi iqlim, yeddi əsas musiqi səsi, qövsi-qüzehin yeddi rəngi, Qurani-Kərimin ilk surəsinin yeddi ayə olması, Bu surədə əsasən, yaxşı məna verməyən sözlərin birinci yeddi hərflərin işlənməməsi və s.

Əyyuq ulduzu görünəndə bic doğulmuş uşaqlar ölür anlamı var. Şira Sirius ulduzudur, hökmdarlara məxsusdur.

Şeyx Nizami bəşəriyyətlə kainatı həmahəng görürdü. Bir də, bütün xəlq olunanlar, hətta heyvanlar da göylərdən təhlükə gözləmir. Almaniyada ovçular meşədəki hündür ağacların üstündə iki-üç nəfərlik taxta evcik qurur, burada rahat oturaraq maralın gəlməsini gözləyirlər. Ürkək maral ətrafına göz gəzdirir, təhlükənin olmadığını bilir. Yuxarıdakı ovçular da əziyyət çəkmədən, ağacın yaxınlığına gəlmiş maralı ovlayır.

Çətin anlarında insanlar göyə əl açır...

**–Nəsri-tayir – səmada yanaşı iki işıqlı ulduzun biridir. Ərəblər deyilənə görə İslamdan əvvəl bu ulduza sitayiş ediblər. Nizami Gəncəvinin əsərlərində bu ulduzun adı çəkilir. Sizcə, islama inanan ədib nə üçün sitayiş olunan ulduzu da xatırlayır, əsərində onu müsbət planda yada salır?**

–Ərəblər cahiliyyə dövründə çeşidli səma cismilərinə sitayiş etmişlər. Onlarda Ulduz elmi olmadığı üçün ulduzlarla bağlı bütün məsələləri “münəccim” adlı kahinlər həll edir, kiminə varlıq, kiminə darlıq vədi verirdi. Peyğəmbər (s.ə.s.) söylədiyi hədisi-şəriflərdə “münəccim” deyəndə, ulduz alimlərini deyil, söz yox ki, bütpərəst kahinləri nəzərdə tuturdu.

XV yüzillikdə yaşamış yəmənli alim Əli ibn Mühəmməd əl-Fəxrinin ərəbcə yazdığı “Kitab təlxis əl-bəyan fi zikr firak əhləl-ədyan”, – “Müxtəlif din əhlinin fərqlərini müxtəsər izah edən kitab”, – adlı kitabında ulduzlara sitayiş dinləri barədə də məlumat verir. O, əsərin ikinci hissəsinin 2-6-cı bablarını, – paraqraflarını, – tərcüməsini nəzərinizə çatdırıram:

“Əl bab üs-saniyə fi ibadət uş-Şəms – Günəşə ibadət edənlər, əvvəlki sabiilər, gün ərzində beş dəfə Günəşə ibadətdə olurlar. Onlar Günəşi insani keyfiyyətlərə malik, şəfəq saçan, aşağı mərtəbəli varlıqları yaradan canlı göy

mələyi kimi təsəvvür edirlər. İkiəlli bütləri və Günəş məbədləri (var). Hər gün Günəş bütünə səcdə və dua edərək ondan yardım dilənir. “Ən-Nəml” surəsində adı çəkilən Bilkisin, – Bilqeys-Süleyman peyğəmbərin zövcəsi, – hakimi olduğu Şərqi Yəmən ərəbləri Günəşə ibadət edənlərdir.

Əl bab üs-saləsə fi ibadət əl-Qəmər – Aya ibadət edənlər Ayı bütün aləmin hissə və tamlığını yaradan ən mötəbər mələk hesab edirlər. Elə düşünürlər ki, Ay Günəşin arvadıdır. Büt kimi Buğa surətini seçmişlər. Hər bir ayın birinci yarısında oruc tuturlar. Bütə səcdə etmək ayini belədir: Ay hər dəfə təzə çıxanda evlərin damlarında od qalayıb onun şərəfinə dua edir, iftar açır, musiqi alətlərində çalıb-oxuyur, büt qarşısında rəqs edirlər.

Əl bab ür-rabiə fi-ibadət əz-Zühəl– Saturn səyyarəsinə ibadət edənlər Brəhmənlər taifəsindəndir. Bir sıra hidayət elminin əhli və əksər münəccimlər Saturnu aləmin nizamlayıcısı kimi qəbul edir.

Əl bab ül-xaməsə fi ibadət əz- Zöhrə – Venera səyyarəsinə ibadət edənlər, onu aləmin yaradıcısı kimi təsəvvür edirlər. Zöhhak tərəfindən Sənada tikdirilən Humdan sarayı onların ibadət yeridir. Həmin yeri, Allah ondan razı olsun, xəlifə Osman xaraba qoydu.

Əl bab üs-sadəsə fi ibadət əş-Şira – Sirius ulduzuna ibadət edənlər onu İlah sayır və bu məşhur ulduzun qarşısında təzim edərlər. Cahiliyyə dövründə Xuzaəlilər içərisində Hicaz taifəsinin böyükləri də bu ulduzu müqəddəs sayırdı. Onu da qeyd edək ki, Qurani-Kərimin 53 “Nəcm” surəsinin 49-cu ayəsi elə bu ulduzla bağlıdır. Ayədə Uca Allah buyurur:

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ
وَأَنَّهُ هُوَ رَبُّ الشِّعْرَىٰ

***Tərcüməsi:*** “Və odur Şira ulduzunu yaradan!”

Məhəmmədkərim Ələvi Bakuvi bu ayəni “Kəşf ül-həqayiq”, – Həqiqətlərin kəşfi, – adlı kitabında təfsir edərkən yazırdı: “Şira yıldızı Cövzanın, – Ekizlər bürcünün alfa ulduzu) dalınca tülu edər. Şiradan başqa ona Kəlb ül-Cəbbar, – Zalım it, – də deyirlər. Şira yıldızı ikidir; biri əl-Ğəmisa, digəri əl-Əburdur, hansı ki, Xuzaə cəmaəti ona sitayiş edərdilər. Şirayə sitayiş etməyi Xuzaə cəmaətinin rəislərindən Əbu Kəbşə adlı bir şəxs onlardan ötrü əhadis etdi. Ərəb camaatının hamısı bütpərəst idilər.

Həman Əbu Kəbşə onlardan aralanıb Şira yıldızına sitayiş eylədi. Qureyş camaatı Rəsuli-Xudanı (Peyğəmbərimiz Məhəmməd əleyhis-səlamı) dini-cədid (yeni din) gətirdikdə Əbu Kəbşəyə müqabil tutub İbn Əbu Kəbşə, – Əbu Kəbşənin oğlu deyirdilər.”

“Nizami elmşünas” kitabında qüdrətli alimimiz mərhum Əhmədağa Əhmədov öyrədirdi ki, türk astronomları Şira ulduzunu “Quruq” adlandırıblar. El içində yayın yarı olmasını bu ulduzun görünməsilə təyin edirlər. Buradan “Quruq” sözü təhrif edilərək “Quyruq doğub” ifadəsi yaranıb. Yay yarı olanda bu ulduz səhər sübh vaxtı günəşdən qabaq görünməyə başlayır. Bu uduz çox parlaq olduğu üçün üstü qıllı bir kürəyə, şara oxşayır. Buna görə də, ona “Şira”, –ərəbcə, “tüklü” deməkdir, – adı veriblər. Gördüyümüz ulduzlar içərisində parlaqlıq cəhətindən Şira birinci, – onun ulduz ədəd, – 1,58, Süheyl ikinci, – ulduz ədədi-0,86, – yerdə durur.

Ulduzlara ibadət edənlərlə bağlı yazılanları diqqətlə oxuyanlar gördülər ki, onlara münəccim deyilib. Sonradan bu ad ulduz elmi ilə məşğul olan alimlərə

də verilib. Peyğəmbər əleyhis-səlamın münəccimlərin əleyhinə söylədiyi haqlı iradlar alimlərə deyil, batil inanclara ibadət edən bütpərəstlərə ünvanlanıb. Məlumatı o qədər də çox olmayan adamlar bu məqamda çaşır, belə bir səhv qənaətə gəlir ki, guya Rəsuli-Əkrəm ulduz elmi ilə məşğul olan alimləri məzəmmət edən hədislər söyləyib.

**–Astronomiya barədə üç fərqli fikir var: Birincisi, insana taleyi Allah verir, ikincisi insanın taleyi ulduzlardan asılıdır, üçüncü isə Tanrı ulduzlar vasitəsi ilə insan həyatına təsir edir. Nizami bu üç xətdən hansını daha bariz şəkildə əks etdirirdi?**

–Şeyx Nizamı kainatla insanı həmahənglikdə qəbul etdiyi üçün adamın və kainatın yaradıcısının böyük elmlə yaratdığı fərdlə kosmosu əlaqədə qəbul edir. Göylər bir güzgü kimi insana özünü göstərmək üçündür.

**–"Nə vaxt ki, göylərdən ulduz azalar, mənim də eşqimin qəmi az olar". – "Leyli və Məcnun"da keçən bu misralar sizcə, göydə ulduzların çox olması dünyada dərdin-bəlanın artmasına işarədir, yoxsa?**

–Dediyiniz beyt səhərin açılmasına yaxın müddəti göstərir. Bu vaxt göydə ən parlaq ulduzlar qalır, əksəriyyət isə şəfəqlər içində görünməz olur. Yəni, səhər, sevgilini əyani görməyə şans daha çoxdur.

**–Qürə – bəxt yoxlama məsələsinə Nizaminin münasibəti necə idi?**

–Kişilər, qadınlar və xəstələr üçün ayrı-ayrılıqda 12 taleyin mövcudluğu, ümumi qanunauyğunluğa, İlahi məntiqə əsaslandığını Şeyx Nizami qəbul edir. Bir də, diqqətlə baxılsa, səyyarələrin məntiqi düzümünü fəhm etmək olar.

Bizim Günəş sistemli səyyarələr öz peyklərilə birgə Günəşin ətrafında fırlanır. Səyyarələrin ardıcıllıqla düzülməsində insan ağlının asanlıqla kəşf edə bilmədiyi böyük bir İlahi hikmət, elmi məntiq var. Günəş həyatın, bolluğun, maddiyyatın, hakimiyyətin səyyarəsidir, ona görə də mərkəzdədir, bütün səyyarələr onun başına dolanır. Günəşə ən yaxın səyyarə Merkuridir.

Merkuri ticarət və yazı işlərini himayə edir, başqa sözlə, hakimiyyəti qoruyub saxlamaq üçün həm ticarət, həm də yazı-pozu sistemi mütləq lazımdır. Onun peyki yoxdur, yəni şaha yaxın olanlara ailə mane olur. Onların daimi, sədaqətli dostları da yoxdur, çünki özləri də sədaqətli dost olmağı bacarmırlar.

Merkuridən sonra Venera gəlir, onun da peyki yoxdur. Venera incəsənətin, məhəbbətin, gözəlliyin səyyarəsidir. Başqa sözlə, yeganə məqsədi özünü sevdirmək olan gözəllər, sevməyi bacarmadığından tək qalırlar. Merkuri dövlət qayda-qanunlarını mühafizə etdiyi üçün Veneranın adamları-incəsənət xadimləri onun ətəyinin yanını kəsdirib. Bu hal hər iki tərəfə xeyirlidir, birinci tərəf zövq alır, ikinci tərəf şan-şövkət, mal-dövlət qazanır.

Bizim gözəl Yer kürəmiz Veneradan sonra gəlir. Bir peyki var, adı da Aydır. Ay qadınların orqanizmi və əsəb sistemi ilə daha çox bağlıdır. Xüsusən, Ayın bədr vaxtı qadınların həssaslığı əsəbiliyə keçir. Adəm əleyhissəlamın bir Həvvası və Yer kürəsinin bir peyki olduğundan problemlərsiz, rahat yaşamaq üçün hər kişinin də bir peyki olsa yaxşıdır.

Mars müharibənin, nifrətin, qan-qadanın, ölüm-itimin səyyarəsidir. Marsın iki təbii peyki var, birinin adı Fobos, o birinin adı Deymosdur. Qədim Yunan dilində birinci söz "qorxu", ikinci söz isə "dəhşət" mənasını verir. Bəs necə, müharibəni himayə edən səyyarənin peykləri başqa ad daşıya bilərmi?

Yerin sağında Venera, solunda Mars durur. Sağ tərəf sağalmaq, həyat, sol isə soluxmaq anlamına gəlir. Yəni, Yer sağdan sola nizamlı hərəkətilə göstərir ki, həyatda ölüm-itimlə, müharibələrlə yanaşı səadət, sevgi, gözəllik də var.

Marsdan sonra Yupiterdir, onun 67 peyki var, adına “böyük səadət ulduzu” da deyirlər. Bir obyektin ki, başına dönənləri bu qədər çoxdur, onun nə dərdi, qəmi ola bilər?

Yupiterdən sonra, insanlara xeyli problemlər yaradan Saturn gəlir. Onun 63 peyki var. Hər halda, xeyir həmişə şərdən güclüdür.

Daha sonra uzaq qohumlar; Uran, cəmi 27 peyki var, Neptun 14 peykli və Pliuton 5 peykə malik olaraq özlərinə yer tutmuşlar.

Bütün yaradılışda bir məntiq, yüksək İlahi elm vardır. Ona görə də, Hədisi-Şərifdə deyilir ki, özünü dərk edən Allahını tanıyar.

**–“Leyli və “Məcnun”da “Məcnunun ulduzlara şikayəti” adlı hissə var, orada qəhrəman dərdini ulduzlara danışıb onlardan kömək istəyir, amma həmin hissənin sonunda məlum olur ki, bütün bunların hamısı yuxu imiş. Siz sonluğun belə tamamlanmasını necə mənalandırardınız?**

–İmam Əlidən gəlmə bir hədisdə deyilir ki, İnsanlar nə qədər ki, sağdır, yatmış kimidirlər. Öləndə ayılırlar. Əslində, bu dünya həyatı bir yuxudur, keçicidir – ideyası İslam sferasında vacib postulatlardan biridir.

Heç nə boşuna deyil. Ulduz elmini mükəmməl bilən dahi şairimizin müqəddəs adı səyyarədə bir məntəqəyə və kiçik səyyarə sayılan asteroidə verilib. Yazıçılığın himayədarı Ütarid, Dəbir və ya Merkuri səyyarəsində 71,5 dərəcə şimal enliyində, 165 dərəcə şərq uzunluğunda yerləşən Nizami krateri dahi Azərbaycan şairinin adınadır. 18 noyabr 1997-ci ildən 3770 nömrəli asteroid Nizami adlandırılıb.

**–Nizami Gəncəvi “Xosrov və Şirin”də Allaha xitabən yazır ki, “fələk hərəkəti, yer isə sükunəti ondan aldı”. Bu düşüncə onu deməyə əsas verirmi ki, Nizami Gəncəvi geosentrik qanunu qəbul edirdi?**

–Şeyx Həkim Nizamidən tərcümələr, çox təəssüf ki, tələsik edildiyindən, həm poetik, həm də filoloji çevirmələrdə kifayət qədər çox sapmalar var. Sonradan olunan tərcümələrdə də, rəhmətlik Mircəlal Zəkinin çevirmələri istisna olmaqla, tərifəlayiq heç nə yoxdur. Əslində, dediyiniz beyti Şeyx belə buyurub:

***Çera in sabit əst, an “mənğaleb” nam?***
***Ke qoft inra: “becənəb”, anra “biya ram”?***

*Tərcüməsi:*

***Nədən bunun adı sabit, onunki dəyişkəndir?***
***Kim buna dedi “tərpən”, ona “aram ol”?***

Bürcləri təşkil edən ulduzlar sabitdir, yəni bürcdaxili hərəkəti yoxdur, bütövlükdə bürclə birgə kainatda fələklərdə, – göyün sferalarında, – aramla hərəkətdədir. Səyyarələr isə, öz trayektoriyaları üzrə Günəş ətrafında bürclərlə müqayisədə daha sürətlidir. Gördüyünüz kimi, burada Yer kürəsinə aid heç nə yoxdur.

Şeyx yazıb-yaratdığı zamanlarda Avropada cahiliyyə dövrü idi. Avropanın ən mədəni xalqlarından olan ingilislər XIII yüzillikdən əlifba qəbul ediblər. Yəni, onlar yazı-pozunu təzə öyrənməyə başlayanda, bizim cahanşümul şairimiz dünyaya meydan oxuyurdu. Şeyx Nizami Qurani Kərim hafizi idi, Ulduz elmini də mükəmməl bilirdi. Qurani-Kərim avropalıların Yeri tərpənməz hesab etdiyinə

rəğmən, Yer səyyarəsini hərəkətdə olduğunu anladır. 78 Ən-Nəbə surəsinin 6-cı ayəsi:

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ
أَلَمْ نَجْعَلِ الْأَرْضَ مِهَادًا
(Ələm nəc`ali əl-'arđə mihādən)

Məalı:
Məgər biz Yeri beşik etmədikmi?

Ayədəki "mihadən" sözü yırğalanan beşik mənasındadır. Və ya 27 Ən-Nəml surəsi, 88-ci ayədə buyurulur:
بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ
وَتَرَى الْجِبَالَ تَحْسَبُهَا جَامِدَةً وَهِيَ تَمُرُّ مَرَّ السَّحَابِ صُنْعَ اللَّهِ الَّذِي أَتْقَنَ كُلَّ شَيْءٍ إِنَّهُ خَبِيرٌ بِمَا تَفْعَلُونَ
(va tərá əl-cibālə təĥsabuhā cāmidətən va hiyə təmurru mərrə əs-saĥābi sun`a Əllāhi əl-ləzī 'ətqənə kullə şay'in 'innəhu xabīrun bimā təf`əlūnə)

Məalı:
Dağlara baxıb onları donmuş (hərəkətsiz durmuş) zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu, hər şeyi bacarıqla (yerli-yerində) edən Allahın gördüyü işdir. Həqiqətən, O, etdiyiniz (bütün) əməllərdən xəbərdardır! (Məal mərhum akademiklər Z.Bünyadov və V.Məmmədəliyevindir)

Yerin fırlanmasıyla bağlı göstərilən ayələr çox böyük elmi dəqiqliklə, həm də poetik təfəkkürün qavraya biləcəyi şəkildə deyilən Allah kəlamıdır.

**–"Cəhət onun altı tağının çiynində saxlayır, fələyin qulağı doqquz həlqəni O salmışdır". Bu misralar Nizami Gəncəviyə aiddir. O zamanın göyə ucalmamış insanı üçün, altı tağ, doqquz həlqə nəyi ifadə edirdi. Bu Tanrının rakursunu görən insanın sözləri idimi, yoxsa?**

–Altı cəhət var; Şərq, Qərb, Şimal, Cənub, Aşağı və Yuxarı. Doqquz fələk; göyün sferaları mövcuddur, bunların yeddisində səyyarə və bürclər yerləşir. Fələklər insan taleyilə bağlıdır və səyyarələrin hərəkətinin əksinə dövr edir. Ona görə də, talesizlər ürək yanğısıyla "kəcrəv fələk" – yəni, əyri gedən fələk – deyirlər.

Qədim zamanlar və Orta əsrlərdə yaranmış astronomiyaya aid əsərlərdə səyyarə və bürclərin parametrləri çox dəqiqliklə göstərilib. Çağdaş astronomik ölçülərdən cüzi fərqləri var. Rəsəd cihazlarından başqa, kosmosu triqonometriya və həndəsənin köməyilə tədqiq ediblər. Kosmonavtika elmi olmadan da, göyün fövqünə yüksəlmək mümkündü. Sakral dini rituallar və Səma rəqsi bu şəraiti yarada bilir. İnsanın ruhu Yer kürəsinin öz oxu ətrafında fırlanma sürətinə kökləndiyi üçün biz Yerin dövr etməsini hiss etmirik. Səmazən dərvişlər dairəvi dönmələri icra edərkən, bu köklənmədən artıq sürət yarandığı üçün ruhları bədəndən çıxıb kosmosa uçur. Yeddi səmazənin hər biri bir səyyarəni rəmzləşdirir və oraya da yönəlir. Bu vaxt kainatda müxtəlif səma cisimlərinin hərəkətindən alınan əsrarəngiz musiqi səsləri eşidilir. Mərkəzi səyyarə Günəş – Şəms, – sayılır. "Səmayi-Şəms" zərbi-muğamı elə səmazən dərvişlərin kainatda eşidib onu musiqi alətləriylə ifa etdiklərinə görə yaranıb. Muğamlarımızın hamısı bu sakral ritualların nəticəsində meydana gəlib. Türkiyə Cümhuriyyətində bu sakral rəqsi, çox təəssüf ki, konsert şəklində də icra edirlər.

Burada, adi konsertdən Səma rəqsi tamaşaçıların alqışları yasaq olunmasıyla fərqlənir.

Allahı nə əyani, nə də yuxuda görmək olmaz. Qurani-Kərimdə 7 əl-Əraf surəsi 143-cü ayədə “Lən tərani” – Məni görə bilməzsən – xitabını Allah-Təala onu görmək istəyən Musa Peyğənbərə (s.ə.s.) edib. Odur ki, Allah Təalanı heç bir rakursdan görmək olmaz, Sadəcə, Onun yaratdıqlarının geniş və müxtəlif sferasını öyrənməklə Allahımızın izniylə, ali elmiylə xəlqetmə qüdrətindən kiçicik zərrəni fəhm etmək olar. Şeyx Nizami də elə bunları deyir.

**–Nizami Gəncəviyə görə, cismi fırlatmasan, o, fırlanan cisim də olsa, hərəkət eləməz. Yer fırlanırsa, deməli, onu Allah hərəkətə gətirir. Nyuton da o düşüncədə idi ki, dünyanı “ilk təkan” hərəkətə gətirib. Sizcə, dini və elmi düşüncənin bir-birini bu dərəcədə tamamlaması təsadüfü ola bilərmi?**

–Dini elmdən ayıranda fanatizm, elmi dindən ayıranda ateizm yaranır. Bunların hər ikisindən bəşəriyyət üçün davamlı şəkildə böyük fəlakətlər törəyir.

**–Nizami Gəncəvi Peyğəmbərin meracı hissələrində səmanı o qədər aydın təsvir edir ki, rəmzi mənada deyirəm, sanki, peyğəmbərlə birgə oxucunu da səyahətə aparır. Nizami Gəncəvinin merac barədəki düşüncələri şərh etsəniz, oxucularımız üçün çox maralı olardı...**

–Ulduz elmi Orta yüzil harmonik bilik sistemində öyrənilməsi mütləq olan sahəydi. Bu, həm dənizdə və səhrada düzgün istiqamətin tapılmasından, həm də fərdi tale cədvəllərinin qurululmasından ötrü hamıya gərəkli idi. Ulduzların bürclərdəki düzüm şəkli və səyyarələrin hərəkət trayektoriyası triqanometrik təxəyyülü daha güclü olan insanlarda əyani qavranır. Şeyxin bu sahədə öyrəndiyi biliklərin belə əyani olması, onun zəka və təxayülünün ənginliyindən xəbər verir.

**–Klassik ədəbiyyatda “atalar” fələklər, “Analar” yer və onun qatları sayılır. Sizcə bu bölgü nəyə əsaslanır?**

–Klassik ədəbiyyat islam düşüncə tərzi özülündə yaranıb inkişaf etdiyi üçün belə bir təqsim yoxdur və ola da bilməz. İslamaqədərki ibtidai “dini” batil inanclara görə, nəyinsə dünyaya gəlməsi üçün iki qüvvə; erkək və dişi lazımdır, göylər yuxarıda olduğundan ata, yer isə aşağıda qaldığı üçün ana kimi təqdim edilirdi. Göydən yağış yağmasa, yer yaşıllığı doğub artırmaz. – deyirdilər. Təəccüb hissilə deyim ki, elmə dəxli olmayan bu müddəalar bir sıra tədqiqlərdə öz əksini tapıb, kitablarda yazılıb. Azsavadlı müəllimlərdən eşitdikləri cəfəngiyatı, çox təəssüf olsun ki, tələbələr fakt kimi yadda saxlayır, xarab telefon oyunu effektilə ötürə-ötürə gəlirlər.

**–Peyğəmbər meraca gedib qayıdanda görür ki, yatağı soyumayıb, yaxud əsası ilişib dağılan qabdan hələ su axır. Yəni meracda zaman başqadır, o zaman qısadır, uzundur, amma real zaman isə uzundur. Nizami Gəncəvinin zaman fəlsəfəsi isə qısadır. Nizaminin yaradıcılığında zamanın şərtiliyinə işarələr varmı?**

–Allah Təala Qurani-Kərimin 17 əl-İsra surəsinin 1-ci və 53 ən-Nəcm surəsinin 6-18-ci ayələrində merac Peyğənbərimizin möcüzələrindən biri kimi təqdim edir.Bu hadisə Hicri təqvimin tətbiqindən, yəni 622-ci ildən öncə baş verib. Miladi təqvimlə 619-cu ildə, Peyğənbərlik verilmə ilinin 10 ramazanında Peyğənbərimizin (s.ə.s.) zövcəsi Xədiceyi-Kübra vəfat etdi. Xatırladaq ki, bu hüzn Rəsul-Allahın (s.ə.s.) əmisi və qoruyucusu Əbu Talibin vəfatının üçüncü günündə baş verdi. Dünyadakı əsas dayaqlarını itirən Peyğənbərimiz (s.ə.s.)

ətrafdakı dinsizlərin yüngül deyilərsə, qaba hərəkətlərilə rastlaşır, səbir və dözümlə ən mənhus münasibətlərə dözməli olurdu. Fikrini dağıtmaq üçün tez-tez qohum-əqrəba ilə görüşürdü. Xədicənin vəfatından bir həftə sonra, 17 ramazanda əmisi Əbu Talibin qızı Ümmi-Haninin evində qonaq ikən gecəyarısı Allahın vəhy mələyi Cənab Cəbrayıl (ə.s.) Peyğənbərimizi (s.ə.s.) çox şərəfli merac səfərinə dəvət və bələdçilik etdi. Çox təəssüf ki, bir sıra hədis kitablarında meracla bağlı hadisələr Aişədən alındığı söylənir, halbuki o vaxt uşaq olan Aişə Peyğəmbərimizin (s.ə.s.) zövcəsi deyildi, qayıdanda yerinin hələ soyumadığını da bilə bilməzdi.

Merac hadisəsi, doğurdan da, böyük möcüzədir. Saniyədə 300 000 km, saatda 1,08 milyard km olan İşıq sürətilə müşayiət olunan merac hadisəsi, Günəş işığının Yerə 8 dəqiqə 17 saniyədə düşməsi hesabıyla, təxminən yarım saat ərzində başa çatdığı ehtimalını yaradır.

Yer kürəsi Günəşdən aralı Merkuri və Veneradan sonra üçüncü səyyatə olduğundan, burada həyatı təmin etmək üçün en, uzunluq və hündürlük üçölçülü sistemi və Yerin cazibə qüvvəsi əsasdır. Kainatda insan ağlı kəsməyən çoxsaylı ölçü sistemləri mövcuddur.

Sürət zaman və məkanın nisbətindən yaranır. Orta məktəbdə tədris olunan ibtidai fizika kursundan bilirik ki, V – sürət bərabərdir S – məkan bölünsün T – zaman. Bizə zaman və ya məkan ölçüsü lazım gəldikdə, bu düsturun çevrilməsini tətbiq edirik. İşıq sürəti kimi böyük sürətdə, Yerdə adət etdiyimiz zaman dayanmış kimi görünür. Son yüz ildə yaranıb inkişaf etmiş Kvant fizikası insan təxəyyülündə düşünmək üçün, klassik ədəbiyyatımızın adi məntiqlə anlaşılmayan sirlərindəki gerçəkliyi, dini qaynaqların həqiqətini dərk etməkdən ötrü çox geniş üfüqlər açır.

**–Şeyx Nizaminin dövründə hələ Uran, Neptun, Platon planetləri kəşf olunmamışdı. Ən uzaq planet Zühəl (Saturn) hesab olunurdu. Şərq klassikləri və Nizami başqa planetlərin mövcudluğunu ehtimal edirdilərmi, yoxsa öz dövrlərinin elmlərdən əldə etdikləri biliklərlə kifayətlənirdilər?**

–Peyğəmbərimizin (s.ə.s.) elm haqqındakı hədislərinin birində deyilir:

اطلبوا العلم من المهد الى اللحد

yəni, “beşikdən məzaradək elm tələbində olun”. Bu hədis bir vaxtlar İsmaliyyə binasının üzərində başqa hədis və Quran ayələri ilə birgə qızılla həkk olunmuşdu, söküb yerlərində beşguşəli ulduzlar mozaikası yerləşdirdilər.

Yeddi səyyarənin mövcudluğu Tövratın birinci kitabında (11:4), Babil qülləsinin bu səyyarələrə görə qurulduğunu qeyd edir. Qurani Kərim sonuncu səmavi kitab olmaq etibarıyla təhrif olunmamış şəkildədir. Ona görə də buradakı elmi istinadlar da daha dürüstdir.

Qurani-Kərimin 12 Yusif surəsinin 4-üncü ayəsində buyurulur:

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ
إِذْ قَالَ يُوسُفُ لِأَبِيهِ يَا أَبَتِ إِنِّي رَأَيْتُ أَحَدَ عَشَرَ كَوْكَبًا وَالشَّمْسَ وَالْقَمَرَ رَأَيْتُهُمْ لِي سَاجِدِينَ

('İz qālə Yūsufu li'abīhi ya 'əbati 'innī ra'aytu 'əĥədə `Əşərə kaukabaən va əş-Şəmsə va əl-Qəmərə ra'aytuhum lī sācidīnə)

Məalı:

Bir zaman Yusif atasına demişdir: "Atacan! Mən (yuxuda) on bir ulduz və Günəşlə ayı gördüm. Gördüm ki, onlar mənə səcdə (tə'zim) edirlər. (Məal mərhum akademiklər Z.Bünyadov və V.Məmədəliyevindir)

Surənin nömrəsinin 12 olduğu, eyni zamanda 11 qardaşı ilə Yusif Peyğəmbərin (s.ə.s.) özü Günəş sistemindəki 12 səyyarəni rəmzləşdirir. Daha sonralar kəşf edilən səyyarələrin 7 yox, 12 olduğu ehtimalı yarandı, bu da Qurani-Kərimdəki Allah elminin təsdiqini etməklə, Ulduz elminin inkişafında mühüm rol oynadı. Bənzərsizlik, azadlıq və inqilabları rəmzləşdirən Uran səyyarəsi Uilyam Herşel tərəfindən 1781-ci ildə kəşf olunub. Uranın Titaniya, Oberon, Umbriel, Miranda və s. kimi 27 peyki var.

Xəyalpərəstliyi, gözaldatmalarını, ruhaniyyat çevrəsini rəmzləşdirən Neptun səyyarəsinin Triton kimi 14 peyki qeydə alınıb. Çevrilmələri, dirçəlişi, hakimiyyəti rəmzləşdirən cırtdan Pluton səyyarəsinin Nikta, Hedra, Kerber və Stiks kimi peyklərinin olduğu məlumdur. Peykləri olan Charon, Makemake, Haumea, Ens cırtdan səyyarələri, asteroidlər də Günəş sisteminə daxildir. Serera (Ceres) , Pallada (Pallas), Yunona (Juno),Vesta kimi asteroidlər 1808 – 1845-ci illər arasında səyyarə sayılıb. 2006-cı ildə Günəş sistemində XII səyyarə kimi Sereranın təqdim edilməsi Beynəlxalq Astranomiya İttifaqı tərəfindən rədd edildi. Göründüyü kimi, Ulduz elminin hüdudları yoxdur. Ən yeni müşahidə cihazları, Aya, Marsa, Veneraya yönəli kosmik aparatlarının verdiyi informasiyalar ildən-ilə yeniləşməkdə davam edir. Şeyx Həkim Nizami Gəncəvi sonuncu əsəri “İqbalnamə”də elə bu səyyarələrin varlığından xəbər verərək buyururdu:

***Şənidəstəm ke, hər kovkəb cəhan əst,***
***Cüdaganə zəmino asiman əst.***

*Tərcüməsi:*

***Eşitmişəm ki, hər ulduz bir dünyadır,***
***Ayrıca yeri və göyü var.***

**–“Leyli və “Məcnun”da “Məcnunun ulduzlara şikayəti” adlı hissə var, orada qəhrəman dərdini ulduzlara danışıb onlardan kömək istəyir, amma həmin hissənin sonunda məlum olur ki, bütün bunların hamısı yuxu imiş. Siz sonluğun belə tamamlanmasını necə mənalandırardınız?**

–İmam Əlidən gəlmə bir hədisdə deyilir ki, İnsanlar nə qədər ki, sağdır, yatmış kimidirlər. Öləndə ayılırlar. Əslində, bu dünya həyatı bir yuxudur, keçicidir – ideyası İslam sferasında vacib postulatlardan biridir.

Heç nə boşuna deyil. Ulduz elmini mükəmməl bilən dahi şairimizin müqəddəs adı səyyarədə bir məntəqəyə və kiçik səyyarə sayılan asteraodə verilib. Yazıçılığın himayədarı Ütarid, Dəbir və ya Merkuri səyyarəsində 71,5 dərəcə şimal enliyində, 165 dərəcə şərq uzunluğunda yerləşən Nizami krateri dahi Azərbaycan şairinin adınadır. 18 noyabr 1997-ci ildən 3770 nömrəli asteroid Nizami adlandırılıb.

**–Bəhram şah “Yeddi gözəl”də yeddi qız hərəsi bir planeti simvolizə edir, sizcə, bu şahın göylərin əsarətində olması demək deyilmi?**

–Mən buna əsarət yox, həmahənglik deyərdim. Həmahənglik, – harmoniya, – Musiqi elminin terminidir, ona görə də, səyyarə və bürclərlə muğamlarımızın əlaqəsinə də toxunmaq istəyirəm.

“Həft Peykər” Yeddi gözəl, yaxud Yeddi səyyarə kimi tərcümə oluna bilər. Əsərin başqa bir adı “Bəhramnamə”dir. Sasani hökmdarı V Bəhram yeddi iqlimdən gələn ən gözəl şahzadələrlə evlənir. Yeddi səyyarəyə uyğun onların öz rəngində və həftənin günlərinə uyğun olaraq Bəhram günlərini tikdirdiyi bu yeddi sarayda keçirir. Yenə gözü doymur, fikri gur ovlamağın yanında olur, elə gura görə də gora gedir.

Ölkələrin 7 iqlimə, karşvar, – bölünmə ənənəsi Avestadan gəlir:

1. AREZAXİ – Şərq
2. SAVAXİ – Qərb
3. FRADADAFŞU – Şimali-Şərq
4. VİDADAFŞU – Şimali-Qərb
5. VORUBAREŞTİ – Cənubi Şərq
6. VORUCAREŞTİ – Cənubi-Qərb
7. XVANİRATA – Dünyanın mərkəzi hissəsi, əhalinin xoşnişinliyi məkanı kimi Azərbaycan tanınırdı.

**–Onda belə çıxır ki, muğamlarımızın 7 iqlim üzrə təsbiti də bu məqamla əlaqəlidir?**

–Gəl sən dediyin məqamın – muğamla təbiətin vəhdətinə baxaq:

BİRİNCİ İQLİM – Sərəndib, Sumnat, Sahele-Bəhrxənd, Həbaşe, Zəngibar, Sənaə, Ədən, Əmman. Bu iqlimə müvafiq muğam Zirəfkəndi - Kuçek və Səfihandır. Qədimlərdə isə belə hesab olunurdu ki, Zəngulə bu iqlimə daha çox uyğundur.

İKİNCİ İQLİM – Məkkə, Mədinə, Taif, İmamə, Katif, Hisar, Kasabe, Hazvalə, Mekran, Çin, Hürmüz. Bu iqlimə müvafiq muğam Hüseynidir. Qədimlərdə isə belə hesab olunurdu ki, Zirəfkəndi – Büzürg bu iqlimə daha çox uyğundur.

ÜÇÜNCÜ İQLİM – Beytül – Müqəddəs, Kəssatin, Qazlan, Qaziyyə, Təbəriyyə, Tərais, Dəməşq, Kirvan, İskəndəriyyə, Misir, Domyat, Əsğər, Bağdad, Bəsrə, Firuzabad, Şiraz, Yəzd, İsfəfan, Şəhrezur,Tun, Tabase-Kilak, Miya, Sircan, Makinabad, Urkənc, Multan. Bu iqlimə müvafiq muğam Əbu Salik və Rəhavidır. Qədimlərdə isə belə hesab olunurdu ki, Əraq və Hicaz bu iqlimə daha çox uyğundur.

DÖRDÜNCÜ İQLİM – Malatiyyə, Antakiya, Olsib, Tarsus, Bəlbek, Azərbaycan, Hərran, Rake, Nardin, Ane, Mosul, Ərdəbil, Səncər, Ərcis, Səlmas, Xoy, Mərənd, Naxçıvan, Təbriz, Marağa, Həmədan, Kuruh, Savə, Qəzvin, Abə, Qum, Kaşan, Rey, Xarəzm, Əlamut, Talkan, Dilman, Amul, Sari, Astrabad, Semnan, Damqan, Bistam, Səbzevar, Əsfərin, Nişapur, Tus, Turşiz, Tun, Herat, Sərəxs, Faryab, Bəlx, Qabadiyan, Talkan, Bədəxşan, Kəşmir. Bu iqlimə müvafiq muğam Əraq və Zirəfkəndi-Büzürgdür. Qədimlərdə isə belə hesab olunurdu ki, Hüseyni və Rəhavi bu iqlimə daha çox uyğundur.

BEŞİNCİ İQLİM – Rumiyyeyi – Kubra, Makid, Nisa, Omudiyyə, Kuniyyə, Qəysəriyyə, Sivas, Ərzan-ər-Rum, Samat, Əflat, Alan, Muğan, Bərdə, Camkur (Şəmkir), Mahmudabad, Beyləqan, Bakı, Şirvan, Şamaxı, Rus, Xarəzm, Kurkənd, Daran, Buxara, Səmərqənd, Nasaf, Keş, Xocənd,. Bu iqlimə müvafiq muğam Nəva və Hicazdır. Qədimlərdə isə belə hesab olunurdu ki, Əbu Salik və Sifahan bu iqlimə daha çox uyğundur.

ALTINCI İQLİM – Qustantiniyyə (İstanbul), Alan, Bulqar, Taraz, Qaşqar, Almane, Xabalnə, Beşbalık, Qarakarum. Bu iqlimə müvafiq muğam Rastdır. Qədimlərdə isə belə hesab olunurdu ki, Zirəfkənd bu iqlimə daha çox uyğundur.

YEDDİNCİ İQLİM – Başqurd, Burcan, Bulqar, Şuşit, Saklab, Mişka, Vazank, Visu, Yəcuc və Məcuc, Yura, Batin-ər-Rum, Bacana, Vatirburuna. Bu iqlimə müvafiq muğam Nəvadır. Qədimlərdə isə belə hesab olunurdu ki, Kuçek bu iqlimə daha çox uyğundur.

On iki (dəvazdəh) muğamımız qismən bəsit olan Orta Asiya xalqları musiqisində tam halını mühafizə edə bilməyib tən yarısını itirərək "Şeş makom" (altı muğam) şəklinə düşdü.

**–Söhbətimiz musiqiyə yön alır. Amma yenə də soruşum: Musiqi alətindəki səslər səyyarə və pərdələrin adları ilə hansı prinsiplə adlanıb?**

–Söhbətimizə qayıdacağıq. Amma yenə də deyim. Prinsip belə idi:

| Səs | Səyyarə | Muğam |
|---|---|---|
| mi | Ay | Nəva |
| fa | Merkuri (Ütarid) | Əbu Salik |
| sol | Venera (Zöhrə) | Rast |
| lya | Günəş | Əraq |
| si | Mars (Mərrix) | Üşşaq |
| do | Yupiter (Müştəri) | Zirəfkənd |
| re | Saturn (Zühəl) | Rəhavi (Rahab) |

Muğamlarımızın müxtəlif zaman kəsiyindəki ovqatlar və məzaclarla həmahəngliyi də musiqi alimlərimizin nəzərindən qaçmayıb.

**–Azərbaycan muğamlarının bürclər üzrə təsnifatıdamı belədir, yoxsa orda prinsip dəyişir?**

–Bizim muğamlardakı təsnifat belə qruplaşdırılıb:

1. Qoç – Üşşaq,
2. Buğa – Hüseyni,
3. Ekizlər – Rast,
4. Xərçəng – Əbu Salik,
5. Şir– Rəhavi,
6. Qız – Nəva,
7. Tərəzi – Büzürg,
8. Əqrəb – Sifahan,
9. Oxatan – Əraq,
10. Oğlaq – Zəngulə,
11. Dolça – Hicaz,
12. Balıqlar – Kuçek.

**–Azərbaycan muğamları temporitmləri və insana təsirinə görə müxtəlifdirlər. Onların ünvanlandıqları auditoriyalar da fərqlidirmi?**

–Onlardan hansının kimə daha xoş gəldiyini də musiqi risalələri yazan alimlərimiz müəyyənləşdirmişlər. Onların qənaətinə görə,

1. Rast – türklər üçün,
2. Yegah – hərbçilər üçün,
3. Çahargah – hindlilər üçün,
4. Hüseyni – sultanlar və məliklər üçün,

5. Dügah – qadınlar üçün,
6. Novruz – rumlular üçün,
7. Müxalif – xorasanlılar üçün,
8-9. Üzzal və Çahargah – cavanlar üçün,
10-11. Pəncgah və Nişaburək – qırmızısifətlər üçün,
12. Üşşaq – ağsifətlər üçün,
13. Nəva – Əmir və xanımlar üçün,
14. Segah – yaşlılar üçün,
15. Hicaz – təlxək və zarafatcıllar üçün,
16-17. Zəngulə və Neyrizə – cahıllar üçün,
18. Sifəhan – şeyxlər və zahidlər üçün,
19. Zirəfkənd – kəndlilər üçün,
20.Kuçek - əsgərlər üçün,
21. Əraq – nücəba və vəzirlər üçün,
22. Büzürg – alimlər və hüquqçular üçün,
23. Rəhavi – yazarlar üçün,
24. Əbu Salik – mühəndis və tələbələr üçündür.

**–Bəs insanlarda aşıladığı hiss və duyğular baxımından təsnifatlar necədir?**

–Azərbaycan muğamlarının yaratdığı təsir belədir:
1. Üşşaq – nəfsi sağlamlaşdırır,
2. Hüseyni – anlama qabiliyyətini artırır,
3. Rast – şücaəti gücləndirir,
4. Əbu Salik – şəhvəti yatırır,
5. Rəhavi – mərdliyi möhkəmləndirir,
6. Nəva – hafizəni gücləndirir,
7. Büzürg – bədəni sağlam edir,
8. Sifahan – zəifliyi və xəstəliyi aradan götürür,
9. Əraq – adamı namazqılan edir,
10. Zəngulə – adamı şair edir,
11. Hicaz – adamı Allahıtanıyan edir,
12. Kuçek – adamı rəhmli, ürəyiyumşaq edir.

**–Azərbaycan muğamlarının hansı canlının səsinə müqabil gəlməsi də maraqlı məsələlərdəndir:**

–Bəli, bu çox maraqlı bölgüdür:
1. Kuçek – südəmər uşaq,
2. Rast – fil,
3. Sifahan – öküz,
4. Əraq – inək,
5. Hicaz – uzunqulaq,
6. Hüseyni – at,
7. Rəhavi – ağ qarğa,
8. Üşşaq – xoruz,
9. Əbu Salik – şir nərəsi,
10. Zəngulə – dəvənin ayağındakı zınqırov,
11. Nəva – bülbül,
12. Büzürg – durna.

Əbu Reyhan Biruninin “Hindistan” əsərində il hesablanması ilə bağlı yazdığına görə, təqvim sabitləşənədək Zərdüşt aylarının hamısı 30 gün idi, ilin

365 gün olduğunu nəzərə alaraq, Novruzdan əvvəl ilin sonuna 5 gün əlavə edirdilər, bu günlərə “oğurlanmış günlər” deyirdilər. Azərbaycan muğamlarının fəsillər üzrə təsnifatı belədir:

1. YAZ – Maye, Üşşaq, Nəva, Mahur, Hüseyni, Rəhavi, Rəkəb,
2. YAY – Çargah, Üzzal, Segah, Neyriz, Bayat,
3. PAYIZ – Zirəfkənd, Bəstənigar, Humayun, Bayat,
4. QIŞ – Gərdaniyyə, Mühəyyər, Mahur, Mübərriqə, Müxalif, Övc,
5. XƏMSEYİ – MÜSTƏRİQƏ (Novruzdan qabaq 5 gün) – Zabul, Segah, Pəncgah, Rast, Neyriz.

Azərbaycan muğamlarının gün ərzində ifa zamanları da musiqi risalələrində öz əksini tapmışdır:

1. GÜNƏŞİN ÇIXDIĞI ZAMAN – Üşşaq, Zabul, Övc, Rəhavi, Novruzi-Ərəb
2. SƏHƏR AÇILANDA – Əraq, Hüseyni, Mahur, Gərdaniyyə
3. GÜNORTAYA QƏDƏR – Hicaz, Nəhoft, Humayun
4. GÜNORTA VAXTI – Segah, Məğlub, Gərdaniyyə
5. İKİ NAMAZ ARASI – Neyriz, Nişaburək, Çahargah, Hicaz, Kuçek
6. ƏSR VAXTI – Rəhavi, Bəstənigar, Şahnaz
7. ŞAM VAXTI – Üşşaq, Övc, Zabul
8. XİFTƏN VAXTI – Əbu Salik, Şahnaz, Səlmək, Rəkəb, Bayatı
9. GECƏ NAMAZI VAXTI – Şahnaz, Zəngulə, Hicaz,
10. GECƏYARISI – Büzürg, Rəhavi,
11. SÜBH VAXTI – Rast, Pəncgah.

Bundan əlavə, Azərbaycan muğamlarının səyyarələr üzrə təyinatı və həftənin hansı gününə uyğun gəlməsi belədir:

1. ŞƏMS (Günəş) həyatın başlanğıcını, ata, kişi qohumları, ictimai vəziyyəti göstərir. BAZAR gününün səhəri – Hüseyni, gecəsi – Əbu Salik və Rəhavi muğamları ifa edilir.

2. QƏMƏR (Ay), səhhəti təyin edir. Ana, qadın qohumları və taleyi bildirir. BAZAR ERTƏSİ gününün səhəri – Rast, gecəsi – Əraq və Zirəfkəndi-Büzürg muğamları ifa edilir.

3. MƏRRİX (Mars), müəssisə, təşkilatlar arasındakı çarpışmaya, gənc erkək qohumlarla münasibətlərə təsir edir. ÇƏHARŞƏNBƏAXŞAMI gününün səhəri – Üşşaq və Zəngulə, gecəsi – Nəva və Hicazmuğamları ifa edilir.

4. ÜTARİD (Merkuri), insanın əqli və intellektual imkanlarına təsir edir. ÇƏHARŞƏNBƏ gününün səhəri – Əbu Salik və Rəhavi, gecəsi – Sifəhan və Zirəfkəndi-Kuçek muğamları ifa edilir.

5. MÜŞTƏRİ (Yupiter), şöhrəti, gəliri, var-dövləti bildirir. CÜMƏ AXŞAMI gününün səhəri – Əraq və Zirəfkəndi-Büzürg, gecəsi – Hüseyni muğamları ifa edilir.

6. ZÖHRƏ (Venera), sevgini, intim münasibətləri, həzzi, ailə üzvlərilə münasibətləri, gənc xanım qohumlarla, bacılarla münasibəti göstərir. CÜMƏ gününün səhəri – Nəva və Hicaz, gecəsi – Rast muğamları ifa edilir.

7. ZÜHƏL (Saturn), yaşlı adamlarla əlaqəni göstərir. Vəsiyyət və mirasdan, səhhət üçün təhlükələrdən xəbər verir. ŞƏNBƏ gününün səhəri – Sifəhan və Zirəfkəndi-Kuçek, gecəsi – Üşşaq və Zəngulə muğamları ifa edilir.

Belə bir elmi bağlılıq insanı kainatla həmahəng edir.

***Söhbəti Fərid HÜSEYN apardı***



*Süleyman ABDULLA*

**ÜMİD NƏDİRSƏ, O...**

Çoxdan yorğunluğu
sipər etmişik canımıza,
əzginliyi ruhumuza...
Dik dayanmağımızın yalnız budur səbəbi...
Yıxılmamaq vərdişi var kölgəmizin,
yoxsa ayaqlar altında qalıb
tapdalanmağın nə faydası gələcək üçün.
Hər haqsızlıq bir ibrətdir,
öyrənmək istəyənin fikri yayınmaz dərsdən.
Görk olmaq qorxusu yoxsa,
nə öyrənə bilərsən gözü çıxan qardaşdan?
Ağrıdan ölmür adam,
sağalmır nəvazişdən də...
Gərək inamın sınmasın,
əlin üzülməsin ümidlərdən...
Əks halda,
nə var ki, yaşamağa yaralı-yarasız...
Adamı dalınca sürüyəcək bir qüvvə olmalı,
xəyalmı,
ilğımmı,
istəkmi,
maraqmı? –
Adı hər nəsə...
Amma, olmalı!

## BAYRAQ OLMAQ

Üfüqi vəziyyətdə
fikir yürütmək olmur vətən haqqında,
gərək şaquli dayanmağı bacarasan
düşmən qarşısında.
Döyüş zamanı sürünmək qəbahət deyil,
sülh zamanı şax dayanmaq keşikdə...
Sevgidir adamı ayaqda saxlayan,
yoluxdunsa, qazananacan ərşə çəkilər yuxun.
Vətəndaş olmaq əhali sayı artırmaq deyil,
yararlı daş olmaqdır vətənə...
Bürc olmaq,
qala olmaq,
sədd olmaq,
sərhəd olmaq...
Bayraq olmaqdır ənginliklərdə!

## ÇIXARSAN

Dörd fəsildir ömür, dostum, bu yaz da
Gecəsindən gündüzünə çıxarsan.
Haqq dediyin şəkk-şübhədir bir az da,
Bir gümanla lap yüzünə çıxarsan.

İşıq gəlib zərrə getməkdir axşam...
Zülmət sonda görünəcək sirr, – ağ şam.
Dərə keçib dağ aşarsan, bir axşam
Səhraların boz düzünə çıxarsan.

Ümid ara, təsəlli tap, – fanidir,
Acı ləzzət, şirin əzab fanidir.
Bu yer...
bu yurd...
bu dünya, – lap fanidir,
Sonda gedib göy üzünə çıxarsan.

## BİR ÇİMİR ŞEİR

Gecələrin yuxusuzluğu ilğımvari,
hərdən huşa getməyi var adamın.
Bir anlıq unudursan kirpiklərini
...və dərhal gözlərinin önündə
gah Brestin uğultulu küknar meşələri,
gah Sarışaqanın od tökülən qum səhraları...

dərinliklərin xofu dolaşır ardıcların kölgəsində,
səhranın sonsuzluğunda sərgərdan bir qaraltı.
Azıb qalarsan qütblərin əksliyində...
göz qapaqlarının arasında
əvəzləyər epizodlar bir-birini kino lenti kimi, –
birdən örtüklər altından
raketlərin burnu görünər,
birdən atılmışların əmələ gətirdiyi dərin çuxur...
Göy üzü cızıq-cızıq,
qopmuş PRD-lərin havadakı od qalığı,
vurulmuş hədəfin alov rəsmi...
Bir azdan hamısı soyuyub
bulud-bulud canına hopacaq atmosfer qatının.
Üfüqlərdə nəhəng bir raketin silueti,
gündüzlərin 60 dərəcə istisi gecələr 0-a enmiş,
mürgülərin səsə düşmək ehtimalı çox böyük...
Qəfil bir burulğan keçər
üşüdüyün çadırın orta dirəyindən,
əllərin yapışa bilməz havadan,
yarpaq xışıltısı gələr qulaqlarına,
dişlərinin dibindəki qum dənələri
cır albalı dadı verər...
Uraqanın əlindən qopub
düşərsən Levitanın səsinin gur yerinə: –
"Diqqət, diqqət...
bu gecə alman tankları..."
Qapqara qaralar göy üzü,
gözlərini açmaq istərsən açılmaz,
kirpiklərini qapamaq istərsən, qapanmaz!
Yatmısanmı... oyaqsanmı? – anlamasan...
Dodaqların çat verər uçuqladığı yerdən,
nəfəsin tıncıxar,
əllərin sinənin üstündə...
Ağrıyar köksün altında Qarabağ ahı,
havası çatmaz ciyərlərinin...
su istəyər içindəki fəryad,
dilini pörtər ovcundakı atəş...
Qaçmaq istərsən üzü Baykala tərəf,
üzü Kamenitsa-Juravetskaya tərəf,
üzü Şuşaya tərəf...
dumanlar içində oazis...
Qulaqlarındakı uğultu su səsi kimi,
pıçıldarsan açılacaq sübhün axarı olmayan yoxluğuna.
Gecələrin yuxusuzluğu ilğımvari...
...ilğımvari...

## SONDAN SONRA

Sən qəlbimə girəndə
təzəcə qurtarmışdı 12 ballıq zəlzələ,
Daş üstə daş qalmışdımı, bilmirəm,
amma,
uçqunlar altında portretlər vardı min əsrlik.
Özüm daş bilirdim ürəyimi, – deyilmiş…
ilk titrəyişdəcə çat verdi ortadan,
səthi cızıq-cızıq...
Daş salnamələr belə yazılıb tarix boyu,
bütün qələbələrin xaraba qaldığı bir an...
məğlub olanları hamı qınadığından,
kimisə qalib saymaq doğru deyil
bədbəxtçilik qarşısında...
de-yil!...
Bayquş səsləriydi son uğultunu xatırladan,
əvvəl qasırğa...
yeraltı təkanların qurbanıydı yerüstü durğunluq,
susqunluq ulartıya çevrilmişdi üzü boşluqlara.
Sən hönkürməyi nə vaxt öyrənəcəksən, zalım?!
Görmürsənmi,
çölü param-parçadır iç dünyamın...
Ya Rəbb, şüşə gözlərinlə boylanırsan xatirələrə.
Bir kitab vərəqlənir küləklərin ağzında,
adına kimsə tale deyir,
kimsə ömür,
kimsə nəsə...
Mən isə bilirəm ki,
heç kim oxuya bilməz mən yazan əlifbanı...
soruşsan da deməRəm ki, unudulsun ağrılarım,
u-nu-dul-sun!...
Olsun,
bu gün də tapdadın yaralarımı,
bu gün də yara vurdun yara üstündən...
ölmüşəmmi? – yox!
öləcəyəmmi? – hə!...
amma, sənin əlinlə deyil, – dəqiq bilirəm,
çünki son nəfəsdə daha güclü olur həyat eşqi…
bir inilti bəs edir dirçəlməyə,
boy atmağa,
böyüməyə...

Sən dözməyəcəksən, bilirəm,
mənim sükutuma, səssizliyimə.

Canına üşütmə düşəcək qəlbimin hərarətindən,
çat-çat dodaqlarımın susuzluğundan...
Və çıxıb gedəcəksən, viranəliyi kim sevib ki?...
...Zaman axır üzü heçliyə doğru,
bizim vaxtımız deyil daha, saata baxıram...
12...
zəlzələ sovuşmuş artıq, – 12 ballıq...
hər yan xarabalıq...
xa-ra-ba-lıq!...

## ZÜLMƏTƏ VARAN YOL

...Sonra əllərindən çıxar ümidlər,
Səbəb o qədər ki, əfsus deməyə.
Ovcunun içində qalar soyuq tər,
Bir də boş təəssüf, boş...
qəm yeməyə.
Canını üşüdər yandan ötən meh,
Qara yellər əsər könül bağında.
Çox da etmək olmur taleyi tənbeh,
Gözdən düşməyi var ağrımağın da.
Dərd də bir bəladır, – böyük, ya xırda,
Ağrıdır ürəyə qanın azlığı.
Adamı pərişan eylər axırda,
Asta gedişlərin qayıtmazlığı.
Yeraltı, yerüstü yol...
metro...
qatar...
Ən qorxunc lağımlar keçər Vətəndən.
Bütün çıxışların puç bir sonu var,
Sən yoldan çıxarsan,yol çıxmaz səndən.
Paralel xətlərdə çarpazlaşar səf,
Ayağa gələnin yüz başı varsa.
İşığa kor qalar it hürən tərəf,
Dalana dirənmək təlaşı varsa.
Vardığın uğura kimsə vurar pəl,
Sabah açılmamış düşər bəxtə şər.
Küsüb sən çıxarsan özündən əvvəl,
Sonra…
əllərindən çıxar ümidlər.

## QASIRĞA

Adamı ağrıdan təkcə həyatın sərtliyi deyil,
həm də ürəyinin yumşaqlığıdır.

Sal qayaları əl arabalarına yükləmək kimidir,
dünyanın dərdini sinədə daşımaq...
Kim nəyin altında əziləcəyini biləcəyi anda
çıxış yolu qapanır zəlzələnin episentrinə.
Silsilə kanyonların necə uçduğunu görmək,
hələ bəhanə deyil kosmonavt olmağa.
Səbəbsiz heç nə baş vermir yer üzündə,
ayağını götürüb uzaqlara qaçmaqda deyil nicat.
Ölüm nöqtə-nöqtə yazılır bədənin divarlarına,
yanağındakı xal
hansı kraterin sönmüş ocağıdır, bilməzsən.
Son kərə göy üzünə boylanıb ah çəkmək,
təsəvvür etmədiyin bir qasırğanın xəbərçisidir,
sənə nə sonraya qalacaqlardan?!
...Qatarmı keçəcək gözlərinin içindən,
yük maşınımı,
cənazə karvanımı, – fərq etməz!
Olur ki,
adam nifrətini atom bombası kimi
atmaq istəyir üstünə gələn fəlakətlərə tərəf, –
qurtulmaq cəhdidir, əslində bu...
Dünyanı məhv etmək istəyi
hər yerdən əli üzülmüşlərə aid!
nüvə parçalanması...
Saman çöpündən yapışmır batan kəs daha,
futbol topu kimi təpikləmək istəyir yer kürəsini.
Zəiflik, iradəsizlik, güvənsizlik...
Bütün oyunların sonu
böyük hesablı məğlubiyyətlə bitirsə,
üsyana xırda səbəb tapılmaz cığallıqdan başqa.
Özünə qalib gəlməkdir ən çətini,
dünya savaşları acizdir bir cəhdin qarşısında.
Ən dəhşətli silahlar qorxudan icad olunur,
yaşamaq xatirinədir müharibələrə vurğunluq.
İnsana məhəbbət kin qədər güclü deyil,
ilk qəzadaca nifrətə çevrilə bilir ölümünə...
Bütün ağrıların kökündə sevgidir dayanan,
unutmaq olmur heç nəyi...
Ən dəhşətlisi ürək ağrısıdır, tutdumu – buraxmaz,
dünyanı atəşə atmaq keçər içindən...
Sən nə zamansa çox gözəl idin, – demişdimmi,
yoxsa...
Ürəyi pilə idin nə vaxtsa...
xatırlatmaqda yarar varmı bir daha?!

## QARANLIQDAN KEÇƏN YOL

Ağrı doludur göy üzü,
ilk baxışdaca gördüm
Qurtarmışmı mən tanıyan azadlıqlar…
uçan quşların qanadlarının ağırlığında
ödənişliymiş haqqa varan yollar
səsi arxada unudulmuşlar niyə sussunlar ki?
Asta-asta
toran düşmədədir gələcəyin gedəcəyi səmtə,
zülmətdən keçməli tunellərin üz tutduğu sabah,
başın üstündə olmayacağın silsilə dağlar,
ayağın altında olacağın torpaq...
Məsələ inciməkdə deyil,
həyatdır, – küsə də bilərsən özündən,
barışa da bilərsən hamı ilə...
bəbəklərinin dərinliyində bir zərrə nur
gizləməmisənsə, uyumağa gərək yox...
Gedirik, ay qovur arxamızca,
buludsuzdur göy üzü...

## DUA

Bütün canlıların sığındığı yerdir göy üzü,
Budaqlar ağacların əlləri,
yarpaqlar dualarıdır,
hətta kolların da tikanları boylanır üzü yuxarı.
Bay olmağın bircə yolu var, – ənginliklərə sitayiş!
Hər şey işığa can atır,
sübh çağının səadətidir otların göz yaşı.
Təzə açmış qönçələrin
günəşdir ləçək-ləçək ilk gülümsədiyi,
şeh güzgülənmək üçün qonur yanağına çiçəyin.
Sarmaşıq yaradana daha yaxın olmaq üçün
dırmaşır şivlərə.
Qurd üzü Göktanrıya ulayır,
dağlar boylanır üzü ənginliklərə
dərələr yapışır zirvələrin ayağından...
Pillələr bir-birinə əl uzadır ki,
daha yüksəklərə qalxsınlar...
Yağışlar xaliqin lütfüdür torpağa,
ona can atanlara həyat bəxş edir.
Nur yağışından sonra daha da gözəl olur təbiət,
Sən niyə ayağımdan dartırsan, insanoğlu,
mən telləri tökülmüş lampanı dəyişməyə çıxıram....
Darıxma,

bir günəş hamımızı nura bələməyə yetər,
bir lampa ətrafımızdakıları işıqlandırmağa...
Göyüzünə oxu dualarını!
Bütün pıçıltılar eşidiləndir pak vaxtı,
Bütün canlıların sığındığı yerdir göyüzü...

**BİR OVUC TORPAQ**

Harada olur-olsun, yorulandan sonra
bütün dalğalar sahilə qayıdar,
bütün gəmilər limana...
ürək ağrısı qədər doğmadır qərq olmuş arzular.
nə fərqi, suda batdı, ya qumda...
adam itirdiyinin qədrini əli üzüləndə bilər,
təkcə üzəndə yox...
Bir ovuc göz yaşı qədər deyil dəniz,
barmaqların arasından süzülüb axacaq sahil boyu,
mütləq axacaq!
ağlamaqla səngitmək olmur qasırğaları,
yelkən açmaq gərəkdir
köynək-köynək küləklərin əksinə.
Kirpiklərinin arasında
aysberq qorxusu varsa, anlat, sərt qayalara
torpaq hər zaman sahib çıxmış nankorlarına...
Bütün dənizçilər ada kəşf etməyi arzular,
bütün adalar insan izləri...
ənginliklərdən, nəhayətsizliklərdən yorulanda
gözləri əncir budağı arar gecələrin,
gündüzlərin qulağı, heç olmasa, bayquş səsi...
atılan lövbərləri su tutmaz,
riflərdən xəbər almaq lazımdır
türemlərin su tutumunu,
karmanın etibarlılığı ləngərindən bəlli.
Zəhmi ağır bosmanın
əmri qədər əzəmətli deyil həyəcanın hökmü...
gəmini yırğalayan su axınıdırmı,
balina dəstəsimi?! – yoxsa bilməzsən gecələr...
yorğun kapitan
tutqun durbinin fokusunda palma rəsmi arar,
okeanların ağuşunda şirin su tükənmişsə...
Sən nə axtarırsan, ey əlində dənizçi şəkli adam,
qayıtmaq yalnız dalğalara və gəmilərə aid,
torpaq adamlara deyil...
...və bir gün...
bütün dalğalar sahilə qayıdar,
bütün gəmilər limana...

## GƏLƏCƏKDƏN DÖNÜŞ

Bir az da get, öndə olar yol hərlənməyə,
Eh, bizimki bizdən keçib, qayıdaq geri.
And içərik, and yeyərik…
zəhərlənməyə,
Hardan tapaq yaxın dostu, adı Salyeri.

Ortalıqlar təhlükədir, yolu yana çək,
Polisdirmi kölgə kimi səkidə duran?
Bəlkə elə cənnətlikdir toxundan ölmək,
Acqarına kim oxudur ruhuna Quran?
Ovcundakı qabarları ver beh əvəzi,
Nə var, axı, nisyə dəftər, dəlik cib durur.
Barmaqların şaqqıltısı deyil pul səsi,
Sırtıq qızı dilənçi də dirəşib durur.
Dost-düşmən var, əyilsən də çalış dayan dik,
Nə olsun ki, son məqamda sərxoş edir qəm.
“Drandulet” maşına da benzin tökmədik,
Son yüzü də süz, olmasın yerin cəhənnəm.
Nə duanı, nə şərabı sinirməz cana,
Son saatda tükənirsə adamın gücü.
Sol tərəfdə məscid varmış, sağda meyxana,
Dodaqaltı dua edir ayıq sürücü.

## SONDAN SONRASI

Yaşamaq gün saymaqdır, elə fələk də sayan,
yaxşı ki, hər görüşdə adamı sayan da var.
canında su tapmadı öz canına susayan,
özünü ağlamağa göz yaşı hayanda var?
Son dəfə yola çıxmaq canı çıxmaq kimidir,
hövsələdən çıxarma yolundan çıxanları.
yaşamaq sıxıntıdır, sıx yumruğu cana bir,
ya tutub sıx köksünə canını sıxanları;
Ümidin itən yerdə çıx özünü gəz, amma,
gərək deyil itməyə yolun ağını seçmək...
nə olsun ki, bilirsən ağlına gəlməz, amma,
hər gün keçdiyin yolu bir gün son dəfə keçmək.

## ƏL ÇATMAYAN ÇİLÇIRAQ

Sən,
ey otağındakı çilçırağın lampası yanmış,
yəni, işığı sönmüş...

volfram tellər nə qədər istiyə davamlı olsa da
tökülür içindən bir gün,
adam içindən yanıb töküldüyü kimi...
Dərd də spiralvaridir,
fırlanar,
fırlanar, üstünə qayıdar adamın.
Əlin dünyadan qopduğu yerdir
üstünə çıxdığın köhnə masa...
nə çilçıraq aşağı enər, nə masa qalxar yuxarı...
çatmaz əllərin işığa, çilçırağa.
Gözlərin par-par yanır bir ümid sorağına,
amma ki,
pəncərən qapalı dörd tərəfdən əl boyda şəfəqə.
Qonşu həyətdə ustalar işləyər,
darmadağın bir qəlbdən xəbərləri yox,
çəkic səsinə diksinər köksünün divarları,
bu qaranlıqda görərsən ki,
bütün ağrıların bir təmirə ehtiyacı var.
Nə fərqi, usta toxmağı və ya həkim çəkici...
hər ikisi sonda əsəbləri ölçmək üçündür,
ayaqları qaçmış çarpayıdakı tənha yastıq
fikir dağınıqlığıdır bir udumluq havada,
qırışmamış döşəkağının sol tərəfi bu gecə də
baxma ki, hərdən huş aparır adamı...
Az qala pıçıltı ilə oxunan şeirlər azır qaranlıqda,
çilçıraqda əks olunur titrək bir şüa
lazer fanarıdırmı, ya nə, – günün günortası...
siqaret qoxusu,
su şırıltısı,
için-için çəkilən ah səsi qarışıb biri-birinə...
alatoranlıq...
sanki qapı pusur şad xəbər eşitmək üçün, əfsus...
Bilirsənmi, bir az gec gələn bir az tez gedəcək,
yubatmaqla olmur arzuları...
Yol varsa, gedən mütləq gedəcək, amma,
divarda qəlbini isidəcək pıçıltısı
səsləri qalacaq şəkil əvəzi xatirələrlə dolu...
İşığa çox fikir vermə, lap çilçırağa da...
Telləri tökülmüş lampanı dəyişməsən,
yanmaz o işıq bir daha...
xəbərin olsun deyə, deyirəm, deməsəm də olar,
özün anlayırsan hər şeyi, uşaq deyilsən ki...
...Təki qəlbinin işığı sönməsin,
yataq otağında lampası sönmüş qadın...
Ağlamaqdan keçib daha, çoxdan keçib!

## EPİLOQ

Çox zaman yalan çıxır ilahi həqiqətlər,
Doğru niyə doğrudur, düzü, anlamaq olmur.
Kəlləmayallaq durur çox vaxt Xeyir ilə Şər,
Yanıdığın adamı tutub yanlamaq olmur.
Yaxşıdımı-pisdimi qəlbində arzu tumlar,
Zəmiyə yaz nəfəsi sərt gələn qışdan keçir.
Fokusu pozulanda görünməz uçurumlar,
Gözlərinin ütüsü qat-qat qırışdan keçir.
Qarışqanın haqqımı çiynindəki ağır yük,
Buludlar həzm eyləməz cırcırama səsini.
Bu dünya bir bazardır, nırxı dəyərdən düşük,
Neçəyə satacan ki, dərdin girvənkəsini.
Əlinin düzlüyünü köynəyinə əyri çək,
Axşamüstü enəcək qara pərdə hər şeyə.
Yaman yerdə yaxalar adamı göy öskürək,
Asan olur yoluxmaq bu şəhərdə hər şeyə.
Bu sabahdan axşama etibarlı yol çıxa,
Gəlib içindən keçər ağrıların dərini.
Zınqırov səslərini səhra çəkir çarmıxa,
Kimdir susuz qovlayan səhra gəmilərini.
Yığılar ilğımlardan bezikib boğaza can,
Havada dua səsi, bir də kəndir qalacaq.
Sonra batacaq yenə üfüqdə hər gün doğan,
Sonra, göy qaralacaq...
sonra, yer qaralacaq...

*Alpay AZƏR*

# Ömürlük sırğa



♦ *Povest*

*...Fizzə bir qədər fikir eləyib bir də soruşdu:*
*– Yaxşı, ana, nə olur gedəndə? Get da! Niyə getmirsən ki?*
*– Bala, mənə nə olub ərə gedəm? Mən yekəlikdə arvadlar ərə getməzlər ki! Qızlar ərə gedərlər. Mənə nə olub ərə gedim?*
*–Yaxşı, ana, Zəhra bibim səndən yekə arvaddı, bə niyə ki, o, ərə getdi?*
*Zeynəb Firəngizin bu sualına heç bir söz tapmadı desin.*

***Cəlil Məmmədquluzadə. "Danabaş kəndinin əhvalatları"***

Mərhumun dayısı – ağsaçlı kişi mağarın ortasına qoyulmuş mafəyə heyrət və qorxuyla baxan uşaqlardan birinə dedi: "A bala, qaç arvadlara de ki, Əflatun dayı deyir, tez aşağı düşsünlər," – saatına baxıb narazı-narazı başını buladı. Uşaq həvəslə yerindən götürüləndə Əflatun əlavə elədi: "Gecikmək bunların peşəsidi də, – yanındakılara üzünü tutaraq, – özünüz gördüz, on dəyqə əvvəl arvada zəng eliyib dedim ki, tez düşün aşağı, molla Yasini oxuyub qutarıb, meyidi aparıb basdırmalıyıq".

Axırı, arvadlar gəlib çıxdılar, ağlaşdılar, ağı dedilər, mərhumun dayısı gördü ağlaşma çox çəkəcək, boğazını arıtlayıb gur səsiylə elan elədi: "Hə, Allah Quluya rəhmət eləsin! Allah o dünyasını rahat eləsin! – mollaya üzünü tutdu. – Hacı, halallıq məsələsini də de, cənazəni götürək, tərpənək yavaş-yavaş," – qol saatına baxdı.

Beləcə, yeddi yaşlı qızı və dördüncü sinifdə oxuyan oğluyla bir yerdə dul qalan Leylinin qayınanalı günləri başladı. İki il əvvəl yetmiş iki yaşlı ərini itirmiş qayınana, – Nisə arvad otuz yeddi yaşlı oğlu Qulunun ölümünə dözə bilmirdi. (Üç ilin içində hər ikisi xərçəngdən getmişdi). Bir dəfə ərinin şəklinin qabağında dayanıb: "Ay bəxtəvər, yenə sənin yetmiş iki yaşında ölməyinə dözmək olar, amma Qulu dağ çəkdi mənə, dağ" deyib əliylə bir neçə dəfə sinəsinə zərbə vurmuşdu. Sonra üzünü göyə tutub demişdi: "Ay Allah, uşaxların xeyir işini görməmiş, nə məcburuydu oğlumu bu yaşında əlimizdən alasan?" İçi hikkəylə dolu olsa da, qohum-tanış arasında sakit, fağır kimi tanınan Nisə xalaya az-çox təsəlli verən oğlundan qalan iki nəvəsiydi.

Leyli hələ ki çalışırdı qayınanasıyla yola getsin. Bəxtlərindən üç otaq varıydı ixtiyarlarında. Qayınana böyük otaqdakı televizorda Xoşqədəmin, Zaurun ailə qovğaları haqda verilişlərinə baxmaqla birtəhər başını qatırdı. Oğlunun qırxından beş ay keçmişdi, amma gəlinin yanında sevgi seriallarına baxmağa həya edirdi – Qulu sağ olanda, gəlin-qayınana həmin otaqda susa-susa, bir-birilərinə baxmaqdan çəkinə-çəkinə yüngülvari öpüşmə səhnələrinə tamaşa edirdilər. (İş öpüşməkdən o yana keçəndə, ya gəlin sakitcə durub öz otağına keçirdi, ya da qayınana pultu götürüb başqa kanala çevirirdi). İndi isə Leyli çəkilmişdi öz otağına, televizorun səsini azaldıb o cür kinolara, konsertlərə rahatca baxırdı.

Ev işlərini öz aralarında bölmüşdülər: qayınana yemək bişirirdi, gəlin qabları yuyurdu, hərə öz otağını silib-süpürürdü. Paltarları yuyub-qurulamaqla "Bosch" aparatı məşğuluydu.

Leylinin ilk qırğını qayınanasıyla yox, baldızlarıyla oldu. Qulu öləndən iki ay sonra bacıları başladı analarının beynini yeməyə: evi Elsevərin adına keçirt. Elsevər nənənin ilk nəvəsi, böyük qızının oğluydu. Qızlar bunu əsas gətirirdi: rəhmətlik qardaşları Leylini qaçırdıb özünə arvad etsə də, ortada kəbin, "zaqs" sənədi, gəlinin o evdə qeydiyyatı yoxdu. Evə o qədər hərisiydilər ki, qardaşı uşaqlarını belə veclərinə almırdılar. Nisə bir ara qızlarının təsirinə düşmüşdü, gəlindən gizlin evi böyük nəvəsinin adına "keçirim-keçirmiyim?" sualının üstündə baş sındırmışdı. Söz-söhbət gəlinin qulağına çatanda, nəslin ağsaqqalı, rəhmətlik ərinin dayısı Əflatuna zəng edib ondan kömək istədi.

Ağsaqqal əvvəlcə bacısıgilə gəldi, mətbəxin qapısını bağlayıb, təklikdə onu bir xeyli danladı. "Ayıbdı e, Nisə. Sən bu evi Elsevərin adına keçirsən, Qulunun ruhu səni bağışlamaz, o dünyada sənə deyər ki, ay ana, tutaq ki, Leyli yaddı sənə, bəs mənim uşaqlarıma, öz doğma nəvələrinə yazığın gəlmədi?" Elə həmin gün axşam Əflatun hər iki bacısı qızına zəng edib sözünü dedi. Bacısının böyük qızına söylədikləri bu oldu: "Yazıq qız təkbaşına iki yetim böyüdür, siz də utanmaz-utanmaz durub ev davası eliyirsiz. Sizin bəyəm eviniz yoxdu, yetimlərin evinə göz dikirsiz?" O biri dünyada da qardaşlarıyla üz-üzə gələcəklərini də onlara dedi.

Bu söhbətdən sonra baldızlar bir müddət gəlinlərindən əl çəkdilər, o biri dünyada oğlunun danlağından qorxan Nisə arvad evi qız nəvəsinə vəsiyyət etməkdən birdəfəlik vaz keçdi. Amma mülk ehtirası sırtıq virus kimi başqa cür öz işini görürdü, qızlar analarına zəng edib onu tez-tez qızışdırırdılar: "Əlini ağdan-qaraya vurma, bütün işləri qoy o görsün. Dünənə qədər kənddə tövlə silib-süpürürdü, indi zəhmət çəksin, otaqların hamısını o süpürsün. Üstəlik, özü də, uşaxları da sənin pensiyəndən yeyirlər". "Pensiyəndən yeyirlər" məsələsinə qalanda, Qulu öləndən üç-dörd ay sonra, yetimlərin uşaqpulu düzələnə qədər evə gündəlik şeyləri qayınana alırdı. Onda Leyli heç yerdə işləmirdi, ayda iki dəfə atası kənddən ət, yağ, pendir göndərirdi.

Ev məsələsi ortaya çıxandan Leylinin canına vəlvələ düşmüşdü, beyninə əcaib fikirlər dolurdu. "Bunlardan nə desən çıxar, adamı lap zəhərliyib öldürərlər də".

Analarını görməyə gələn qızlar qardaşı uşaqlarıyla oynayırdılar deyə, istər-istəməz, gəlinlə aralarında isnişmə gedirdi. Artıq oturub bir yerdə çörək yeyirdilər, çay içirdilər, arada deyib-gülürdülər, elə bil, bir ay əvvəl ev üstündə düşmənçilik edən bunlar deyildilər. Amma Leyli mətbəxə çay, yemək gətirməyə gedəndə, hələ də elə bilirdi, böyük baldızı tezcə özünü verəcək onların otağına, düyünlənmiş sapa bəddua pıçıldayıb soxacaq döşəyin

altına, cadu öz işini görəcək, ev əldən çıxacaq. Ona görə mətbəxdə iş görə-görə cürbəcür bəhanələrlə (“Xrustal stəkanları harda qoymuşam?”, “Necə huşsuzam e, stəkanları götürmüşəm, nəlbəkilər yaddan çıxıb.”) qonaq otağına girirdi. Bir-birilərinin üzünə gülsələr də, gəlin-baldızlar arasında olan qarşılıqlı nifrət hələ də öz yerindəydi. Hər dəfə Leyli onları yola salıb qapını bağlayandan sonra arxalarınca deyinirdi: “Rədd olub getdilər ifritələr”.

Qutab sexində işə düzəlib ilk maaşını, – üç yüz manatı alan gündən Leyli həyətdə dik qamətlə yeriməyə, televizorda gedən seriallara, verilişlərə baxmağa başladı. Qonşu arvadlarsa öz aralarında qeybətləşirdilər: bu qız niyə forslu-forslu gəzir, peraşki bişirir də, nazirlikdə işləmir ki.

Leyli üzdən gözəgəlimli idi, konkret bir şey deməyə çətinlik çəkənin ağzından ən azından, “Belə də, pis deyil” sözləri çıxırdı. Amma “fiqurasından” söz düşəndə, kişili-arvadlı çoxu baş barmağını yuxarı qaldırırdı. Qulu elə onun “fiqurasına” hayıl-mayıl olmuşdu. İki uşaq doğmağı belə, o gözəlliyə xətər yetirməmişdi. “Elə bil illərlə fitnesə gedib,” – qonşu arvadlardan biri belə demişdi.

İşə düzələndən sonra başlamışdı qayınanasına söz qaytarmağa. Bir dəfə qızının qulağını buranda, Nisə arvad gəlinə əsəbiləşmişdi: “Niyə elə bərk burursan qulağını, ağrıdır axı?” Gəlin üstünə çəmkirmişdi: “Yaxşı eliyirəm. Bu gün qulağını burmasam, sabah başımda oturar”. Baldızları gələndə, əvvəlki kimi çay dəmləməkçün əl-ayağa düşüb mətbəxə cummurdu, astagəllik edirdi.

Yavaş-yavaş fantaziyalarına baş vurmağa başlamışdı: əvvəlcə dörd-beş gün gözünə yuxu gedənə qədər televizorun qarşısında oturub sevdiyi bir-iki türk aktyoruyla vaxt keçirdi. Bir həftə sonra birbaşa ər kimi gördüyü, keçmiş sinif yoldaşı Vaqiflə xəyallarında görüşdü, təsəvvürünə gətirdi ki, Vaqif arvadından boşanıb, boşanan kimi də gəlib Bakıya, onların qapısını döyür. O, qapını açır, Vaqifi içəri buraxır və platonik sevgililər bir-birinə sarmaşıb ehtirasla öpüşməyə başlayırlar. Xəyallarından necə ehtiraslandısa, kənddə yaşayan rəfiqəsinə zəng etdi, xoş-beşdən sonra söhbəti yavaş-yavaş gətirdi əsas mətləbə: “Vaqifgildən nə xəbər var?” Leylinin niyyətini havada tutan rəfiqəsi qəhqəhəli gülüşlə dedi: “Aaz, Vaqifi hələ də başından çıxardammırsan? Yoox, boşanmıyıb. Amma yaxşı xəbər olan kimi mütləq sənə çatdıracam”. Əsəbiləşdi Leyli: “Ay qız, sənnən soruşan oldu ki, boşanıb, ya boşanmıyıb? Adama rahatca şər atarsan e”. Özünə söz verdi, Vaqiflə bağlı bir də heç kimdən heç nə soruşmayacaq. Eyni zamanda, anladı ki, əsəbiləşməyinin əsas səbəbi bir yandan, rəfiqəsinin onun ürəyindəkini oxuya bilməsi, o biri yandansa, Vaqifin hələ də evli olmasıdır. Sexdəki qızlarsa elə hey ona ürəkdirək verirdilər: cavansan, qəşəngsən, yaxşı bir dul, ya boşanmış kişi tapıb ərə getməlisən. Bu sözlər də bir yandan onun ərə getmək istəyini alovlandırırdı. Ürəyindən keçirdi “Hardadı məndə o bəxt?” – desin, qorxurdu ki, desə, söz gedib qayınanasıyla baldızlarının qulağına çatar, təzə-təzə düzələn münasibətlər korlanar. Ərə getmək istəyi isə günü-gündən güclənirdi.

Baldızlar sanki gəlinin ərə getmək istəyini fəhmən hiss edirdilər, əsəbiləşirdilər buna görə, analarına bəzən hikkəylə, əmr tonunda deyirdilər ki, ay mama, gəlindən gözdə-qulaqda ol, adımızı biabır eləməsin ha. Leylinin işlədiyi qutab sexi qaldığı binanın yanındaydı deyə, qayınanası eyvanda oturub saatlarla gözünü aşağı zilləyirdi, görsün kim girir, kim çıxır, sexə girən kişi nə qədər ləngiyir orda. İstənilən ortayaşlı kişi sexdən gec çıxanda, Nisə arvad yerində qurcuxurdu, elə bilirdi, kişi Leyliyə girişir, halbuki, sexdə başqa gözəgəlimli qız-gəlin də var idi.

Leyli sexdən çıxanda, bir neçə dəfə başını qaldırıb, səkkizinci mərtəbədəki eyvanlarına baxmışdı, həmin an qayınanası başını geri çəksə də, gəlin görmüşdü onu, cin vurmuşdu təpəsinə, "Ay kaftar, elə sənin acığına, qızlarının acığına ərə gedəcəm," – pıçıldamışdı öz-özünə. Bloka girib pilləkənlərlə qalxanda həm iş yorğunluğundan, həm də bəxtsizliyindən başlamışdı gileylənməyə: "Əşi, kimdi e bunnan sonra məni iki uşaqla alan? İndi işi-gücü olan dul kişi də gedib qız uşağı alır. İkinci dəfə toy gecəsi keçir könüllərindən. Axı kimə pislik eləmişdim ki, cavan vaxtımda ərimi itirdim?"

Leyli evdə qız qarımaqdan qorxan, "Təki ərim olsun, hər xasiyyətinə dözərəm" fikriylə yaşayan kənd qızıydı deyə, tezbazar Quluya qoşulub qaçmışdı. Qulu onu Bakıya gətirdiyi günün səhərisi ilk əmrlərini vemişdi: anam sənə nə desə, etirazsız-filansız deyirsən baş üstə, başa düşdün? Leyli qorxa-qorxa ərinə "Hə" demişdi. "Tək çölə çıxmırsan, çıxsan da, ancaq mənimlə, ya da anamla. Balkonda oturursan, amma aşağı dəxli yoxdu, adamlara, ya maşınlara baxmağı sənə qadağan edirəm. Balkonda oturub gözünü zilliyirsən düz qabağa. Anamla atam evdə olmayanda, qohum-əqraba, işıqpulu, supulu, heç kimə qapını açmırsan," – Qulu gündə bir əmr vermişdi. "Bəs birdən atamgil kənddən gəlsələr?" – Leyli yazıq sifət alıb soruşmuşdu. "Hə, yaxşı ki, soruşdun bunu. Elə indidən onlara de ki, həftə səkkiz, mən doqquz, Bakıya gəlməsinlər. Nəsə vacib bir iş olsa, xəstəxanalıq-filan, əvvəlcə mənə zəng eləsinlər, mən sənə nə desəm, o da olacaq," – əri ötkəmlə demişdi. "Bəs elə-belə gələ bilməzlər?" – "Nə var e Bakıda? Kənddə inək-qoyunlarını otarsınlar, – acı, lağlağı təbəssümlə deyib əlavə eləmişdi. – Yaxşı, ananla atan bir dəfə yayda iki-üç günlüyünə gələrlər, aparıb şəhəri gəzdirərik". Başını aşağı salıb dinməyən Leyli başa düşmüşdü ki, artıq geriyə yol yoxdu.

Bir gün qayınanası kiçik qızıgildə olanda, qapının zəngini basmışdılar. Gözlükdən baxanda, ərinin Qurban əmisini görmüşdü. Qapını açmaq istəyəndə, Qulunun zəhmli-zəhrimar sifətlə verdiyi tapşırığı xatırlamışdı, soyuq tər basmışdı onu. "Ay Allah, bax, mən bədbəxt neyniyim indi? Açmıyım qapını? Qoca əmisinə görə durub mənə söz deyəsidi?"

Yaşı səksəni keçən, hələ də qıvraq, yanaqları qırmızı, sağlam Qurban kişi əvvəllər bir neçə dəfə Quluyla, qayınatasıyla onlara gəlmişdi. Leyli qabaqlarına çay, yemək qoymuşdu və evdəki söhbətlərdə onun haqqında heç vaxt pis bir söz eşitməmişdi...

Leyli qısa tərəddüddən, "Əmisinə görə heç nə eləməz" ümidiylə qapını açmışdı. Qurban kişi oturub bir stəkan çay içmişdi, bir az qardaşı nəvələriylə oynamışdı, "Yox, sağ ol qızım, toxam," – dolmadan imtina edib Leylidən alətlərin yerini soruşmuşdu. Leyli ona eyvanda təsərrüfat malları olan dolabın yerini göstərmişdi. Qurban ordan çəkic, mişar, balta götürüb atmışdı paketə, sağollaşıb evdən çıxana yaxın demişdi ki, Quluya deyərsən, Qurban əmin gəlmişdi, bu, bu şeyləri götürdü.

Əri axşam işdən gələndə, qorxusundan günorta əmisinin gəldiyini deməmişdi. Bir neçə gün sonra Qulu dolabda eşələnəndə, təşvişlə "Çəkiclə mişar hanı?" soruşmuşdu. Leyli dili topuq çala-çala olanları danışmışdı. "Ay itin qızı, bəs bunu niyə mənə o gün demədin?!" – deyib Leylinin qulağının dibinə şappıltılı bir sillə vurmuşdu. "Deyirsən, doğma əmini, o yaşda kişini blokda gözlədəydim?" – Leyli ağlaya-ağlaya soruşmuşdu. "Birinci mənə zəng eləməliydin! Sən bu evə gələndə demişdim, heç kimə qapını açmırsan, mənə zəng eliyirsən əvvəlcə... Dillən də, ay itin qızı. Demişdim, ya yox,?!" – "De-de-mişdin" – kəkələmişdi Leyli. – "Qaldı ki, əmimə, o, sənnən də, mənnən də sağlamdı. İki dəyqə gözləsə, dünya dağılmazdı. İkincisi, o, hər halda, mə-

nim əmimdi, mənə doğmadı. Yenə deyirəm, söhbət ondan gedir ki, dediyim şeyi eləməmisən, başa düşdün?!" – "Başa düşdüm". Leylini soyuq tər basmışdı, ərinin hirsdən əyilən sifətinə baxıb anlamışdı ki, artıq-əskik nəsə desə, ikinci sillə gələcək.

Bir müddət sonra Qulunun tünd xasiyyətindən, əzazilliyindən xəbər tutan atası, kiçik qardaşı Leyliyə xəbər göndərmişdilər: vaxtında bizdən halallıq almamısan, özün ona qoşulub qaçmısan, ona görə canın çıxsın, axıra qədər döz. Kiçik qardaşı sonda nöqtəni belə qoymuşdu: "Bundan sonra kəndə ancaq meyitin gələ bilər".

Qulu bu on ildə arvadına sillə, qapaz vurmaqçün həmişə bəhanə tapmışdı: "Aşağı mərtəbədəki oğlana niyə salam verdin?!"– "Uşaxdı e, məktəbdə oxuyur." – "Uşağın on beş yaşı olmur." – "Mənə görə o, uşaqdı". – "Yenə mənnən mübahisə eliyirsən, ay itin qızı!" – dalınca ər qapazı...

Tez-tez Leylinin telefonunu yoxlayırdı, görəndə ki, rəfiqələrinə zəng edib, dava salırdı. "Atan, anan, qardaşlarından, bir də mənim bacılarımdan başqa kiməsə zəng eləməyi qadağan eliyirəm sənə. Bunu da sırğa elə, as qulağından!" Qayınana isə belə mübahisələrə ümumiyyətlə qarışmırdı. Beləcə, bu cür sırğaların, əslində, iri mismarlarla qəlbinə pərçimlənən qandalların sayı günügündən artmışdı və sonda gəlin həyatıyla barışmağa məhkum olmuşdu.

Leyli daha çox anası və Bakıda yaşayan rəfiqəsi Mehribanla dərdini bölüşürdü. (Öz otağında pıçıltıyla danışıb qurtarandan sonra rəfiqəsinin zəngini tez silirdi.) Anasından hər dəfə aşağı-yuxarı eyni şeyləri eşidirdi: "Qızım, o gül balalarına görə döz, gözünü yumub-açassan ki, qızına elçi gəlib, sonra oğlunu evləndirəssən, qabaxdakı xoş günlərə görə döz. Bir-iki şilləynən dünya dağılmaz. Atan məni cavan olanda o qədər döyürdü, amma sizə görə dişimi dişimə sıxıb dözdüm, dilimi qısa elədim, indi heç peşman deyiləm. Mənim yaşıma gələndə, özün görəssən ki, boş şeyləriymiş ərinin vurduğu şapalaqlar." Mehribanınsa son dediyi həmişə bu olurdu: "Vallah, özün bax. Dözmək asandısa, döz. Yox, görsən, daha mümkün deyil, bıcax sümüyə dirənib, onda boşan". Beləcə, uşaqlara görə boşanmaq fikrini özündən qovan Leyli on il Qulunun xasiyyətinə dözmüşdü.

İsti bir avqust günündə Leylinin oğlu təngnəfəs sexə girib dedi ki, ay ana, tez ol, gedək, nənənin ürəyi ağrıyır... Oğluyla evə girəndə, nənə artıq o dünyadaydı.

Qohumlar, yaxınlar tökülüşüb gəldilər, aparıb dəfn elədilər Nisə arvadı, ağlaşma, çadır, ehsan-filan da öz yerində. Dəfn günü axşam, ağlaşma kəsiləndən, sifətlər durulandan sonra, baldızları arada başladılar altdan-altdan kinli baxışlarını gəlinlərinin üzünə zilləməyə. "Hə, ürəyində anamızın ölməyinə sevinirsən, hə?" Leylisə onların fikirlərinə, baxışlarına ürəyində belə cavab verdi: "Neynəmişəm ki? Bu on ildə ananızın qulluğunda durmuşam, üstəlik, siz gələndə qabağınıza çay, çörək qoymuşam. İndidən deyirəm, ev mənimdi. Mənimdi deyəndə, sonda sizin doğmaca qardaşınızın balalarına çatacaq ev".

Qayınanasının qırxından on gün sonra özünə təzə paltarlar alan dul gəlinin makiyajlı-kosmetikalı həyatı başladı. İşdən sonra uşaqlarını götürüb bulvarda dik qamətlə gəzə-gəzə onu görüb tanıyanlara çatdırmaq istədi ki, ərim ölsə də, sınmamışam, halal pul qazanıb uşaqlarımı böyüdürəm. Bircə baldızlarıyla üz-üzə gəlmək istəmirdi, bilirdi ki, ilk eşitdiyi bu sual olacaq: "Aa, nə yaxşı belə gəzməyə çıxmısız?" Vəssalam, tək elə bu sözlərə görə burnundan gələcəkdi həmin gün. Ona görə şəhərdə olanda çalışırdı adamların üzünə baxmasın.

Ayda bir dəfə gəlinlərini, qardaşı uşaqlarını görməyə gələn baldızlar konfetindən, şokoladından tutmuş, oyuncaqlara qədər alıb gətirirdilər, arada uşaqların hərəsinin cibinə iyirmilikdən, əllilikdən basırdılar. Böyük baldız bir vaxtlar ailəlikcə Almaniyanı, Avstriyanı, Çexiyanı gəzib-dolaşmaqlarından danışanda, Leylinin içinə od salırdı. Ona elə gəlirdi, baldız qəsdən, yandıq verməkçün bu şeyləri həvəslə, şövqlə danışır, yəni, sən indiyə qədər öz kəndinizdən, rayonunuzdan, Bakıdan başqa, Azərbaycanın bir kəndində belə dincəlməmisən, amma biz gör haralarda olmuşuq.

* * *

Mənzil İstismar İdarəsində (MİS) illik ev pulunu verib çıxanda, oranın işçilərindən biri – keçəl, bığlı kişi Leylini çoxdan tanıyırmış kimi, ərklə dirsəyindən tutub nəsə demək istədi. Leyli onun qolunu itələyib üstünə bozardı: “Ay kişi, neyniyirsən?! Başın xarab olub?!” İçəridəkilərin hamısı bir anda onlara baxdı, qulağının dibinə qədər qızaran kişinin gücü boğuq səslə: “Ay qız, nə qışqırırsan, səni yemədim ki?” deməyə çatdı...

Üç ay sonra Leyli yenə MİS-ə gələndə, həmin sırtıq kişi gözlərini ondan yayındırdı. Leyli ordan çıxıb on-on beş metr aralanmışdı ki, arxadan öz adını eşitdi.

– Leyli xanım, bir dəyqə olar sizi? – otuz-otuz beş yaş arasında olan yaraşıqlı bir kişiydi.

– Nə lazımdı? – çevrilib çaşqın halda tanımadığı kişiyə baxdı.

– Xanım, çox xahiş eliyirəm, heç olmasa, üççə dəyqə mənə qulaq asın.

“Yəqin eşidib ki, dulam, girişir” – fikirləşən Leyli dedi: – Eşidirəm.

– Xanım, mənim otuz dörd yaşım var, bilirəm, adınız Leylidi, yoldaşınız rəhmətə gedib. Allah rəhmət eləsin. Mənim də yoldaşım üç il əvvəl rəhmətə gedib, iki uşağım var, oğlandılar.

Bayaqdan soyuq-soyuq oğlana baxan Leylinin sifəti bir az dəyişdi, hiss etdi ki, hardasa daxilən oğlana isnişməyə başlayır.

– Bunları mənə niyə deyirsiz ki? – Leyli sualı soyuq tonda versə də, oğlan özünə qarşı marağı o dəqiqə duydu. “Deyəsən, xoşuna gəldim,” – sevincək fikirləşdi.

– Leyli xanım, iki aydan çoxdu sizə fikir verirəm. “Jek”də o sırtıq kişini yerində oturdandan xoşuma gəlirsiz. Qısası, sizinlə ailə qurmaq istəyirəm, yəni, fikrim ciddidi. Üçüncü mikrorayonda üçotaqlı evim var, təzəcə remont elətdirmişəm. Siz hələ cavab verməyə tələsməyin. Hə, yadımdan çıxdı deyəm, adım Ramildi, Şərurdanam, nəqliyyat polisində işləyirəm. Oldu, mən gedim, biz hələ görüşəcəyik, – bunları deyib tələsik Leylidən aralandı.

“Görən, buna ərə gedə bilərəm?” O gündən bu sual Leylini girinc etməyə başladı. Ramil necə xoşuna gəlmişdisə, artıq ona ərə getmək barədə düşünürdü. Bir yandan da, oğlanın səsindəki əminlik Leylinin ərə getmək həvəsini gücləndirirdi. “Bircə kobud olmayaydı”, rəhmətlik ərindən çox çəkmişdi deyə, hardasa ehtiyat edirdi. Həm də qorxurdu ki, Ramil aldadar, gəzib-gəzib, axırda atar onu. “Elə də dərindən tanımıram axı... Amma nəysə şorgöz adama oxşamır,” – yavaş-yavaş xəyalən körpü atırdı Ramilə tərəf. “Üç otaq məndə, üçü də onda. Görən, hər ikimiz evləri satıb beşotaqlı novostroyka ala bilərik? İki yüz kvadratmetrlik. Ondansa, həyət evi almaq daha sərf eliyir. Bəs görən, uşaxlarından başqa kim qalır evlərində? Anası, ya bacısı?” Ərə getməyən yaşlı bacı, həyasız qayınana “versiyası” ağlından keçəndə üşənən kimi oldu.

Evə yaxınlaşanda, öz baldızları yadına düşdü. Əminiydi ki, onun ərə getmək istəyindən xəbər tutsalar, qırğın qopacaq. Yerinə girən kimi fantaziyası işə düşdü: yanında uzanan Ramilə qısılmaq istəyirdi ki, xəyalının başqa qapısından qəfil içəri girən kiçik qardaşı Yaşar, əlində bıçaq, gözləri, az qala, hədəqəsindən çıxmış halda başının üstündə peyda oldu. Heç nə demədi, eləcə baxışlarıyla çatdırdı: cürətin çatırsa, barmağının ucuyla toxun ona. Leyli qorxusundan Ramili xəyalından qovdu, dərindən nəfəs alıb dodaqaltı deyindi: "Tüpürəsən belə həyata ki, sənin hər addımını izliyirlər".

Ramilə ərə getmək istəyi baş qaldırandan bəri, ərinin ruhu sanki onu qarabaqara izləyirdi: rəhmətliyin şəklinə baxmağa çəkinirdi, gözləri divardan aşlına şəklə sataşanda, tez başını aşağı salırdı. Axırı, bir gün şəklin qabağında dayanıb, özündə cəsarət tapıb ürəyini boşaltdı: "Ay kişi, məni qınama, başa düş, dul olsam da, cavanam hələ. Getdin o dünyaya, məni əvvəlcə pensioner ananın ümidinə qoydun. Məcbur oldum səhərdən axşama qədər cəhənnəm istisində tər tökə-tökə peraşki, qutab bişirməyə. Mənim indi evdə oturub ər çörəyi yeyə-yeyə uşaqları böyütmək vaxtımdı, ona görə də ərə getməliyəm, başa düşürsən? Ona görə indidən sənə deyirəm, bir gün o kişiyə ərə getsəm, o biri dünyada məni döyməyəsən ha".

Qorxusu ikicə gün çəkdi. Üçüncü gün ərinin şəklinin qabağında dayanıb, acıq verirmiş kimi, dilini çıxardı, dilləndi: "Əvvəl-axır ərə gedəcəm, ay Qulu. Lap əcəb də eliyəcəm. O biri dünyada da heç nə eliyəməzsən mənə, çünki Allah mənim tərəfimdə olacaq, – əliylə sinəsinə vurdu. Sonra kiçik qardaşı yadına düşdü, fantaziyalarında Ramillə sevişməsinə işarə vuraraq, – Qaldı ki, Yaşar, sənə, yox bir, kənddə oturub ordan bura ürəyimdən keçənləri oxuyassan". Elə həmin gecə yerinə girəndə, xəyalən Ramilə qısıldı və əmin oldu ki, ertəsi gündən başlayaraq istədiyi qədər fantaziyalarında sevişəcək onunla. "Əşi, cəhənnəm olsun hamısı. Guya Yaşar arvadsız yaşayır?! O, gəzə bilər, mən ərə gedəmmərəm?"

Bir dəfə Bakıda yaşayan qohumu gecə işdən qayıdanda, sərxoş Yaşarı bir sürməli qadınla bardan çıxıb ləngər vura-vura köhnə "Opel"inə tərəf getdiyini görmüşdü. Qohum elə həmin gün atasına zəng edib məsələni çatdırmışdı. Yaşar kəndə qayıdanda, atası qaşlarını çatıb demişdi: "Bakıda nə qələt eliyirsən-elə, amma zibil xəstəliyə tutulub bizi kənddə biabır eləmə ha. Belə də ki, evlənmək vaxtındı". Yaşar susub qıpqırmızı qızarmışdı. Xülasə, bunu kişi arvadına, arvadsa Leyliyə danışmışdı. Bu xəbərdən bacı hətta daxilən qürrələnib ürəyində özünə demişdi: "Kişidi qardaşım"...

Ertəsi gün axşamüstü qapı döyüləndə, Leyli kefsiz ayağa durdu, baldızlarını heç görmək istəmirdi. Gözlükdən baxıb, qapının ağzında Ramili, yanında yaşlı və cavan qadını gördü, birinin anası, o birisinin isə bacısı olduğunu təxmin edən Leyli "Açım, açmayım?" sualının beynində çox var-gəl etməsinə imkan vermədi, cəftəni açıb çağırılmamış qonaqları içəri buraxdı.

Qadınlar Leylini illərdi tanıyırmış kimi, bərk-bərk qucaqlayıb o üzündən-bu üzündən öpdülər. Sonra hər şey öz axarıyla davam etdi, Leyli çay dəmlədi, masaya peçenye, mürəbbələri düzdü. Anasıyla bacısı məramniyyətlərini açıb dedilər, Ramili bir xeyli tərifədilər: ailə qədri biləndi, inan bizə, sənin balalarına da öz balaları kimi baxacaq, güldən ağır söz deməyəcək, amma bir xasiyyəti var, axşam işdən gələndə, gərək yeməyi hazır olsun. "Rəhmətlik atasına oxşuyub o barədə," – anası əlavə elədi.

Uşaqlar həvəslə qonaqlara diqqət kəsilmişdi. Oğlu yekə adamlar kimi sınayıcı, ciddi nəzərlərini potensial ataya dikmişdi, qonaqlar içəri girən kimi utandığından o biri otağa qaçıb gizlənən qızsa az sonra qayıdıb, gah çəkinə-

çəkinə, gah da təbəssümlə Ramilə baxdı. Söhbət edə-edə Leylinin ürəyi əsirdi, birdən baldızları gəlsə, onları qonaqlarla necə tanış edəcəkdi, qonaqlar gedəndən sonra qırğın qopacaqdımı. Tez də cavab tapdı. “Ramil fərasətli oğlandı, məni çətin vəziyyətdən çıxardar”.

İkinci stəkan çayı içəndən sonra Ramilin anası ayağa durdu, ərklə Leylinin qolundan tutub qırağa çəkdi:

– Hə, qızım, sən çox xoşuma gəldin. Ramilin sənə münasibəti ciddidi, özün gördün ki, biz yalançı adamlara oxşamırıq. Sözümün canı, səni öz gəlinim kimi görmək istiyirəm. Qızım Nailə, bayaq dediyim kimi, ərdədi, burda üçüncü mikrorayonda qalırlar. Mən Şərurda yaşıyıram, ildə bir dəfə Bakıya gələm, ya yox. Nailəni baldızın yox, bacın hesab elə. Bu həftə Bakıdayam, ona görə elə günü sabah zəng elə atangilə. Məsləhətdisə, gələn həftə lap sizin kəndə gedərik elçiliyə. Yox, əgər sizinkilər bura gəlsələr, onda lap yaxşı, elə bura gələrik.

Bir-birilərinə telefon nömrələrini verdilər, ayrılanda “Səndən sabaha xəbər gözlüyürük” deyən Ramilin anası, bacısı Leylini qucaqlayıb öpdülər.

Ramil məsələsi ortaya çıxandan Leyli ata-anasını, baldızlarını, kiçik qardaşını başının üstündə tavandan asılmış qılınclar kimi hiss edirdi. Hər gün Mehribana zəng edirdi. “Qalmışam belə, bilmirəm neyniyim” – sonda sözünün canı bu olurdu. Rəfiqəsi isə elə hey Leylinin beyninə yeridirdi ki, heç kimi vecinə alma, Ramil xoşuna gəlirsə, ərə get, qaldı ki, baldızlarına, onlar səni iki uşaqla evdən çıxara bilməzlər, cavan gəlinsən, sənə də, uşaqlarına da arxa-dayaq lazımdı, ona görə işində ol.

Rəfiqəsinin dedikləri yağ kimi canına yayılırdı, ruhlanırdı, amma telefonun dəstəyini yerinə qoyan kimi, kiçik qardaşının qəzəbli baxışlarını xəyalına gətirib vahimələnirdi. Elə bilirdi, rəfiqəsi dediyi kimi, heç kimi vecinə almayıb ərə getsə, baldızları dabanbasma özlərini yetirəcəklər ki, sən hansı ixtiyarla, hansı cürətlə doğma qardaşımızın, ölən ərinin evinə kişi gətirirsən, ay qızıxmış... Baldızlarıyla saçyolduya çıxmağı heç istəmirdi.

Axırı, özünü məcbur edib kəndə, anasına zəng etdi, hər şeyi təfsilatıyla danışdı. Anası arada səsi titrəyə-titrəyə, qızının sözünü kəsə-kəsə suallar verdi: “Sən necə onları içəri buraxdın?”, “Qonşulardan görən oldu?”, “Ay qızım, doğrudan ərə getmək belə ürəyindən keçir?” Cavabları eşidəndən sonra xısın-xısın gülüb dedi: “Vallah, nə deyim, özün də bilirsən ki, bizim evdə mən heç vaxt söz sahibi olmamışam. Gərək atanla, qardaşlarınla danışım, görək nə deyirlər”.

Anası axşam ehtiyatla, qorxa-qorxa məsələni açıb ərinə danışdı. Kişi matdım-matdım arvadına baxıb qəfil soruşdu: “Özü elə birdən-birə durdu dedi ki, ərə getmək istiyir?” – “A kişi, bu nə sualdı verirsən? Özü deməmiş, kim deyəcək?” Atası yenə susub-susub, axırda dilləndi: “İlin-günün bu vaxtı çox vacibdi iki uşaxnan ərə getsin? Otursun evində, onları böyütsün də. Hər halda, rəhmətlik ərinin evində yaşayır, üstəlik, hamımız bilirik ki, baldızlarının o evdə gözü var, onlara elə bir bəhanə lazımdı evi ələ keçirsinlər. Ona görə, lazım deyil közün üstünə neft tökmək”.

Ertəsi gün anası qızına zəng edib ərinin dediklərini çatdırdı, sonda “qardaşlarınla da bir məsləhət eliyərik” deyəndə, Leylinin dalağı sancdı, bildi ki, böyük qardaşı konkret bir söz deməyəcək. Kiçik qardaşı isə, yenə əlində bıçaq, başının üstündə dayanmışdı.

Axşam saat doqquzda balaca qardaşı Yaşardan zəng gəldiyini görəndə ürəyi qopdu, uşaqlar heç nə eşitməsin deyə, tez mətbəxə keçib qapısını örtdü. Başını bulaya-bulaya, nırç edə-edə yaşıl düyməni basıb telefonu qulağı-

na tərəf apardı. Yaşar salamsız-kəlamsız, hikkəli-hikkəli birbaşa mətləbə keçdi:

– Qulaq as, eşitmişəm, ərə getmək istiyirsən. Düz söhbətdi?

– ...

– Nə susursan? Cavab ver də!.. Onda qulaq as. Bax, eşidəm-biləm, o gədəyə ərə getmisən, Bakıya gəlib səni səkkizinci mərtəbədən atacam, başa düşdün?!...

Leyli davamını eşitmək istəmədi, söhbəti kəsib telefonu hirslə divanın üstünə atdı. Qardaşının növbəti zənginə cavab vermədi, bildi ki, "Niyə atboy verdin?" soruşacaq, axırda hədə-qorxu gələcək. Zəngsə davam edirdi...

Hələ subay vaxtlarında, ata evində Yaşarla tez-tez mübahisələri olurdu: çölə çıxma, ora baxma, bura baxma. Belə şeylərin üstündə aralarında qırğın olurdu. Anası oğluna təpinirdi: "sənə görə bacın evdə qalacaq. Başa düş, bu qız əvvəl-axır ərə getməlidi. Niyə ona zülm eliyirsən? Heç biriniz oxuyan zibil olmadız, qoy heç olmasa qız ərə getsin". "Eee, – Yaşar anasına etiraz etmişdi. – Camaat necə ərə gedir? Bəyəm hamısı çöldə sülənir? Arifin qızı Şəfiqəni ərə gedənə qədər sən, ya atam, heç çöldə görmüşdüz? Ya Əlizaminin qızı Elnarəni?" Anası razılaşmamışdı: "Sən bəyəm Şəfiqəylə Elnarəni bütün günü güdürdün ki, biləsən çölə çıxırlar, ya yox. İkincisi, Şəfiqə öz qohumuna ərə gedib, sənin bacına nə yaddan, nə qohumdan elçi gələn var".

Leyli bu cür söz-söhbətlərdən bezdiyindən, anasıyla Bakıya, bir qohumunun hüzrünə gedəndə, qonşu blokda yaşayan, onlar qalan evdən mağara stul daşıyan Quluyla tanış olub, dəhlizdə iki-üç dəqiqə şirin-şirin pıçıldaşandan sonra onun "Mənə gələrsən?" sualına tez başını tərpətməklə razı olduğunu bildirmişdi. Bu söhbətdən sonra bir həftə içində gizlincə telefonda danışmışdılar və Leyli maşınıyla rayon mərkəzinə gələn Quluya qoşulub Bakıya qaçmışdı.

Məsələdən xəbər tutan Yaşar evdə çığır-bağır salmışdı: "Bakıya gedib qızı da, oğlanı da tapıb doğruyacam! Bizi camaatın içində biabır elədi!". Sonra anasına təpinmişdi: "Koruydun?! Hara baxırdın?! Niyə Bakıda olanda imkan vermisən, qızın o gədəylə söhbət eliyib?!" On gün sonra oğlangil tərəfdən zənglər gəlmişdi: "Gəlin barışaq, onsuz da bir qız bir oğlanındı, üstəlik, bunlar bir-birilərini sevirlər". Leylinin anası telefonda demişdi ki, "kiçik oğlum hələ çox əsəbidi, bir az keçsin, sakitləşsin, biz deyəndə gələrsiz". Axırda barışmışdılar.

Bir müddət balaca qardaş bacısını dindirməmişdi, kəndə gələndə dilucu salam versə də, üzünə baxmamışdı, yan gəzmişdi ondan. Leylinin oğlu dünyaya gələndə, balaca dayı rəhmə gəlmişdi, yeznəsiylə tanış olmuşdu. Kənddəkilər şəhərdən gələnlərin şərəfinə quzu kababı bişirmişdi, tostlar deyilə-deyilə araq qədəhlərini toqquşdurmuşdular, nəhayət, Bakıda bacısının qabağına qoyduğu çayı içəndən sonra aralarındakı buzlar ərimişdi…

Az öncəki telefon danışığından sonra hirsindən və qorxusundan əsən, gözləri dolmuş Leyliyə elə gəldi ki, kiçik qardaşı onu elə o vaxt Bakıya qaçandan bəri bağışlamayıb, üzdə özünü barışmış kimi göstərsə də, hələ də nifrət edir ona və ikinci dəfə ərə getmək məsələsi ortaya çıxanda, həmin kin, hikkə vulkan kimi püskürüb çölə çıxıb. Qardaşını söyə-söyə telefonu götürüb, Mehribanı yığdı, salam-kəlamdan sonra keçdi əsas məsələyə:

– Bir az qabaq Yaşar zəng elədi, ağzına gələni dedi mənə. Dedi ki, o oğlana ərə getsən, kənddən gəlib səni səkkizinci mərtəbədən yerə ataram.

– Aaz, başını daşa döyür, qələt eləyir, – Mehriban güclə özünü "atabaatasıyla bir yerdə" deməkdən saxladı. – Xox gəlir sənə, heç nə eliyəmməz.

– Sən tanımırsan onu, dediyini eliyər.

– Nə istiyir e sənnən? Ay qız, yaşın otuzu keçib, gözünü yumub-açassan ki, yaş qırx oldu. Dayan görüm, o gicbəsər qardaşının neçə yaşı var?

– İyirmi altı.

– Ona sual ver ki, neyləməlisən sən? Deməli, bizim bu alçax kişilər gedirlər Rusiyaya, yüzüynən gəzirlər, aylarnan evə gəlmirlər, gələndə də arvadlarına yüz cür zibil xəstəlik salırlar. Amma dul, ya boşanmış arvad ərinə, qardaşına, qayınatasına, qaynına, nə bilim, yeddi arxa dönəninə görə ömürlük qarıyıb evdə oturmalıdır?...

Aaz, bilirsən, nəyə yanıb tökülürəm? Müğənnilər, aktrisalar istədikləri qədər sağa-sola gəzirlər, axırda bir varlı kişi tapıb ərə gedirlər, hələ bir təmtəraqnan toy da eləyirlər. Amma sənin kimi namuslu arvad ikinci dəfə, toysuz belə, ərə gedəmmir.

– Demə, demə.

– Deyirsən, qardaşının iyirmi altı yaşı var, mənnən yaşıddı da. Oğlan uşağıdı qardaşın? – istehzayla, bir az da bic təbəssümlə soruşdu.

– Hə, bu dəyqə. Hər dəfə Bakıya mal almağa gələndə, gecə özünü verir bardakı şortuların yanına. Anamın dayısı nəvəsi öz gözüylə görüb.

– Sən çox nahaq atboy vermisən qardaşına, sən ona sual verməliydin ki, ay qardaş, mən bəyəm pozğunluq eliyirəm, ya kiminsə aşnası oluram? Ərə gedirəm də, ay qanmaz.

– Ağzında “qanmaz” deyirsən, qanmaza nə desən, xeyri yoxdu.

– Nətəər əsəbiləşdim e, – dəstəyi qulağıyla çiyninin arasında sıxıb, iki əliylə özünü yellədi, püflədədi. – Sən belə elə, qardaşının telefonunu ver mənə, özüm onunla necə lazımdı danışacam... Yaxşı, bəs böyük qardaşın nə deyir?

– Əfəlin biridi. Ona nəsə deməyin xeyri yoxdu.

Yaşarın telefon zəngindən sonra Leyli həm kiçik qardaşına, həm də baldızlarına nifrət edirdi. Bir tərəfdən, baldızlarına olan nifrətinin necəsə üzə çıxmasını istəyirdi, başa düşürdü ki, məsələni açıb desə, lap sonda ərə getməsə belə, ürəyini boşaldıb azca rahatlanacaq. O biri tərəfdənsə, cəsarəti çatmırdı buna, bilmirdi hər şeyi özlərinə desin, yoxsa kiminsə vasitəsiylə çatdırsın. “Mehri elə rahat deyir ki, baldızlarını vecinə alma, – öz-özünə danışırdı, – elə bil asandı. Tutaq ki, günü sabah Ramilə ərə getdim və iş elə gətirdi ki, Ramil bu evdə olan gün baldızlarım bizə gəldilər. Onlara deməliyəm axı, bu adam kimdi, nəçidi. Nə qədər olmasa, bunların qardaşı evində qalıram”. Axırda baldızlarının xalasını bu işə qoşmaq qərarına gəldi. Əminiydi ki, ürəyiyumşaq, az-çox müasir düşüncəli bu qadına ürəyini açsa, bacısı qızlarını yola gətirməyi xahiş etsə, xala məmnuniyyətlə razı olacaq... Elə də oldu. “Hə, o nə sözdü? Gedib danışaram qızlarnan. Cavan gəlinsən, lap əcəb eliyib ərə gedirsən,” – Maral xala Leylinin xahişini yerə salmadı.

Bu arada Ramil tez-tez zəng edirdi: “Nə oldu bəs? Atangillə danışmadın?” Hər dəfə bir bəhanə gətirirdi Leyli: “Atam xəstədi, rayon xəstəxanasında yatır, ürəyi ağrıyır. Ona qətiyyən həyəcanlanmaq olmaz, anam deyir, hələ heç nə deməyək, qoy xəstəxanadan çıxsın, danışaram”. – “Ay qız, yalan danışma! – telefonun o başında Ramil hökmlə qışqırdı. – Bu dəyqə maşına minib gedərəm Cəlilabada, girərəm rayon xəstəxanasına!” – “Yox, yox, qurban olum, elə şey eləmə,” – səsi titrəyən Leyli ikili hisslər keçirdi. Bir yandan qorxurdu, bilirdi ki, Ramil dediyini edər, maşınına minib gedər onlara, aləm qarışar bir-birinə. Ən çox qorxduğu şey isə, Ramilin Yaşarla kəllə-kəlləyə gəlməsiydi. O biri tərəfdənsə, sevgilisinin ərklə, hökmlə üstünə qışqırması, qətiyyəti ona ruh verirdi. Ramil, Leylinin telefonda iki cümlədən bir, kəsik-

kəsik nəfəs almasından, arada naz atmasından hər şeyi hiss etdi, tez başqa tona keçdi: “Darıxıram səndən ötrü, gəl görüşək”. – “Hə, mən də səni görmək istəyirəm, – Leyli titrək səslə dilləndi: – Amma uşaqlar...” – “Uşaqları da götür, axşam saat altıda gəl Zabitlər bağına. Bir şey fikirləşərik”.

Bir şey fikirləşib tapdı Ramil, yolüstü uşaq mağazasından iki “samokat” aldı. Uşaqlar sevincək “samokatlarını” sürüb onlardan uzaqlaşan kimi, gözdən uzaq, skamyaların birində oturub doyunca öpüşdülər, sarmaşdılar bir-birinə...

Onlar öpüşüb əlləriylə bir-birinin bədənində gəzən vaxt Leylinin baldızları xalalarını divara dirəmişdi. “Nə danışırsan, ay xala? Başını daşa döyür! O ev qardaşımındı, orda yad kişi nəfəs belə ala bilməz,” – böyük baldız hikkəylə dedi. Sonra balaca baldız ortaya atıldı: “Buna bir bax hələ. Heç iki il keçməyib Qulunun ölümündən, ərə getmək istiyir”. Maral xala söz çatdırammırdı, qalmışdı iki bacının arasında: biri qurtarmamış, o birisi başlayırdı, arada səsləri qarışırdı bir-birinə. Bacıların son sözü bu oldu: Leyli ərə getməkdən ötrü ölürsə, zəhmət çəksin, evin açarlarını gətirsin versin bizə, kimə istəyir, ərə getsin, lap köçsün Afrikaya, neqrə ərə getsin... Axırda yenə xalalarını danladılar: ay xala, onu başa düşdük, bəs sənə nə düşüb, Əhmədlidən durub gəlmisən, yad bir qıza görə səhərdən qanımızı qaraldırsan? Ardınca yenə gəlinlərinin qarasınca danışdılar: bunun tülkülüyünə bax, özü bizə heç nə demir, sənin başını bişirib, bura göndərib. Maral xala yalandan and-aman etdi ki, Leyli ərə getmək məsələsini ona danışsa da, gəlmək istəyi özünün olub. Baldızlar inanmadı: xala, bizə yox də, uşaq deyilik axı.

Leyli parkdan qayıdan kimi, yataq otağına keçdi, qapını ehmalca örtüb, çarpayıya uzanıb rəfiqəsinə zəng etdi. Xoş-beşdən sonra Zabitlər parkında Ramillə görüşüb öpüşdüyünü dedi. Rəfiqəsi sevincək onu təbrik edib soruşdu: “Tez danış görüm, necə bişirdi səni?” Başqa suallara keçdi rəfiqəsi, Leyli heç nəyi gizlətmədi, əvvəlcə Ramilin əlini onun belinə dolamasından, kürəyini, boynunu, başının arxasını sığallamasından, qucaqlaşmaqlarından, nəhayət, öpüşməklərindən, az qala, huşunun başından çıxmağından həvəslə danışdı. Necə maraqla danışdısa, telefonun o başında Mehribanın nəfəsi daraldı, qulaq asa-asa ayağını, dizlərini sığalladı, illər öncə Pedaqoji Universitetdə heç vaxt barmağıyla toxunmadığı, amma sevdiyi, paralel qrupda oxuyan Nicatın ağuşunda təsəvvür etdi özünü. Bir-iki intim sual verib, cavablar alandan sonra Leyliyə dedi: “Sükanı belə saxla, baldızlarını, gicbəsər qardaşını, tək onları yox e, heç kimi vecinə alma”.

Ertəsi gün axşam Maral xala dilxor sifətlə Leyligilə gəldi, oturan kimi “Yox, yox, çay lazım deyil. Evdə içib gəlmişəm” dedi, qırımından Leyli pis xəbər eşidəcəyini anladı. Xala, bacısı qızlarıyla olan söhbəti danışandan sonra dedi: “Başıbatmışlar elə bil dünən kənddən gəliblər. Dedilər, ərə getmək istiyirsə, gətirsin açarları qoysun bizdə. – Leylinin dinmədiyini görüb köks ötürdü. – Ahh, kaş bacım sağ olaydı”. Son dediyi cümlənin süni alındığını özü də hiss etdi, yəni, bacım sağ olsaydı, əksinə, lap pis olardı kimi alındı və qəfil yaranan cansıxıcı sükut Leylini əsəbiləşdirdi, qonaq hiss etdi ki, getmək lazımdır. “Hə, qızım, mən yavaş-yavaş gedim,” – Maral xala bunu deyəndə, bir himə bəndiymiş kimi, Leyli ondan qabaq ayağa durdu. Qapının ağzında xala pıçıltıyla Leyliyə dedi: “Qızım, sən öz bildiyini elə. Demirsən, o oğlanın ayrıca evi var? Tüpür hər şeyə, lap açıq deyəcəm, tüpür bacım qızlarına, apar açarları tulla üstlərinə, onların acığına uşaqları göstərmə, telefon nömrələrini sal bloka. Oldu, Allah işini avand eləsin,” – deyib pilləkənlərlə aşağı düşdü. “Ev uşaqlarımındı e. Onlar da sənin doğma bacının nəvələridi...

Günah məndədi e, axı buna niyə deyirəm ki, Ramilin evi var?" – xalanın arxasınca baxa-baxa Leyli ürəyində dedi.

Divanda oturub fikrə gedən Leyli ürəyində əzazil qardaşını, ona dəstək olmayan ata-anasını, böyük qardaşını söydü. Kiçik qardaşına nifrəti o həddə çatmışdı ki, ürəyindən keçirdi Zabitlər parkında Ramillə öpüşməyini kimsə görüb ona çatdırsın, qardaşı da kənddən durub gəlsin, salsın onu təpiyinin altına, Leyli də qayıdıb üzünə tüpürsün və desin ki, əcəb eləmişəm, axırda qardaşı onu bıçaqlayıb öldürsün, canı qurtarsın hamıdan. Uşaqları yadına düşdü, "Rədd olsun e, hamısı" – pıçıldadı. Sonra səbəbsiz yerə rəfiqəsini söydü, axırda Ramilə də bir-iki pay düşdü. "Sən hardan çıxdın e? Hələ ki, dərddən başqa heç nəyə yaramırsan".

Rəfiqəsindən zəng gələndə, əvvəlcə deyindi. "Bax, nəyə zəng eliyirsən? Onsuz da heç nə eliyəmiyəssən", hiss etdi ki, danışsa, yüngülləşəcək, yaşılı basdı:

– ...Necə olacam? Pisdən də betər... Ehh, deyirsən də, Mehri, öz doğmalarım məni başa düşmürsə, səncə, necə ola bilərəm? – sonra qayınanasının bacısını bu işə qoşmasını, baldızlarının evin açarını istəmələrini rəfiqəsinə danışdı.

– Ay tupoy, baldızlarından nə gözlüyürdün ki? Mən axı yüz dəfə demisəm sənə, baldızların sənə heç nə eliyəmməzlər, qaldığın o ev qanunnan sənin uşaqlarına çatır. Sil onları həyatından, ay qız. Durub hələ adam göndərmisən ora. İndi əsas məsələ sizinkiləri yola gətirməkdi. Diqqətlə qulaq as, sənə bir əhvalat danışacam, məəttəl qalassan ki, necə kişilər olub bu həyatda. Deməli, hardasa yüz il əvvəl ulu nənəm Səkinə, ulu babam, kəndin axundu Yusiflə evliymiş, üç oğlu, dörd qızı varıymış bunların. Deməli, babam qırx iki yaşında Həcc ziyarətindən qayıdandan bir ay sonra xəstələnib düşür yatağa, nənəmi çağırır yanına, deyir, ay arvad, bir-iki günə, uzağı üç günə bu dünyadan köçəcəm. İndidən halallığımı verirəm, mən öləndən dörd ay sonra gedərsən dul Mirhaşıma ərə. Nənəm utandığından qıpqırmızı qızarır. Babam gülür, deyir, mənə də yox də, guya görmürəm, ürəyindəndi dediklərim. Nənəm buna qayıdır ki, ay kişi, ayıb olsun sənə, mən ərə getməyin hayındayam indi? Babam gülə-gülə deyir ki, indi demirəm, mən öləndən dörd ay sonra. Həmin Mirhaşım cavanlığında nənəmi sevirmiş, nəyəsə görə bunların evlənməyi alınmayıbmış, babam da bunu bilirmiş. Qısası, babam rəhmətə gedəndən altı ay sonra Mirhaşım ulu nənəmə öz bacısını elçi göndərir. Nənəm də abır eliyir, deyir qoy bir il keçsin, cavab verərəm. Qısası, bir ildən sonra Səkinə nənəm həmin kişiyə ərə gedir, ondan da iki oğlu, iki qızı olur. Sən təsəvvür elə, rəhmətlik nənəmin hər iki ərindən olan uşaqları ölənə qədər can deyib, can eşidiblər, bir dəfə də aralarında mülk, torpaq üstündə söz-söhbət olmuyub. İndi o gic qardaşın internet dövründə sənə deyir ki, qıfıllan, ərə getmə. Yox e, gedib sizinkilərin başına ağıl qoymasam, ürəyim partdıyar.

– Yaxşı, ay Mehri, çox ürəyindən keçirsə, get kəndimizə, get ağıl qoy onların başına.

Leyligilin kəndinə getməyə hazırlaşdığı bir vaxtda Mehribanın bacısının əri qəfil avtomobil qəzasında öldü...

Leyli də hüzrdəydi, ortaya qoyulmuş cənazənin ətrafında oturub arvadlarla bir yerdə ağlayır, sıtqayır, susur, ölən əzizləri yadına düşəndə, yenə hönkürtüylə ağlayanlara qoşulurdu. Arada Mehribanın dul qalmış bacısına baxıb fikirləşirdi görən, bir azdan bu da mənim kimi ərə getməkdən ötrü əldən-ayaqdan gedəcək. Sonra rəfiqəsinə göz atdı, ona elə gəldi, Mehriban "Evlənim, yoxsa hələlik subay qalım?" sualının qarşısında aciz qalıb, fikirləşir

ki, Leylinin əri öldü, iki uşaqla ərə getmək istəyir, gic qardaşı imkan vermir, indi bacım dul qaldı, görək, bir gün ərə getmək istəsə, qaynı, qayınatası, qayınanası nə hoqqalar çıxardacaq.

Bacısı ərinin qırxından on gün sonra Mehriban Cəlilabada yola düşdü. Avtobus yerindən tərpənəndən Leylinin yaxınlarına hansı cümləni, sözü hansı tonda demək lazımdı, buna qədər fikirləşdi. “Adil dayı. (Leylinin atası) Yox, alınmadı... Adil dayı... Eeh, yenə alınmadı, – yanında heç kim oturmamışdı deyə, özüyçün rahat məşq edirdi. – Sözləri elə deməliyəm, bu taxtabaşlar başa düşsünlər ki, qızları mütləq ərə getməlidi. Adil dayı... Aha, alındı. Siz hansı zəmanədə yaşıyırsız? Siz başa düşmürsüz ki.... Uy daa, nə Adil dayı? Leyli demişdi axı, aləmi bir-birinə qatan balaca qardaşı Yaşardı...”

Mehriban, çiynində çanta, sağ əlində hədiyyələrlə dolu paket, Leyligilin həyətinə girəndə, baltayla odun yaran iricüssəli cavan oğlan şəhərli qıza diqqətlə baxdı.

– Sən Mehribansan? – oğlan salamsız-kəlamsız soruşdu.

– Hə, – utana-utana cavab verən Mehriban “Bu, yüz faiz həmin qardaşıdı.” – fikirləşdi.

– Xoş gəlmisən, keç içəri, – ərklə, ciddi-ciddi belə deyib Yaşar baltayla odunu yardı.

– Kim var evdə?

– Keç, keç, içəridə adam var, – baltanı başının üstünə qaldırdı.

Mehriban tez-tez pilləkənlərlə yuxarı qalxdı, qapıya çatanacan gözünü ondan çəkməyən Yaşar həvəslə əllərinin içinə tüpürüb, baltanı çaldığı odundan çıxardı.

Zibeydə xala Mehribanı bağrına basıb o üzündən, bu üzündən marçamarç öpüb, “Ay qızım, xoş gəlmisən,” – deyə-deyə divanda yer göstərdi. “Yəqin Leyli zəng eliyib, gəlməyimi xəbər verib,” – Leyli ani fikirləşdi. Zibeydə xala “Nə əziyyət çəkmisən, qızım?” – deyib şokolad, peçenyelərlə dolu paketi götürdü, mətbəxə tərəf getdi, qonağın qeyri-iradi dediyi “Əziyyət deyil, xoşdu” sözlərini eşitmədi. Mehriban otağa göz gəzdirməyə başladı. “Mebel şkafı elə də ucuz deyil. Amma pol...” Döşəmə rəngi getmiş taxtadan idi. “Belə götürəndə, kənd yerində pol parketdən olmasa da olar”. Bu vaxt Yaşar içəri girdi.

– Anam hanı? – qaşlarını çatıb soruşdu.

Mehriban əliylə mətbəx tərəfi göstərdi. “Qaşlarına bax bunun, guya indi bu ciddidi”.

– Leylini görürsən? – Yaşar həminki qaşqabaqla soruşdu.

– Hə, görürəm hərdən.

– Bə niyə zəng eləmir mənə?

Mehriban mənalı-mənalı çiyinlərini çəkdi, bir növ, işarə vurdu ki, doğma bacındı, özün fikirləş, gör niyə zəng eləmir.

– Yenə gic-gic danışır?

– Nə? – üzünü turşudan Mehriban o dəqiqə bildi Yaşar nəyə işarə vurur.

– Ərə getmək-zad istiyir.

– Nə olar ki, ərə gedəndə?

– Qələt eliyir, qız bir dəfə ərə gedə bilər.

– İki dəfə də gedə bilər, – Mehriban səsini qaldırdı.

Bu vaxt Zibeydə xala, əlində sini içəri girdi. Mehribana dediyini yeridə bilməyən Yaşar hirslə başını bulayıb həyətə çıxdı. Az sonra çöldən hikkəli balta zərbələrinin səsi gəldi. Mehriban tez pıçıldadı:

– Ay xala, Leyliyə görə Bakıdan vurub bura gəlmişəm e, – qorxa-qorxa qapıya baxdı.

– Leyliyə görə niyə, a bala? Nə olub Leyliyə? – anasının rəngi ağardı.

– Yox, yox, ay Zibeydə xala, narahat olmuyun. Heç nə olmuyub, – yenə qapıya baxdı, hərçənd, Yaşar hələ də odun yarırdı. – Niyə imkan vermirsiz qızınız ərə getsin?

– Qorxdum e, dedim görən nə olub. Axx, Leyli, ömrün boyu keçi kimi tərslik elədin. Demək, səni bura göndərib ki...

– Yox, ay xala, əksinə, neçə vaxtdı deyirdi ki, getmə. Öz istəyimnən gəlmişəm. Axı nə pis iş tutur ki, Leyli? Niyə imkan vermirsiz yazıx qız öz həyatını qursun?

– Deyirsən də. Yaşı otuzu keçib e. Üstəlik, iki uşaxla nə məcburdu bu yaşda ərə gedə?

– Məcburdu, çox məcburdu.

– Sən özündən danış, ay Mehriban. Sən niyə ərə getmirsən?

– Ay xala, mənə görə narahat olma. Mən gec-tez ərə gedəcəm.

– Neçə yaşın var?

– Ay xala, yenə deyirəm, mən ərə gedəcəm, – sualdan cırnadı, – sən Leylidən danış.

– Çayını iç, soyudu, – Zibeydə xala incik-incik dedi.

– İçirəm, – candərdi bir qurtum alıb gözlərini Leylinin anasına dikdi, yəni, qızının xeyrinə danış, onun-bunun təsirinə düşmə.

– Qızım, yenə deyirəm, mən bu işə razı deyiləm. Birincisi, bizim nəsildə indiyə qədər belə bir şey olmuyub. Ana nənəmin iki oğlu, iki qızı olub, babam gedib Böyük vətən müharibəsində ölüb, orda da basdırıblar. Amma nənəm uşaqlarını böyüdüb, özünü elə aparıb ki, nə müharibə vaxtı, nə də müharibədən sonra kənddəki kişilər o qadının zəhmindən üzünə belə baxmağa qorxublar.

– Ay Zibeydə xala, yaxşı ki, bunu danışdın. Qoy o birilər də gəlsin, mən sizə bizim nəsildə olan bir hadisəni danışacam. Görərsiz, necə kişilər olub.

– Yaxşı, de görüm, Leyli neyniyib ki, oğlan nəslini yığıb töküb gətirib o evə?

– Ay xala, nəslini gətirmiyib, oğlan anasıyla, bacısıyla bir yerdə gəlib ki, Leyliylə tanış olsunlar.

– Deyirəm də, Leyli üz göstərib onlara. İfritə baldızları bəhanə axtarırlar ki, evi ələ keçirsinlər. İndi bunun ərə getməyinin yeridi heç?

– Yeridi, niyə yeri deyil? Baldızları qələt eliyir, o ev qanunla Leyliyə çatır, çünki uşaxların atası Quludu.

– Qanunla, – istehzayla dedi. – Sabah məhkəməyə puldan basarlar, qanun olar baldızlarının tərəfində.

– Elə şey yoxdu, dərəbəylik-zaddı bəyəm? Ehh, ay Zibeydə xala, mən elə bilirdim, bu evdə yenə siz məni başa düşəssiz. Sizə güvənib gəldim, Leylinin xoşbəxtliyi üçün.

– Leyli xoşbəxtdi də. Gül kimi balaları var. İndi Allahın işiydi, əri cavan getdi. Sən çayını içmədin, onda gedim... – ayağa durdu.

– Yox, nə çay, nə də yemək, – önündəki stəkanı əliylə itələdi. – Küsdüm sizdən.

Zibeydə xala xısın-xısın güldü:

– Yox, ay qızım, elə demə, indi sənin ərə gedən vaxtındı. Qaldı ki, Leyliyə, bu evdə üç kişi var, bir ərim, iki oğlum. Onlar da mənim kimi razı deyillər bu işə. Yaşar heç razı deyil, – qorxa-qorxa qapıya baxdı. – Nazim, böyük oğlum burda deyil, arvadıyla qonşu kəndə bir qohumumuzun qırxına gedib. Nəysə, mən gedim yeməyi gətirim.

Zibeydə xala ayağa durub mətbəxə keçdi, az sonra qapı açıldı, Yaşarla atasıydı.

– Ay xoş gəlmisən, qızım, – Adil kişinin gur səsi otağa yayıldı.

Mehriban ayağa durub ona tərəf getdi. Qucaqlaşıb doğmalar kimi öpüşdülər.

– Ana! – Yaşar qışqırdı.

– Həə! – mətbəxdən anasının səsi gəldi.

– Yemək nə oldu?!

– Hazırdı, indi gətirirəm!

O dəqiqə hiss olundu ki, Yaşar özünü Mehribana göstərməkçün anasıyla belə danışır. Masaya yaxınlaşıb sərt hərəkətlə stulu çəkib oturmağıyla da eyni şeyi çatdırmaq istədi. “Özünü mənə göstərir,” – Mehriban fikirləşdi.

Az sonra Zibeydə xala buğlama dolu məcməyiylə içəri girdi. Masaya xiyar-pomidor gələndə, Adil kişi dedi ki, qonağımızın şərəfinə sabah günortaya quzu kəsib kabab bişirəcək. Mehriban elə həmin axşam Leylinin ərə getməyi məsələsində onları yola gətirib, səhər rayon avtobusuyla Bakıya qayıtmağı nəzərində tutmuşdu. Başını aşağı salıb narahat-narahat ət tikələrindən, kartofdan yeyə-yeyə, “Görən bir şey alınacaq?” sualının əlində girinc qalmışdı.

– Qızım, – Adil kişi dilləndi, – Leyli bizə demişdi ki, sən məktəbdə işliyirsən, düzdü?

– Hə, dil-ədəbiyyatdan dərs deyirəm.

– Lap yaxşı. Uşaqlar dərs oxuyur, yoxsa boş-boş avaralanırlar?

– Oxuyanı da var, siz demişkən, avaraçılıq eliyəni də.

Mehribana elə gəldi ki, Adil kişi vaxt öldürməkçün bu sualları verir, əslində isə, qonağın Leylidən söz salmağını istəyir. Mehriban özü də səbirsizlənmişdi, bir yandan da Yaşarın onu gözləriylə yeyən baxışlarından sıxılırdı. Həyəcandan avtobusda məşq etdiyi cümlələr yadından çıxmışdı.

Nəhayət, masaya çaylar, şirniyyat gəldi və ilk qurtumdan sonra Mehriban ürəyində “Ya Məhəmməd, ya Əli” deyib dilləndi:

– Mənim əzizlərim, – sifəti allandı, bunu hiss edib duruxan kimi oldu.

Üstəlik, evdəkilərə “Mənim əzizlərim” sözləri qəribə gəldi nədisə, ona qəribə-qəribə baxdılar. Qovuşan boğazını arıtlayan Mehriban davam etdi:

– Bayaq Zibeydə xalaya da dedim, mənim bura gəlməkdə məqsədim bacım kimi çox istədiyim rəfiqəm Leylinin ailə xoşbəxtliyinə nail olmaqdı. Bilirəm, bu evdə bir az narazılıq var, heç istəmirəm buna görə kimisə qınıyam. Amma çox istiyirəm biləsiz ki, Leylinin yenidən ailə qurmasına doğrudan ehtiyac var. Sizə asan gəlməsin, iki uşaq böyüdür. Uşaqların ata qayğ...

– Bir dəyqə, – bayaqdan fısıldayan Yaşar sözünü kəsdi. – Uzatmaq lazım deyil. Bildik bura niyə gəlmisən. Uşaxların atası ölüb, bundan sonra o uşaxların atası ola bilməz.

– Niyə? – Mehriban soruşdu. – Nə olar ki uşaqların atası olanda?

– Ona görə ki, uşağın bir atası olur, doğma ata. Yad kişidən ata olmur. Necə ki ögey ana olur, o cür də ögey ata olur, başa düşdün?

– Yox, başa düşmədim. Ona görə ki, elə ögey atalar, analar var, doğma ata-analardan geri qalmırlar. Hələ elə olur, onlardan yüz dəfə yaxşı...

– Eee, elə bil məktəbdə uşaqlara dərs deyirsən. Sizin rayonda ola bilsin, belə şeylərə adi baxırlar. Amma nə bizim kənddə, nə də nəslimizdə hələ indiyə qədər belə bir şey olmuyub ki, əri ölən, iki uşağı olan arvad təzədən ərə getsin. Heç boşanan bizdə ərə getmir, o ki qala dul arvad. Bir də, hardan bilirsən, ikinci dəfə ərə gedən xoşbəxt olur?

– Ona görə ki, bacın tanıyır o oğlanı.

Yaşar sərt nəzərlərini anasına zillədi, yəni, bu nə danışır, "o oğlanı tanıyır" nədi, olmaya, qızın görüşür oğlanla. Mehribansa məzəmmətlə Adil kişiyə baxdı, yəni, niyə susursuz, bir söz deyin də, əsas, siz danışmalısız indi. Anasının sifətində isə "A bala, bayaq sənə dedim axı, mən kiməm ki, bu evdə nəsə deyim?" yazılmışdı. Mehriban əsəbindən ürəyində "Bura gələndə ayaqlarım qırılaydı" qarğışı elədi özünə, sonra yenə Adil kişinin sifətinə baxdı. Bu baxışlara bəndiymiş kimi, kişi dilləndi:

– Ay qızım, sən ki mənim qızıma görə Bakıdan bura gəlmisən, tək elə buna görə sağ ol düşür sənə. Bundan sonra nə vaxt gəlsən, qapımız üzünə açıqdı. Gəlib istədiyin qədər qala bilərsən bizim evdə. Məni əmin, Yaşarı qardaşın, Zibeydəni xalan hesab edə bilərsən. Qaldı ki, Leylinin təzədən ailə qurması məsələsinə. Əvvəla onu deyim ki, Leyli gözümün ağı-qarasıdı. O, doğulanda...

"Off, elə bil, leksiya oxuyur zalım oğlu," – Mehriban tıncıxdı. Adil, qızının doğulmasından, böyüməsindən, fərasətindən, tərbiyəsindən, amma vaxtilə Quluya qoşulub qaçmasına görə evdə qanqaraçılığa səbəb olmağından, oğlan nəvəsi doğulandan sonra onu bağışlamağından on dəqiqə danışıb keçdi əsas məsələyə:

– ...Biz qızımızın təzədən ailə qurmasına yaxşı baxmırıq. Birincisi, bizim dədə-baba adətimizə uyğun deyil. Yaşar bayax dedi, yəqin Zibeydə xalan da deyib, – arvadı "hə" mənasında başını tərpətdi, – bizim nəsildə uşağı olan boşanmış arvad bir yana, hələ uşaqlı dul arvadın durub arsız-arsız ərə geməyi ümumiyyətlə olmayıb.

– Ay dayı, arsız-arsız ərə getmək nədi? – Mehriban bu dəfə dözəmmədi, səs tonunu qaldırdı. – Ərə getmək niyə arsızılq olsun ki?

– Mən ikinci dəfə ərə getməkdən danışıram.

– Bildim. Amma istənilən halda...

– Bir dəyqə, qızım, sözümü kəsmə. İkincisi, lap deyək, qızım günü bu gün ərə getdi. Sən, ya mən hardan bilirik ki, o adam nəvələrimə atalıq edəcək?

– Yaxşı, hardan bilirsiz ki, etməyəcək?

– Yaşar bayaq dedi: çünki ögeydi. Üstəlik, kişinin özünün iki uşağı var, üstəgəl, iki nəvəm. Deyirsən də, dörd uşağa baxmaq, özü də şəhər yerində, asan məsələ deyil.

– Lap yaxşı, bir yerdə böyüdərlər uşaqları. Leyli onlara ana olar, Ramil də nəvələrinizə ata. Bir də, bayaqdan elə ögey, ögey deyirsiz. Bəyəm eşitməmisiz ki, mehriban ögey ataları olur?

– Ay qızım, olur e, amma yüzdən bir, mindən bir.

– Hardan bilirsiz, bəlkə elə Ramil yüzdən bir yaxşı olanlardandı?

– Ee, – Yaşar müdaxilə etdi. – İki dəyqədən bir onun adını çəkmə burda.

– Adı Ramildi də, – Mehriban təəccüblə Yaşara baxdı, – Bəs nə deyim, Famil deyim?

– Adını çəkmə, oğlan de, gədə de, – Yaşar dedi.

Mehriban, nəhayət, son vasitəyə əl atdı: başladı, həvəslə, bir az da əsəbi halda, – əsəbiliyinin səbəbi heç kimi dediklərinə inandıra bilməməsiydi, – ulu babasının ölümqabağı ulu nənəsinə Mirhaşıma ərə getməyə halallıq verməsindən, ulu nənəsinin ərinin vəsiyyətinə əməl etməsindən, anabir övladların bir-biriylə mehriban olmaqlarından danışmağa. Adil kişi sıxılırdı, sanki qonağın ulu babasının yerində özünü hiss edirdi, hiss olunurdu ki, söhbətin tez bitməsini istəyir. Arvadı isə boynunu büküb çaşqın halda gah ərinə, gah da oğlunun hirsli, arada lağlağı təbəssümlü sifətinə baxırdı. Bircə

dəfə Mehriban anabir övladların bir-biriylə mehriban olmalarından danışanda, Zibeydə xala xəfif təbəssümlə "Həə, lap yaxşı," – dedi, amma oğlunun sərt baxışlarından çəkinib tez ciddi sifət aldı. Bu söhbət bitəndən sonra Adil kişi narazı-narazı dilləndi:

– Nəysə inanmağım gəlmədi. Nə vaxt olub bu danışdıxların?

– Hardasa on doqquzuncu əsrin sonlarında. İnanmırsız deyəndə, bizim nəsildə, elə kənddə də bunu bilməyən yoxdu, – Mehriban ümidli gözlərini Adil kişiyə zillədi, elə bildi, nəhayət, onun fikirlərində nəsə dəyişiklik baş verəcək.

– Nənən heç düz eləmiyib, – Yaşar dilləndi. – Nə olsun əri elə deyib? Gərək ərə getməyəydi, – qonağın ulu nənəsini məzəmmət edirmiş kimi, başını bulayıb yenə dedi: – Heç düz eləmiyib.

Mehriban bu sözləri eşidəcəyini gözləmirdi deyəsən, diksinən kimi oldu, Adil kişini əvvəlcə gülmək tutdu, qonağın pərt olduğunu görüb aranı yumşaltmaq istədi:

– Yaşar, hər yerin öz adəti var, onlarda belədi, bizdə başqa cürdü, – halbuki, az əvvəl belə bir şeyə inanmadığını demişdi.

Yaşar qəfil gözlərini qıyıb müəmmalı-müəmmalı qonağa baxdı, bu baxışlardakı gizli ehtirası hiss edən ətli, pəmbə dodaqlı, badamı gözlü Mehriban ani fikirləşdi: "Yüz faiz; dodaqlarım xoşuna gəlib". İçindən giziltili bir qorxu keçən qonağa elə gəldi ki, Yaşar bu gecə onu qaçırdacaq. "Ona görə gözlərini bic-bic qıyır, beynində plan cızır". O dəqiqə qərarını verdi: səhər lap tezdən oyanıb sakitcə əkilmək, özünü rayon avtovağzalına çatdırmaq.

Axşam saat doqquzuydu, artıq başqa şeylərdən danışırdılar, Leylinin ərə getmək məsələsinə heç kim qayıtmaq istəmirdi. "Atan, anan necədi? Anan yenə işləmir? Qardaşın evləndi?" kimi suallara candərdi cavab verən Mehriban lap tezdən oyanmaqçün tez yatmaq istəyirdi.

– Ay arvad, qızın yerini Leylinin otağında salarsan, – deyib Adil kişi ayağa durdu, üzünü qonağa tutub dedi. – Nə istəyin olsa, çəkinmə, xalana de, – çölə çıxdı.

Mehriban yerində qurcuxdu, "Ömründə orda yatmaram". Elə həmin andaca təsəvvürünə gətirdi ki, yuxuda olanda, Yaşar dostlarıyla bir yerdə o yatan otağa girir, ağzını yumub, əl-qolunu kəndirlə bağlayıb onu qaçırdırlar. Bu səhnədən diksinən Mehriban tez Zibeydə xalaya dedi:

– Xala, mənim yerimi öz yanında salarsan, yaxşı?

Yaşar hirsli-hirsli onun üzünə baxdı, qonaqsa guya bu baxışları sezmədi.

– Tək qorxursan yatmağa? Leylinin otağı düz bizim otağa bitişikdi, – Zibeydə xala dedi.

– Hə, qorxuram, – səsində əsəblə qorxunun qarışığı hiss edildi.

– Onda kişiyə deyərəm, Yaşarla yuxarıdakı otaqda yatarlar.

– Xala, avtobus məni yaman yorub, mümkünsə, yerimi elə indi salardın.

– Yaxşı, qızım, – Zibeydə xala ayağa durdu.

Mehriban da ayağa duranda, Yaşar dilləndi:

– Bir dəyqə, sən otur. Bir-iki şey soruşacam.

Mehriban bildi nə eşidəcək, ayağa durmaq istəsə də, qorxdu, ya hipnoz vəziyyətinə düşdü, nədisə, oturdu, özünü bilməməzliyə vuran baxışlarını Yaşara zillədi. Zibeydə xala isə dayanıb şübhəylə oğluna baxdı, yəni, hər şeyi danışdıq qurtardıq, daha nə sualın ola bilər ona.

– Sən niyə dayandın? – Yaşar qeyzlə anasına dedi. – Get qızın yerini aç da.

Anası heç nə demədən getdi, o biri otağa girən kimi Yaşar gözlərini Mehribana zilləyib dedi:

– Mənə gələrsən?

– Yoxx, – hikkəylə cavab verdi. “Başı işləmir e bunun”.

– Niyəə?

– Elə.

– Kəndçiyəm, ona görə?

– Heç şəhərli olsan da, gəlməzdim sənə.

– Niyəə?

– Elə. Heç ağlının ucundan belə keçirmə. “Zəhrimaar, ə-ni uzatmağına bax”.

– Dükanımı satıb, gəlib Bakıda ev alaram, öz evimiz olar.

– Lazım deyil, öz evim var.

– Bəlkə fikirləşəsən.

– Ehtiyac yoxdu. “Nə tüpürüləsi sifəri var bunun”.

– Səbəbini de də. Niyə gəlməzsən mənə? Çirkinəm, şikəstəm, nəyə görə...?

– Artıq suallar verirsən e, – Mehriban ayağa durub yeyin addımlarla yatacağı otağa tərəf getdi, arxadan eşitdiyi “Bir dəyqə dayan!” sözlərinə reaksiya vermədən, addımlarını sürətləndirdi.

Yerinə girən kimi Mehriban beynində plan cızmağa başladı. “Saat beşdə dururam, sakitcə paltarlarımı geyinirəm, sumkamı götürüb, barmaqlarımın ucunda evdən çıxıram, kənddə bir maşın tapıram, yiyəsinə artıqlamasıyla pul verib altının yarısına özümü çatdırıram rayon avtovağzalına. Bakıya ilk çıxan avtobusa minirəm, yəqin saat altıda çıxar o avtobus... Arvad yuxudan oyansa, deyərəm ki, ayaqyoluna gedirəm”.

Zibeydə xala otağa girəndə, Mehriban tez gözlərini yumub özünü yuxuluğa vurdu. Zibeydə xala dərindən köks ötürüb “Yaşını da demədin, ay qız. Sən ərə getməlisən e, Leyli yox,” – deyindi...

Avtobus artıq rayondan çıxmışdı, başını pəncərəyə söykənib yuxuya gedəndə, – gecəni yarıyuxulu, yarıoyaq keçirmişdi, – tanımadığı nömrədən bir neçə dəfə dalbadal gələn zənglərə cavab vermədi, təxmin etdi ki, zəng edən Leylinin anası ola bilər. “İmkan ver gözümə yuxu getsin də. Durub təzdən kəndə qayıdası deyiləm ki?” – ekranda nömrəyə baxa-baxa deyindi. Az sonra Leyli zəng etdi:

– Ay qız, hardasan?!

– Avtobusda, Bakıya gəlirəm.

– Təcili zəng elə anama, səhərdən sənə zəng eliyir, niyə götürmürsən? Arvadın ürəyi partdadı.

Mehriban könülsüz Leylinin anasına zəng edib yalandan dedi ki, telefon çantasında olub deyə, gələn zəngləri eşitməyib. “Səhər həyətə çıxdım təmiz kənd havası alam, evdən zəng gəldi ki, anamın vəziyyəti ağırdı, təcili Bakıya qayıt, mən də sizi narahat eləməməkçün evə qayıtmadım, birbaşa getdim rayon avtovağzalına,” – xəbərsiz-ətərsiz evdən çıxmağının “səbəb”ini dedi.

Yol gedə-gedə Mehriban öz-özüylə danışırdı: “Yazıx Leyli, o vaxt da səni Qeysə vermədilər, yüz illər keçib, indi də atan, qardaşın gic-gic səbəblər gətirib səni Ramilə vermirlər”. Sonra özünə sual verdi ki, Yaşarın ona gözü düşməsəydi, söhbət necə alınardı. “Daha cəsarətli olardım”, az sonra başqa qənaətə gəldi. “Onda söhbət lap qısa olardı. Yaşar yəqin yumruğunu masaya vurub deyərdi ki, uzatma söhbəti, bacım ikinci dəfə ərə gedə bilməz, vəssalam”.

Bakıya çathaçatda Leylinin anasından yenə zəng gəldi. “Ee, indi nə istiyirsən?” – əsəbi-əsəbi deyindi.

– ...Hə, Zibeydə xala... Anam?... Həkim çağırıblar, iynə vurub, təzyiqini salıblar,... İndi yaxşıdı... İnşallah, gələn dəfə Leyliylə bir yerdə gələrəm... Hə, elə onda quzu kababı yeyərik... Yoo, incimək nədi, ay xala?... Sağ olun...

"Ay hay. Quzu yox e, ceyran kababı versəz belə, qələt eliyərəm bir də sizin kəndə ayaq basaram". Sonra Yaşar yadına düşdü. "Ögey ata, ögey ata deyir, dalınca da sırtıq-sırtıq durub mənə eşq elan eliyir."

Ertəsigün axşamüstü rəfiqələr "28 Mall"dakı "Mado" restoranında görüşdülər, ofisiant sifarişləri yazıb aralanan kimi, Leyli altdan-altdan rəfiqəsinə sınayıcı nəzərlə baxıb dedi:

– Qardaşım sənə vurulub.

– Sənə uje zəng eliyib deyib? Heç ağlına gətirməsin, özünə də dedim.

– Deyir, ərə getməyimə o vaxt razı olar ki, sən ona ərə gedəsən, – hələ də həmin sınayıcı nəzərlə rəfiqəsinə baxırdı. Bu baxışdan cırnayan Mehriban əsəbiləşdi:

– Nooldu? Bəs dünənə qədər qardaşın səni asıb-kəsirdi, adətdən, namusdan dəm vururdu? Mənə vurulan kimi, dediyi o müqəddəs adətlər bir dəyqənin içində yoxa çıxdı?

– Belə götürəndə... Sən də özünə görə düz deyirsən. Yaxşı, onda sənə bir sual verəcəm, amma söz ver ki, düz cavab verəssən.

– Hə, ver görək sualını, – Mehriban könülsüz dedi.

– Bax, təsəvvür elə, Yaşar mənim qardaşım deyil, mən də sənin padruqan deyiləm. Sənə sevgi elan eləsəydi, onda nə deyərdin?

– Ay qız, qardaşın xoşuma gəlsə, deyərdim ki, xoşuma gəlir də. Durub bunu səndən gizlətmiyəcəydim ki? – isterik halda güldü. – Qəribə suallar verirsən e.

– Söhbətdi də, eliyirik, – Leylinin sifətinə dərin kədər çökdü və qəfil gülümsədi: – Amma öz aramızdı, səndəki bu dodaqlar var, oğlan olsaydım, mən də sənə vurulardım, – güldü.

– Şitdiyindən qalmırsan da... Sənin söhbətini eliyəndə, anan mənə qayıdasan ki, niyə ərə getmirsən. Tay özünə deyəmmədim ki, elə bu cür şeylərə görə yüz dəfə fikirləşirəm, kimə ərə gedim, hardan yaxşı ər tapım. hara çönürsən, dəlixanadı. Bir şeyi heç cürə başa düşəmmirəm. Axı, bu qardaşlar niyə bacıları məhz ikinci dəfə ərə gedəndə qarınağrısına düşürlər. Yəni, ərə getmək belə pis şeydisə, onda elə birinci dəfə ərə getmək məsələsi ortaya çıxanda, yumruqlarını stola vurub, yox desinlər də bacılarına.

Leyli küt-küt ona baxdı, yəni, fikrini tutmadım.

– Deməli, – Mehribanın ürəyi doluydu, – məktəbimizdə Yasəmən adında məllimə var, fizika dərsi deyir, göyçək də qızdı. Qız deyəndə, iki oğlu var, biri elə bizdə, dördüncü sinifdə oxuyur. Deməli, dədəsi vaxtilə bu Yasəməni axmax bir qohumuna ərə verib, yeddi il it-pişik kimi yaşayandan sonra boşanıblar. İndi əri həftə səkkiz-mən doqquz buna vatsapa yazır ki, eşidəmbiləm ərə getmisən, gəlib dərini soyaram.

– Niyə də, niyə?

– Ay qız, sən mənə bu sualı verirsən? Sənin gic qardaşının tayıdı da. Bunnar xəstədi, havalanırlar keçmiş arvaddarını başqa ərin altında təsəvvür eliyəndə. Ehh, yüz dəfə sənnən danışmışıq bunu.

– Bəs o məlliməyə nə məsləhət verirsən?

– Deyirəm, gözəl-göyçək qızsan, xasiyyətin də ki, qızıl. Deyirəm, feysbukda bir türklə tanış ol, ərə get, qaç get bu xarabadan, – ona qəribə-qəribə baxan Leyliyə dedi. – Deyirəm, türk sənin kimisini əlinin içində saxlayacaq. O Ramil olmasa, sənə də eyni şeyi...

– Yox, yox, Türkiyə mənlik deyil. Üçotaqlı evi qoyub hara gedəcəm?...

Yaşar başlamışdı Leylini dəng etməyə, hər gün zəng edib deyirdi ki, Mehribanı dilə gətir, inandır ki, ona yaxşı ər olacam, kənddəki dükanımı, maşınımı satıb gəlib Bakıda ev alacam, köçəcəm şəhərə. Bacısı isə heç cürə qardaşını başa sala bilmirdi ki, bu qızın səndən xoşu gəlmir, özünü məcbur edib sənə ərə gedəsi deyil. İkincisi, onun sənin evinə ehtiyacı yoxdu. Yaşar “Onda sən də heç vaxt ərə getməyəssən” deyəndə Leyli odlanırdı: “Bilirsən nə var? Əcəb eliyir sənə ərə getmir, səni özünə kişi kimi yaraşdırmır! İyrənir səndən, başa düşdün?!” Dalınca telefonu keçirdib, hirslə divana atıb demişdi: “Uxxaay, nə yandırdım səni. İndi zəng elə, görüm necə zəng eliyirsən”.

Səhərisi bacı-qardaş yenə telefonda bir-birini qırmışdılar və söhbətin sonunda Yaşar demişdi: “Onda ərə getməyi ağlına gətirmə”. Leylininsə “Görərik... görərik” deməyə gücü çatmışdı. Əsəbləri kəlləçarxa çıxanda, ürəyində rəfiqəsini söyürdü: “Səni görüm ər üzünə... Yazıxsan... Sənə dedim axı, kəndə getmə. Öz bildiyini elədin, beşqat oyun açdın başıma”.

Qulağına çatmışdı ki, qardaşı dostlarıyla Bakıya gəlib Mehribanı qaçırtmaq istəyir. Anasına zəng edib demişdi: “Yekəbaş oğluna de, özünü yığışdırsın ha. Sabah o, artıq-əskik hərəkət eləsə, iş polisə, məhkəməyə gedib çıxsa, birincisi, mənim başım ağrıyacaq. İkincisi, məhkəmədə Yaşarın üzünə duranlardan biri lap elə mən olacam, iki gündən bir zəng eliyib baş-beynimi aparmağını deyəcəm. Mehribanın başından bir tük əskik olsa, məhkəmədə deyəcəm ki, bu işdə əsas günahkar qardaşımdı. O ki mənim həyatımı zəhərlədi, qoy gedib bir az türmədə yatsın, görsün adamın həyatını zəhərləmək nə deməkdi”.

Kefinin pis vaxtında böyük baldızının oğlu Elsevərdən vatsap profilinə mesaj gəldiyini görən Leyli əvvəlcə təəccübləndi, “Sən hardan çıxdın?” – öz-özünə deyindi...

İyirmi yeddi yaşlı Elsevər Nisənin ilk, həm də sevimli nəvəsiydi. Məktəbi əla qiymətlərlə bitirib altı yüz doxsan balla BDU-nun tarix fakültəsinə daxil olmuşdu. Dördüncü kursda, paralel qrupdakı sələfilərə qoşulandan sonra tarixçi olmaq arzusundan əl çəkmişdi. İbadətlərə vaxtı-vaxtında əməl etmək, sinəyə qədər saqqal buraxmaq-filan öz yerində, dinə təzə-təzə gələndə, evdəkilərlə tez-tez mübahisələri olurdu. “Niyə namaz qılmırsız? Niyə oruc tutmursuz? Qiyamət günü Allah Sübhanə və Təalənin qarşısında nə cavab verəssiz?” Atasını evə qonaq gələn qohum, ya dostlarıyla bir yerdə araq içdiyinə, anasıyla on səkkiz yaşlı bacısını hicaba keçmədiyinə görə günlərlə, aylarla danlamışdı. Mübahisələrin birində atası oğlunun qulağının dibinə bir şapalaq ilişdirəndən sonra, evdə hərə öz bildiyi kimi həyatını sürməyə davam etmişdi.

Evdəkilərlə ikinci həngaməsi indi evli olduğu qızla toyu ərəfəsində baş vermişdi... Bakalavr diplomunu alıb “Sədərək” ticarət mərkəzində işləyəndən bir müddət sonra, dindar dostugilin evlərində dostunun bacısını görüb vurulmuşdu ona. Elçilik problemsiz baş tutmuşdu, Elsevərin evdəkilərlə qırğını toy ərəfəsində olmuşdu. Atası araqsız, konyaksız nişana razı olsa da, toy məsələsində iki ayağını bir başmağa dirəmişdi ki, stolun üstündə, araqdan tutmuş pivəyə qədər, bütün spirtli içkilər olacaq, kişilər arvadlarla bir yerdə istədikləri qədər oynayacaqlar. Elsevərsə demişdi ki, yaxşı, arvadlar, kişilər bir zalda otursunlar, milli rəqslər oynasınlar, amma diskoteka, medlenni rəqs, bir də, masalarda spirtli içkilər olmasın, üstəlik. “Üstəlik, zövcəm toyda iştirak eləmiyəcək. Mən özüm iki saat oturub çıxıb gedəcəm,” – lap axırda bunu demişdi. Atası razı olmamışdı, axırı, ata-bala yarıxoş, yarızor son

nəticəyə gəlmişdilər: iki toy baş tutmuşdu, – bir atasının elədiyi dünyəvi, – yemək, limonadlar və kompotlarla dolu masanın arxasında oturan bəylə gəlin başlarını aşağı salıb toyun axırına qədər ağızlarına heç nə almadığı, başqa masalarda spirtli içkilərin bol olduğu toy, o birisi isə Elsevərin öz puluyla, dindar dostlarının çağırdığı musiqisiz, rəqssiz, cürbəcür yeməklər, limonad və meyvə şirələriylə bol olan, hədis və dini rəvayətlərin söylənildiyi dini toy.

Evlilikdən hardasa beş il sonra Elsevər ikinci arvad almaqdan söz salanda, zövcəsi səsini başına qaldırmışdı. “Elə şey ola bilməz. Evlənməmişdən qabaq elə danışmamışdıq”. – “Nəyi danışmamışdıq? Mən Quran ayəsinə tabeyəm, sən nəyə etiraz eliyirsən?” – əri ona demişdi. İş az qala, boşanmaya gedib çıxanda, Elsevərin atası yenə yumruğunu masaya vurmuşdu: “Ay bala, boşanmaq nədi? Birincisi, sənin o qədər pulun var ki, ikinci arvad saxlıyasan? İkincisi, üç yaşında qızın var, gedib təzə arvad alassan, ondan da bir uşağın olacaq, gərək ona da atalıq edəsən, bu şeylər sənə çox asan gəlir?” – “Ağ eliyirsən e, sən. O vaxt toy işimə qarışdın, tüpürdüm öz əqidəmə, haram toya razı oldum. İndi ailəmi özüm saxlıyıram, yenə hər işimə qarışırsan. Olmaz axı belə,” – oğlu etiraz etmişdi.

Eyni zamanda, “Müsəlmanın ailəsi dağılanda, Allahın ərşi titrəyir” hədisindən xəbəri olan Elsevər boşanmağa o qədər meyilli deyildi. Amma “Boşanmaq Allahın bəyənmədiyi halaldı” hədisindən xəbəri varıydı deyə, bir uşaqla belə (“Artıqlamasıyla alimentini verərəm” – fikirləşirdi), arvadını boşamaq arada ağlından keçirdi.

...Leyli axırı, Elsevərin vatsapına yazdı: “Nə məsələdi?” – “Gəl, sabah görüşək. Ciddi söhbətdi. Sənin xeyrinə”. “Mənim xeyrimə? Evimi anan sənin adına keçirmək istiyir, yəni sizdən adama xeyir gələr?” – öz-özünə deyinən Leyli yazdı: “Sabah günorta saat 2-də “Gənclik”dəki “Bazarstor”un qabağına gələ bilərsən?” – “Hə, gələrəm inşaallah”.

Ertəsi gün danışdıqları saatda, yerdə görüşdülər. Salam, necəsən-lər, uşaqlar necədirlər-dən sonra Elsevər sifətinə ciddi, bir az da ağayana ifadə verib dedi:

– Leyli, niyə səni narahat elədim? Sənə evlənmək təklif eliyirəm, elə bilirəm, bu...

– Nə? – Leyli sərt baxışlarını Elseverə zillədi. – Başın xarab olub? Nə danışırsan sən?

– Sən mənə naməhrəmsən.

– Ay uşax, nə naməhrəm? Buna görə məni çağırmışdın?

– İyirmi yeddi yaşında uşax olmur. Bir də, sən guya çox böyüksən? Heç qırx yaşın yoxdu.

– Əşi mənim yaşımın sənə dəxli yoxdu, amma mənimçün sən həmişəlik uşaxsan. Off, deyirəm də, sizinkilərdən adama xeyir gəlməz.

– Nə xeyir? Ev məsələsini deyirsənsə, bizim evdə mən həmişə sənin tərəfini saxlamışam. Demişəm, o ev sənə çatır, mənə yox. Allaha and içirəm ki, bizim evdəki söhbət belə olub. – Elsevər bu sözləri həvəslə, ehtiraslı bir ümidlə dedi, elə bildi, bununla Leylidə özünə qarşı rəğbət oyadacaq və sonda söhbət onun istədiyi kimi alınacaq.

– Hə, sağ ol, – Leyli duruxan kimi oldu, dilucu dilləndi. – Amma...

Bundan ruhlanan Elsevər “amma”dan sonraya imkan vermədi:

– Yenə deyirəm, Qurana görə, sən mənə naməhrəmsən, yəni, mən sənlə evlənə...

– Yenə başladın e, – Leyli başını buladı.

– Həm də sevirəm səni, – tez başını aşağı saldı ki, Leylinin ona yazığı gəlsin.

– Aa, sən ağ eliyirsən ha. Dayının ruhu sənə qənim olsun, – gözlərini bərəltdi. – Qənim olsun!

– Qənim olmaz. Allah mənim tərəfimdədi.

– Allahın adından danışma. Sənin dediyin bilirsən nəyə oxşuyur? Elə bil, mən gedib arvadı ölmüş dayıma deyirəm ki, vurulmuşam sənə, gəl məni al.

– Yox, sən deyən ayrı şeydi. Mən sənin baldızının oğluyam, get Quranı aç, oxu da.

– Bir dəyqə dayan, – sağ əlini qaldırdı. – Allaha da qurban olum, Qurana da. Amma sən dediyin şeylər mənim beynimə girmir, başa düşdün? Sağ ol, – deyib Leyli sürətli addımlarla ordan uzaqlaşdı.

– Sən, hər halda, bir həftə fikirləş! – Elsevər ardınca qışqırdı.

– Heç bir gün də fikirləşmərəm! Bir gün yox e, bir saat da fikirləşmərəm, – Leyli addımlarını sürətləndirdi. "Əslində, bir dəyqə deməliydim," – deyinə-deyinə, əsəbdən səpmiş sol qolunu qaşıya-qaşıya metroya girdi. Vaqona girib oturandan başladı dodaqaltı Elsevəri, baldızlarını söyməyə, ona yönələn "Bu dəlidi?" yazılmış baxışları vecinə almamağa çalışdı.

Axşamsa mətbəxdə öz-özüylə danışırdı: "Axmağın biri axmax. Bunun bicliyinə bir bax; ev məsələsində mənim tərəfimi saxlıyıb. Gözüm aydın. Hə, mən sənə ərə gedəcəm, sən də sonra başımı piyliyib evi öz adına keçirəssən. Yüz faiz anasıyla xalasının planıdı. Yuxunuzda görərsiz. Bir də, lap tutaq ki, evi qanunla öz adıma keçirdim. Heç onda da sənə ərə getmərəm axı. Bunların iştahına bir bax".

– Ay mama, kimə elə hirslənmisən? – böyük oğlu anasının həyəcanlı səsini eşidib hövlnak özünü yetirdi.

– Heeç, ay bala, bir serial yadıma düşdü, ordakı bir aktyoru yamsılıyırdım, – zorla gülümsədi.

– Hansı serial? Hansı aktyor? – diqqətlə anasına baxdı.

– Hmm, nəydi adı? – Leyli əliylə alnını ovuşdurdu. – Yadımdaydı... Bir dəyqə...

– Elə serial göstərmirlər. Sən niyə Ramil əmiyə ərə getmirsən? – düz anasının gözlərinin içinə baxdı. Leyli sualdan diksinən kimi oldu, sonra ah çəkib dedi:

– Ehh, ay bala, imkan verirlər ki?

– Kim imkan vermir? Yaşar dayı? Mən onnan danışaram, – oğlu yekə kişilər kimi qaşlarını çatdı.

– Nə danışassan, a bala? O, söz başa düşür? – anası acı-acı gülümsədi, eyni zamanda, sevindi ki, Mehribandan sonra oğlu onun ərə getməsini bu cür ürəkdən istəyir.

– Ərə gedirsən də, burda nə pis şey var ki? Yaşar dayı qələt eliyir, mən sabah babaya zəng eliyib....

– Ay mənim kişi balam, – oğlunun başını sinəsinə sıxaraq saçlarını tumarlamağa başladı. – Heç kimə zəng eləmə. Baban da elə o ağıldadı. Mən özüm... – doluxsundu, səsi titrədi, – həll edərəm... inşallah, – oğlunun saçlarından öpdü.

Gecə yerinə girəndə, bir anlıq baldızı oğlunu əri yerində təsəvvür etdi. "Üəəə, – əti çimçəşdi. – Allah ağıl versin sənə, ay Elsevər," – deyib köks ötürdü. – Atam istədiyimə vermədi məni, anam qorxağın yekəsi. Nə də ki, qardaşlarımdan yarıdım. Başdanxarab Elsever də bu yandan çıxdı".

Səhər mətbəxdə çaydanı qazın üstünə qoyanda, vatsapına mesaj gəldi. Oxuyan kimi ekrana tüpürüb dedi: "Nə alçaq gədəymişsən sən". Elseveriydi, "Mən hər halda sənə pis şey təklif eləmirəm, Allaha and olsun, dinimizin

buyurduğu kimi, sənə qarşı ədalətli olacam, uşaqlarına necə lazımdı atalıq eliyəcəm" – yazmışdı. Leyli hikkəylə fısıldaya-fısıldaya, barmaqlarıyla ekranı bərk-bərk döyəcləyib kontaktlar yazılan yerə girdi, Elsevərin anasının nömrəsini tapıb yaşılı basan kimi (zəng getməmiş) tez qırmızını basdı. "Əşi, buna niyə deyirəm e? Həyasız adamdı, yalandan üzümə durub deyər ki, sən özün nə qələt eləmisənsə, oğlumuzun gözü düşüb sənə... Axx, dəli şeytan deyir, Elseverin nömrəsini ver dəli qardaşıma, Bakıya gələndə, buna bir-iki kəlmə ağır söz deyə". Sonda Elsevərin nömrəsini bloka saldı...

"Sən nə istiyirsən e?" – Leyli ekrana baxıb mızıldandı. Zəng edən kənddəki rəfiqəsi Nazlıydı. Leyli bildi ki, Nazlı söhbəti hərləyib-fırlayıb axırda Vaqifin üstünə gətirəcək, ekrana baxa-baxa deyindi: "Az, lap tutaq ki, Vaqif Maraldan boşanıb. Mən tək ərə getməyin dərdindən durub bundan sonra kəndə qayıdacam?" Hərçənd, Vaqifə hissləri közərən ocaq kimiydi, tam sönməmişdi. Ramilə isə hisslə yox, daha çox ağılla ərə getmək istəyirdi.

Leylinin Vaqiflə evlənməməyinin səbəbi nəsil düşmənçiliyi idi, – hardasa yüz il əvvəl bunların ulu babaları otlaq sahəsinin üstündə mübahisə eləmişdilər, söyüş üstündə Vaqifin ulu babası belin iti yeriylə Leylinin ulu babasının başına zərbə vurub öldürmüşdü onu və o vaxtdan iki nəsil olmuşdu qan düşməni. Sevgi məsələsindən xəbər tutanda, Adil kişi qızına demişdi: "Vaqifi ömürlük unut getsin. O nəsildən gələn elçiləri evə yox e, heç həyətə buraxmaram". Leyli də çar-naçar razılaşmışdı atasıyla.

Kənddən zəng edən Nazlı sözarası həvəslə deyəndə ki, Vaqif son vaxtlar Maralla yola getmir, qırırlar bir-birini, Leyli onun sözünü kəsdi: "Bunnarı mənə danışma, maraqlı deyil". Rəfiqəsi təəccüblə: "Nəmm, dedim bəlkə..." – davamını demədi. Bu söhbətdən sonra onlar bir də Vaqifdən söz salmadılar.

Mehribanın Neftçilər xəstəxanasında həkim işləyən dul bacısının qaynı isə qardaşının qırxından hardasa beş-altı ay sonra gəlindən "narahat" və "muğayat" olmağa başladı. Muğayatlılığını artıq sübut etmişdi, – dul gəlinlərinə təzə "Mersedes" maşını almışdı, arvadıyla ona mesaj göndərmişdi ki, heç kimə ərə getməsin, öz məntiqiylə rəhmətlik qardaşının qeyrətini çəkirdi. Arvadı kəşfiyyatçı kimi ayda bir dəfə dul eltisinə zəng edirdi: neyniyirsən, ay bacı, uşaqlar necədi, arada guya sezdirmədən "Nə yenilik var?" soruşurdu. Dul elti isə guya qaynı arvadının əsil niyyətini başa düşmürmüş kimi, "köhnə hamam, köhnə tas" deyib ürəyində onu söyürdü. "Ay şpion, nə vecinə? Ərin yanında, qayğın-dərdin yox. Deyə də bilmirsən ki, mənim onsuz da ərə getmək fikrim yoxdu, ona görə ərinə çatdır ki, məni güddürməyə ehtiyac yoxdu".

İndi Mehribanın iki düşməni varıydı, – biri Yaşarıydı, o birisi isə bacısının qaynı. Bir yandan da dul bacısının acizliyinə əsəbiləşirdi. "Sənin qaynını bu əllərimlə boğaram, amma birinci səni boğmaq istiyirəm, ay bacı". – "Məni niyə?" – böyük bacı qəribə-qəribə ona baxmışdı. – "Ona görə ki, sənə indi "Mersedes" yox, ər lazımdı. Apar qaytar maşını özünə. Şükür Allaha, o cür tanınmış xəstəxanada həkimsən, istəsən, pul yığıb iki maşın ala bilərsən özünə. Qaynından heç bir asılılığın da yoxdu, o kimdi ki, sənin şəxsi işinə qarışır?" – üzünə demişdi. "Az, boş-boş danışma, – bacısı cavab vermişdi. – Mən rəhmətlik Mübarizə görə ərə getmirəm, qaynımdan qorxduğuma görə yox. Mən sabah başqasına ərə getsəm, elə bilirəm, Mübarizə xəyanət eləmişəm. Onda gərək bəri başdan götürəm toy, ailə şəkillərimi yandıram, disklərimi sındırıb atam zibil yeşiyinə. İkincisi, yenə deyirəm, get öz həyatını qur, bu gün-sabah otuz yaşın olur. Sənin ərə getmək vaxtındı, mənim yox".

Mehribanın keçmiş iş yoldaşı Yasəmən feysbukda türkiyəli iş adamı Haluk bəylə tanış olub dörd-beş ay gecə-gündüz yazışmışdılar, axırda bir-birini

bəyənib evlənməyə qərar vermişdilər. Ata-anasından başqa heç kimə xəbər vermədən, işdən çıxmaq ərizəsi yazmadan, uşaqlarıyla bir yerdə gecə İstanbula uçmuşdu...

"Çox xoşbəxtəm, bacı. İstədiyim yar idi, yetirdi pərvədigar," – bir ay sonra Mehribana zəng edib demişdi. Ərə getdiyi kişinin ipək fabriki varıydı, İstanbulda arxası meşəyə baxan üçmərtəbəli bir villada qalırdılar. Bir dəfə Mehriban zarafatla ona yazmışdı: "Ay yetim abla, görmədiyin günlərin dadını çıxart. Mənə də ordan bir iyi eş tap də, noolar, ay paxıl. )))" – "Qurbandı sənə eş. Darıxma, sənə yaxşı bir eş tapacam inşallah." – Yasəmən cavab yazmışdı.

Leyli artıq sexdə işləmirdi, evdə şəkərburadan tutmuş cürbəcür tortlara qədər bişirib marketlərə satırdı, əvvəlkindən qat-qat çox pul gəlirdi əlinə. Sürücülük vəsiqəsi almaqçün avtoməktəbə gedirdi, ilin axırına kreditlə "Nissan Tida" almaq varıydı planında.

Tüpürmüşdü hər şeyə, nə ata-anası, nə də əzazil qardaşı vecinəydi. Həftədə iki-üç dəfə nahar vaxtı sevgilisinə dəyirdi, – onda hər ikisinin uşaqları məktəbdə olurdu, – bir saat-filan bir-birinə doyunca həzz verib, həzz alırdılar. Arada Ramillə molla kəbini kəsmək ağlından keçmişdi, amma xəbərin kəndə gedib çatacağından qorxmuşdu deyə, vaz keçmişdi istəyindən. Və hər dəfə Ramillə sevişəndən sonra həzzdən bədəni süstləşən Leyli ürəyində əzazil qardaşına deyirdi: "Bir qram belə özümü günahkar bilmirəm. Ramil məni sevir, mən də onu özümə halal ər bilirəm". Oğluyla qızı həmişəki kimi "Ana, heç kimə fikir vermə, ərə get Ramil əmiyə. Qoy bizim də atamız olsun" deyəndə, Leyli yenidən kəbin barədə düşünürdü. Axırı, bir gün Ramillə bunu məsləhətləşmək qərarına gəlmişdi. "Mən hazır, ay qız. Günü sabah gedək Təzəpirə, molla kəbini kəsək," – sevgilisi demişdi. Yenə atası, əzazil qardaşı yadına düşmüşdü, əl-qolu yanına düşmüşdü Leylinin. Evlənmək istəyən Yaşarsa sanki Allahın qəzəbinə tuş gəlmişdi: Mehribandan sonra xoşuna gəldiyi iki qızdan (öz kəndlərindən) "yox" cavabı almışdı deyə, hirsindən zəncir gəmirirdi, boş şeylərin üstündə evdə tez-tez dava salırdı, atasıyla anasının "Gəl sənə əmin qızı Sevdanı alaq", "Gəl sənə xalan qızı Təzəgülü alaq" variantlarını isə yaxın buraxmırdı. Bacısına zəng edib "O qız yenə mənə yox deyir?" soruşanda, "O, ömründə sənə "hə" deməyəcək, bunu ömürlük sırğa elə, as qulağından" cavabımı almışdı.

Ümidini üzməyən Elsevər bir dəfə Leyliyə başqa nömrədən zəng etmişdi, Leylisə onu söyüb-qarğıyıb o nömrəni də bloka atmışdı. Baldızoğlu, Leylidən əlini üzsə də, öz beyninə yeritmişdi ki, mütləq başqa bir dul, ya boşanmış alıb savab qazanmalıdı, ona görə başlamışdı, o cür arvadları arayıb-axtarmağa.

Bir vaxtlar Yaşardan gələn zəngləri geri çevirib, nömrələrini bir-bir bloka atan Mehribansa, hələ də istədiyini tapa bilmirdi. Artıq Leylinin gizli, tammetrajlı sevgi görüşlərindən xəbəri varıydı, ona telefonda "Ay qız, bəs mən o vaxtdan sənə deyirdim ki, işində ol, heç kimi vecinə alma. İndi gördün, axırda mən haqlı çıxdım?" Danışıb qurtarandan sonra Mehriban öz-özünə "Yaşar, əcəb oldu sənə, vaxtında qoymadın bacın halal yolla ərə getsin, indi sən deyəndən betəri baş verir", – demişdi.

***26 noyabr 2016 – 6 dekabr 2020,***
***Bakı***

# ♦ Poeziya



*Musa ƏLƏKBƏRLİ*

**İNDİ SƏN HAMININSAN**

***Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevə***

Ali Baş Komandanım,
İndi sən hamınınsan.
Rəssam fırçasınınsan,
Şair ilhamınınsan.

Bütün dünya eşidir
İndi qalib səsini.
Adına ünvanlayır
Bəstəkar bəstəsini.

İndi xalqın yanında
İki deyil bir sözün.
Qarabağdan başlayır
Ali sözün, pir sözün.

Adına məktub gəlir
Aranından, dağından.
Başı uca çıxırsan
Tarixin sınağından!

O məktubun hər biri
Qarabağa sevgidi.

Bu ağrı çox uzandı,
Bu döyüş çox ləngidi!

Otuz il sən çalışıb
Qalib ordu yetirdin.
Yağıların işini
44 günə bitirdin!

Yenilməz güc sahibi,
Məğrur bir sərkərdəsən.
Ən uca məqamdasan,
Ən möhtəşəm yerdəsən!

Sənin Qarabağ sevgin,
Sənin Vətən istəyin.
Vurğusuna dönübdür
Yurdunda hər ürəyin!

Xalqın bir yumruq kimi
Cani-dildən birləşib.
Yerişi vüqarlanıb,
Addımı mətinləşib!

Vətənimdə hər kəsin
Sənə dikilib gözü.
Səndən gözləyir ancaq
Açıq sözü, şax sözü.

İndi sən hamınınsan,
İndi hamı sənindi.
Sarsılmaz birliyimiz
Bu şanlı Vətənindi!

## XUDAYAR TƏSNİFİ

***Xalqımızın şəhid oğlu Xudayar Yusifzadənin xatirəsinə***

Vətənin bağrından qopan nəğməsən,
Qanına, ruhuna hopan nəğməsən.
Öz şah amalını tapan nəğməsən,
Gəzəcək yurdunu nəğmən Xudayar.
Hər gün kövrələcək, hər gün dolacaq,
Ağrıyla, göynəklə yadda qalacaq,
O cavan ömrünə rəğmən, Xudayar.

Bu təsnif zirvələr, dağlar təsnifi,
Allahın yanına çatdı bir əli.
Ağladan təsnifin, ağlar təsnifin
Könüllərə köçən nəğmə heykəli!..

Ölümsüz etdiyin nəğmədi ömrün,
Dinər zaman-zaman nəğmən Xudayar.
Şimşək qırmancına çevrilər səsin
Döyər, döyəcləyər bizi budayar...

Onu özün kimi oxuyan hanı?
Adındı, səsindi, özündü nəğmən.
Vətəndi, Vətənin bir parçasıdı,
Vətən sevgisinə özüldü nəğmən!
Ölümsüz etmisən sən o nəğməni,
O nəğmə əbədi yaşadar səni!

Qoy məndən uzaqda göynəsin qələm,
Ocaqda qoymusan əlimi, oğul.
Nə desin, nə yazsın, neynəsin qələm,
Nəğmən öldürdüsə ölümü, oğul?!

Neçə ki Vətən var, Azərbaycan var,
Dinər pərdə-pərdə nəğmən Xudayar.
Neçə ki mənim də canımda can var,
Səsindən alışar, odlanar sinəm.
Gözümdə göllənər bu qürurlu qəm,
O cavan ömrünə rəğmən, Xudayar!

Xudayar! – Vətənin qurbanı oğul,
Sən o təsnifinə ayrı rəng verdin.
Onun hər xalına, zənguləsinə
Qırılmaz, pozulmaz bir ahəng verdin.

O sənin balandır, çıxacaq önə,
Sənli yanğısını bölüşəcəkdir.
Vətən dara düşsə, hayqırıb yenə
Cəsur əsgər kimi döyüşəcəkdir!

**ANALAR, ŞƏHİDLƏR...**

Dərdin paylanıbdır obaya, elə,
Tarix bu yaranı unudan deyil.
Bu günün qələbə sevinci belə
Gözünün yaşını qurudan deyil.

Batdı gözlədiyin nişanı, toyu
Bir daha sən onu görməyəcəksən.

"Anan ölsün" deyib bir ömür boyu
Məzarı üstündə göynəyəcəksən.

Nələr çəkdiklərin Tanrıya bəlli,
Qaysağı yaranın dərini verməz.
Nə mahnı, nə şeir, heç bir təsəlli
Sənə öz oğlunun yerini verməz.

Qəlbiniz həsrətdən oda düşəndə
Gedin Qarabağa siz axın-axın.
O şəhid oğlunuz yada düşəndə
Murova boylanın, Şuşaya baxın.

Silinməz bu ağrı, bitməz bu səfər,
Yolun çox uzundur şəhidim, sənin.
İki min səkkiz yüz səksən bir nəfər
Şəhid anası var indi Vətənin.

Qəlbindən silinməz, getməz bu kədər,
Sizi zaman-zaman anacaq onlar.
Şəhid balasına yandığı qədər
Doğma Vətəninə yanacaq onlar.

İgidlər önünü kəsdilər şərin
Açıldı Vətənin qolu, qanadı.
İki min səkkiz yüz səksən bir nərin
İndi bir kəlmədə boy verir adı!

Şəhidlər – nur verən Günəşə, Aya,
Şəhidlər, tarixə dönən şəhidlər.
Şimşək yanğısıyla gəlib dünyaya,
Şimşək alovutək sönən şəhidlər!

Yarımçıq ömürlə bütöv getdiniz,
Bu yurdda günəşlə, ayla tənsiniz.
Siz canı Vətənə fəda etdiniz,
İndi hər biriniz bir Vətənsiniz.

Sizə ağı deyib öyən analar,
Qəlbimi yer-yerdən qanadır indi.
"Oğul, anan ölsün" deyən analar
Anamız Vətənə anadır indi!

## SINDIRMA

Səndən özgə kimsəyə yox gümanım,
Tanrım, məni bu yaşımda sındırma.

Dözülməzdi başımdakı tufanım,
Bu ölçüsüz təlaşımda sındırma.

Yerdən-göydən kəsilməsin əlacım,
Dərdim çoxdu, tükənməsin ilacım.
Qol bükülüb, kara gəlmir qulacım,
Kənək qozu gəl başımda sındırma.

Dolaylanma, mənzilinə kəsə var,
Ruzumdan yox, gəl ömrümdən kəs, apar.
Ovunmağa ötən gündən nəsə var,
Barı onu yaddaşımda sındırma.

Sən seçdiyin bir guşədi ürəyim,
Səs-sədanı çox dinşədi ürəyim.
Çat-çat olan bir şüşədi ürəyim,
Onu çalıb yad daşında sındırma.

Neçə ömrə yetərlidi bu qəmim,
Mən dünyaya gələcəyəm yenəmi?!
Hədəf seçib dağ-dağ olan sinəmi,
Dağ oğlunu dağ başında sındırma.

Harda gəzim o köhləni, o atı?
Əlim çatmaz, göy uzaqdı, yer qatı.
Gözəllikdən pay aldığım ovqatı
Qocalıqla savaşımda sındırma.

**BAYRAQLAŞAN AZƏRBAYCAN**

*İlhamıma qanad verir,*
*Yurdumun bayraq sevgisi.*
*Bu sevgiyə həyat verir*
*Ordumun torpaq sevgisi.*

Yerin-göyün tələbiylə,
Dindi Koroğlu təbiylə.
Cilovlanmış qəzəbiylə
Aşıb-daşan Azərbaycan!

Otuz il yol qət elədi,
Sülh naminə cəhd elədi.
Sonda zirvə fəth elədi
Dağlar aşan Azərbaycan.

Yağı solunda, sağında,
Ərdi namərd qabağında.

Döyüşür öz torpağında
Haqqa nişan Azərbaycan.

Heyfin qara şərdə qalmaz,
Bir qalmışdı, bir də qalmaz.
Heç bir zaman yerdə qalmaz
Günahsız qan, Azərbaycan!

Al heyfini, düşməndən al,
Qaniçənə qələbə çal!
Oba-oba, mahal-mahal
Bayraqlaşan Azərbaycan!

Var gücünü elə cəmlə,
Zəfər yazsın qoy son həmlə.
Yenilməzsən Türkiyəmlə
Qoşalaşan Azərbaycan!

Yarat zəfər ehtişamı,
İlhamlandır sən İlhamı!
Bir ağızdan desin hamı:
Canımsan can, Azərbaycan!
Qoy dünyaya örnək olsun
Bu şərəf-şan, Azərbaycan!!!

## ŞÜKÜR BU GÜNƏ Kİ...

***Sökür ürəyimi dərd dağım-dağım,***
***Tanrım, bitəcəkmi görən bu zillət?!***
***"Gün o gün olsun"a qalıb torpağım,***
***"Gün o gün olsun"a qalıb bu millət!***

***(Ötən əsrin doxsanıncı illərində yazdığım şeirdən)***

Ansaq başımızdan ötüb-keçəni,
Bir dua vird etdik illərdən bəri.
"Gün o gün olsun"la yatdıq gecəni,
"Gün o gün olsun"la açdıq səhəri.

Yollarda ləngiyib azan "Lazım"ın,
Tutdu yaxasından "Gün o gün olsun".
Simləri dil açdı könül sazımın
"Ürək bütün olsun, yurd bütün olsun!"

Efirdə, ekranda coşub-çağladıq,
Bu söz dilimizdə vərdişə döndü.

Şəninə o qədər "dastan" bağladıq,
Təsiri azaldı, marağı söndü.

Elə kükrəyirdim, elə dolurdum,
İçimdə ümmanlar ləpələnirdi.
Onu eşitdikcə dəli olurdum,
Qəzəbim qəlbimdə qəlpələnirdi.

Nədən yapışaydım, bir tutalqa yox,
Səssiz çağlayırdım, sözsüz gedirdim.
Vuran yağıya yox, susan xalqa yox,
Elə bu sözə də üsyan edirdim!

Görüşdə, tədbirdə, toyda, düyündə,
Natiqlər onunla bitirir sözü.
Düşmür dilimizdən elə bu gün də,
Qayıdır əvvəlki alovu, közü...

Torpağı yağıdan aldıqca geri,
Köksümdə dil açır "Gün o gün olsun!".
Bir sonsuz qürurla yazıram şeiri,
Dilimdə gül açır, "Gün o gün olsun!"

Şadlıq üstə dinir könül tarımız,
Sevincdən, fərəhdən gözlərim doldu.
Tanrıya yetişdi dualarımız,
Şükür bu günə ki, "Gün o gün oldu!"

## MƏNƏVİ QƏLƏBƏ

***İlham və Fərizənin göynəkli sevgi əfsanəsi düz otuz ildən sonra Mehdi və Mələyin şəxsində yenidən təkrar olundu. Bu faciəni bizə mənfur yağılar yaşatdı.***

Necə təkrar etdi tarix bu dağı,
Bu yol Fərizənin getdiyi yoldu.
Mehdi doğulduğu ana torpağın,
Mələk öz eşqinin şəhidi oldu.

Mələkdi yurdumun qızı, qadını,
Yerdəki əksidir ulduzun, ayın.
Tarixə həkk edin onun adını,
Döyüş bayrağıtək uca saxlayın!

Bildinmi, xəbərin oldumu, Mehdi,
Mələyin göylərdən nə sayaq endi?!

Sevdiyin o qızın ilqarı, əhdi
Ağrılı, göynəkli nağıldı indi.

Qıydı öz canına göylər mələyi,
Tutdu sevgisini həyatdan üstün.
Qırıldı o qızın arzu, diləyi
Ruhuyla ruhuna qovuşdu o gün!

Sənsiz yaşamadı bircə an belə,
Getdi... Öz yasını yasa qatdı o.
Bu qəfil, bənzərsiz ölümü ilə
Əlçatmaz, ünyetməz bir həyatdı o!

Səninlə qovuşdu imana, dinə,
Tufanda tər-çiçək vaxtsız solurmuş.
Sevgi güc gələndə həyat eşqinə,
Ölüm həyatdan da uca olurmuş!!!

Vətən döyüşüdür, qansız ötüşmür,
Mələk də döyüşə yazdı adını.
Vallah bu ölümə göz yaşı düşmür,
Yerdə ağlamazlar göy övladını!

Tanrı qucaq açdı bu iki gəncə,
Sındı yer-yerindən, yer yara aldı.
Mələk bu döyüşü bitirdi məncə,
Düşmənə mənəvi qələbə çaldı!!!

## TORPAĞA

Namərd düşmən illərdi ki dağ çəkir,
Dağlar boyu sıralanmış torpağa.
Qələbəmiz ağ günləri vəd edir
Qarabağa – qaralanmış torpağa.

Gözlənilməz şah sevincdən ənəsək,
Quştək uçaq, qucağına tələsək.
Qoy üstündə nanə kimi biz əsək
Tənzif olaq yaralanmış torpağa.

Qələbəni sona qədər əxz edək,
Bu döyüşü tarixlərə nəqş edək.
Bütövlüyü birdəfəlik bəxş edək
Tikələnmiş, paralanmış torpağa.

Öz “pay”ını aldı bizdən o yağı,
Bir də dinməz hərzə-hərzə, bayağı.

Qoy dəyməsin gavurların ayağı
Məscidlənmiş, dualanmış torpağa.

İndi haqqa örnək bizik, məhək biz,
Bu zilləti nə vaxtadək çəkək biz?!
Kişiliyi toxum kimi əkək biz
Xəlbirlənib, uralanmış torpağa!

Qanla yuduq bir töhməti, təhnizi,
Qəlbimizdən silindimi dərd izi?!
Nahaq verdik bu aranı, dəhlizi
Bizdən bu cür aralanmış torpağı!

Yenilməyən Azərbaycan ölkəsi,
Heyran qoydu bu dünyada hər kəsi.
Can verəcək soydaşların kölgəsi,
Od içində qoralanmış torpağa!

**GƏLƏNDƏ**

Könüllərdə yaşa, ürəkdə boy at,
Hamıya xoş gələn duyğular oyat.
İki söz canlanır: ölüm və həyat
Ortaya tanrının sirri gələndə.

Vaxt ötür, xoş günlər arxada qalır,
Sevgiylə üz-üzə insan qocalır.
Ömür-gün dostunu əlindən alır,
Bimürvət dünyanın şəri gələndə.

İllərlə bir yerdə yaşadığın kəs,
Udduğun havaymış, aldığın nəfəs.
Fələk, etibarın harda qaldı bəs
Güzəştə getmədin yeri gələndə?!

Tutuşma yanğıya, alışma oda,
İnsandan ötrüdür hər qan, hər qada.
Ölümün qorxusu yoxdu dünyada
Gələn əqidəcə diri gələndə.

Ölüm yatağında bir ana əsir,
Oğul, qız üstündə yarpaqtək əsir.
Onunsa gözləri ərini gəzir
Üzünə əcəlin təri gələndə.

Kim vida zəngini birinci çalsın,
Ortada qadınmı, kişimi qalsın?!

Getdi ruh evini sahmana salsın,
Özü qarşılasın əri gələndə.

## HƏM AŞIĞAM, HƏM AŞİQƏM

Həm aşığam, həm aşiqəm,
Qoşmadan qopa bilmərəm.
Saz olmasa öz eşqimlə
Simlərə hopa bilmərəm.

Sən dedikcə: o köhnədir,
Təzə xallara köklənir.
İlham deyilən köhləni
Mən onsuz çapa bilmərəm.

Gəl mənimlə girmə bəhsə,
Fikrim aydın, sözüm kəsə...
Təndirim tam közərməsə,
Kündəmi yapa bilmərəm.

Söz açsam dağlar oğlundan
Zirvələr tutar qolumdan.
Şeirin bu dədə yolundan
Heç yana sapa bilmərəm.

Özüm edim siftəsini,
Kəsim qızıl sikkəsini.
Mən heç kəsin tikəsini,
Əlindən ala bilmərəm.

Baxıb bu səbrə, dözümə,
Göylər gülməsə üzümə
Musa kimi mən özümə
Yerdə yer tapa bilmərəm!

## SƏN ELƏ O QIZSAN

Sən elə o qızsan, həminki qızsan
Yaxşı bir şeirdən tutulan, dolan
Şirin duyğuların heyranı olan...

Mən də o oğlanam coşan, çağlayan,
Sevgidən havalı həmin o dəli...
Deyə bilmədiyim sözün qurbanı,
Aça bilmədiyim sirrin heykəli...

Bir daş dözümüylə susub durmuşam,
Sonsuz xəyallardan saray qurmuşam.
Uzun ayrılığın içindən keçib
Sənsiz yarım əsrə yara vurmuşam.

Nə qədər tufanlar keçib başımdan,
Yollarım nə qədər yola qovuşub.
Ürək o ürəkdi, sevgi o sevgi,
Sadəcə, aradan illər sovuşub.

İçində fırtına, gözündə bulud,
Ahıl bir qocanın şəkliyəm indi.
Zamanı bir anda geri fırlayan
O əski duyğular dindi, nə dindi!..

Sən elə o qızsan, həminki qızsan,
Gözlər o gözlərdi, istək o istək.
Üzündə bərq vuran o xoş təbəssüm
Məni odladısa hər zamankıtək.

Deməli, dünyanın sonu gəlməyib,
Qönçə ümidlərin açılmağı var.
Qəlbimizdə donan ilahi hissin
Haçansa nur kimi saçılmağı var.

Səmti ayrı düşən qoşa çaylarıq,
Yelkənsiz qayığıq daşan dənizdə.
Tanrıya min şükür, illər ötsə də,
O ilahi hissi yaşadır bizdə.

Sən elə o qızsan, həminki qızsan,
Mən də o oğlanam, gördüyün oğlan.
Sənin həsrətinlə neçə yol ölən,
Sənin istəyinlə bir də doğulan!..

Hələ yazacağım o əsər qalıb,
Məncə bu etiraf qəbahət deyil.
Sevgim çiçək kimi təzətər qalıb,
Yaşa dolan mənəm, məhəbbət deyil!

## YAZDIM

Allah razı olsun, sizdən gözəllər,
Hər sizi görəndə odlanıb yazdım.
Bir xoş təbəssümə, bir şirin sözə,
Bir qaynar baxışa aldanıb yazdım.

Döndüm işığına bir yanar şamın,
Günəşli gündüzün, aylı axşamın.
Can üzən, naz satan təbin, ilhamın
Min bir əzabına qatlanıb yazdım.

Dilimdən incitək sözlər süzüldü,
O saf eşqinizlə səfə düzüldü.
Hərdən yerdən-göydən əlim üzüldü,
Hərdən Koroğlutək atlanıb yazdım.

Məktəbim oldunuz, dərsim oldunuz,
Uzaqdan-uzağa bəsim oldunuz.
Dünyada ən doğma kəsim oldunuz,
Yaxına gəlmədim, yadlanıb yazdım?!

Gözüm gözünüzdən ataş əməndə,
İlahi duyğular oyandı məndə.
Sizdən ağac-ağac olsam da gendə,
Vüsal həvəsiylə şadlanıb yazdım.

Bir sevgi mələyi illərdən bəri,
Yolumdan, izimdən yox etdi şəri.
Şeirim sevənlərin oldu əzbəri,
"Məhəbbət şairi" adlanıb yazdım.

**AYÜZLÜM**

Əl üzmüşdüm düzü səndən nə vaxtdır,
Məni hardan yada saldın, ayüzlüm.
Səsin, sözün iliyimə işlədi,
Ürəyimi oda saldın, ayüzlüm.

Neçə ildi çəkilmişdin səhnədən,
Arxım, suyum qurumuşdu dəhnədən.
Bu yurd olan ürəyimdə sən nədən,
Yuva qurdun, oda saldın, ayüzlüm.

Hansı şirin yuxuda sən, röyada,
Qulaq tutdun sinəmdəki fəryada.
Səssiz-küysüz boğulurdum dəryada,
Önümdə bir ada saldın, ayüzlüm.

Nahaq yerə sənə zalım deyirdim,
Gül dodaqda yoxdu balım deyirdim.
Hər görəndə "qadan alım" deyirdim,
Ömrümə bir qada saldın, ayüzlüm.

Tamarzıyam sənin sevgi payına
Əl yetməyən ulduzuna ayına.
İlhamımın sakit axan çayına,
Haray qoşdun, səda saldın, ayüzlüm.

Ağrısına tuş olalı bu yaşın,
Yanğısına su səpirəm təlaşın.
Üzgünüyəm o süzülən göz-qaşın,
Qovğa açdın, "xata" saldın, ayüzlüm.

Musa hüsnü-camalına mah dedi,
İstəyini gah açmadı, gah dedi.
Naşı oldu ilk gedişdən "şah" dedi,
Sən yolunu "mat"a saldın, ayüzlüm.

## BU SEVGİ

İlahi qisməti, tanrı payıdı,
Seçimlə lütf olur mərdə bu sevgi.
Cövhəri ağrıdı, mayası dərddi,
Necə məlhəm olar dərdə bu sevgi?!

Çıxdım zirvəsinə, enə bilmədim,
Onda nə olmuşdu mənə, bilmədim.
Dinmək məqamında dinə bilmədim,
Getdi bir açılmaz sirdə bu sevgi.

Dizlərim əsəndə həyəcanımdan,
Aldı qisasını, aldı canımdan.
Xəbərim olmadı dörd bir yanımdan,
Çəkdi gözlərimə pərdə bu sevgi.

Vaxt keçir, əzrayıl cana susayır,
Qəlbində rübabı heç cür susmayır.
Sən onu göylərdə gəzdin, ay şair
Boynubükük qaldı yerdə bu sevgi.

Üzüldüm ömrümün gənclik çağında
Məcnun səhrasında, Sənan dağında.
Könlümün ünyetməz bir bucağında
İndi bir sən varsan, bir də bu sevgi!..

*Tahir TAİSOĞLU*



# Asılqan buynuzu

♦ *Roman*

Ötkəm Məmmədov – cəmisi üççə gün öncə sıravi əsgər, indi bütün "olar", "olmaz" və başqa tabulardan uzaq, azad insan – hərbi xidmətini tam başa vurub tərxis olunmuş cavan oğlan – öz doğma tərəflərinin adamları arasında idi, heç kim onu burada tanımasa da, o, elə bilirdi ki, ətrafındakı adamların hamısı onun dostu, qonşusu, qohumudur.

Üzləri təndirdən təzə çıxan çörək kimi isti, işıqlı, əlləri əncir ağacının beş barmaqlı yarpaqlarına bənzər, doğma və əziz... ləhcələri, söylənişləri bülbül cəh-cəhinə oxşar, qəlbəyatımlı, şirin-şəkər...

Hələ təbiət... ağaclar, daşlar, yollar... Hər tərəf qızılı xəzəllərin örtüyündə, yağmurunda (qum yağmurunda yox!) ətrafında cürbəcür şövq içində sayrışan rənglər öz gəzintisində idi – ziyarətgahın ətrafında budaqları buludlarla "gizlənqaç" oynayan, azman ceviz ağaclarının cazibəsində döyünürdü onun ürəyi elə bil, açıq-aşkar...

"Ayaqlar altında qalıb diyirlənən bu cevizləri niyə yığıb aparan, sındırıb yeyən yoxdu?" – Ötkəm təəccüb və təəssüf içində yerə səpələnən bara-bəhərə baxırdı.

Bu yerlərin, həm də ki, ildə bir dəfə bu tərəflərə qonaq gələn bu payız fəslinin ərköyün, bərəkətli sirdaşları olan heyva və nar ağacları da başını yerə qoyurdu. Sapsarı heyva və qıpqırmızı nar (daimi yaxın qonşular!) elə bil bir-biri ilə öcəşirdilər, hər ikisi "mən, mən" deyə kürlük edirdi...

Gah heyva ağacı nazlana-nazlana, sanki "Sarı gəlin" mahnısını zümzümə edirdi, gah da nar, xırda, yumru dodaqları ilə adamların üzünə baxa-baxa, elə bil qırmızı-qırmızı, açıq-aşkar quqquldayırdı: "Xoruz kimi dimdikləyərəm hamınızı".

Ötkəmi qınayan olmasaydı, baxmazdı heç nəyə, hücum çəkərdi bu ağaclara; ciblərini, çantasını doldurar, heyvaları dişdəm-dişdəm, narları dörd yerə bölərdi. İki il idi nə heyva, nə də nar görməmişdi axı...

...Birdən nədənsə Türkmənistanın Kazancıq adlanan yeri və oranın göz işlədikcə uzanan qumlu səhraları, dayanmaq, durmaq bilməyən yeknəsəq, zəhlətökən küləkləri yadına düşdü. Və bir də əsgər libasını geyən günün axşamı ilk eşitdiyi birinci söz, "saksaul" kəlməsi.

Qumluq, səhralıq yerlərdə qış “azuqəsi”, isinmək üçün yeganə ümid yeri olan odunun adı...

Köhnə – “qoca” əsgərlər (orduda belə bir qayda vardı, xidmətinin ikinci ilinə keçənlər artıq “qoca” adlanırdı) təzə gələnləri qısnayıb gecənin bir aləmi bu odunun dalınca göndərərdilər.

Ötkəm hələ çox-çox illər sonra, Stalin rejiminin cəzalandırıb Türkmənistana mədəni sürgünə göndərdiyi (o zaman Türkmənistan sürgün yeri sayılırdı) rus yazıçısı Andrey Platonovun əsərlərində, indi ona eybəcər, yad görünən bu sözü oxuyacaqdı, saksaul sözünü... Və onun “Can” adlı povestində elə bil təzədən o səhralıqda xəyalən “əsgərlik” edəcəkdi! Onu da eşidəcəkdi ki, türkmən inancına görə “Can” xoşbəxtlik axtaran ruh deməkdir.

* * *

...Amma hələ ki, o, gerçəkdən əsgər idi, özü də Allahın da üz döndərib, unutduğu yerlərdə – səhranın ağuşunda inildəyən, gözükölgəli xəstə qocaya oxşar, yayda qızmar istiləri hətta daşı, divarı belə təntidən, qışda isə şaxtası adamın iliyinə qədər işləyən Kazancıq adlı bir rayonun çöllərində!

Böyük, möhtəşəm bir ölkənin – SSRİ-nin ən miskin, ən cansıxıcı bir əlçiminə düşmüşdü Ötkəmin əsgərliyi. Bu ya taleyin qisməti idi, ya da rayon hərbi komissarlığında özündən müştəbeh bir mayorla onun ağızlaşmasının “hədiyyəsi”, bir sözlə, ya vəlvələdən, ya zəlzələdən – axırı bu idi – səbəbi bilinməyən acı bir nəticənin sonucu.

Təbiəti hər tərəfdən ancaq qum və qumsallıqdan ibarət olan, rayon mərkəzinin küçələrində tək-tük, çəlimsiz, qısır ağacları gözə dəyən, boz, nifrin küləklərin ağalıq elədiyi Kazancıq şəhəri...

Hər halda, şəhər adlanırdı. Kazancıq. Bu sözün semiotik çözümünə baş vuranda ağlına gələn bu olur: bəlkə “Qazan”, “Qazança” kökənli bir sözdən əmələ gəlib, sonra da “Q” hərfini “K” ilə əvəzləyiblər. Yəni ağzı bağlı, dar bir qazança... qal içində, biş içində, qala bilincə... Nə isə...

Ötkəmin gücü ona çatırdı ki, xatirələr dünyasında özünü ovundura-ovundura günlərini bir-bir yola salsın, görsün sonucda nə olacaq. Qəlbində, fikrində, duyğularında ona həmişə dayaq duran, yeri gələndə qol-qanad verən ümid, gələcəyin böyüklüyünü, gözəlliyini əxs edirdi, vəfalı dost kimi.

Düşdüyü hərbi hissə istehkamçı bölüyü adlanırdı, yəni müharibə şəraitində düşmən tərəfindən minalanmış sahələri təmizləmək, səssiz-səmirsiz qıvrılıb yatmış zəhərli ilanlara bənzər minaların yerini bələyib tapmaq, onları “diri-diri”, “bişim-bişim”lə çıxartmaq, sonra da ehtiyatla, yəni “ovsunlaya-ovsunlaya” zərərsizləşdirmək... Bu idi həmin hərbi hissənin əsas, döyüş və fəaliyyət istiqaməti... yəni əsgərlərə belə bir hərbi təcrübə, fəndlər öyrədilirdi.

İndi-indi tanımağa başladığımız sıravi əsgər Ötkəm Məmmədov bu “əfi ilanların” – minaların içindən salamat çıxmasına görə nəzir eləmişdi, pir üstündən evə kimi piyada yol getmək nəzirinin kökündə başqa bir qorxulu qəziyyə dayanmışdı.

Görəsən, onun heç ağlına gələrdimi, yuxusuna girərdimi ki, bir vaxt gələcək elə onun öz doğma torpağının da istehkamçı hərbi xidmətinə, məharətinə ehtiyacı olacaq!

...Dəvəsi ölmüş ərəbə oxşayan bu yerlərin hər tərəfi dəvələrlə dolu idi. Ötkəm haradansa oxuyub öyrənmişdi ki, Türkmənistan hətta IV minilliyin axırlarında ikihürgüclü vəhşi dəvələrin ilk vətəni olub, çarvadarlıq peşə kimi

burada geniş inkişaf edibmiş. Sonralar illər keçdikcə ikihürgüclü dəvələr birhürgüclülərlə əvəz olunub. Onu da xatırlayırdı ki, onun öz vətənində – Azərbaycanda isə boyca nisbətən balaca, amma at kimi çevik, yüyrək, hətta atdan da bərk, iti qaçan dəvələr də varmış, belə dəvələri azərbaycanlılar “Yel dəvəsi” adlandırırlarmış.

Hələ haradansa oxuyub onu da öyrənmişdi ki, dəvələr 54 milyon il öncə dovşan boyda olublarmış. Sonralar, illərdən, əsrlərdən keçə-keçə gəliblər böyüyüblər, nəhəngləşiblər. Həm də əhliləşiblər, insanlara yovuşublar. Hələ ayrıca döyüş, savaş dəvələri də olubmuş. Belələrindən ən çox fateh Teymurləng yeri gələndə istifadə edirmiş.

Qədim Oğuzlar isə toylarda həmişə buğur dəvə kəsərlərmiş, çünki onun əti dadlı, şirin, həm də, artımlı olardı. Müsəlman gələnəyində belə inanclar yayılıbmış ki, dəvə Günəşdən yaranıb, torpağı da insanla bərabər eyni yerdən götürülmüşdür, yəni insan kimi dosta dost, düşmənə düşmən, məhəbbəti də, kini də, bir-biri ilə bərabər, yeri gələndə hətta bir az da kinli, tərs...

Necə deyərlər, dəvə xıxmadı-xıxmadı... Yaxud dəvə durdu, dam uçdu... kimi misallar beləcə yaranıbmış. Təkcə iri, kara gələn buynuzları olmayıb dəvələrin, buynuzları...

Allah-taala zərif, gözəl-göycək marallara qol-qanadlı, yekə buynuzlar verib, amma... gəl ki... o boyda dəvəyə bir barmaq uzununda xırda buynuz qıyıb, lap asılqan buynuzu boyda... İri buynuzları olsaydı, bəlkə də, onların göz yaşı tökdüyünü görən olmazdı. Sahibinin yasında, dəfn günündə bir qırağa çəkilib ağlayan dəvələri görənlər çox olub. Dəvələrin bir özəlliyi var ki, onlar da insanlar kimi balacanlı olurlar, köşəyinin yolunda ölümə gedən dəvələr haqqında o qədər rəvayətlər, həqiqətlər var ki...

Rəvayət var həqiqətdir, həqiqət var rəvayətdir, deyirlər. Ötkəm bu əhvalatı eşidəndə bir müddət özünə gələ bilməmişdi.

...Bir kəndxuda o biri qonşu kəndxudanın evinə qonaq gedir, o çağlarda da varlıların ən çox güvəndiyi, fəxrlə üzə çıxartdığı öz dəvəsi imiş.

Yolda bir dəvəyə rast gəlir, gözü tutur onu, heyran olur onun boy-buxununa, görkəminə. Atını qırağa çəkib yüyənini bir çəpərə bənd eləyir. Yol keçənlərdən soruşur ki, bilmirsən bu dəvə kimindir? Deyirlər, at nallayan bir kişi var, adı Əlinağıdır, onun.

Kəndxudanı fikir, xəyal aparır: "Nalbənd olasan, özü də belə bir dəvən ola?!" Həsəd, tamah güc gəlir ona.

Çoxdan dost, cur olduğu qonşu kəndxuda görur qonağının halı üstündə deyil:

– Nə olub, ay qonşu, bu nə turşumuş sir-sifətdir belə? Qonaqlığa gəlmisən, yoxsa davaya?

– Əslində, elə davaya!

– Nə danışırsan, nə olub bəyəm, nə məsələdir, de görək...

– Sənin rəyətinin arasında oğrular, haramzadələr də varmış.

– Necə... nə danışırsan?

– Hə, tələsmə... qulaq ver mənə. İndicə yolda gələndə necə il əvvəl oğurlanmış dəvəmi burada görüb tanıdım, əhvalım çöndü, – deyə o, nəfəsi yana-yana, təngnəfəs halda sözə başladı, qonaq-pəzəvəng, yeməkdən kökəlib təpələnmiş adam, güclə nəfəs alırdı, – elə bil sinəgir xəstə idi, soruşdum: – kimindi bu dəvə? – dedilər, nalbənd Əlinağı var, onundur.

Qonaq indicə yolda rast gəldiyi dəvənin zahiri nişanələrini, bəzi əlamətlərini bir-bir sadalayır. Yerli kəndxuda qonağının bu sözlərindən qeyzlənir, əlüstü Əlinağını çağırtdırır:

– Bu nədir, indi də haramçılığa əl qoymusan?

– Allah eləməsin, ay kəndxuda... Bizim nəslimizdə hələ haram tikə yeyən olmayıb.

– Haram tikə yeyən olmayıb, amma haram malı oğurlayan, xəkrizləyən olub!

– Nəcə yəni? – Əlinağı lap özünü itirir.

– Oğurladığın alnı qaşqalı, qızılı dəvənin yiyəsi gəlib çıxıb, – deyə o, qonağını nişan verir.

Əhvalatın səs-sədasına kənd əhli yığılır. İş böyüyür. İki kəndxuda, bir tək nalbənd Əlinağı üzbəüz... əməlli-başlı çək-çevir, sorğu-sual gedir.

Bu tərəflərin tanınmış, hörmətli ağsaqqalı Hacı Seyidəli təmkinlə irəli çıxır:

– Əlinağı, bu nə işdi, bütün kəndin adını biabır eləmisən, sənin oğurluq eləməyin də varmış?

– Hacı, and içirəm ki, bu dəvəni mən lap köşəkliyindən özüm saxlamışam. Oğurluq nədir... Mənim özgə, yad malına baxanda heç vaxt gözüm səyriməyib, nəyə deyirsiniz, and içim. Yox əgər, dəvəm qonağın döşünə yatıbsa, mən ona peşkeş edə bilərəm. Çəkib aparsın.

Bu sözlərdən sonra həngamə daha da qızışır. Camaat arasında səs-küy şiddətlənir, hərənin ağzından bir söz, bir avaz gəlir: – "Belə də iş olar, gəlib kişinin malına yiyə durmaq istəyir”. – “Bu Əlinağı, sən demə, oğru imiş ki..." və s. və ilaxır.

Hacı Seyidəli tədbirli, salqarlı adam idi, bir az fikrə gedib sakit tövrlə deyir:

– Qonaq müsaidə eləsə, bir sual verərəm.

Razılıq əlaməti olaraq qonaq dinmir.

– Əlinağı, indi ki deyirsən sən onu lap köşəkliyindən özün bəsləyib saxlayırsan, həm də neçə ildi. Onda bütün bunları necə sübut edərsən?

Çıxılmaz, ağır vəziyyət yarandığını görən Əlinağının fikrinə elə bil Allahdan olan kimi bir nida gəlir, yadına düşür ki, bu maya üç balasını itirib, fəhm eləyir ki, yəqin, hər köşəyindən onun ürəyinə bir dərd, bir nisgil xalı düşüb:

– İndi ki belə oldu, sübut kimi onu deyə bilərəm ki, bu dəvənin ürəyində üç qara xal yeri var!

Camaatın arasına bir qıcıqlanma, rahatsız bir tərpəniş yayılır, hamı bir-birinə sual dolu susqun nəzərlərlə baxır.

Ağır, ürək dağlayan sükutu bir azdan yenə Hacı Seyidəli pozur:

– Əlinağı, ya sən ağlını itirmisən, ya da bizi məzxərəyə qoyursan. Bu nə hətərən-pətərən danışmaqdı... Sən bu dəvənin ürəyini harada, nə vaxt görmüsən ki, hələ oradakı üç xalından da xəbərdarsan? Bu sirr nihan qalan bir şeydir.

Hər iki kəndxuda qıcıq yaradan müəmmalı nəzərlərlə Əlinağını süzürdü, ürək üzən səssizlikdə uzaqlardakı bildirçinlərin gümrah civiltiləri daha aydın eşidilirdi... Sualın cavabı gecikdikcə sükutun hüznlü ağrısı hamının ovqatına vuayezist sirayət edirdi.

Axır ki, Əlinağı həm suçlu-suçlu, həm də ağlamsına-ağlamsına bu cansıxan nigaranlığa son qoymaq üçün özündə qüvvə tapdı:

– Mən dəvəmdən keçirəm...

Bu sözlər hadisənin sorağına toplanan kənd adamlarının arasında isti, əsəbi vurnuxmanı bir az da artırdı.

– Mən dəvəmdən keçirəm, – deyə o, bu sözü bir daha təkrar etdi, amma bir şərtlə, – kəsin mənim dəvəmi. Çıxardın onun ürəyini, orada üç qara xal tapmasanız... – bir az toxtayıb titrək səslə davam etdi, – nə bilirsiniz eləyin mənə!..

Məsələ çox tül idi. Bu sirri-xuda açılmalı, ya Əlinağının, ya da qonaq kəndxudanın vələddüzzinalığı üzə çıxmalı idi.

Əlinağıya baxa-baxa göz yaşlarını tökən qaşqa, qızılı dəvəni kəsdilər... ürəyində üç xal... açıq-aydın görünürdü... Adamlar kəskin bir maraq içində bir-bir gəlib baxır, matı-qutu qurumuş halda geri çəkilir, bir-birinin üzünə müəmmali, məhzun nəzərlərlə baxırdılar... Elə bil bir kimsə ağız açıb nəsə deməyə cəsarət etmirdi.

Ağır sükut ağacların yarpaqlarında, yaxındakı bulağın şırıltısında, nəmişli, tutqun dərənin səssizliyində əks-səda doğurur, qayıdış verirdi...

Bir azdan səs-küy baş alıb getdi. Hərə bir söz deyirdi, qınaq, hədə-qorxu nidaları getdikcə şiddətlənirdi...

Adamlar özünə gəlib, qalmaqal bir az səngiyəndə, bir də gördülər qonaq – qonşu kəndxuda yoxdu, elə bil burada yerli-dibli belə bir adam olmayıb. Yəqin, bilirmiş ki, bu böhtandan sonra kənd adamları ona qınaq, məzəmmət yapmaqla yetərlənməyəcəklər.

Kəndin öz kəndxudası isə elə qırımda idi ki... çırtma vursaydın, qanı damardı.

Hacı Seyidəli isə təsbehini çevirə-çevirə: “Allahu əkbər, Allahu əkbər” – deyirdi.

Bir müddət kecəndən sonra camaatın təvəqqesi ilə Əlinağı bu sirri “xırdaladı”:

– Səkkiz il dönəmində bu maya – dəvəm üç qarın doğmuş və hər üç köşəyi də tələf olmuşdu. Daha demirəm harada, necə, yaramın qaysağını qopartmaq istəmirəm, mən də bilirəm, sizə də yəqin yaxşı məlumdur ki, dəvə necə balacanlı heyvandı. Hər itkidə onun gözlərindən necə gildir-gildir yaş tökdüyünün şahidi olmuşdum, ona görə də ürəyimə dammışdı ki, bu itkilər onun yanından əliboş keçib getməyəcək. O üç bala itkisi, üç qara xal kimi, fağırın ürəyində özünə yer eləyəcək.

Araya üzücü sakitlik, ağır bir sükut çökdü, heç kim uzun bir dəqiqə dinib-danışmadı.

Hacı Seyidəlinin təklifi hamının ürəyindən xəbər verdi. Yığışıb bir yerə kimin qulpundan nə cıxdısa... toplayıb Əlinağıya iki dəvə alıb verdilər – biri buğur, biri maya...

* * *

Günlərin bir günü, artıq xidmət dövrünün qurtarhaqurtar çağları yaxınlaşırdı, qəfil xəbər gəldi: “Yır-yığış eləyin, köçürük!”

Ötkəmgilin çağırışçılarının qulluğunun bitməsinə sayılı günlər – ay yarım, yəni 45 gün qalmışdı. Çibində gəzdirdiyi təqvimin 45 gününün yeri bütöv idi – iynə ilə dəlilməmişdi – evə hazırlaşan əsgərin çoxunun hərbi biletinin arasında illik təqvim olardı. Hər günün axşamı, şam yeməyindən sonra, günlüklərində gəzdirdiyi iynə ilə həmin tarixi yola saldıqları üçün o rəqəmin üstündən dəlik açırdılar – yəni bir gün də keçdi, bir gün də xidmətin sonuna yaxınlaşdıq... Amma komandirlərdən gizlin, onlar belə deşilmiş təqvimləri hansı əsgərin əlində tutsaydılar, vay onun halına. Cəzalandırırdılar. Hətta siyasi rəng də vururdular: "Deməli, sən günlərini sayırsan, deməli, vətənə qulluq sənin üçün əzab-əziyyət deməkdir? Sən necə sovet əsgərisən ki, Sovet Ordusunda xidmətdən şərəf duymursan.

* * *

Təzə yerə, təzə şəhərə köçmək xəbərinə zabitlərdən tutmuş, sıravi əsgərlərə kimi, hamı sevinirdi. Köçəcəkləri yerin necə, nə cür, harada olmasından xəbərdar olmasalar da, sevinirdilər, yəqin, düşünürdülər ki, nə cür olsa, yenə buradan yaxşı yer olacaq.

Hamının içində belə bir umid, istək pardaqlanmışdı:

– Yəqin, yaxşı yerə köçəcəyik!

Ötkəmin Əvəzmurad Şadurdiyev adlı bir türkmənlə yaxın dostluq münasibətləri vardı. O, Aşqabaddan çağırılmışdı əsgərliyə. Rus dilində çox sərbəst yazırdı, danışırdı. Ötkəm onunla həmsöhbət olub danışanda çox vaxt öz-özünə deyirdi: "Ay Allah, mən bunu haradan belə yaxından tanıyıram?!" Elə doğma, elə əziz gəlirdi Ötkəmə, onun üz-gözü, hərəkətləri, ədaları, göz-qaş eyhamları... Çəkingən, zərif, ehtiyatlı gülüşü, təbəssümü... elə bil hər söhbətinin, sözünün ikinci bir qatı da vardı, həmişə hamıdan nə isə gizlədir, nələrisə deməyib sanki sözünün cövhərini sonraya saxlayırdı.

Ötkəmə bunun səbəbi çox sonra agah oldu. Sən demə, bu mağmın Əvəzmuradın başı qalmaqallar görübmüş. O, lap erkənlərdə atasının təkidi ilə Rusiyanın Voronej şəhərində hərbi akademiyaya qəbul olunmuş, 2 il müdavim olandan sonra dərk eləmişdi ki, zabitlik ağır bir peşədir, onun işi deyil. Ona görə də taleyini hərbi sahəyə bağlamaq istəyindən vaz keçmişdi. Çox böyük çək-çevirdən, sual- cavabdan sonra, axır ki, onun ərizəsini qəbul etmiş, Əvəzmuradı akademiyadan xaric edib, orada qulluq etdiyi iki ilinin də üstündən xətt çəkib (acığa düşərək!), bu dəfə onu adi əsgər kimi – təzədən iki illik xidmətə göndərmişlər. Ona görə də başı çox qoltuqaltı gördüyünə görə, artıq söz danışmır, xidmətində heç bir qüsura yol vermirdi. Məqsədi ancaq o idi ki, salamatlıqla arzusunda olduğu sərbəst, azad mülki həyata qovuşsun. Bu barədə o, Ötkəmə öz arzusunu, məqsədini bir sirr kimi, hətta bir az da çəkinə-çəkinə açıb danışmışdı.

Bir müddətdən sonra, elə bil Ötkəmin fikrinin, yaddaşının uzaq-uzaqlığında qəfildən bir işıq yanıb-söndü:

– Ay Allah, bu ki, Tarix Xıdırlıdır! – hətta bir az səksənən kimi də oldu. Boy-buxunu, üz-gözü, yerişi, hərəkətləri, ən çox da sakit, ehtiyatlı danışığı.

Tarix Xıdırlı Ötkəmgilin rayonunda hörmətli bir adam idi, müəllim işləyirdi, həm də yaxşı voleybolçu kimi tanınırdı.

Hələ bir rus da var idi – Şelemençev familiyalı – o isə Ötkəmin rayonda tanıdığı Gülabbas Qasımovun tam ikinci surəti idi, sanki surətçıxardan aparat ilə çıxartmışdılar onu. Bu Şelemençevin də boy-buxunu, xasiyyəti, özünü dartmağı, təşərliyi, adama yovuşmazlığı eynən Gülabbas idi ki, vardı... Amma bütün bunları neynirsən, bu Şelemençev – Gülabbas (ayaması "boynuqaçan Gülabbas") gələn kimi də, bircə günün içində (o, başqa taburdan bura köçürülmüşdü) bölüyün giziri Kozlova yarınıb, onunla canbir qəlbdə olmuşdu. İki ilə yaxın hər gün, hər saat, bir yerdə olub yaxın dostluq etdiyi əsgər yoldaşlarının hamısı qalmışdı bir qıraqda, Kozlov ancaq Şelemençevlə bağrıbadaş olmuşdu, bəzən hətta ayaqyoluna belə bir yerdə gedirdilər.

Hərdən Ötkəm təəccüb içində düşünürdü: "Görəsən, hansının təşərliyi, biçəngliyi, yarınmaq məharəti birindən o birinə keçmişdir? Bir Gülabbas Azərbaycanın ən ucqar, qaramat bir kəndində doğulmuşdu, o biri "Gülabbas" isə, yəni Selemençev Urusyətin, Allah bilir, harasında... Amma bax da... hər barədə ikisi də eyni adam idi ki, vardı.

Həm Əvəzmurad Şadurdiyevə, həm də Volodya Şelemençevə rast gələndə, az qalırdı, hər ikisi ilə Azərbaycan dilində danışıb, çoxdan tanıdığı adamlarla olduğu kimi onlarla hal-əhval tutsun. Dünyanın qəribəliyinə matməəttəl qalan Ötkəm bu barədə heç kimə heç bir söz (hətta buradakı hər iki – yəni bu – ikincili adamlara da, nə "Tarix Xıdırlı"ya, nə də "Gülabbas Qasımov"a) demir, onların – dördlüyün qovuşuğunda, sadəcə, bu, "ətli-qanlı" bir sirrin, bu tapıntının, qışda isti ləzzətində, yayda sərin kölgəsində dolanır, kef eləyirdi:

– Xidmətimi bitirib evə gedəndə dostlarıma, məhlə usaqlarına deyəcəyəm ki, sizin tanıdığınız filankəslərlə – yəni Tarix Xıdırlı və Gülabbas Qasımovla (hər ikisi Ötkəmdən 10-12 yaş böyük idi) bir yerdə qulluq eləmişəm. Onda yəqin mənə o ki var, gülüb, şəbədə edəcəklər. Amma bununla belə bu ikiləşmiş surətlərə plastik yöndən baxaraq, günlərin bir günündə qeyd dəftərçəsində bu sirri faş edərək yazacaqdi:

"Allah, bu nə işdi? Doğrudanmı insanları qoşa, cüt yaratmısan? Nəinki boy-buxunu, göz-qaşı, davranışları, hətta xasiyyətləri də bütün cizgiləri ilə birgə eynidir, eyni... Özü də gör harada və neçə illərdən sonra onların dördü də gəlib məndə birləşəcəklərmiş, məndə tapacaqlarmış oxşarlıqlarını."

* * *

Köç söhbətini eşidən kimi Ötkəm, təbii ki, yerli adama – türkmən Əvəzmurada üz tutdu:

– Əvəz, sən Allah, düzünü de, təzə yer necə yerdir?

O da öz növbəsində suala bircə cümlə ilə cavab vermişdi:

– Əlbəttə, Qızıl-Arvad hara, Kazancıq hara!

Bu sözlərə sevinən Ötkəm öz-özünə: "Heç olmasa, ay yarım da olsa, bir gün görərik" – deyə sevincək olmuşdu. Amma nə biləydi ki...

Doğrudan da təzə hərbi hissə, miskin, dərd-sər qoxuyan kökdə, görkəmdə deyildi, ürəkaçan həyət-bacası, gül-çiçəkli, bağ-bağatlı ərazisi vardı. Məktəb, uşaq bağçası, idman qurğuları, üstüörtülü söhbətlik yerləri, sıra ilə düzülmüş xırda mağazaları...

Satıcıları da mülki adamlar idi, cavan, gözəl rus qızları, qadınları... Əsgərlərlə elə mədəni davranırdılar ki... Üzləri gülər, təbəssümləri işıqlı, baxışları sevgi dolu... Amma ən "xod" gedən bir ərzaq mağazasının satıcısı isə orta yaşlı, dilli-dilavər, orta boylu, sallaqsifət, qıyıqgöz, tösmərək kişi idi. Açığı, bu yaşda kişi xeylağının (özü də həmişə səliqəsiz, şulum kökündə...) dükançı işləməsi Ötkəmi heç açmırdı, amma sonradan biləndə ki o, azərbaycanlıdır, əsəbindən bilmirdi neyləsin, acıqcan heç o dükana girmirdi də. Oradan nə isə almaq ehtiyacı olanda belə.

Söz də düşəndə, çalışırdı başqa əsgər yoldaşları – ruslar, ukraynalılar, estonlar, latviyalılar, özbəklər, qazaxlar, bir sözlə, heç kim bilməsin ki, o satıcı azərbaycanlıdır.

Keçən həftə klubda (hər cümə axşamı kino günü olurdu) "Uzaq sahillərdə", bir dönəm sonra isə "Gün keçdi" filmləri göstərilmişdi, maraqlı idi, hər iki Azərbaycan filmlərinin numayişinin arasındakı vaxt məsafəsi çox da uzun olmamışdı. Təsadüf idimi, yoxsa... nə idisə, bu ardıcıllıq hamıya bir az qaranlıq qalan məsələ idi. İki dönəm dalbadal Azərbaycan filmi...

Əsgər yoldaşları Ötkəmə yaxınlaşıb, bu filmlər haqqında öz fikirlərini bildirirdilər. "Gün keçdi" filmi Pak soyadlı əsgərə necə təsir etmişdisə (qaraqabaq, az danışan, hansı millətdən olduğunu bilən yox idi, qərargahda yazar işləyir-

di, qıyıqgöz, çəlimsiz, balacaboy, amma rus dilini ruslardan yaxşı bilirdi), kövrələ-kövrələ gəlmişdi Ötkəmin üstünə:

– Əməlli-başlı təsirləndim, sevda dolu o günlərimi təzədən yaşadım, doğrudanmı sizin Bakı belə gözəl şəhərdi?

– Gördüyündən də gözəldi!

– İnsanlar, onların davranışları, mühakimələri mənalı, dərin, özləri mehriban... bəs siz niyə elə deyilsiniz? – guya zarafat edirdi, – hamınız kobud, dalaşqan...

Ötkəm cəld onun yaxasını xışmaladı:

– Bura bax ha... həddini bil!

– Yaxşı, yaxşı, zarafat edirəm, burax məni.

Əslində, o, az da olsa, haqlı idi, burada zabitlər və rus, slavyan əsilli əsgərlərin əksəriyyəti “qaralara” – özbəklərə, qırğızlara, taciklərə, qazaxlara, uyğurlara və hətta yerin yiyəsi olan türkmənlərə də yuxarıdan aşağı nəzərlərlə baxırdılar, ona görə ki, “qara” millətin doxsan faizi xidmətlərinin təzə-təzə çağlarında rus dilində adi sözləri belə bilmir, “sağa dön” əmrinə sola çevrilirdilər, yaxud da əksinə! Hətta idman məşğələlərində, yarışlarında belə zəif idilər. Ötkəm onlara bəzən: “Ağıldan kəmsən, kəmsən, heç olmasa, qoldan qüvvətli ol”, – deyə zarafat edərdi.

* * *

Bütün bunlar sanki uzaq-uzaq keçmişdə olmuşdu, Ötkəm Pir üstündə sakitcə ətrafını seyr edir, hər tərəfə, hər adi şeylərə belə, maraqla baxırdı. Pirsəhhət- babanın məqbərəsi daha əzəmətli görünür, daşından, divarlarından istilik, mehribanlıq süzülürdü. Bir tərəfində qurbanlıq cöngələr, qoçlar, toğlular kəsilir, o bir tərəfində isə ehsan qazanları qaynayır, samovarlar tüstülənirdi...

Məqbərənin içinə daxil olanlar ayaqqabılarını bayırda çıxarır, ehmalca içəri girirdilər. Oradakı üstü əski əlifba hərfləri ilə yazılı başdaşlarını öpür, sonra qəbirlərin başına üç dəfə dolanırdılar. Sonra dua-sənalarını edirdilər. Ortadakı məzarın o birilərindən fərqli, sinədaşının üstündə ovxarlı, qara türbət daşı vardı. Gələnlər onu üz-gözlərinə, sinələrinə, kürəklərinə sürtürdülər.

– Haran ağrıyırsa, o yerinə sürt, ağrın alım, – deyən qoca nənəyə ehtiramla baxan cavan gəlin itaətlə deyilən sözə əməl edirdi. Məqbərəni tərk edəndə isə hamı üzü məzarlara tərəf, arxa-arxaya çıxırdılar, hörmət əlaməti olaraq; qəbirlərə arxa çevirib çıxmaq günah sayılırdı.

Ötkəm də hamı kimi ziyarətini etdi, salavat çevirib çoxdan əzbərlədiyi “Qurani-Kərim”in ilk giriş surəsini Azərbaycan türkcəsiylə asta səslə təkrar etdi:

– Bismillahir-rəhmani-rəhim! Mehriban və bağışlayan Allahın adı ilə, həmd olsun Allaha, aləmlərin Rəbbinə, din gününün yiyəsinə – Rəhmana və Rəhimə, təkcə Sənə ibadət edər, təkcə Səndən imdad dilərik, doğru yola yönəlt bizi, nemət verdiyin kimsələrin yoluna, qəzəbə gəlmişlərin, sapmışların yoluna yox!

– AMİN!!

Adamlar gəldikləri avtobusa minib yola düşəndə, o – əsgər libasındakı cavan oğlan – Ötkəm, əl çantasını yellədə-yellədə, piyada, üzü şəhərə tərəf yol aldı. Qəlbində, ruhunda, bütün vücudunda dərin bir yüngüllük, xoş bir asudə durum hiss edirdi, ziyarətinin ab-havası dərin məna və dəyər duyğusu kimi qəlbinin bütün guşələrinə sirayət eləmişdi.

Gedirdi... Qənşərində təmiz, geniş yol – yeni azad bir həyatın geniş üfüqləri, zəngin nəhayətsiz arzular... Başının üstündə sözlü, yağışlı, dolu buludla-

rın astagəlliyi, önündə möhkəm, davamlı körpü, körpünün sağ və sol tərəfində geniş çay yatağı, icərisi də, sahilləri də ağappaq daşlarla dolu... arası ilə sular bulana-bulana, şırhaşırla axırdı... İstər-istəməz, dayanıb axar çaya heyranlıqla xeyli tamaşa etdi. Pirsaatçay öz işində idi, bulana-bulana axırdı, geniş çaylaq yeri isə arın- arxayın, uzaqdan-uzağa öz ağarmağında idi.

Amma heyif ki, çəhrayi rəngli güllərə bürünmüş yulğun kollarının əhatəsindəki bu çayın suyunu burada yox – başından bulandırmışdılar, lilli, bozumtul sular, ağappaq, yekə-yekə daşların o tayına-bu tayına, böyür-başına keçə-keçə, sına-sına axırdı. Batman daşlar nədənsə, eləcə ağır oturub batman gəlirdi, qımıldanmaq, tərpənmək fikrində, özünü incələyərək onlara yalmanan sulara baş qoşmaq feyzində deyildilər. Soyuq noyabr Günəşinin şəfəqləri də sanki duyuq düşmüşdü, səsli-küylü, bulanıq suların yox, payız palitrasının çoxrəngli boyalarında əks qayıdış verərək özündən razı, təmkinli, güclü daşların bəyazlığında bərq vururdu.

Ötkəm çaylağa, onun köhnəlməyən, həmişəcavan, canlı peyzajına elə vurğunluqla baxırdı ki, elə bil uzun illər həsrətində olduğu ən əziz bir adamını görürdü... Az qalırdı, yolunu dəyişib getsin suların üstünə, ovuclayıb çırpsın üzünə. Axı iki il idi, çay görmürdü, Türkmənistanda çaya rast gəlməmişdi. Onun nəzərində axar su ziyarət yeri kimi müqəddəs, pir timsallı idi. Uşaqlıq illəri çay qırağında keçmişdi, çay onun uşaqlıq yoldaşı, yaxın dostu idi elə bil. Baxdıqca riqqətə gəlir, hətta elə bilirdi, bu iki il ərzində gözlərində, xəyallarında kirəcləşmiş həsrətin, qəmin ərpini, pasını doğma suların şirin şırıltısı indi, aram-aram yuyub aparır. Ona görə də elə bil yüngülləşirdi...

Azadlıq, asudəlik, özü öz ixtiyarında olmaq... Çayı xoşbəxt sayırdı bu anlarda, çay – müstəqilliyin mənbəyi, təcəssümu kimiydi, özü öz arzularının ağuşunda şirin-şirin axır... Axa-axa da sanki şəstlə noğullarını, damcılarını öz ətrafındakı yulğunluqlara, torpağa səpələyirdi.

Bu xoş, mehriban xəyalların ləzzətində ikən birdən kimsə onun qolundan tutdu:

– Ay saldat bala, hara gedirsən belə piyada?

Ötkəm səksəndi. Bütün varlığı əsdi. Təpədən dırnağa kimi vucudunu bürüyən xoş, mənalı fikirlər, düşüncələr bir topa göyərçin kimi qəfildən "pırr" eləyib uçdular. Özünə gələndə isə müdhiş 27 oktyabr gecəsi yadına düşdü; həmin o gecə leytenant Şıklayev də onu elə beləcə, qəfildən yaxalamışdı.

* * *

...Həmin yaxalanma dönəmində onlar Qızıl-Arvad adlı şəhərə təzəcə köçmüşdülər. Elə yerə ki, oranı görən-görən hayıl-mayıl olmuşdu, ən çox da elə Ötkəmin özü. Köçdükləri günün, vaxtın üstündən heç bircə gün də keçməmişdi, yəni həmin təzə yerin ab-havasını hələ ciyərlərinə çəkməyə macal tapmamışdı, hələ gözü dolusu hər tərəfinə nəzər salmağa imkan eləməmişdi, dedilər, axşam qarovula çıxacaqsan, özü də axırıncı dəfə. O axı artıq yol üstündə idi, qulluğunu başa vurmaq öngünündə olan hərbçilər (yazılmamış qanunlara görə) evə getmələrinə bir ay qalmış, əslində, hər şeydən azad olmalı, yol tədarükü görməli idi.

Buna baxmayaraq dəstə komandiri – yaşlı kapitan Reşetnikov onu yanına çağırıb dedi:

– Mamedov, bu, sənin üçün də maraqlı olacaq, təzə obyektdə keşik çəkəcəksən, həm də məncə, artıq bu, axırıncı gözətçiliyin olacaq.

– Oldu, yoldaş kapitan, – deyə əlacsız qalan Ötkəm Məmmədov hərbi təzim edərək könülsüz halda hazırlaşmağa getdi.

Reşetnikov ukraynalı idi, ali hərbi təhsili olmadığına görə, kapitan rütbəsindən yuxarı çıxa bilmirdi, baxmayaraq ki, yaşı əllini addamışdı. Həmişə ciddi siması, heç vaxt gülməyən sifəti vardı. İşini bilən adam idi, özündən yüksək vəzifəli, rütbəli komandirlər olan yerlərdə həmişə işgüzar görkəm alar, özünü diribaş, təpərli zabit kimi göstərərdi, amma ona tabe olan əsgərlərin yanında isə sərbəst, asudə ovqatda olardı.

Ötkəm kimi adam iki il ərzində heç cür ayırd edə bilməmişdi ki, onun hansı millətin nümayəndələrinə rəğbəti, yaxud hansılarına acığı, inamsızlığı var. Hamıya üzdən eyni münasibət göstərirdi, içində nə vardısa, əlbəttə, onu bilən yox idi. Yəqin, bu da onun hiyləli, gizli bacarığından, hərbi səriştəsindən irəli gəlirdi.

Hərbi hissənin həyətinin ucqar yerində bir donuz ferması vardı, onlara Viktor adlı xaxol (ukraynalılara "xaxol" deyərdilər, onlar da bu çağırışdan incimirdilər heç) əsgər baxırdı, özü də həvəslə, elə bil əsgərliyə elə donuz saxlamağa görə gəlmişdi. Yeməkxana üçün həftəyə bir, ya iki kökəldilmiş donuz kəsirdilər. Maraqlı idi, Reşetnikov bu kəsimlərdə həmişə iştirak edirdi, elə bil bu onun muşğulatı idi, yaxud da bir həzz ərazisi idi bura onun üçün. Bir dəfə Ötkəm də burada idi; çox dəhşət imiş donuz kəsimi, əsl vəhşilik... Gürzlə onun başına güclü zərbələr vururlar, donuz bir anlıq özünü itirən kimi, dörd-beş qoluzorlu əsgər hərəsi bir qıçından tutur, biri də vaxt itirmədən, yəni donuz özünə gəlməmiş, kəsir başını. Bu zaman donuzun qışqırtısı ərşə çıxır. Belə kəsimlərin birində azərbaycanlı Rahibin yanında Reşetnikov donuzun qanını yekə bir qabda başına çəkib Rahibə baxa-baxa, ləzzətlə "uffff" eləmişdi – yəni nə dadlıdır! Azərbaycanlı, zavallı Rahib o vaxtdan sonra bir necə gün, iyrəndiyindən özünə gələ bilməmiş, heç nə yeyib, içməmişdi.

Bir dəfə də Ötkəm hələ o xarabaxanaya oxşayan bədzat Kazancıq rayonunda olanda fürsətdən istifadə edərək, özbaşına hərbi hissəni tərk edibmiş. Əlbəttə, mülki geyimdə, qolsuz köynək, bir də nimdaş şalvar əynində.

...Axşama yaxın idi, qaranlıq təzəcə qarışırdı. Gəlib bir su köşkünə yaxınlaşdı, düşündü ki, nə yaxşı... İki ildir rəngli, şirin, satış suyu içmirəm, görüm buranın suyu necə olur. Xırda qəpiklərini satıcıya uzatdı:

– Bir parç su...

– Su yoxdur, – deyə satıcı türkmən kişi onun üzünə belə baxmadan cavab verdi, Ötkəm hiss etdi ki, o, yır-yığış edir, köşkü bağlamaq üçün səliqə-sahman yaradır.

– Necə yəni su yoxdur? Heç olmasa, de ki, iş vaxtı qurtarır, gedirik, su köşkündə su olmaz bəyəm?!

– Yoxdu da, dedim, yoxdu, – deyə satıcı səsini qaldırdı. Onun bu kobudluğu Ötkəmə təsir etdi, o da öz növbəsində sözünü dedi:

– Yezid!

Əsəbi və peşman halda köşkdən uzaqlaşmaq istəyəndə bir milis zabiti (cavan, arıq, üzündə heç bir canlı ifadə yox idi, ufallı adama oxşayırdı) ona yaxınlaşdı. Görünür, yad adama bayaqdan göz qoyurmuş, həm də dialoqdan hiss edib ki, bu cavan oğlan türkmən dilində danışmır.

Türkmənistan da o biri respublikalar kimi deyildi axı, sərhəddə yerləşirdi, özü də Əfqanıstanla həmsərhəd idi, orada da müharibə gedirdi, buranın milisləri gərək ayıq olaydı.Türkmən dilində:

– Niyə kobud danışırsınız satıcı ilə?

Ötkəm rus dilində:

– Kobud niyə, sadəcə, o, su satmamaq üçün iş vaxtını bəhanə gətirdi. Müştəri ilə ikrahla danışdı.

– Yox, – deyə milis leytenantı (görünür, o, sahə müvəkkili idi, buradakı adamları yaxşı tanıyırdı) yad adamın rus dilində danışdığını eşidəndə şübhəsi bir az da artdı, ani fikrə gedib, Ötkəmə milis məntəqəsinə getməyi təklif etdi.

Bəlkə də, bilsəydi ki, onun bu "ovu" əsgərdi, bir-iki saatlığa qaçıb gəlib bura, heç ona baş qoşmaz, aparmaq fikrinə düşməzdi. Milis zabiti Ötkəmi ikinəfərlik, yəni beşiyi olmayan motosikletinə mindirib yola düşdü.

"Ayda-ildə bir namaz, onu da şeytan qoymaz" – deyə həyəcanlanan Ötkəm təşviş içində idi. Cibimdə heç bir sənədim yox, məcburam deyəm əsgərəm, filan saylı hərbi hissədə. Zəng edəcəklər, deyəcəklər gəlin, əsgərinizi aparın, hissəni özbaşına tərk etməyi bir yana, hələ susatan dükançı ilə də mübahisə edib, kobudluq göstərib. Mübahisə etmək qanun pozuntusu olmasa da, icazəsiz hərbi hissədən çıxmaq üstündə 15 günlük həbs alacaqdı, ya da ən azı, bir yağlı töhmət...

Bu fikirlər içində gedə-gedə bir də gördü, ayaqları yerə dəyir, əməlli-başlı yerlə sürünür (188 sm boy, uzun qayışbaldır ayaqlar). Həməncə, yavaşca ayaqlarını yerə qoydu. Gözlərinə inanmadı, bir də gördü motosiklet ayaqlarının arasından çoxdan şütüyüb gedib. Tırıltısı odur ey... küçənin o başından gəlir.

Cəld o tərəfə, bu tərəfə göz gəzdirdi, o yanda – bu yanda, sıra ilə düzülmüş evlər, çox da hündür olmayan yosmaca daş hasarlar idi. Milis zabiti öz kefində idi, maşallah, gurhagurla gedirdi. Elə bilirdi "ovu" sakit, səssiz oturub öz yerində, motosikletin səsi də gecənin bağrını dələ-dələ aləmi ağzına götürmüşdü.

Ötkəm ilan ağzından qurtulan sərçə kimi, ildırım surətilə qarşısına çıxan ilk hasardan həyətə tullandı, həyətdə heç kim yox idi, uzaqdan bir it hürdü, ona fikir verməyib çaparaq keçdi o biri qonşu həyətə. Orada da sakitlik idi, nəfəsini belə dərmədən oradan da o biri həyətə tullandı. Birdən mal tövləsinin qoxusu dəydi burnuna, bir inək yatdığı yerdəcə gövşəyirdi, qabağında ot-alaf yox idi, elə bil qaranlığı yalayır, gecəni kövşəyirdi... Bircə o yadında idi ki, gecənin sakitliyində motosikletin səsi gah yaxınlaşır, gah da uzaqlaşırdı. Binəva düşmüşdü kücələrin canına, "itiyini" axtarırdı... Bir də gördü ki, şəhərdən çıxıb, bir çöl-biyabandadır (şəhər də şəhər ola, iki-üç dəqiqənin içində o başından vurub bu başına çıxdı!), motosikletin qorxunc səsi isə, maymaq milis zabitinin özü kimi gecənin qaranlığında çoxdan itib-batmışdı.

Dərindən nəfəs aldı, uzaqda işıqları zəif-zəif közərən hərbi hissəyə tərəf yol aldı. Daha tələsmirdi, amma qorxu hissi hələ də canından çıxmamışdı. Yolda gah əks tərəfdən, gah da arxadan təkdənbir yük maşınları gəlib keçirdi. Arxadan gələn maşının işığında birdən öndə bir qaraltı apaydın göründü. Hərbi geyimli bir nəfər hər əlində bir şüşə çaxır, iti, iri addımlarla irəliləyirdi. Yaxınlaşdıqca o qaraltının birdən... dəstə komandiri Reşetnikov olduğunu tanıya bildi.

Dəhşət!

Tez geri döndü. Yolda təsadüfən, Allah eləməmiş, üz-üzə gəlsəydilər, onu bu paltarda tanıyıb tutsaydı... onda gör nələr olardı.

İndi təzə köçdükləri yerdə: – oldu, yoldaş kapitan, – deyib qarovula hazırlaşmağa gedəndə Ötkəmin ogünkü gecənin qara, mübhəm kölgələri gözünün önündən gəlib keçdi, hər şey yaxşılıqla bitmişdi deyə, hələ gizlincə məmnun-məmnun gülümsündü də. Uzun bir vaxtın olayı indi niyə birdən-birə yadına düşmüşdü, heç özünə də aydın deyildi.

Qarovul rəisi, Ötkəm, daha iki gənc əsgər, cəld və qıvraq hərbi yeriş qaydası ilə gedirdilər. Qarovul rəisi əvvəcə onları – gənc əsgərləri öz postlarına qoyub, Ötkəmlə birlikdə yoluna davam etd; birdən qabaqlarından bir pişik, zarıncı miyoltularla yolu çəpinə kəsərək, qaçdı.

Bundan Ötkəmin ürəyinə nə isə pis bir şey gəldi, eşitmişdi ki, bunun düşər-düşməzliyi olur, yolu pişik kəsib keçəndə, bu, hansısa bəd hadisə olacağına işarə verir.

O, bu fikri tezcə də özündən uzaqlaşdırdı (amma sonra bildi ki, bu sınaq, inanc əksinə imiş, pişiklər yolu kəsib keçirsə, deməli, yaxınlaşmaqda olan bədliyin qarşısını kəsərək keçir.)

Postu təhvil aldı. Çiynində “Kalaşnikov” avtomatı, üç ədəd dolu patrondaş, içi barmaq-barmaq, nar dənələri kimi bir-birinə sıxılmış qırmızı güllələrlə dolu... Başladı ətrafı gəzməyə. Vəzifəsi bu ərazini, yəni zabitlərin yaşadığı yerləri və binaları qorumaq idi. Üçmərtəbəli evlərlə əhatə olunmuş bu yığcam şəhərciyin səliqə-sahmanı göz oxşayırdı.

Evlərin mərkəzində yerləşən üstüörtülü söhbətlik yeri təmiz və səliqəli idi, amma ona burada oturmaq olmazdı. Ötkəm ayaq üstə olmalı, gəzməli, dolanmalı, hərbçilərin özlərindən və ailə üzvlərindən başqa, heç kimi bura buraxmamalı idi, bunları ona qarovul rəisi tapşırmışdı.

Artıq şər qarışırdı. Hər tərəfdən əl-ayaq yığışmışdı. Qəribədir ki, burada bir ins-cins gözə dəymirdi. Ötkəm düşünürdü ki, yəqin, gündüzlər bu həyət-baca səs-küylə, uşaqlarla dolu olur. Amma indi xəfə, qaramat bir gecə idi, mənzillərin çoxunun işıqları yanmırdı, elə bil burada bəni-insan yaşamırdı. Həm də qəribəsi bu idi ki, buradakı qarovul o biri postlarda olduğu kimi, hər iki saatdan bir dəyişdirilmir. Görünür, Ötkəm səhərə qədər burada qalmalı idi. Çiynində avtomat silah, belində üç dolu patrondaş, gəzə-gəzə fikirləşirdi ki, burada ancaq evlərdi, mənzillərdi... strateji obyekt deyil, silah anbarı yox, hərbi texnika yox. Odlu silahla yaşayış yerlərində keşik çəkmək nə dərəcədə əsasnaməyə uyğundu? Adicə sallama xəncər bəs etməzdimi?

Nə isə... Sonra özü özünə irad tutdu: Sənə nə var, sən özün haqqında düşün. Bir aydan sonra evdə olacaqsan, gələcək həyatın, işlərin, təhsilin... Gör indi anan səndən ötrü necə darıxır, gecəsi-gündüzü yoxdu yəqin... Atan... nə edir görəsən, maaşı görürmü ayın axırını? İndi başa düşmüşəm, o yazıq beş il hərbdə, müharibədə nələr çəkib. Berlinə qədər döyüşə-döyüşə gedib, neçə dəfə yaralanıb. Evə qayıdanda bir kisə orden-medallarla gəlmişdi. O, bəlkə də, məndən ötrü o qədər də darıxmır, anası demişkən: “Onun ürəyi daşdır”. Haqqımda söz düşəndə: “Kişidir, qoy bərkə-boşa düşsün, bərkisin” – deyir yəqin.

Həyətdə boş-boşuna gəzib dolanmaqdan bezdi Ötkəm. Gecə keçirdi, yaxındakı binanın, işığı yanmayan mənzilin birinci qatının eyvanına boylandı: "Əcəb yerdi" – dedi. Qalxıb endi eyvana. Geniş və təmiz idi hər tərəfi. Köhnə kilim, bir də nimdaş sırıqlı dəydi gözünə. Avtomatını kilimin altına qoyub üstünə uzandı, sırıqlını başının altına çəkdi.

Bayırda, səmada tək-tək, soyuq-soyuq işıldayan ulduzlara baxa-baxa fikrə getdi: "Görəsən, insanlardan bu qədər uzaq-uzaqlarda qaldıqları üçün onlar üşüyürlərmi? – axı həm də bir-birindən də xeyli uzaqdadırlar, deyirlər, tənhalıq, uzaqlıq həmişə soyuqluq gətirir. Görəsən, ulduzlar fəzada necə idarə olunurlar, kim tərəfindən, nəyin gücü ilə, yoxsa onlar heç idarə olunmurlar, hərəsi özü özüyçün bir dünyadır, nə bilmək olar. Materialist fəlsəfədə deyilir ki, kainatda, təbiətdə hər şey təsadüfdən yaranıb idarə olunur, amma qanunauyğun

təsadüflə... Məgər təsadüfün də qanunauyğunluğu olar? – Nə isə... Onda elədirsə, yüz tonlarla yüki bu qitədən o qitəyə daşıyan təyyarələri, zirehli raketləri yaradan, heyrətamiz intellektə, bacarığa malik olan o insanlar, bir barmağın ucu boyda kəpənəyi, bir damcı biçimində olan qarışqanı da təsadüfən yaratsınlar da... Yaratmayıblar! Yarada da bilməzlər! Çünki o qarışqanın, kəpənəyin canı, ruhi var. Ruhlar isə ancaq Ulu Tanrıdan gəlir.

Bu fikirlər içində o, bilmək istəyirdi ki, indi gecənin hansı vədəsi idi... bilmirdi... Ancaq onu bilirdi ki, insan qəlbi arzular qaynağında, istəklər axarında çırpınanda kimsəsizlik, ünsüzlük də bəzən qəlbə isti hənir, xoş bir rahiyə bəxş edir. O, bu fikirlər içində xumarlananda... sən demə, yuxu uzaqda dayanıb fürsət gözləyirmiş. Bir çimiri belə qənimət bilən yorğun əsgərlər təklikdə, sakitlikdə qalanda yuxu namərd, xəyanətkar düşmən kimi girəvə gəzir, fürsət axtarırmış qoyun sürüsünün kənarında uzanıb onları marıtlayan canavar dəstəsi kimi...

Birdən idman libasında bir nəfərin onu silkələdiyini: “Ayıl, Mamedov, ayıl!” – deyə çağırdığını eşitdi, səs əvvəlcə elə bil çox uzaqlardan gəlirdi, gözlərini açdı, yarıyuxulu halda olsa da, onu tanıdı: leytenant Şıklayev idi. O, çox əsəbi, üz-gözü də qeyri-müyyən bir ovqatda idi.

– Nə olub yoldaş leytenant?

– Tez, tez dur qaç tibb məntəqəsinə, tez, mənim arvadım ölür... (Sən demə, o, doğrudan da arvadını öldürməkdə qərarlı imiş, ona görə tez tez “arvadım ölür, ölür” deyirmiş, bütün bunlar sonradan Ötkəmə aydın olacaqdı.)

– Necə yəni ölür?

– Tez ol, qaç tez həkim dalınca... tez, çağır gəlsin bura.

Əsgər Ötkəm Məmmədov cavab verməyə, etiraz eləməyə imkan tapmadı. Ona elə gəldi ki, leytenant Şıklayev yəqin heç bilmir ki, kilimin altında silah var, ona görə də “qarğa, məndə qoz var” eləməyib təhtəlşuur içində üzü tibb məntəqəsinə tərəf götürüldü.

– Tez qaç, Mamedov, tez, o ölür...( demir ey xəstədir,vəziyyəti ağırdır, məhz “ölür”! “ölür”!)

Bu, Şıklayevin arxadan atılan daşa bənzər son sözləri idi.

Ötkəm qaçırdı... nə ki gücü var, o sürətlə!.. Uzaqda, cəmisi bir otağının işığı yanan tibb məntəqəsinə çatmağa lap azca qalmış... birdən güllə səsi eşitdi. Yerindəcə quruyub qaldı! Dəhşət və heyrət içində dönüb geriyə qaçmağa başladı. Uçan quş kimi qalxıb həmin eyvandakı kilimi qaldıranda, az qaldı, ağlını itirsin, içi güllələrlə dolu, patrondaşlı avtomat yox idi!!

Heydən düşdü. Özünə gələnə qədər ikinci güllə səsi də gəldi. Dərhal özünü səs gələn tərəfə atdı. Binanın giriş qapısına çatanda çılpaq bir qadının hövlnak, işıq süræti ilə birinci qatdakı mənzilin pəncərəsindən çölə atıldığını gördü. Elə sandı ki, bütün gördükləri gerçəklik deyil, yuxu, ya da qarabasmadır. Bir qat yuxarı qalxanda kapitan Kunanbayevin cəsədini gördü, o, təzəcə ölmüşdü, qanı daş pilləkənlərlə aşağı axa-axa laxtalanırdı. Daha o biri mərtəbəyə çıxmaq, kimisə arayıb-axtarmaq ağlına gəlmədi. Geriyə, özünü hərbi hissənin növbətçi hissəsinə çatdırdı:

– Həyəcan! Ölüm! Kunanbayevi öldürdülər!

Amma o hələ bilmirdi ki, Kunanbayevi qətlə yetirən leytenant Şıklayevin özüdür. Daha sonra onu da bildi ki, ikinci güllə də Şıklayevin həyatına son qoyub, elə onun öz əli ilə!

Sonra nələr olmuşdu, kimlər hara getmişdilər, hansı başqa olaylar baş vermişdi, heç birindən onun xəbəri olmamışdı. Şahid olub gördüyü bu dəhşətli

olayların ağırlığı və zərbələri altında şil-küt olmuş, yarıölümcül vəziyyətdə, hərbi hissənin növbətçi otağındakı taxta çarpayıda heysiz, taqətsiz uzanıqlı halda nə qədər qalmışdısa, heç nədən xəbəri olmamışdı. Bir müddət sonra özünə gəlmiş, gözlərini açmışdı.

Hadisənin özünün və ərazisinin təfərrüatlarını yadına salmaq istəyəndə bütün bunların yuxu və ya gerçəklik olduğu hələ ona aydın, aşkar deyildi. İstədi növbətçidən soruşsun ki, nə olub, gecə nəsə baş veribmi? Ürək eləmədi, təzədən özünü ələ almaq, yağmalamaq istədi. Ağlının, hafizəsinin yerində olub-olmadığını, yaddaşının psixi cəhətdən məhv olub-olmadığını sınaqdan keçirmək üçün özü özünə suallar verməyə başladı: "Sənin adın nədir? Harda, nə vaxt anadan olmusan? Uşaqlıq illərin kimlərin yanında, harada keçib? Bu hadisədən əvvəl nə iş görürdün?"

Cavabların dürüstlüyü və aydın konturları onu bir az özünə gətirdi, sakitləşdi, ürəyinə bir hovur toxtaqlıq gəldi elə bil. Allaha ərz elədi ki, nə olar, bircə saatlıq mənə yuxu ver, yatım, sonra ayılım, təzədən özümü yoxlayım. Elə bilirdi ki, əcəl və qorxu kərəntisi gözlərinin önündə hərlənir, başının üstündə dolanır. Kunanbayevin dirigözlü meyiti, köpüklənən, axan qanı... gözlərinin önündən getmirdi...

Kunanbayev qazax idi, milliyyətcə, başqa bölüyün komandiri idi. Ciddi görkəmli, qarayanız sifətli, orta boylu bir kişi idi, olardı təxminən 45-48 yaşı... Alayda heç kim onun haqqında pis fikirdə, mənfi rəydə deyildi, sakit, səssiz işini görən zabit olsa da, uzaqdan bir az qaraqabaq, mızı adam təsiri bağışlayırdı. Alnında nazik qırışlar zəhmli görkəmini bir az da artırırdı, həmişə başıaşağı yeriyər, hərdənbir başını qaldırıb ətrafa baxardı. Hərəkətləri onun bir az qapalı, az danışan, bütün ədəb-ərkan qaydalarının civarından çıxmayan adam olduğunu görükdürürdü.

Əvvəlcə Kunanbayevi, sonra isə özünü güllələyən Şıklayev isə ondan azı on yaş cavan, uca boylu, mavi gözlü, ünsiyyətcil, hamı ilə dil tapan yaraşıqlı bir zabit idi, böyük vəzifəsi də yox idi, yəni komandir deyildi.

Bu qətlin və intiharın səbəbini Ötkəm sonra biləcəkdi. Sən demə...

* * *

Həmin gün – qətl və intihar baş verən günün gecəsi, leytenant Şıklayevin baldızının ad günü imiş. Öz bacısının yığıncağına getmək istəməyən gənc zabit arvadı Qalya əri ilə mübahisə edir ki, o məclisdə iştirak etmək fikri yoxdu, guya iki gün öncə bacısının əri – əyyaş, zırı adam olan Vanya onunla qaba danışıb, ona görə də elə bir adamla bir süfrədə üz-üzə oturmaq istəmir. Sabah o, evdə olmayanda gedib bacısını təbrik edəcək, hədiyyəsini də verəcək.

Leytenant Şıklayev məclisə tək getməli olur. Evdə qalan gənc zabit arvadı (onların uşaqları yox idi) əvvəlcədən vədələşdiyi kimi, üzbəüz mənzildə yaşayan Kunanbayevi evində gözləyirmiş, ərinin şakərini yaxşı bilən Qalya düşünürmüş ki, "ye-iç" məclisində, araq, çaxırın bolluğunda Şiklayev kef içində hər şeyi unudacaq, Qalya heç yadına da düşməyəcəkdir. Allah bilir, gecə saat neçədə evə qayıdacaqdır. O da Kunanbayevlə əməlli-başlı eşq macəraları yaşayacaqdır. Bu gecə fürsəti əvvəlcədən planlaşdırılıbmış, əslində, elə belə də olacaqdı hər şey...

Qonaqlıq yağ kimi gedirdi, hamı yeyir-içir, deyir, gülürdü. Qonaqlar oturan zalın o başında masanın üstündə bükülü hədiyyələr düzülmüş, təbrik üçün

gətirilən təzə gül dəstələri güldanlarda suya qoyulmuşdu. Həzin musuqi səs-küyə, siqaret tüstüsünə qarışmışdı. Bacısı Qalyanı heç xəbər də almırdı, bəlkə də bu “plan”dan onun da xəbəri vardı, üçüncü-dördüncü qədəhdən sonra Şıklayevin bacanağı yenə də üzündə sitizə bir təbəssüm arvadına söz atır:

– Bacından xəbər çıxmadı, bəs deyirdin gələcək...

– Özünü pis hiss edirdi, bəlkə, ona görə...

İçkinin təsirindən artıq ağzı əyilən Vanya bacanağı, gənc leytenant Şıklayevə yumor elementləri ilə dolu mənalı nəzərlərlə baxaraq: "Yaxşı, canı sağ olsun, Kolya, götür görək, yenə də bacıların hər ikisinin sağlığına içək, biri gəlməsə də biri buradadır" – deyə təklif etdi. Onsuz da arvadının burada olmamasından pərtlik və məyusluq hissləri keçirən Şıklayev, araq qədəhini axıra kimi başına çəkib, qəfilən ayağa qalxdı.

– Hara, hara gedirsən Kolya? – məclisdə yerbəyerdən onun bu vaxtı süfrəni yarımçıq qoyub getməsinə etiraz edirlər.

– Yox, yox, narahat olmayın, indicə qayıdıram, Qalyanı da götürüb gəlirəm. Mən gələndə o, vanna otağında idi. İndi gəlirik, – deyə onları sakitləşdirdi.

Qonaqlığın gedişatı təzədən öz məcrasına düşdü, hamı sevindi ki, indicə Kolya ilə Qalya da gələcək, məclis bir az da qızışacaqdır.

Bu arada, üzü ziyilli, siqaret tüstüsündən lopa ağ bığlarının alt hissəsi saralmış, yaşlı olsa da, hamıdan qıvraq və şən görünən Vanyanın yarızarafat-yarıciddi dediyi söz adamları güldürdü:

– Gördünüz, buna deyərlər ey... bacanaq bacanağın söyər yerini yaxşı tanıyır, bacıların sağlığına, – deyən kimi Kolya başılovlu dabrıdı arvadının dalıycan.

Adamların üzündə məmunluqdan doğan xoş cizgilər cilvələnirdi...

Amma... çox da uzun bir zaman keçməmişdi, dəhşətli, qara xəbər məclisi bircə anda dağıtmışdı.

Səhər saat 9-10 radələrində əsgər Ötkəm Məmmədovun dalınca gəldilər:

– Hazırlaş!

O, artıq bu adamları dünəndən gözləyir, hər dəqiqə çağırılmaq, aparılmaq instinkti altında idi.

– Özünü səliqəyə sal, hərbi prokurorluğa gedirik.

– Oldu, – deyə o, taqətsiz halda dilləndi.

İki nəfər tanımadığı zabitlə hərbi maşında (elə abtomobil ki, üstündə “adamlar” sözü yazılmış yük maşını) – 25 nəfərlik oturacağı olan maşında tək əyləşmişdi. Qızıl-Arvad şəhərinə girdilər. İki ilə yaxın idi ki, belə dolu, canlı şəhər mənzərələri görməmişdi, adamlar ora-bura tələsir, gedişli-gəlişli küçələr çay kimi ləngər vururdu. O, işgüzar görünüşlü mülki adamları müşahidə edir, onlara həsədlə göz gəzdirirdi.

Ötkəmin elə bil birdən-birə ürəyi açıldı. Düşündü ki, mülki vətəndaş olmaq, dolu, basırıq şəhərlərdə yaşamaq, işləmək, adamların tünlüyündə itib-batmaq özü də bir səadətdir; həm də yəqin ki, mən uzun illər bu xoşbəxtliyi görməyəcəyəm. Su, qəzet köşkləri, taksi, avtobus dayanacaqları, gül-çiçək dükanları, hər cürə ərzaqla dolu geniş görüncəkli mağazalara doyumsuzluqla və görməmişliklə baxırdı... Artıq ürəyinə nə isə dammışdı.

Hava saflıq və təmizlik qoxuyurdu. Noyabr günəşi isti və mehriban şəfəqlərini hər tərəfə səxavətlə paylayırdı. Başını qaldırıb səmaya baxdı. Onun nəzər və sezgisinə birdən bulud topaları tuş gəldi, bəyaz buludların qulaqlarına elə bil səs dəymişdi, ağappaq göyərçinlər kimi sakitcə, nazlı-nazlı, asudəliklə süzürdülər, asta-asta... Özü də yerə elə yaxından baxırdılar ki... elə bil düşüb

adamlara qarışacaqdılar. Ötkəmə birdən elə gəldi ki, biri lap az qala, ona əl uzadıb, onu harasa aparmaq, buradakı adamlardan aralamaq istəyir, həm də elə bil o bulud, o bulud idi ki, neçə il öncə, uşaqlıq illərində üzüm bağlarında məhsul yığılıb sovulandan sonra, başaq vaxtı görmüşdü onu: özü idi ki vardı – həmin tanış, həmin mehriban bulud... gör hara gəlib çıxmışdı. Sanki Ötkəmə baxıb bir soru etdi:

– Sən hara, bura hara?

Birdən:

– Keç içəri! – deyə mis kimi cingildəyən bir səs onu xoş xatirə, dadlı düşüncə cəngəlliyindəki uzaqlardan gələn yaxındakı o buluddan ayırdı.

Səliqəsi, təmizliyi, sakitliyi ilə adamı vahimələndirən binanın xalçalarla döşənmiş pilləkənləri ilə ikinci qatına qalxdılar. Üstündə adı-soyadı yazılan müşənbə üzlü qapının ağzında çox gözləmədilər.

Ötkəmi həmin otaqdakı mülki geyimli, orta yaşlı bir kişiyə təhvil verib getdilər. O şəxs – eynəkli, iri, mavi gözləri olan, mülayim baxışlı bir insan idi. Kabineti balaca, yığcam olsa da səliqə-sahmanı üzdə idi. Təbii ki, söhbət rus dilində gedirdi:

– Xahiş edirəm, əyləşin.

Onun ilk dəqiqələrdən Ötkəmə "siz"lə müraciət etməsi sıravi əsgərin ürəyində bir az toxtaqlıq yaratdı: "Deyəsən, yaxşı adama oxşayır".

– Tərcüməçiyə ehtiyac var, yoxsa suallarıma özünüz dürüst cavablar verə biləcəksiniz?

– Yox, ehtiyac yoxdur. Nə soruşsanız, cavab verəcəyəm.

– Bu lap yaxşı oldu, – deyə o, eynəyini çıxarıb o biri əlindəki qar kimi ağappaq dəsmalla onun şuşələrini silə-silə, aramla danışmağa başladı:

– Mənə artıq bəzi məqamlar az da olsa məlumdur. Daha doğrusu, bu kədərli, ağlagəlməz hadisədən bütün Türkistan Hərbi Dairəsi xəbərdardır. Yəqin, çoxdan Moskvaya da gedib çatıb bunun sədası.

Onun gözlərində təəssüf çalarları açıq-aydın oxunurdu. O, əvvəlcə əsgərin anket məlumatlarını soruşub bir-bir yazdı. Milliyyəti azərbaycanlı deyəndə bir az ara verib Ötkəmin üzünə anlaşılmayan nəzərlərlə baxıb, sonra yenidən yazmağa başladı:

– Xidmətinin qurtarmasına lap az qalıbmış... eləmi? – müəmmalı səs tonu ilə xəbər aldı.

– Bəli, yoldaş prokuror.

– Mən müstəntiqəm, prokuror deyiləm.

– Belə... tələsmədən bütün detalları təzədən yadınıza sala-sala danışın, necə olub bu hadisə... Həm də bir az aramla... mən də çatdırıb yaza bilim. Axırda özünüz oxuyub imza edəcəksiniz.

– Yaxşı, başa düşdüm.

Ötkəm kəsik-kəsik danışır, müstəntiq isə iti-iti, ara vermədən yazırdı, hərdən əlavə suallar verir, aydınlıq üçün bəzi xırdalıqları bir daha araşdıraraq, təzədən qeydlərini davam etdirirdi. Sonra yenə bir neçə əlavə tendensiyadan uzaq hadisəyə dəxli olmayan bəzi qəribə suallar da verdi, cavabları dəqiqləşdirib yazandan sonra vərəqləri Ötkəmin qarşısına ötürüb, diyircəkli qələmi ona uzadaraq dedi:

– Xahiş edirəm, diqqətlə oxuyun, razısınızsa, hər səhifənin altından bir-bir imza edin.

Ötkəm onun xəttini bütün dəqiqliyi ilə diqqətlə oxuya bilməsə də, sadəcə, səhifələrə göz gəzdirərək, özünü elə göstərdi ki, guya hamısını oxuyur.

Başdan-ayağa varlığına pərçimlənən qorxu və həyəcan içində səbirsizlik cəngəlliyi yaratmışdı. Ona görə də, “onsuz da nə edə bilərəm, nə demişəmsə, onu da yazıb da, yəqin" – deyə səhifələri bir-bir imzaladı.

Müstəntiq vərəqlərə baxa-baxa gülümsünən kimi oldu; tam səmimi, riyasız bir uşaq təbəssümü ilə dedi:

– Siz böyuk rəis olacaqsınız, imzanız çox möhtəşəm görünür!

O, imza edərkən adının ilk hərfini yazmış, sonra nöqtə qoyaraq soyadını imza kimi düyünləmişdi. Əlbəttə, Ötkəm onun bu sözünü kompliment kimi qəbul etmədi, özü-özlüyündə düşündü ki, müstəntiq onu ya xəfif bir yumorla dolayır, ya da tərifləyə-tərifləyə söz almaq istəyir; nə vaxtsa eşitmişdi ki, əgər işin keçən adam sənin üzünə gülürsə, səninlə xoş davranırsa, qorx elə adamdan, eləsinə “pambıqla baş kəsən adam" deyərlər. Amma qaraqabaq və sərt danışan adamdan çəkinmə.

Ona görə də Ötkəm müstəntiqin eynəyinin altından ona zəndlə baxan iri, işıqlı gözlərindən çəkinir, onun üzünə dik baxmağa belə ürək eləmirdi. Elə bil kimsə ona diktə edirdi ki, tanımadığın yad adamın, həm də özgə bir millətin nümayəndəsinin xoş qılığına, mədəni davranışına çox da bel bağlama!

Ona görə də ürəyində şübhə qaraltıları var-gəl edir, hərdən, az qala, onun gözlərini də örtürdü: sən günahkar sayılırsan, özün də istintaq altındasan, bu müstəntiq sənin nəyin olasıdır, həm də bilmirsən, axı səninlə niyə belə qılıqlı davranır, fikri, məqsədi nədir, heç nə sənə məlum deyil hələ?! Ona görə də hər sözünün üstündə diqqətli ol.

Birdən otağa hərbi libasda bir cavan oğlan daxil oldu. Qapını döymədən, icazəsiz-filansız. Müstəntiq Ötkəmə başının işarəsiylə, yəni “durun, onunla gedin” – dedi.

Sən demə, onun əlinin altında, masasının görünməyən yerində çağırış düyməciyi varmış, onu basmaqla prokurorluğun operativ əməkdaşı özünü yetirib, əlüstü çatdırıb özünü. Ona görə də qapını döyməmiş, birbaşa girib içəri...

Bunları Ötkəm sonra biləcəkdi hələ. Çağırışa gələnlə birgə o, müstəntiqin otağından çıxdı. Hara, niyə gedirdi, hələ heç nə ona məlum deyildi, müstəntiq bu barədə ona heç bir söz deməmiş, heç nədən xəbərdar etməmişdi onu.

Dəhlizə çıxanda Ötkəm həmin otağın qapısının üstündəki yazılı lövhəni oxudu: "mayor Q.P.Qizenburq".

O, bayaq çağırışa gələn hərbçi cavan oğlanla müstəntiqin otağından çıxıb bir az kənarda yerləşən birmərtəbəli binaya tərəf üz tutdular. Yerinə, ayaqaltısına rəngli qənbərlər döşənmiş səliqəli daş cığırın o tayı-bu tayı topa-topa gül-çiçəklərlə örtülmüşdü. Həyət-baca göz oxşayırdı, amma bütün bu gözəlliklər Ötkəmin gözündə deyildi, fikri ancaq orada idi ki, hara, niyə aparırlar onu... Getdikləri binanın da dörd tərəfi yaşıllıq içində idi. Səliqə-sahmanından ona elə gəlirdi ki, bura ya uşaq bağçası ola bilər, ya da xəstəxana.

Binanın giriş qapısında gözətçi gənc əsgər onları görən kimi cəld ayağa durdu, əlini qaldırıb, yəni “dayanın” demək istədi. Sonra, deyəsən, hərbçini tanıyıb, üzrxahlıq əlaməti olaraq gülümsündü:

– Keçin, keçin, – dedi.

Dəhlizin o başındakı oturacaqda üzü, başı tənziflə sarıqlı iki orta yaşlı hərbçi zabit bir-biri ilə pıçıltı ilə söhbət edirdilər. Ötkəmi gətirən hərbçi onlarla salamlaşıb, başının işarəsi ilə qapını göstərib:

– Kimsə varmı orada? – deyə soru etdi.

– Yox, heç kim yoxdu, – dedi sarıqlı kişinin yanındakı.

Ötkəm indi yəqin etdi ki, bu hərbçi prokurorluğun əməkdaşıdır, həm də elə bir əməkdaşıdır ki, sanki yeriyən, danışan robotdur – mürməd, qaraqabaq...

Hər işdə, hər əməldə bir damcı da oyan-buyan eləməyən, bir kəlmə də artıq söz danışmayan, səssiz-səmirsiz, işgüzar bir robot: “Hə, hə”, “yox, yox” “Gəl, gəl” “Get, get”, vəssalam!

Həmin otağa daxil oldular.

Tibb ləvazimatları ilə dolu rəflərin önündə iki ağ xalatlı qadın nə isə edirdilər, əllərində nə vardısa görmək mümkün deyildi. Hərbçi salamsız dərviş kimi, onlara heç bir söz demədən, əlindəki kağızları qadınların iş masasının üstünə qoydu, təklifsiz-filansız keçib otağın sağ tərəfindəki qoltuqlu həsir kətildə oturdu.

Ötkəm ayaq üstə durub gözəyirdi; artıq ona ayırd olmuşdu ki, bura haradır, bir az arxayınlaşmışdı. Pəncərələrin rəflərindəki gülləri dim-dik duran dibçəklərə nəzər salır, onların növünü ayırd etməyə çalışırdı. Çoxunun indiyə kimi nə üzünü görmüşdü, nə adını bilirdi; amma əzvayları, kaktusları, mimozları, bir də ətirşah gülünü tanıya bildi. Yaşıl, yekə yarpaqlı, pənbə rəngli gülü olan bu ətirşah gülü elə bil ona mehribanlıqla baxırdı. Sanki mimikaları ilə nə isə demək istəyirdi. Elə bil, köhnə, yaxın bir tanışı idi, – xoşbəxt, qayğısız orta məktəb illərini bir andaca gözlərinin önünə gətirdi, siniflərin pəncərələrində bu güllər həmişə üzə gülərdi.

Böyük laboratoriya zalının divarının baş hissəsində, yəni mərkəzində, rus yazıçısı Çexovun iri portreti asılmışdı. Elə bil yad, biganə adamların, soyuq görünüşlü laqeyd insanların arasında birdən ona əziz olan bir doğmasına, dostuna, qohumuna rast gəldi. Ötkəm onun məşhur şəklini burada görəndə həm sevindi, həm də bir az təəccübləndi: hərbi prokurorluq hara, Çexov hara?! Sonra başa düşdü ki, bura hərbi prokurorluğun nəzdində olsa da, hər halda, məhkəmə təbabəti şöbəsidir, burada işləyənlər hərbçi olsalar da, ixtisasca həkimlərdi, Çexov axı həm də həkim idi. Bu bağlılıq idi burada özünü göstərən.

Nədənsə, hardansa çox sevdiyi yazıçının “Cərrahlıq” adlı hekayəsindəki Zemstvo xəstəxanasında həkim Sergey Kuzmiçə bir xəstənin Plastirdən - qədim, dini kitabdan ixtibas gətirdiyi bir sözü düşdü yadına:

"Gözlərimin yaşı çörəyimin yavanlığı olmuşdur". Bu qəlbgöynədən, həm də insan ovqatını haldan-hala salan sözlər niyə indi, gözlənilmədən Ötkəmin fikrindən gəlib keçdi. Axı o, bu hekayəni çox-çox əvvəllər oxumuşdu, elə o vaxtdan da unutmuşdu. İndi bu dəqiqədə hardan gəlib çıxdı onun qənşərinə birdən-birə bu söz... Göz yaşı və çörək...

Bəli, kiminsə çörəyi at belindədir, yəni çətinliklə qazanılır (misalçün, elə onun atasının), kiminsə göz yaşları həmişə ovcunun içindədir... (misalçün, elə onun anasının). Onun üçün hələlik burada, bütün bunlara hər bir baxış bucağından nəzər salmağın, hələ bir köks ötürməyin də heç bir önəmi yox idi, onun içini sanki bir təlx təm doldurmuşdu, heç özünə də məlum deyildi hardan, necə, nə üçün...

Bununla belə, böyük yazıçının zəncirli eynəyinin altındakı dərin, mənalı gözlərinə, nurlu, təmkinli simasına baxanda, ürəyinə bir toxtaqlıq, xoş bir təpər gəldi. Elə sandı ki, Çexov indicə canlanıb danışacaq, üzündəki uşaq təbəssümünə oxşar büllur ifadə və məhzunluq ötkəmliklə əvəz olunacaq, Ötkəmi burada işləyən peşə həmkarlarına – həkimlərə tapşıracaq: “Ona dayaq olun, kömək edin”, – deyə amiranə bir tövrlə, ərklə göstəriş verəcəkdir. Həm də elə sanırdı ki, əgər, dahi, insanpərvər bir ədibi sevən, oxuyan, onun portretini başı üstündən asan bu adamlar heç vaxt haqsız, ədalətsiz iş görub ağa qara, qaraya ağ deyə bilməzlər (sonra bu fəhminə görə özü özünə gülmüşdü də).

Cavan, yetişmiş bir qız (təxminən 22-24 yaşlarında, orta boylu, dolu bədənli) adi-sadə iş qaydası ilə işləyir, "robot" hərbçinin masanın üstünə qoyduğu bağlı zərfi açıb içindəki sənədlərə baxa-baxa, özlərinin surğuclu dəftərlərinə nə isə qeydlər edirdi.

Gələn əsgərə heç gözünün ucu ilə də baxmırdı. Orta yaşlı qadın isə Ötkəmə laqeydcəsinə nəzər salaraq quru, sanki bezgin bir səslə:

– Keçin, o biri otağa, – dedi.

Ötkəm artıq başa düşmüşdü ki, onu bu ağ xalatlı qadınların işlədiyi yerə niyə gətiriblər və bura haradır, nə deyilən yerdir. Daxil olduğu yarıqaranlıq otaq rentgen mərkəzi imiş sən demə.

– Qurşağa kimi soyunun, – deyə həmin qadın bayaqkı bezgin səslə yox, bu dəfə amiranə tərzdə göstəriş verdi. – Sonra keçin bura, – deyə o iki qurğunun arasını göstərdi:

– Üzünüzü o tərəfə çevirin.

Aparatın gözlüyü onun başının alın və arxa tərəflərində gəzə-gəzə, nə isə çəkirdi.

Deyilənlərə səssiz-səmirsiz əməl edən Ötkəm indi daha dərin həyəcan keçirirdi. Sonra qadın, əlini Ötkəmin boynunun arxa hissəsinə sürtdü, o özünü güclə saxladı, korun bir ağrıdan, az qaldı, qışqırsın. Qadın onun alnına da əl gəzdirdi, görünür, nədənsə şübhələnmişdi.Amma barmaqları elə titrək elə şəfqətli idi ki...

– Bu hadisə nə vaxt olmuşdur, necə gün əvvəl? – deyə sual verdi.

Bu səs bayaqkı – zaldakı səsdən fərqlənirdi: ılıq və mehriban çalarla dolu idi. Görünür, onun əsgərə rəhmi gəlmişdi.

– İki gün əvvəl, – Ötkəm cavab verdi.

Cəmisi onca dəqiqə bundan öncə, biganə, işgüzar simalı qadının çöhrəsi indi elə bil işıqlanmışdı, əlini onun kürəyində gəzdirdi, sanki nə isə axtarırdı, bu nəvazişdən Ötkəmin də qəlbinə, bədəninə nə isə xoş bir intim ehtiras istiliyi yayıldı. Onun bədəninə heç vaxt qadın, qız əlləri dəyməmişdi. Qadının yumşaq barmaqları Ötkəmin sinəsinin üstündə bir az dayandı, onun ürəyi daha şiddətlə döyünməyə başladı, o vaxt qadın da elə bil çaşan kimi oldu, əsgərin qafqazlılara məxsus geniş, tüklü sinəsində qadının barmaqları ilişib-qaldı. Bu dəm onun baxışlarında Ötkəmə heç vaxt məlum olmayan, indiyə kimi heç vaxt, heç kimdə görmədiyi qeyri-müyyən, qəribə bir bir məna sezdi. Yarıqaranlıq otaqda rengenoloqun üzündəki bu ifadəni Ötkəm necə seçə bilmişdi, artıq heç onun özünün də fərqində deyildi.

– Tamam. Keçin, geyinin! – səs dəyişmişdi. Yenə əvvəlki kimi quru, soyuq... Elə bil bayaqkı şəfqətli, hətta bir az məhrəmanə barmaqların sahibinin səsi deyildi bu səs! Ötkəm elə bil bu səsi ilk dəfə eşidirdi.

* * *

Səhəri gün yenə eyni vaxtda sıravi Ötkəmi həmin yerə – mayor Qizenburqun yanına apardılar. Hərbi prokurorluğun müstəntiqinin üzündə Ötkəmin o günü sezdiyi təbəssüm və təmkindən əsər-əlamət yox idi; onun bu qırımını görəndə Ötkəmin dalağı sancdı: hiss etdi ki, nəsə xoşa gəlməyən bir xəbər, hadisə var.

– Siz mənə dünən nə üçün həqiqətə uyğun olmayan ifadələr vermisiniz? – deyə zənlə ona baxdı. – Deyəsən, elə xəyal eləmisiniz ki, gerçəklik yağışının ağırlığı altında təngnəfəs olanlar, şikəst qalanlar olur... Ona görə də nə isə uy-

durub ondan özünüzə çətir düzəltmək istəmisiniz, gizlənmək, sudan quru çıxmaq üçün... elədir, ya yox?

– Necə, mən? – deyə o kəkələdi... sözünü axıra kimi davam etdirməyə özündə təpər tamadı.

– Bəli! Siz! Məgər indiyə qədər bilmirsiniz ki, istintaqa bilə-bilə yalan məlumat vermək, ikinci bir cinayət sayılır?

– Yoldaş mayor, mən necə olmuşdusa, elə də ...

– Bəsdirin, yetər! Sıravi Məmmədov! Dünən mənə təqdim edilən ekspertin rəsmi rəyi tamam başqa şeylər deyir! Məhkəmə təbabətinin nəticələri baxın, buradadır, – deyə o, bir-birinə tikilmiş qoşa vərəqləri şəstlə onun qabağına atdı.

Sonra sınayıcı, qınaqlı nəzərlərini onun üzünə zilləyib bir müddət dinmədi. Uzun bir sükutdan sonra: "Baxın, tələsmədən diqqətlə oxuyun", – dedi.

Onun ovqatı da, səsi də indi deyəsən, bir az yerini almış, əsəbləri də elə bil bir qədər mülayimləşmişdi:

– Siz hansısa bir xəstənin xilası üçün həkim dalınca qaçmamısınız. Bu bir. İkinci, siz əməlli-başlı zərbə almış, qısa müddət huşunuzu itirmisiniz. Başınızın arxasından küt alət, yaxud da daş zərbəsi almısınız. Şıklayev avtomatı qaparaq aradan çıxmış, zabit yoldaşını, sonra özünü də öldürmüşdür.

...Sən demə, həmin o ad gününün iştirakçılarının bəziləri istintaqa dəvət edilmiş, onlardan mühüm, vacib məlumatlar alınmışdır. Zabitlərin cəsədləri ekspertizadan keçirilərkən hər ikisinin ağır dərəcəli sərxoş olduğu müyyən edilmiş, Şiklayevin isə cinsi ereksiya problemi yaşadığı təsdiq olunmuşdur. Rəsmi rəylər cinayət işinə əlavə olunmuşdur. İntihar edən gənc zabitin arvadı isə ilkin izahatında və sonrakı ətraflı ifadələrində qətlə yetirilən qonşusu kapitan Kunanbayevlə hər hansı bir intim görüşlərinin olduğunu boynuna almamış, əksinə, ərinin tez-tez ifrat dərəcədə sərxoş olduğunu, onu vaxtaşırı ölümlə hədələdiyini göstərmişdir.

Qanlı olayın əsl səbəbi tamamilə və dərindən üzə çıxarılmasa da gerçəkliyin əsas vacib detalları müəyyən qədər aşkarlanmışdır. Əslində, hadisə belə baş vermişdir:

– Zabitlər şəhərciyinin həyətində gəzib-dolaşmaqdan yorulub bezən sıravi əsgər Ötkəm üçmərtəbəli binanın birinci qatındakı, heç kimin yaşamadığı mənzilin eyvanına çıxıb içəri enmiş, orada bir az dincəlmək, mürgüləmək istəmişdir. Çünki bilidi ki, səhərə kimi onu dəyişən adam olmayacaqdır, bəlkə də, kimsə gələcək, onu əvəz edəcəkdi, amma bu barədə hələ ki məlumatı yox idi. Onu elə beləcə də yuxu aparır. Yuxunun şirin yerində birdən elə bil ona İlahi bir vəhy gəlir, görür ki, anası gəlib durub gözlərinin önündə... Bu da oktyabırın 27-si gecəsinə təsadüf edirdi.

Ötkəm əməlli-başlı xatırlayır ki, anası elə bil yuxuda deyil, gerçəkdən onu səsləmiş, açıq-aydın ona toxunaraq həyəcanla yerindən qaldırmış, sonra isə qeyb olmuşdur.

"Anam hara, bura hara”, – deyə diksinərək, hövlnak ayağa qalxan Ötkəm elə bil açıq-aydın, anasının təşviş və qorxudan titrəyən səsini eşitmişdir. Haradan, nədən qaynaqlanan bir həyəcanla elə bil təzədən nəfəs-nəfəsə durmuş, lap yaxından hiss eləmişdir hər şeyi. Yuxusu qaçmışdır. Silahını kilimin altından götürərək, ağır, heybətli yuxunun təsiri altında həyətə enmişdir. Baxıb görmüşdür ki, şəhərcik əvvəlki kimi öz halında, necə saat bundan əvvəlki kimi öz havasında, öz görkəmindədir.

Sərin, sakit oktyabr gecəsinin özü isə sanki uzaq səfərdən, daşlı-kəsəkli, dolaşıq yollardan qayıdıb gələn yorğun qoca, nurani, təmkinli kişi kimi, həyətin üstüörtülü söhbətliyində oturaraq dincini alırdı...

Ötkəm elə bil onu görürdü, hiss edirdi, amma tanıya bilmirdi, həm də ona yaxınlaşa bilmirdi, bu adam Ötkəmin sanki intuitiv, şüuraltı məna kəsb edən bir düşüncəsi, tapıntısı kimiydi, gəlib əyləşmişdi bu oturacaqda. Baxırdı hərdən Ötkəmə, uzaqdan-uzağa, gendən-genə... Onun elə bil bir suyu Mir Həşim Ağaya oxşayırdı, ona görə Ötkəm ona yaxınlaşmaq istəyir, həmsöhbət olmaq arzusunda bulunurdu, amma elə bil ayaqlarından daş asılmışdı, yaxınlaşa bilmirdi, dili-ağzı kilidlənmişdi, danışa bilmirdi, kim idisə, güclü bir adam ona mane olurdu, qoymurdu tərnənməyə. Əməlli-başlı imitasiya, qeyri-təbiilik içində qalan Ötkəm içini yeyə-yeyə, həm də qorxa-qorxa axır tanıya bildi ki, o – Anasıdır, həm də elə-belə gəlib çıxmayıb bura. Üz-gözündə açıq-aydın təlaş, nigaranlıq közərirdi. Ona görə də müsəlman gələnəyindən öyrəndiyi bir duanı (anası inanclı, mömin adam idi) ürəyində dilə gətirdi:

"Ey xudavəndi-aləm, dünya üzündəki bütün canlıların Xaliqi, mənim anamın, öz hədir bəndənin halına rəhm elə”, – deyə, dua edir. Sonra da düşünür ki, anam niyə belə həyəcanlı idi, axı bu iki ildə bir dəfə də olsun o, belə təşviş içində yuxusuna girməmişdi. Bəs bayaq niyə belə əlimyandı ilə bura gəlmişdi, necə, nə cür?!

...Anaya hardansa ayan olubmuş ki, həmin o müdhiş gecə oğlunun başına nə isə bir bəd hadisə gələcək. Hansısa bir ilahi qüvvə yuxu vasitəsilə ona xəbərdarlıq göndərir elə bil. Ona görə də gecənin bir aləmində gördüyü yuxunun dəhşətindən diksinib ayılır. Yuxuda görür ki, Ötkəmin – oğlunun toyudur və o da toyda oynayır. Ananın sınaqlarına görə, yuxuda toy görmək – həyatda vay-ölümlə üz-üzə gəlməkdir. Ona görə də həyəcan, dərd-ələm içində sakitləşmək bilmir, oktyabr gecəsi də bir yandan uzandıqca uzanır, gedib bir yana çıxmır ki, çıxmır. Namaz üstündə Allaha dua edir ki, oğluna yaxınlaşmaqda olan bu bəladan onu qorusun. Bir dəfə də başına almadığı təptəzə ipək, ucları yaş yelənli kəlağayısını camxudandan, təzə paltarların arasından götürüb Mir Həşim Ağanın ocağının üstünə nəzir eləyir, onu evin dirəyindəki mıxcadan asır. Ürəyi partlamaq öncəsinə gəlib çathaçatda daha dözə bilməyir, axır ki, Allah-taalanın göndərdiyi məleykələrə qoşulub özü də onların birinin qiyafəsində uça-uça gəlib oğlunu tapır... onu yuxudan oyadır!..

Əgər Ötkəm həmin gecə orada yatıb qalsaydı, Allah bilir, necə olacaqdı onun taleyi o gecə... İntuisiya insanı hətta ölümə belə dov gəlməyə kömək edir, ən ağır hadisənin də cəngindən çıxarır.

* * *

Bir uzun vaxt və xeyli zaman keçəndən sonra Ötkəmə də ayan oldu ki, anasının ürəyinə nə isə damıbmış. Ana qəlbi gələn bəd hadisədən, sən demə, xəbərdar olubmuş, xalis, saf ruh mütləq gerçəkliklə bağlı olduğu üçün, həqiqət simasında görünən, təzahür edən bəd hadisəni hissetmə, öncəgörmə duyğusu kimi üzə çıxardıb, ana qəlbinə ayan edibmiş – gerçəkliyin ikinci qatı kimi...

Çünki mövcud olan hər şey ruhla bağlıdır, onunla daim vəhdətdədir, bu deyim gercəklik imiş. Hövlnak yuxudan qaldırılan əsgər – Ötkəm, tam ayırd edə bilməsə də kim onu ayıldır, amma yenə əməlli-başlı hiss edir ki, bu səsi

çox-çox əvvəllər bir dəfə də eşidibmiş, həm həlim, həm də qorxudan avazımış, amma çox doğma səs idi bu səs.

O, bir müddət özünə gələ bilmədi. Yüz ilin yuxusundan, dincliyindən ayrılmış kimi özünü, üst-başını səliqəyə salıb, silahını, patrondaşını yerinə bərkidib, eyvandan həyətə enir, gəzməyə başlayır. Amma qatı düşüncə çalarları, vahimə lağımları elə bil ürəyini sızıldadırdı. Heç özünə də aydın olmayan bir qırımda idi, bir az uzaqdan topalanmış taxta kəpəyinin tanış, özünəməxsus qoxusu gəlirdi. Hərdən həyətin o başında isə taylı küçüklərin bir-biri ilə oynaqlaşması sükutu pozurdu. Ağaclarda pişiklər gah bir-biri ilə cırmaqlaşır, gah da qaçıb bir-birindən uzaqlaşırdılar. Pişiklərin bu hərəkətləri xəbərdarlıq şifrəsinin acılışı kimi – Ötkəm üçün çox illər keçəndən sonra aydınlaşdı. Gecənin yan-yörəsinə əski toplumlardan gələn nələrsə yığışmışdı sanki. Hər halda, Ötkəm elə bilirdi ki, nə isə adi gecə deyil bu gecə... Ulduzlar elə bil nədənsə hürküb bir az da uzağa çəkilmişdilər. Havanın, qaranlığın, həyətdə olan hər şeyin yeknəsəqliyi elə bil onun gözlərini döyəc eləmişdi. Elə bil hərdən lap yaxınlıqdan kölgələr keçirdi, amma ayırd edə bilmirdi ki, onlar kimdir, nəçidir...

...Həmin gecə... ad günü məclisini yarımçıq qoyub, baldızının evindən qəfil çıxan leytenant Şıklayev, gəlib öz mənzilində arvadını kapitan Kunanbayevlə bir yerdə – bir yataqda görür, amma qapını sakitcə örtüb çölə çıxır. Qisas almaq həyəcanında və ruhu təşviş vəziyyətində alışıb-yanan zabit bu anlarda həyətdə var-gəl edən silahlı əsgəri görüb tanıyır. Bilir ki, o, səriştəsiz, təzə xidmətə başlayan sütül əsgərlərdən birisi deyil, ondan hər hansı zor gücü ilə silah almaq mümkün olmayacaq. Ona görə də əlinə daş alıb, sakitcə onu izləyə-izləyə dalıycan düşür, əsgər evin tinini burulan kimi, arxadan ona, kiri gəldikcə, möhkəm zərbə endirir. Yıxılaraq huşunu itirən əsgərə bir damcı da rəhmi gəlməyən zabit, onun silahını qamarlayıb öz evinə tərəf gedəndə kapitan Kunanbayev artıq onun mənzilindən çıxırmış... elə oradaca atəş açır! Elə bu arada güllə səsini eşidib bir saniyəlik vaxtdan uğurlanan arvadı dərhal pəncərədən özünü bayıra atır və... qaranlıqda qeyb olur.

Uğultu harayına ayılıb özünə gələn əsgər Ötkəm Məmmədov güllə səsi gələn tərəfə özünü yetirəndə ikinci atəş vıyılısını qulağı çalır. Amma bilmir o güllə hara, kimə açılır.

Ötkəm, Kunanbayevin birinci mərtəbənin dəhlizində qanlı cəsədini görüb elə oradanca başılovlu hərbi hissəyə qaçır. Qaçır ki, “həyəcan” siqnalı ilə bölük ayağa qaldırılsın, silahlı qatil zərərsizləşdirilsin. Hər halda, bu ağır, sarsıdıcı olaydan özünü itirən əsgərin çıxış yolu kimi ilk ağlına gələn ancaq bu olur.

Şıklayev isə artıq arvadının qaranlıqda yoxa çıxdığını, daha onu tapmaq, qisas almaq şansının mümkün olmayacağını tam yəqin etdikdən sonra, yeganə əlacına üz tutur – özünü güllələyir. İkinci atəş yğultusu, sən demə, həmin o səs imiş.

...Ötkəm bu həyəcanlı anlarda Şıklayevin dalınca düşüb onu axtarsaydı, silahlı, acıqlı, hər şeydən bezmiş zabitlə əlbəyaxa olsaydı... yəqin ki, ikinci atəş Ötkəmə açılacaqdı: çünki artıq Şıklayevin itiriləsi şeyi qalmamışdı.

Bəli, anası bir ruh kimi gəlib Ötkəmi yuxudan oyatmasaydı, qisas hərisliyi ilə yanan, əlimyandı ilə silah ələ keçirmək istəyən zabit yatmış vəziyyətdə olan əsgərin üstünə çıxsaydı... ondan “Kalaşnikov” avtomatını, yəqin ki, zorla ala bilməyəcəkdi, yaxud da bu əlbəyaxa amansız dartışmada kim bilir, hansı sağ qalacaq və Allah bilir, başqa daha nələr olacaqdı...

* * *

Amma istintaqdan əvvəl hərbi hissədə bu hadisənin xəbəri başqa cür yayılmışdı: Leytenant Şıklayev öz əsgəri – sıravi Ötkəm Məmmədovu arvadının ölüm ayağında olduğunu bəhanə gətirərək, onu xəstəxanaya həkim dalınca qacıırtmış, bu yolla da silahını ələ keçirərək qətl və intihar hadisələrini törətmişdir. Ümumiyyətlə, belə hadisələr həmişə tamam fərqli məzmunda yayılır, müyyən bir zaman keçəndən sonra gerçəklik öz məcrasına düşür, həqiqət əsl yerini alır.

* * *

... Sıravi əsgər Ötkəm hərbi hissəyə qaytarılır.

O gəlib öz bölüyünə qarışır, heç nə olmayıbmış kimi, nə dostları ondan bu hadisə ilə bağlı sorğu-sual edir, nə o bu barədə heç kimlə heç bir söhbət edib açıqlama vermir. Zahirən və elə daxilən də özünü elə ovqatda hiss edir ki, o, bir necə gün torda və ya ağzı bağlı su bərnisində hamıdan ayrılıb tək qalan, çapalayan bir balıq imiş, indi təzədən öz əvvəlki yerinə qayıdır –necə deyərlər, öz dəryasına qovuşur. Yenə mavi yosunların, ucsuz-bucaqsız dupduru sevgili suların, şadlığından şahə qalxan, tullanıb-düşən dalğaların qoynunda üzə-üzə gəzir, xəyalən anasının saçlarını tumarlayır, əllərini əllərində isidir... ana gözlərindəki sevinc yaşları onun üz-gözünü isladır...

Bir necə gündən sonra hərbi hissənin səhər yığıncaqlarının birində, qərargah rəisi mayor Çelyadnik (ruslar da içində olmaqla bütün millətlərin əsgərlərinə gizli nifrət bəsləyən, heç kəsə, hətta zabitlərə belə yazığı gəlməyən, eynəkli, tosqun adam) SSRİ Müdafiə nazirinin əmrini oxuyur. Əmrdə, təxminən, deyilirdi ki, “N” saylı hərbi hissədə qeyri-normal, mənəvi, əxlaqi əhval-ruhiyyə və zəif nizam-intizam hökm sürdüyü üçün, həmin hərbi hissə ləvğ edilsin, orada qalan əsgər və zabit heyəti başqa yerlərə bölüşdürülsün.

Beləliklə, Ötkəm Məmmədovun həqiqi hərbi xidmətinin başa çatması ilə həmin hərbi hissənin də ləğv olunması eyni vaxta təsadüf edir. Möcüzə nəticəsində, amma əslində, ana yuxusunun bələdçiliyi, ruhunun, fəhminin öncəgörənliyi və proyeksiyasının doğruladığı görünməz əllərin köməyi ilə sağ qalan sıravi əsgər Ötkəm Məmmədov elə həmin o günü nəzir edibmiş ki, əgər bu bəlalardan salamat qurtarıb evə buraxılsam, Pirsəhhətbabanın üstündən evimizə qədər bütün yolu piyada gedəcəyəm.

* * *

İndi də baxın, gedən... həmin o əsgərdi – Ötkəm... əli çantalı, hərbi geyimli, sevinc içində... gedir!

Birdən... kimsə onun qolundan tutdu:

– Ay saldat bala, hara gedirsən, özü də belə piyada?

Ötkəm budəfəki qəfil “hücum”dan diksinmədi, heç bir misqal da halı dəyişmədi, əksinə, arxayıncasına, inamla dedi:

– Hara gedəcəyəm, evə gedirəm!

– Bəs niyə piyada, bu nə deməkdir, bu qədər maşın, avtobus...

– O deməkdir ki, nəzir eləmişəm, qayıdanda, Pirsəhhətbabanın ziyarətindən sonra evimizə qədər bütün yolu piyada gedəcəyəm.

Kişi güldü:

– Yox, qoymaram piyada gedəsən, el-camaat baxır axı... saldat piyada gedir, özü də öz yerində, öz yurdunda... Başqa vaxt gəlib piyada gedərsən, nəzirin yetərlənər, indi gəl gedək... Özü də bilmək istəyirsənsə, pirin üstünə gələndə piyada gələrlər... nəzirin hasil olar... gedəndə yox.

Az qala, əlbəyaxa olsunlar:

– Allah, bu mənə hardan urcah oldu, əcəb gedirdim də öz yolumla...

Ötkəm gördü ki, yox, bu qırsaqqız adam əl çəkənə oxşamır, axırda naəlac qalıb həmyerlisinin ərkinə, inadkarlığına təslim olmaq məcburiyyətində qaldı: "Yəqin, məni evimizə çatdırıb muştuluq, xələt, ənam almaq niyyətindədir" – deyə razı oldu.

Sən demə, bu qarayaxa adamın nəqliyyatı avtomobil də deyilmiş, qoşqusuz “Belarus” markalı traktor imiş. "Keçib daha" – deyə o, traktorçunun yanında, təkadamlıq kabinaya birtəhər yerləşdi. Yola düşdülər.

Asfalt şose ilə yox, həmin yolun alternativi sayılan, yanındakı daş, cınqıllar döşənmiş yolla gedirdilər, görünür, belə nəqliyyat vasitələrinin o biri təmiz asfalt yolla gedişi qadağanmış. Yolboyu “yalın” – qoşqusuz, yedəksiz “Belarus” markalı traktor keçi kimi atıla-atıla, həm də sürətlə irəliləyirdi. “Saldat”ın maraqlanıb heç adını belə soruşub öyrənmədiyi mexanizator (sinli adam da deyildi, olardı 40-42 yaşı) hərdən ağızucu suallar verirdi. Hiss olunurdu ki, onun fikri-zikri sərnişinini tezcə evlərinə catdırmaqdır; "Saldat, harda qulluq edirdin? Hansı hərbi hissə idi? Tikinti batalyonu deyildi ki? (o zaman azərbaycanlıların əksəriyyətini, əsasən, belə yerlərə salırdılar) Məzuniyyətdə olmuşdunmu?" – bu kimi sorularla, özündən olsa, yola körpü salmaq, məsafəni qısaltmaq istəyirdi.

Ötkəm onun sorularına qısa, candərdi cavablar verirdi, amma fikri-xəyalı ayrı yerlərdə idi, ona elə gəlirdi ki, traktor atılıb-düşdükcə qəlbindəki qorxulu, mübhəm xatirə, sirli xəyal qırıqları yetişməmiş, kal meyvələr kimi qopub yollara tökülürdü, özü də daşlı-kəsəkli yollara; arxadan gələn ağır, yekə, yüklü maşınların, zəncirli traktorların altında qalıb xıncım-xıncım, əzik-üzük olurdular. Ötkəm buna, deyəsən, bir az sevinən kimi də olurdu. Düşünürdü, nə yaxşı rezin təkərli traktorun tullana-tullana getdiyi bu yol torpaq deyil, daşlı-cınqıllı, döyənəklidir, yoxsa onun qəlbindən, fikirlərindən yerə toxum kimi tökülən, səpələnən qorxu, sirr damcıları nə vaxtsa cücərib üzə çıxar – bəzi qəmli, mübhəm gizlinlərin üstü açıla bilər...

Yol boyunca o tay-bu tay səliqəli, qızılı rəngə çalan tənək cərgələri uzanırdı, məhsulu yığılmış bağlar indi daha bir az qəmli-qüssəli görünürdü. Ötkəm düşünürdü ki, əgər bağların üstündə barı-bəhəri olsaydı, indi onların hər tərəfində ayıq-sayıq gözətçilər qürurla, şəstlə gəzər, dəli-dolu yerişləri ilə küləklərə də “xox” eləyər, tırıqqalı ədalarının kölgəsi belə adamları hədələrdi. Necə deyərlər: "Bar vaxtı bağbanın üzünü görmə." Amma indi bu məhsulu sovrulmuş, xəlbiri göydə fırlanan bağların hər tərəfində sakitlik, əmin-əmanlıq idi.

Ötkəm traktorçuya yolu göstərə-göstərə gəlib evlərinə çatdılar.

Alaqapı həmişə olduğu kimi açıq idi, həyətə girəndə qəribə, anlaşılmaz, kövrək hisslər bürüdü onu. Həyət-bacada heç bir dəyişiklik yox idi, hətta elə bil hər tərəfi bir az da yazıqlaşmışdı. Çox qısa bir vaxt ərzində həyət adamlarla doldu, elə bil hər tərəfə səs düşmüşdü, elə bil hamı onu gözləyirdi, bir anın ərzində özlərini yetirdilər. Aşağı hasarın qurtaracağında bir tərəfi çökmüş damdan it çıxıb dingildəyir, quyruq bulayır, şitənirdi, amma nədənsə hürmürdü. Boğazının qançırları uzaqdan görünürdü. Həyətin bəri başında isə üstü örtülü

təndirin külfələrindən pişiklər girib-çıxırdılar, səsləri hərdən lap yaxından eşidilirdi.

Əsgər... qardaşları və bacısı ilə görüşməkdə olsun... sizə xəbər verim onun anasından... səhnəyə baxın: anası yaxın gəlmirdi, ya da bəlkə, gələ bilmirdi... oğluna baxa-baxa əllərini göyə qaldırmışdı... dodaqaltı nəsə deyirdi. Ötkəm mat-məəttəl qalmışdı: anası niyə gəlib onu qucaqlamır, öpmür?! Anasının o nadir, qəribə anlardakı çöhrəsi, üz-gözündəki qeyri-adi anlaşılmaz ifadə uzun illər Ötkəmin yadından çıxmadı...

Sən demə, anası əhd eləyibmiş ki, oğlu gələn günü onu öpməyəcək, görüşməyəcək, bütün günü ancaq Allaha dua edəcəkdir!..

* * *

Bir az təmtəraqlı ibarələrlə desək, Ötkəmin həyatında yeni dövr – “dinc, quruculuq illəri” başlayırdı. O, orduya getməmişdən əvvəl işlədiyi Xaqani adına sovet təsərrüfatında öz işinə (o da asanca, həməncə yox) bərpa olundu. Çünki instituta qəbul olmaq üçün sənəd verəndə mütləq iki illik iş staji tələb olunurdu. Ona görə də mütləq, dövrün dili ilə desək, əmək cəbhəsində “külüng” çalmalı, necə deyərlər, işin, gücün, soyuğun, istinin dadını, duzunu dadmalı idi.

Böyük bir sovxozda işə başladı. Hər gün işə səhər gedib axşam qayıtsa da, fikri-zikri kitablarda idi, ancaq gələcək ədəbi taleyini düşünürdü. Evindəki şəxsi kitabxanasının həcmini, sayını gün-gündən yeni kitabların, təzə nəşrlərin hesabına artırırdı. Təzə çıxan kitablar, ədəbi-bədii toplular, dərgilər daim masasının üstündə olurdu. Həm də o çağlar elə zəif, lap bəzən də bəsit, bayağı o qədər əsərlər çap olunurdu ki...

Diletant, xalis qramofon məzmunlu şeirlər, hekayələr... mətbuatı ağzına alıb aparırdı. Hətta “növbətçilik" eləyən tanınmış adlı-sanlı şairlər də vardı, onlar göz-gözə durmuşdular; bir dövr bayramı, bir hökumət tədbiri olsun, sifariş alsınlar – o günə, o tarixə şeir həsr eləsinlər. Özü də necə şeir – şüarçılıq rudimentləri ilə dolu misralar, bəndlər ... Təki çap olunsunlar, gündəmdə qalsınlar, qonorar alsınlar.

Ötkəmi bəzən fikir, xəyal götürürdü: "Necə ola bilər ki, ali təhsilli olasan, özün də yetkinlik yaşının içində, həm də paytaxtda yaşayasan, qəzet-jurnal redaksiyalarında, kitab nəşriyyatlarında çalışasan... amma yazdıqlarının əksəriyyəti səbatsız olsun, məzmununda nə bir təzə söz, nə bir yeni məna, nə də cəlbedici ideya, aşama olmasın" – deyə təəccüb edirdi.

Guya ki, əsl böyük ədəbiyyat ancaq şəhərdə – paytaxtda yarana bilər, ictimai, ədəbi-bədii fikir yalnız möhtəşəm şəhərlərdə qaynayır, istedadlı adamları əyalətlər, bölgələr, regionlar yetirə bilməz. Bir dostu da onun bu eyhamlı, belletrizm çalarları ilə dolu məzəli fikrini ciddi qəbul edib, hətta gerçəkdən ona şərik də olmuşdu:

– Bəli, rayonda, kənddə yaşayan bir məşhur yazıçını, bəstəkarı, rəssamı göstər mənə... göstərə bilməzsən axı...

* * *

Gözlədiyi bu iki ili sovxozda o, kiçik aqronom-entimoloq kimi çalışmalı idi, yəni üzüm bağlarında bir “casus” kimi gəzməli, dolanmalı, tənəklərə düşən xəstəlikləri, ziyanverici həşəratları aşkarlamalı, rəhbərliyə operativ

olaraq çatdırmalı idi, bu idi onun vəzifəsi. Bilirdi ki, tənəyin, məhsulun ən böyük qənimi, düşməni əsas iki xəstəlik sayılır, biri mildyu, o biri isə oidium. Mildyuya el arasında "yarpaq xəstəliyi", oidiuma isə "gilə azarı" deyərdilər.

Ötkəm əsgərliyə getməmişdən əvvəl Ağdaş kənd təsərrüfatı texnikumunda oxumuş, oranı orta təhsilli kiçik aqronom-entimoloq ixtisası ilə bitirmişdi. Ona görə də evlərinə yaxın ərazidə yerləşən Xaqani adına sovet təsərrüfatında ona bu vəzifəni etibar eləmişdilər. Bu iş həm sakit, həm də çox maddi məsuliyyət tələb etməyən bir vəzifə idi, necə deyərlər, beşdə alacağın yox, üçdə verəcəyin...

– Amma beşdə alacağın, üçdə verəcəyin olmasa da, bu, o demək deyil ki, başını qoyub yatasan, boş-boşuna gəzib-dolanasan özünçün, – deyə üzümçü briqadir Əbülfəz onu başa salır, ayıldır ki, ehtiyatlı olsun, hər halda, tənəklərin yarpaqları "üçqulaq" olanda gərək hər dəqiqə gözdə-qulaqda olasan. Bağların ən ucqar, ən basırıq yerlərinə dönə-dönə baş çəkəsən.

– Xəstəliklərin əlamətlərini bilirsən də...

– Bilirəm, əlbəttə...

– Şübhələnən kimi yarpaqları dərib "yerinə" çatdırmaq lazımdır.

"Yerinə çatdırmaq"... İstədi desin ay Əbülfəz, bəs bu cəmiyyətdəki mildyunu – rüşvətxorluq kimi ağır xəstəliyi, oidium kimi çətin sağalan yaltaqlıq azarının çarəsini kim tapıb yerinə çatdıracaq? Bu xəstəlikləri sağaldan, müalicə edə bilən dərmanın yeri hardadır, kimdədir?

Demədi. Amma Əbülfəz yenə ağzında dili yana-yana davam edirdi:

– Bir də görərik ki, iş işdən keçib, azar-bezar bağları alıb ağzına, Ötkəm ürəyində "rüşvətxorluq və yaltaqlıq, yerlipərəstlik xəstəliyi cəmiyyəti ağzına alan kimi" – düşündü.

– Bu da Allah kəsmiş elə xəstəlikdir ki, üççə günün içində bütün bağları "söndürə" bilər!

"– Amma yaltaqlıq xəstəliyi neçə illərdi, çiçəklənə-çiçəklənə gedir, özü də hər tərəfi işıqlandıra-işiqlandıra, heç yerdə heç nəyi söndürmür. Əksinə, elə cəmiyyətin bir çox adamları müdir kürsülərinin önündə, büllur qədəhlərin arxasında yağlı təriflərini məşəl kimi yandıra-yandıra, getdikcə karyera, ad-san, var-dövlət qazanırlar" – deyə Ötkəm ürəyində əlavə elədi.

İkiüzlülüyü, yaltaqlığı bacarmayan adamlar isə uğur əldə edə bilmədikləri öz zümrələrində autsayderə çevrilən bir obraz kimi unudulur, hər şeydən kənarda qalaraq yaddan çıxırlar.

O hələ texnikumda oxuyanda Qafur müəllimindən eşitmişdi ki, bu mildyu xəstəliyi ən çox yağışlı günlərdən sonra, Günəş çıxanda, torpaq buğlananda, tutqun havalarda qol-qanad açır.

* * *

Şüvərək, qıynaqlı bir cavan olan Ötkəm, getdikcə işə alışır, bütün günü üzüm bağlarında gəzir, dolanır, yorulmaq, usanmaq nə olduğunu bilmirdi. Hər həftənin cümə axşamı günü təsərrüfat-istehsalat müşavirəsi olurdu. Təxminən, əlli nəfərdən ibarət olan bu yığıncaqlarda, bütün mütəxəssislər, aqronomlar, üzümçülük üzrə çalışan briqadirlər, mexanizatorların və ferma işçilərinin başçıları, bir sözlə, bütün aktiv işçi heyəti bir yerə yığışır, baş mütəxəssislər hərəsi öz sahəsi üzrə hesabat verir, görülən işləri qabardır, bəzi kəm-kəsirləri də göstərirdilər. Hər bir hesabatın məğzində bir məqsəd, bir qayə mərkəzləşirdi: hamı özünü və öz sahəsinin uğurlarını direktorun nəzər-diqqətinə gen-geniş şəkildə çatdırsın, özünü işgüzar adam kimi göstərsin.

Ötkəm belə yığıncaqlarda, adətən, arxa cərgələrdə yer tapıb oturur, imkan daxilində gözə görünməməyə çalışırdı. İclas başa çatanda tənqiddən, danlaqdan sağ-salamat, “bütöv”, "yaralanmamış” çıxanlar yol boyu deyə-gülə gedir, o birilərinin isə qaşqabağı yer süpürürdü. Həm təzə olduğuna görə, həm də onun işinin ağzı hələ açılmadığı üçün, yəni xəstəlik, azar-bezar söhbəti hələ yox idi deyə, Ötkəmin qulağı dinc, əsəbləri sakit idi. Tənəklərin tumurcuqları hələ çırtlamamışdı, onu itirib-axtaran yox idi. Nə adını çəkən vardı, nə də bir iş tapşıran...

Bu təsərrüfatın, demək olar, əksər işçiləri, həm bu qəsəbənin özünün, həm də yaxın ətrafının sakinləri, əsasən, quşçular idi, Quşçu kəndindən köçüb gəlmiş adamlar, bir də rayon mərkəzinin aşağı məhəlləsində çox-çox illər əvvəl məskunlaşmış quşçular... Ötkəmin də əsli-kökü həmin kəndlə bağlı olduğu üçün bu adamların arasında özünü qərib, tənha hiss eləmirdi. Atası ona demişdi ki, hələ 13 yaşı olanda o da, öz atası və əmiləriylə birgə bu yerlərə taxıl biçininə gələrlərmiş... Onda hələ üzümçülük sovxozu yaranmamışdı. Hər tərəf taxıl zəmiləri idi.

...Səhər-səhər, lap obaşdan saat 4-5 arası, alaqaranlıqda, qurdun köpəkdən seçilməyən vaxtı... səssiz-səmirsiz, dörd nəfər orta yaşlı kişi, bir uşaq... gedirlər. Hərəsi bir fikirdə, bir xəyalda... Hər birinin öz su tuluğu və çörək dəstərxanı öz torbasında...

Onlar Quşcu kəndindən çoxdan köçub gələn bir tayfa idi, hətta Oktyabr inqilabından da öncə. Səməd – Ötkəmin babası – 13 yaşlı uşağın – Tapdığın atası və onun əmisi oğlanları – Seyfulla, Xeyri, Şükür...

Çaydan keçəndə birdən Tapdığın ayağı suya düşür. O biriləri ayaqlarını, suların üstünə çıxıb örtə bilmədiyi yekə daşların – ayaqaltıların üstünə qoya-qoya rahatca keçirlər. Amma uşaq ayağını ağaran qıçbas daşın üstünə qoymaq əvəzinə... suyun içinə atır... Atası Səməd kişi:

– Nolub, a bala, gözün ayağının altını görmür? – həm məzəmmətlə, həm də nigaranlıqla oğluna təpinir.

Uşaq pərt halda dinmir. Axşam, hər gün olduğu kimi, yenə də qaş qaralanda biçindən evə qayıdırlar.

Tapdıq danışır ki, işdən qayıdanda uzaqdan həmişə gözüm evimizin çörək bişirilən damının bacasında olardı, onda da evlər yastı-yapalaq, daxma-daxma idi... hamısı bir-bir uzaqdan görünürdü, bacadan ağ tüstünü burula-burula göyə qalxan görəndə ürəyim atlanır, ayaqlarıma təpər gəlir, sevincim aşıb-daşırdı: deməli, çörək bişir! İsti çörək, motal pendiri – bu şam yeməyi ilə bütün yorğunluğumuz keçib gedirdi.

Həmən gün – ayağımın altını yaxşı görə bilməyib suya düşən günün axşamı, evə çatar-çatmaz, atam həyətdəki bir əbrəş toğlunu, hesab elə ki, eləcə bir dəqiqənin içində, əsl tərəkəmə cəldliyi və səriştəsi ilə kəsib, soydu, anam sərnicdə su gətirdi. Kişi əllərini yuyub, toğlunun bir əlcə qara ciyərini atdı ocaqdakı isti sacın üstünə, bir o üzünə çevirdi, bir bu üzünə, alaçiy edib verdi mənə:

– Tez ye bunu...

– Hamısını mən?

– Hə...

Gecdən-gecə mənə aydın oldu ki, o günü biçindən qayıdanda atam niyə bikef görünürmüş: ayağımın suya düşməyi – gözlərimin zəifliyi ona yaman yer eləyibmiş. O gündən elə bil gözlərimə işıq gəldi, demə, quzunun qara ciyəri

gözə dərman imiş, inanın ki, 70 yaşıma kimi eynəksiz oxuyurdum qəzetləri, kitabları.

Sonra da danışırdı ki, müharibə başladı, əmilərim cəbhəyə getdi, heç biri də qayıtmadı. Atamın yaşı keçmişdi – onu çağırmadılar. Mənə isə 42-ci ilin axırlarında çağırış vərəqəsi gəldi. Yaşım onda düşürdü. Anam Gülüm arvad həsirdən bir aşırtma torba tikmişdi mənə, gecədən ayın-oyun qoymuşdu içinə – yol azuqəsi. Evdən çıxanda atam yerdə mütəkkəyə dirsəklənib oturmuşdu. Heç yerindən də durmadı. Üzü, sifəti təmkinli, sakit görünürdü. Elə bil məni harasa yaxın bir yerə – məktəbə oxumağa, ya da qonşuya, qonaqlığa yola salırdı:

– Get bala, Allah işini avand eləsin...

Bircə bu kəlməni dedi. Nə ayağa durdu, nə üzümdən öpdü.

Rayon hərbi komissarlığının həyətində bir qıy-qışqırıq vardı ki... Ağlaşanlar, saç yolanlar... Göz yaşları yağış kimi yağırdı. Mən isə tək-tənha bir qıraqda durmuşdum kipkirimişcə...

Düz Berlinə qədər bütün döyüşlərdə iştirak etdim, iki dəfə ağır yaralandım, Tanrı özü qorudu, saxladı. Bəlkə də, ailənin tək, yeganə oğlu olduğuma görə məni Allah-taala hər bəladan hifz elədi. Dörd qız övladından sonra mən olmuşdum, ona görə də adımı Tapdıq qoymuşdular. Qanlı-qadalı döyüşlərdən, hər cürə güllləbaranlardan sağ çıxdım. Qayıtdım. Gəldim. Gördüm anam Gülüm də, atam Səməd də mənim dərdimə dözməyiblər. Ölüblər. Bacılarım – Qızbəst, Hacıxanım (o biri iki bacılarım ölmüşdülər) dedilər ki, anan da, dədən da, heç biri inanmırdı ki, sən sağ-salamat qayıdıb gələcəksən. Anan sən gedəndən elə ikicə ay sonra keçindi. Dözmədi. Dədənin boğazından heç nə keçmirdi, dərdini heç kimə açmırdı, danışmırdı, dinmirdi. Qonum-qonşuların qapılarına “qara kağızlar” külək gətirən xəzəllər kimi yağırdı... Kişi dinməz-söyləməz çərlədi, öldü.

Atası bütün bunları Ötkəmə çoxdan danışmışdı: bu yerlər həmin o yerlər, o torpaqlar idi ki, indi orada üzüm bağları salınmışdı, qurulub böyük bir təssərrüfata çevrilmişdi: Xaqani adına sovxoz adında. Bəlkə də elə buna görə bu torpaqların ab-havası ona doğma və əziz idi, babaların ruhu bu tərəflərdə dolanırdı. Tanıyanlar, bələd olanlar da ona hörmətlə yanaşırdılar. Quşçularda bu xasiyyət də vardı ki, həmişə bir-birinin tərəfini tutar, təəssübünü çəkərdilər.

Həm də Ötkəmin öz yaşına, öz gürcəsinə görə vəzifəsi də vardı. Aqronom-entimoloq böyük vəzifə olmasa da, hər halda, vəzifə sayılırdı. O, yeri gələndə, əgər ehtiyac yaranarsa, avtomobil sifariş edə bilər, uzaq, ucqar yerlərə baş çəkmək üçün briqadalardan bir neçə fəhləni öz sərəncamına götürər, onlara maaş, hətta mükafat pul da yaza bilərdi. Yəni onun imzası ilə sovxoz öz büdcəsindən kifayət qədər vəsait ayırardı.

Bir dəfə təsərrüfata 5 min manatlıq müalicə dərmanları gətirilmişdi, onun qəbulu üçün Ötkəmin imzası tələb olunurdu. Həmin sənədləri imzalayanda birdən yadına o dəhşətli hadisə – həmişə xeyirxahlığını, obyektivliyini ehtiramla xatırladığı yəhudi millətindən olan müstəntiq Qizenburqun sözü düşdü: “Siz böyük rəis olacaqsınız, imzanız çox möhtəşəm görünür!”

* * *

Üzüm bağlarında qızğın iş gedirdi, "Yataq yeri" adlanan vadidə Ötkəm düşüncələr içində Şərq üfüqünün qızartısına qərq olmuş itburnu kolu-

nun yaxınlığında dayanmışdı. Kolun meyvələri dən-dən idi, tikanlı, nazik, uzun qolları isə bir-birinə sırmaşıb qızılı rəngə boyanmışdılar. Yumru-yumru, xırda-xırda itburnu ilə çubuqların üstündəki inci-inci şeh damlaları bir-biri ilə sayrışırdı. Qıpqırmızı kolun al-əlvan rənginə damlalar elə yapışmışdı ki... sanki onların qızartısında isinmək, qızınmaq istəyirdilər; damlaların, çubuqların qırmızı, ılıq cazibəsindən ayrılmaq, qopub yerə düşmək fikirləri yox idi heç. Amma gözəl, estetik şeh damlaları qısa və mənalı anlar kimi hərdən – az bir zaman ərzində qəfil parlayır, vaxtsız da köçürdü – qopub düşürdü yerə. Görəsən, mən bu çubuqları silkələsəm, bu dəbərtilərdə saysız-hesabsız şeh damlaları hamısi birdən muncuqlar kimi yerə tökülərmi, çıqqıltısı, cingiltisi eşidilərmi, – deyə fikrə getmişdi Ötkəm.

Birdən qəfil səs onu düşüncələrindən ayırdı:

– Ay təzə aqronom, əvvəla, xoş gəlmisən bizim bu yerlərə. Özü də nə uzaqda dolanırsan, bir yönünü bəri elə görək.

Bu, Babacan əminin səsi idi, – həmin sahənin briqadirinin.

– Gəldim, gəldim... Babacan əmi, elə sizə tərəf gəlirdim.

– Deyəsən, qırmızi, tikanlı kollar səni buraxmaq istəmirdi, çox yubanmışdın orada? Yoxsa sən də qırmızıya aludə olmusan? Cavan oğlanlar qırmızıpərəst olur axı...

– Yox... tikanlar mənə bata bilməz, bir də qırmızı rəng nə qədər gözəl, cəlbedici olsa da, məni yolumdan eləyə bilməz, – o da zarafata zarafatla cavab verdi.

– Hə... belə de... İsmini mənə bağışla görüm.

– Ötkəmdi mənim adım.

– Nə yaxşı səslənir. De görüm, kimlərdənsən, kimin oğlusan?

– Tapdığın oğluyam, Səmədgillərdənəm.

– Belə de. Qan qohumuyuq deməli. Bəs haçandı niyə bizim sahələrə yolunu salmırsan?

Bu sovxozun ən qocaman üzümçülərindən olan, təsərrüfat briqadiri Babacan əmi idi, hamı onu elə birbaşa "əmi" deyə çağırırdı.

– Babacan əmi, təki siz mənə papaq edəsiniz, hacan desəniz, çatdıraram özümü sizə, özü də lap quş kimi uça-uça, – deyə Ötkəm bir az baməzə cavab verdi. – Amma indi elə vaxtdı ki, tənəklər hələ ayılmayıb, yaraqlar açılmayıb, iraq olsun azar- bezardan xəbər-ətər yoxdu.

– Ay oğul, qoy onu da deyim ki, bu tənəklər heç vaxt yatmırlar, yatsalar, bu qədər məhsulu necə yetişdirib bizə çatdırarlar. Bir də sənə kim deyib ki, hələ tənəklər ayılmayıb... Elənçiyə qalsa, elə ulduzların özləri də heç vaxt sönmürlər – yəni yatmırlar, hamı deyir ki, guya ulduzlar gündüzlər sönür, gecələr yanır.

– Bəyəm elə deyil, ay Babacan əmi, – deyə Qızyetər xala iradla briqadirə baxdı.

– Elə deyil, o vaxtı mənə atam danışırdı... Ulduzlar heç vaxt sönmürlər, həmişə yanırlar, inanmaq istəmirsənsə, çox dərin bir quyu qazın, düşün onun içinə, lap dərinliyinə. Gündüzün günorta vaxtı baxın göyə, onda da görəcəksiniz ki, ulduzların işığı gəlir, gecə vaxtlarında olduğu kimi... Onlar həmişə ayıqdırlar – ulduzlar da, tənəklər də... – gülümsündü, – ayılmayan bizik, Ayı yuxusuna gedən ancaq müsəlmanlardı.

Hamının dodağı qaçdı, əllərində qayçı, quru budama ilə məşğul olan qızgəlinlər də bir-birinə mənalı-mənalı baxdılar.

– Əsgərliyin necə keçdi?

– Hamı kimi... yaxşı...

– Çoxdan sorağını almışdıq, deyirdilər təzə entimoloq gəlib, amma biz hələ üzünü görməmişdik.

Babacan əmi sümüyü yüngül adam idi, həmişə yolda-rizdə idi, daim piyada gəzərdi, yaşı 77-dən keçsə də, gümrah və qıvraq görünürdü. Elə oradaca Ötkəmə bəzi məsləhətlərini verdi, tapşırdı ki, diqqətli olsun işində-gücündə:

– Zəhmətdən qorxma, – dedi, – adam qoçaq olanda iş özü onun yanında gözükölgəli dolanır, bu bir, ikinci də, gəzməkdən, uzaq yollarda piyada yeriməkdən məbadə çəkinəsən! Görürsən məni... – güldü... – bu yaşımda elə bil quş kimiyəm. Hə...onu deyirəm axı – keçən həftə Bakıya getmişdim, bizim balaca nəvənin ad günü idi, inan ki şəhərdə – avtobusda, metroda, küçələrdə bəzi kişiləri görəndə xəcalət çəkirdim, səksən faizinin qarnı çıxmışdı qabağa, lap cavan oğlanları da göbəy bağlayan gördüm, bağışla məni, kişilərin yarısı qarnı burnunda gəzirdi... Qadınlar, heç olmasa, bu müqəddəslik yükünün əziyyətini doqquz ay çəkir... amma bu yazıqlarınkı... artıq cəkinin daşınması ömürlükdü, – acı-acı gülümsədi Babaca əmi. Sonra da onlara elə bil bir az haqq qazandıraraq əlavə etdi, – bu bəla ya xaricdən gələn o qida məhsullarındandı, ya da o duru yağlardandı. Ya da nəqliyyatda çox gəzməkdən, – tənbəllik azarından.

* * *

Günlər keçirdi... Ötkəmin əsl iş mövsumünun başlanmasına lap az qalırdı. Tənəklərin tumurcuqları açılır, yaşıl yarpaqlar artıq görünürdülər, elə bil işvəli qızlar uzaqdan oğlanlara dillərini göstərirdilər. Bahar çobanyastığı gülünün qoxusuyla, çöl lalələrinin tozuyla hər yeri doldurmuşdu. Kəpənəklər, arılar bir- biri ilə hənir-hənirə verib qar-qar qaynaşırdısa, lalələrin bağrının başındakı o qara xallar isə susurdu... Ləçəklərindəki toz isə kəpənəklərin qanadlarındakı toza qarışıb narın yellərin zərif nəfəslərində bir-biri ilə anışa-anışa illüstrativ bir görüntü yaradırdı...

Amma buradakı adamların heç biri baharın, yazın gətirdikləri bu qədər gözəlliklərə gözlərinin uçuyla da baxmırdılar. Eyinlərinə deyildi heç nə. Hamının fikri-zikri işdə-gücdə – tənəklərin yanında idi, tənəklər nə vaxt, necə güldən çıxacaq, azar-bezar bağlardan yan keçəcəkmi? Məhsuldarlıq necə olacaq? Başqa söz-soy, söhbət-ixtilaf yox idi.

Bir gün Ötkəmə dedilər ki, baş aqronom İrasim müəllim – onu hamı belə çağırırdı, – "İrasim müəllim", amma "Klos-Atababa" onu "Kərbəlayının Qəmlosu" adlandırmışdı, hamı da qəbul etmişdi bu adı, – səni axtarır, təcili özünü çatdır ona.

Kabinetində tək idi, amma yaman qaşqabaqlı halda oturmuşdu: "Xeyir ola, görəsən, nə olub?"

– Salam, Rasim müəllim, məni çağırmısınız?

– ...

Salamını almadan başını qaldırıb soyuq, həm də təkəbbürlü nəzərlərlə Ötkəmə baxdı:

– Sən belə elə... – bir az fikrə gedib, sonra yenə davam elədi:

– Hə... sən bir naryad hazırla, naryad tuta bilirsən də? – cavabını almamış, davam etdi sözünə, – orada göstər ki, təcrübələr aparmaq, sovxozun ərazisinin dörd tərəfində mövsümi yoxlamalar keçirmək üçün vəsait lazımdır. Yəni 500 manatlıq iş naryadı – iş cədvəli.

– Bəli...
– Daha nə "bəli", gətir qol çəkim, ver mühasibliyə, xəzinədardan pulu al gətir ver... mənə.
– Sizə?
– Hə... bəs kimə? Mənə...
– Sonra?
– Day nə sonra... Sonra da get işinin-gücünün dalıycan!
– ...

Ötkəm özünə də məlum olmayan gözlənilməz bir duruma düşdü. Açıq-aşkar bir çətin seçənək önündə qaldı: belə çıxdı ki, o, dövlət pulunu saxta yolla mənimsəməli, onu baş aqronoma ötürməlidir. O gözünə döndüyüm də həmin pulu həzmi-rabedən keçirməlidir. Bu da olurdu dövlət vəsaitini qanunsuz yolla mənimsəmək – yəni cinayətə qoşulmaq! Ya bu işə baş qoşmamalı, baş aqronomla konfliktə girməlidir, ya da saxtakarlığa, qanunsuz mənimsəməyə qol qoymalıdır. Ötkəm birinci yolu seçdi. İdarədən çıxıb evə gedə-gedə fikir-xəyal içində idi, haldan-hala düşür, bilirdi ki, o, baş aqronom deyəni eləsə, işinin kökündə cinayət tərkibi duracaq, üstü də açılsa, o, məhkəmə qarşısında oturacaqdır.Amma artıq onu da yəqin elımişdi ki, Rasim müəllim bu işi boş qoymayacaq, nə vaxtsa hardasa bu hayıfı ondan çıxacaqdır! Ona görə də baş aqronomdan – hansı ki, birbaşa ona tabe idi, ehtiyatlı dolanmağı, bacardıqca gen gəzməyi qərarlaşdırdı, həm də özünü inandırmağa calışdı ki, guya heç aralarında belə mövzuda bir söz-söhbət, filan olmayıb.

Amma bütün bunlara baxmayaraq nədənsə daim nigaranlıq, çəkingənlik içində idi. İşinə vaxtlı-vaxtında gedir-gəlir, sahələri gəzir, müşahidələrini aparır, hamı ilə mehriban ünsiyyətini qururdu, deyir, gülür, danışır, hərədən bir söz eşidir: hərə bir söz deyirdi, özü də xoş əhvallı iş-güclə bağlı, söz-söhbətlərə qəlbən daxili bir ehtiyac duyurdu. Amma qulağına bəzi sözlər də çatırdı ki, baş aqronom onun kölgəsini də qılınclayır, tez-tez direktora ondan altdan-üstdən şeytançılıq edir; guya təzə aqronom-entimoloq işə can yandırmır, bu sahədə savadı, səriştəsi yoxdur və sair və ilaxır...

Ötkəm özü də artıq hiss edirdi ki, deyəsən, direktor da onunla pəs düşüb, rastlaşanda əyri-əyri baxır, salamlaşanda, danışanda səsinin ahəngi Ötkəmi gicitkən kimi dalayırdı.

Bu Rasim isə... deyilənə görə qəssab oğlu olub; düzünə baxanda, adicə davranışlarına göz qoyanda, antropoloji baxımdan üz, göz, bədən formasına nəzər yetirəndə, eləcə açıq-aydın bilinir ki, elə anadan vələddüzzina doğulub. Atasının pulunun gücünə gedib Gəncədə ali təhsil alıb, sonra gəlib yaxşı vəzifələrə yiyələnib. İndi quşçuların arasında işləsə də, necə deyərlər, onların çörəyini yesə də, quşçulara gizli nifrət bəsləyirdi, arada-bərədə söz düşəndə, onların qeybətini qırır ki, guya hamısı davakardılar, adamla yolagedən deyillər, baxmayaraq ki, tikələrinin düşmənidirlər, yəni süfrələri, əlləri həmişə açıqdır, amma buynuzları içindədir hamısının. Birinin ayağını basdın, qurtardı, hamısının üzü dönəcək səndən. Bütün bu qeybətləri fürsət düşəndən-düşənə, gah açıq-aşkar, gah da xəlvətdə, gizlində edirdi.

Amma onun özü isə həmin dövr, həmin sistem üçün ləkəli, yəni vurulmuş adam sayılırdı: kommunist partiyasının sıralarından qovulmuş, qonşuluqdakı "Günəşli" sovxozunda direktor işlədiyi vaxt külli miqdarda dövlət əmlakını mənimsədiyi üçün həbs cəzası da almışdı.

Amma sən deyən də savadsız, bacarıqsız, lox adam da deyildi, lazım olan yerdə hiyləsi də vardı, adama girməyi də, məqamında şirin dili də! Həm də,

ifrat dərəcədə şorgöz, sinik və pulgirliyi ilə hamını geridə qoya bilən biçimsiz, bu sahədə artıq oturuşmuş bir vücud idi. Özü də görünüşcə, bədəncə, törə, tösmərək, sallaqsifət, qıyıqgöz... Güləndə gözləri sifətinin içində itib-batırdı. Bəlkə də, elə ona görə də hələm-hələm gülməzdi.

Tabeçiliyində olan işçilərə həmişə sərt münasibətdə olan bu dələngəvaz adam idarədə çalışan qız, qadınları (əlbəttə, suyuşirin cavanları, gözəlləri) görəndə, onlarla söhbət edəndə, su kimi axıb-gedirdi... Uzaqdan baxanlarda onun bu acgözlüyü, düşüklüyü açıq-açkar nifrət və ikrah yaradırdı. Həm də onun bu vəziyyətinə fikir verənlər, gördükləri iyrənc mənzərəyə məəttəl qalırdılar: ilahi, bu, o adamdı? Gör necə əzilib-büzülür... elə bil bayaq, bir saat bundan əvvəl, briqadirlərin, mexanizatorların, fəhlələrin üstünə dolu kimi yağan, şimşək kimi çaxan Rasim deyilmiş...

"Qoldan qüvvətli, ağıldan kəm" direktorun iradəsini (həm də idarəsini!) öz məharəti ilə qamarlamış, hətta az qala, rəhbərliyin sükanını tam əlinə keçirmişdi. Ümumiyyətlə, deyirlər, bütün dövrlərdə rəhbərlik, idarəçilik sahələrində muavinlər elə belə olurlar; tamahgir, rəzil, aravuran, öz süni fabulası ilə müdirlərinin zəif damarını əlində tutub gəzdirən! Rasim müəllim də belələrindən idi. "Klos-Atababa" demişkən: "Hər Kərbəlayının öz Qəmlosu!"

Sovxoz işçilərinin, qəsəbə sakinlərinin milli tərkibi müxtəlif və polietnik idi. Böyük, abad, hətta səliqəli bir şəhərciyi xatırladan bu qəsəbədə azərbaycanlılarla birlikdə ruslar, moldavanlar, tatarlar, ermənilər, habelə ləzgilər, kürdlər, tatlar, hətta talışlar, lahıclar, bir də ən çox Cənubi Azərbaycandan siyasi mühacir sifəti ilə Şimala pənah gətirmiş çoxlu "iranlı" – demokratlar məskunlaşmışdı.

Bütün bunlara baxmayaraq, quşçular "yerin yiyəsi" sayılırdı. Necə deyərlər, quşçu kultu vardı ortada. Əslində, bu nüfuzun kökündə onların bir-birinin təəssübünü çəkməsi, sayca çox olması, bir də sovxozda vəzifəcə birinci şəxsin – direktorun da yarımquşçu olması idi, – onun anası Sərvinaz ana quşçuların ağbirçəyi sayılırdı, xeyir-şər məclislərində, hər yerdə, həmişə hörmət və izzətlə qarşılanırdı, yola salınırdı. Qapısına gedəni əliboş, ümidsiz yola salmaz, bacardıqca quşçuların hamısına əl tutar, köməklik göstərərdi.

* * *

Ötkəm bu dəfə iş vaxtı yolunu həm adi, həm də özü qədimdən qədim olan Bayat kəndindən saldı. Ərazi sovxoza aid idi. Fikirləşdi ki, həm oradakı üzümlüklərə baş çəkim, görüm vəziyyət nə yerdədir, həm də kəndi ziyarət edim. 10-15 evdən ibarət bu kəndi üzüm bağları əməlli-başlı mühasirəyə almışdı. Buradakı həyət-bacanın, dirriklərin, quyun-quzunun gözünü açmağa, nəfəs çəkməyə belə tabı, taqəti qalmamışdı. Kəndin adamları olub-qalan mal-qaranı, qoyun-quzunu, örüş yeri olmadığından, həyətdə saxlayır, ot-ələfini özləri oradan-buradan yığıb gətirirlər, kimisi belinə şələləyib daşıyırdı, kimisi də at, eşşək arabasında... Kəndin özünün və sakinlərinin evlərinin tutduğu ərazi, vur-tut iki hektardan bir az çox olardı.

Sən demə, öz evinin içində belə üzüm tənəyi əkmək istəyən ordenli, medallı direktor – Qədir Nəsrullayev bu iki hektara da tamah salıb, göz dikibmiş. Bunu Ötkəmə kənd sakini Ağaverdi adlı bir kişi dedi:

– Ay cavan oğlan, səndən nə əcəb bu tərəflərə gəlib çıxmısan? Yoxsa sən də...

– Mən də... yəni nə?

– Bizə çatdırmaq istəyirsən ki, hazırlaşaq...

– Yox, Allah eləməsin, əksinə... Mən bu kəndin adına, qədimliyinə, tarixinə bələdəm. İstəmərəm ki, onun bir ağacının bir solmüş yarpağını belə, külək qoparıb aparsın.

– Nə yaxşı... axır ki, sovxozdan gələn bir adamdan bu kənd haqqında nə isə ürək qızdıran, yaxşı bir söz eşitdik.

– Ağaverdi kişi, heç bilirsən "bayat" sözü nə deməkdir?

– Əlbəttə, bilirəm, "bayat" köhnə, yəni boyat çörək, xörək...

– Elə belə düşünürsünüz ki, kəndiniz əldən gedir də. Bayat... çox qədim, şöhrətli, adlı-sanlı bir tarixi addır. Hələ deyirlər ki, bizim dahi söz babamız Məhəmməd Füzulinin də doğulduğu kəndin adı Bayat olub. Hələ çox adama məlum deyil ki, o özü bu Bayatda anadan olub, o, yoxsa başqa Bayatda... Hələ IX-X əsrlərdə türkdilli tayfaların birinin adını daşıyıb bu Bayat sözü. Qədim Oğuzlara başçılıq edirmiş bu Bayat tayfası...

Ağaverdi kişi gördü ki, bu cavan oğlan ona müftə-müsəlləh tarix dərsi keçir, ya da onun zəif damarını – dərdli yerini tərpətmək fikrindədir... Ona görə "valı" çevirmək istədi.

– Bəs onda niyə düşüblər bu kəndin üstünə?

– Kim düşüb?

– Sən bilmirsən guya? O, çoxdandı bu kənddən, bizlərdən ağzıəyri gəzir...

– Qulaq as... Xalqımızın ədəbi-bədii, hətta ictimai-siyasi tarixinin formalaşmasında bu Bayat tayfasının böyük rolu olmuşdur. Ona görə belə yerli-yataqlı danışıram ki, sən də gedib hamıya danışasan mən deyənləri. Bəli, elə bu kənddəkilər həmin tayfanın nümayəndələridir. Həm də təkcə bu kənddəkilər yox, onlarla Bayat adını daşıyan kəndlərimiz var. Elə onlar da...

– Hə, mən də eşitmişəm, deyirlər, Ucarda, Ağcabədidə, Səlyanda, Neftçalada, Dəvəçidə...

– Heç olmasa, bunları bilirsən, elə bu da böyük şeydi, – Ötkəm bir az kinayə ilə gülümsündü:

– Hələ bu harasıdır, ay Ağaverdi kişi, bayatlılar həm də şifahi xalq ədəbiyyatının, yəni əsasən, bayatıların yaradıcıları sayılırlar. Bayat sözü ilə bayatı – bir-biri ilə nəfəs-nəfəsə yatan, bir-birinə həyan olub, bir-birini isidən dələlərə oxşayırlar...

* * *

Uzun illərdən sonra kəndin girəcəyində qara, qranit daşdan bir abidə qoyulacaqdı, üstündə də bu sözlər: "Füzulinin mənsub olduğu Bayat qəbiləsi kəndlərindən biri burada yerləşmişdir." Yol gedənlər viran edilmiş bu qədim yurda qoyulmuş abidə-başdaşına həmişə kədərli-kədərli baxıb, keçəcəkdilər...

* * *

Bu məhvetmə, ağac soyqırımı olaylarından az müddət keçmişdi ki, dəhşətli bir xəbər bütün rayona acı külək kimi sürətlə yayıldı. Dedilər: "Xaqani sovxozunun direktorunun oğlu Natiqi elə həmin tərəflərdə – qoyun-quzu otaran bir cavan uşaq qətlə yetirib".

Hadisənin şahidi olan sovxozun aqronomu "qozbel Sabir" kimi tanınan bir şəxsin dediyinə görə, Natiq tez-tez gedib ona xəbərdarlıq edirmiş ki, burada qoyun- quzu, mal-qara otarma, bura örüş yeri deyil, sovxozun əkin sahəsidir.

O da – qaradinməz, dəhrəburun bir gəda, hər dəfə “baş üstə”, baş üstə” deyir, həməncə qoyun-quzunu sahədən çıxardırdı. Sonra yenə başqa yer olmadığına görə, heyvanlar harda gedib hərlənirdilərsə, yenə qayıdıb həmin yerə girirdilər.

Natiq də boylu-buxunlu, güclü, idmançı görkəmli bir cavan oğlanmış, hər dəfə gəlib heyvanları həmin sahədə görəndə çobanı döyərmiş. Bu dəfə çobanın çiynində təklülə çatal gözlü ov tüfəngi varmış, direktorun oğlu bu səfər yenə onun üstünə gələndə, o, canadoyan, bezgin səslə deyir:

– Yaxın gəlmə! Gəlsən, vuracağam!!

Direktor oğlu inana bilmir ki, kasıb bir kişinin çəlimsiz oğlu – şulum kökündə bir çoban, onu vura bilər. Natiq şəstlə onun üstünə yeriyəndə... çoban qorxusundan atəş açır. Lap yaxından dəyən güllə onun həyatına son qoyur, elə oradaca 27 yaşlı cavan adam heç nəyin üstündə tələf olur.

Danışırlar ki, o məqamda, elə bil o tut, o əncir ağaclarının hayqırtısı, fəqanı eşidilirmiş, elə o “qozbel Sabir” özü çox-çox sonralar deyibmiş ki, sanki hardansa mübhəm bir ağac hənirtiləri gəlirdi... vahimələndirirdi adamı...

Gözlənilməz bu qanlı olay hamını sarsıtmışdı. Qətlə yetirilən Natiq direktor oğlu olsa da, sadə, mehriban bir cavan idi. Heç vaxt özündən müştəbeh olmaz, haqsız yerə heç kimlə qaba hərəkətlər etməzdi. Ağsaqqallar bu bədbəxt olayda əsas günahkarı elə direktorun özünü sayırdılar:

– Torpağı goruna aparacaqdın, ay Qədir, uşağı niyə ölümə sürükləyirdin?

Başqa bir ağsaqqal bu qınaq biçənəyində dəryazı lap dibindən çaldı:

– Quşçu arvadının döşündən süd əmən oğul bilərsən neylərdi?

– Neylərdi?

– Məhkəmə günü gedib zalda sakit-səssiz oturmaq əvəzinə, dəmir barmaqlıqlar arasında saxlanılan dustağı – oğlunun qatilini elə oradaca güllələyərdi, qanını alardı. Qədir Nəsrullayevin bəyəm silahı, imkanı yox idi?! Yaşı da 70-ə yaxınlaşırdı, innən belə yaşayıb nə qurub, nə yaradacaqdı ki...

Maşallah kişi də daha susa bilmədi:

– Sinəsi də dolu... Moskva verən orden, medallar... düzüm-düzüm... 30 ilin direktoru idi, neyləyəcəkdilər ona. Adı-sanı, yeri gələndə də, tıx deyincən varı-dövləti, yatırı...

– Yox, ay Maşallah, – deyə Dədəxan kişi etiraz etdi. – Qanı qanla yumazlar, qanı su ilə yuyarlar, deyiblər.

Durmuş kişi lap özündən çıxdı:

– İclaslarda briqadirlərə “hamınızı kökəldib kəsəcəyəm” – deyə hədə-qorxu gələn, bir az yolundan sapanı bir yumruğu ilə şil-küt eləyən Qədir, məhkəmədə yeganə oğul övladının qatilinin önündə necə dilsiz-ağızsız, təmkinlə oturubmuş... Gözləyirmiş ki, oğlunun qatilinin cəzasını hakimlər versin... Bir eşşək yükü ot-ələfdən ötrü dağ kimi balasını verdi güdaza. İki tifil uşağı qaldı yazığın.

Dədəxan kişi üz-gözündə dərd-sər Durmuş kişiyə tərəf çevrildi:

– Hələ o “qozbel Sabir”ə bax ey... orada ola-ola... bu boyda ölümün qabağını ala bilməyib... Görürsən uşaq güllənin qənşərinə gedir... bir irəli dur da... Özü də dinəndə həmişə öyünürmüş ki, Natiqin anasının qohumuyam. Qohum da qohumu qıpqırmızı güllənin ağzına göndərər?!

Durmuş kişi, göz yaşlarını görən olmasın deyə, cib dəsmalını çıxardı, guya burnunu silirdi.

Bayaqdan hər iki həmyerlisinin söhbətinə qulaq verib, danışmayan Bünyad kişi bu söhbətdən darılıb lap özündən çıxdı:

– Ağacabaxandan, tatdan nə gözləyirsən? – Kişidə gərək tərəkəmə qanı, təpəri olsun, – dedi. Qeyrət, sən demə, süddə deyilmiş, tumda imiş!

– Onların heç birinin, əslində, elə də günahı, təqsiri yoxdu, zamənənin üzü qara olsun, məsəl var ey, deyərlər, "Hayıf ölənin canına".

– O boyda kəndi viran qoyub, yerinə mala çəkəndə bilmirdi ki, ahı-zarı ya özünün, ya da balasının başına düşəcək?

– Hansı kəndi, ay Bünyad kişi?

– Necə hansı kəndi? Bayatı deyirəm də...

– Hə... – deyə Dədəxan kişi dərindən ah çəkdi.

* * *

Günlərin bir günündə Ötkəmin yolu Bakıya düşmüşdü. Təbii ki, o, paytaxta alverə yox, gəlmişdi ki, redaksiyalara, nəşriyyata baş çəksin. Çünki "Yurd" nəşriyyatında hekayələr qovluğu vardı, həm də oradan bir məktub da almışdı ki, bəzi yazılarınızdan istifadə edə bilərik, amma düzəlişlərə ehtiyac var, həm də əlavə yeni hekayələriniz də lazımdır. Əgər öz hesabınıza gəlmək imkanınız varsa, gəlin. Məktubu baş redaktorun müavini imzalamışdı.

– Ötkəm, səndən nə əcəb burada?

Bu, Vidadi adlı bir tanışı idi, əvvəllər, hələ Ötkəm əsgər getməmişdən öncə, onların rayonunda çıxan "Yeni Şirvan" qəzetinin məsul katibi işləmişdi. Balaca boylu, sarışın, diribaş adam idi. Hələ o zaman Vidadi Yusif rayona təzə gələndə söz çıxmışdı ki, o, respublikanın ən nüfuzlu bir qəzetində məsul katib köməkçisi işləyirmiş, işi-gücü, yaşayışı da yaxşı, kefi də göynən gedirmiş. Sonradan boşanıb ayrıldığı arvadı ondan Mərkəzi Komitəyə şikayətlər yazmış, Vidadini həmin işindən çıxardıb cəzalandırmaq məqsədi ilə rayona göndəriblərmiş.

Görünür, yenə Bakıya qayıdıb özünə birtəhər yeni iş yeri eləyib, gəlib indi burada – "Yurd" nəşriyyatında çalışır.

– Gəlmişəm görüm nə var, nə yox buralarda...

Ötkəm hiss etdi ki, Vidadi nə isə bir gizli həyəcan keçirir, o yana-bu yana baxa-baxa sanki kimisə axtarır, ya da kimisə gözləyir. Axır ki, özündə-sözündə deyil. Birdən Ötkəmə tərəf dönüb tələskən bir tövrdə soruşdu:

– Ötkəm, sən rayondan maşınla gəlmisən?

– Hə. O qədər yolu piyada gəlmək olar? – deyə o, yüngül bir zarafatla cavab verdi.

– Yox ey, bilirəm də... Sən də zarafat üçün vaxt tapdın. Deyirəm, yəni öz maşınında, yoxsa...

– Hə, öz maşınımda. Öz maşınım deyil, bir qohumum var, onun maşınıdır. Nədi ki bəyəm?

Vidadinin üzünə bir topa işıq şöləsi qondu, çiçəyi cırtladı elə bil:

– Belə de da. Bu oldu lap əmiri, – deyə Ötkəmi bir az kənara çəkdi: – bilirsən, nə var, bir iş var, iki əməl. Sənin üçün də böyük bir şans yaradacaq bu iş... Yəni sənə bel bağlayaraq bu məsələni açıram. O, indi asta-asta, mehriban bir pıçıltıyla danışmağa başladı. Çünki bir az aralıda şıx qiyafəli, geyim-kecimindən yüksək vəzifəli olduğunu bəyan edən, görünüşündən lovğalıq, iddia yağan, hündür boylu, qarabuğdayı, iri gözlü bir kişi də nigaran-nigaran hey o tərəf-bu tərəfə var-gəl edirdi.

Ötkəmə indicə məlum oldu ki, onların hər ikisi – Vidadi də, həmin kişi də eyni məsələ ilə əlaqədar müntəzirdilər və o da Ötkəmin gözündən yayınmadı

ki, uzaqdan üzünü görüb hələ adını da bilmədiyi o kişi qulaqlarını şəkləyib bilmək istəyir ki, onun iş yoldaşı Vidadi bu rayondan gələn adamla, – yəni Ötkəmlə nə barədə pıçıldaşırlar və niyə kənara çəkildilər!

– Bu məsələnin həllinin mahiyyəti çox da böyük şey deyil, amma sən razı olsan, buradakı o işin də – o, əlini nəşriyyata tərəf tutdu, – Ötkəm yəqin etdi ki, Vidadi Ötkəmin hekayələr qovluğuna işarə edir, yəni kitab problemin də göydə həll olar.

– Vidadi müəllim, de bilim də, bu nə məsələdir? – deyə, Ötkəm də onun kimi astadan və ehtiyatla danışmağa başladı.

– Buranın, – deyə o, yenə binaya işarə edərək, – direktorunun oğlu Gəncədə bir qələt qarışdırıb, təcili ora getmək lazımdır. Yəni ora təcili bir şey çatdırmalıyıq.

– Gəncəyə? İndi? – Ötkəm təəccüb içində soruşdu.

– Hə, elə indi.

* * *

Şəhərdən çıxdılar. Yol boyu Ötkəm Allaha dua edirdi ki, kaş Vidadi Yusifin "şefi" hiss eləməyəydi ki, o, bu yolu ilk dəfədir gedir. Həm də onun səriştəsizliyi bir azça da olsun, bilinməyəydi. Ona görə də tam qayda-qanunla, bütün yol işarələrinin tələblərini gözləyə-gözləyə sürür, bir kəlmə də olsun dinib-danışmırdı.

"Dünyanın işinə bax", – deyə o, bir anlıq fikrə gedib öz-özünə dedi: "Gör kimlə haralara gedirəm". Sonra yavaş-yavaş yaddaşını çözələdi ki, bu təsadüfi hadisə – yəni Gəncəyə təcili nə isə aparmaq məsələsi ortaya çıxmasaydı, ya da təsadüfən Vidadi Yusifə rast gəlib həmsöhbət olmasaydı, indi bu Ətiqə xanım harada idi, mən harada idim... Heç o boyda tanınmış yazıçılar, onun qəbuluna düşmək üçün saatlarla gözləyirlər, amma indi mən... gör nə qədər vaxtı onunla birgə yol gedəcəyəm.

O, birdən ehtiyatla, çəkinə-çəkinə maşının güzgüsündə Ətiqə xanıma nəzər saldı, iri, yaşıl gözlərində qüssə və bir də elə bil ilan soyuqluğu var idi. Ağ bənizində qadınlara məxsus heç bir xoş nəvazişdən, duyğu və təbəssümdən əsər-əlamət belə yox idi. Bu, xanımın güzgüdəki əksi idi, yəni real aləmdə əsl üz-gözü, cöhrəsi necədir görəsən? – deyə düşündü... – Sabah səhər Günəş işığında baxaram, – dedi öz-özünə. Amma indi dəxli yox idi, heç nə hiss olunmurdu, donmuş, daşlaşmış bir şəkil kimiydi, heç kirpiklərini belə qırpmırdı. Sanki bu adam ömründə bir dəfə də olsun sevinməyib, gülməyib, söz-söhbət, yumor, lətifə nə olduğunu da bilmir. Nə isə..."Təki sağ-salamat gedək çataq, işimizi görək, qayıdaq, amma yazıq bunun işçilərinin halına..."

Yollar özü də Ötkəmin yol yoldaşı olan xanımın indiki haləsi kimi cansıxıcı, darıxdırıcı idi. Necə deyərlər, Ətiqə xanım susduqca, susur, yollar da elə bil ona baxıb, eləcə... uzandıqca, uzanırdı... Sanki bir-biri ilə paralellik yaratmışdı, bəhsə girmişdilər. Həm sağ, həm də sol tərəfdən şoranlaşmış, qupquru, boş, cadar-cadar torpaqlar maşın getdikcə sürətlə arxaya qaçır, sanki öz boşluğundan, cılızlığından, yavanlığından utanırmış kimi, gözlərdən, nəzərlərdən tələsik uzaqlaşmaq istəyirdi, qaçırdı, qaçmayıb lap uçurdu, uçurdu...

Sürücünin fikrinə, düşüncəsinə elə bir yozum gəlirdi ki, bəlkə, üz-gözündən qaramatlıq yağan bu yolların ətrafının bədnam yeknəsəqliyi idi xanımın qırımına, ovqatına soğan doğrayan... Əgər aran Şirvanın gözləri səyridən bu urvatsız yolları ilə yox, əvvəl fikrində biçimləndirdiyi dağlıq Şirvanın yaşıllıqlar

içində, əsrarəngiz mənzərələrlə dolu olan o biri yollarıyla – yəni Ağsu-Şamaxı şosesi ilə getsəydik, aramıza bu zod soyuqluq girməz, dinib-danışmamağımızın yaratdığı sükutun çala-çuxurları bizi belə “atıb-tutmaz”, yormazdı...

Nə isə... Ötkəm o biri ekvivalent yolun həsrəti ilə maşınını sürməkdə olsun...

Birdən... yenə gözləri dinc durmadı – düz deyirlər, göz xəyanətkar olur həmişə, fikirləşdi ki, “gecə qara, cücə qara” – onsuz da bekarçılıqdır, baxım görüm bu xanım bir az özünə gəlibmi, buzun şaxı sınıbmı?.. İş başında kabinetdə telefonların, selektorların arxasında oturan qadın, rəsmi vəzifə daşıyan – direktor... Heç ona intim, sevgi, məhəbbət hissləri ilə yaxın durmaq olarmı?

Bu düşüncələr icində baxıb gördü yox, dəsgah elə həmin dəsgahdı... Daş kimi sərt, ifadəsiz sifət və soyuq, qoşa buz damcılarına oxşar ekzistensial mavi gözlər... yenə öz əvvəlki durumundadır: boz bir ovqatda! Hətta ona elə gəldi ki, bu Ətiqə xanım, indiyə kimi nə bir adamı sevib, nə də onun özü hansısa bir kişinin xoşuna gəlib. Ötkəmin hətta ona birdən elə bil yazığı gəlməyə başladı.

Yadına Xaqani sovxozundakı (boy-buxunları, yaşları, fakturaları uyğun gəlirdi) Gülqız xala – atasının göbəkkəsdisi düşdü. Fikirləşdi ki, o hara, bu ”şef” – direktor hara?.. Gülqız xala sıravi sovxoz fəhləsi – həmişə nimdaş paltarda, soyuqda, qarda ayaqlarında yaş, rezin poti, çöldə-bayırda işləyir, qazancı da aydan-aya öz azuqəsinə güclə çatır, ya çatmır, amma, özü qəlbiaçıq, şən, üzügülər, dili-ağzı sözlə, zarafatla dolu... Onun yanında olanda adam elə bilir bu dünyada nə dərd var, nə ələm, nə kasadlıq, nə də ümidsizlik... Demək-gülmək, hər tərəfində isti, şən həyat şölələri... Bax da, o fəhlə, bu direktor...

Sonra da öz-özünə sual da verdi ki, heç qadından da direktor olar? Vəzifəli qadını qucaqlamaq, öpmək, oxşamaq üçün gərək bir ayrıca da cəsarət yiyəsi olasan. (Yenə növbəti baməzə fikir!) Direktor olar kişi xeylağından, lap elə Qədir Nəsrullayev kimi kişilərdən... Fikrinin, düşüncəsinin paradiqmasının çox dərin, gizli lağımlarından istilah kimi bir şey gəlib, onun xəyalların məhəccərinə söykənib pıçıldadı:

– Qadından ancaq sevgili olar, direktor yox, qadını sevəsən, oxşayasan, nazını çəkəsən, həm ona sahib olasan. Onun vəzifəsinin aurası sənə basqı eləməsin. O da vəzifəsinin hökmündən, cazibəsindən uzaqlaşa bilib səni sevsin, qulluğunda dursun, özü də ev içində, çöldə-bayırda yox. Qadını Allah ev üçün, ailə üçün yaradıb.

Yenə də güldu öz-özünə, bu sözgəlişi gülməli, məzmunca topal fikrə, reseptə görə. Duyğulu düşüncələr içində birdən yenə “şef” direktora güzgüdə gizli bir nəzər yetirdi, maşının salonunun yarıqaranlığında onun üz cizgiləri illüstrativ görüntüləri elə boz, elə soyuq idi ki... Sonra qorxdu ki, birdən o, Ötkəmin fikirlərindən keçənləri hiss edə bilər və deyər: “Ay oğlan, məndən nə istəyirsən, tayın-tuşunam sənin?..” Sonra bu yersiz şübhəyə görə də gülümsündü. Amma düşündü ki, görəsən, bu xanımın indi 22-23 yaşı olsaydı...

– Olsaydı da!...

– Onda neyləyərdin, ay Ötkəm? – hardansa bir səs gəldi elə bil.

– Neyləyərdim?.. Hələ bir soruşursan da... Qoymazdım aramızda sükut hasarı belə uzana-uzana yüksəlsin... Minbir dillə onu dindirərdim, danışdırardım onu. Əvvəla, otuzdurardım yanımda... Ehmalca əlini alardım əlimə, sevgi mövzuları ilə tutuşan xoş misallar, əhvalatlar danışardım. Sonra da bir soru edərdim: “Əl, barmaq, ovuc hərarəti bakirə, təzə qönçələri isindirə bilərmi? Yəqin, o da cavab verərdi ki, bakirə qönçələrə istilik yox, əsl, təbii bahar nəfəsi lazımdır.

Sonra belə deyərdim: "İki əllər birləşəndə arasında qalan kövrək sevginin həsrət qanadları əzilmir ki, nəfəsi təngimir ki bu sevginin, həsrətin? – O da deyərdi yəqin: "Sevgini birləşmək yox, ayrılmaq əzər, sındırar". Mən də deyərdim ki, bahar nəfəsinin zərif hənirtiləri qız barmaqlarındakı naxışlı, tül əlcəklərə oxşayır, indi, tap görək hansı, hansının periferik – yəni ötəri işartısını öz ovsununa sala bilər – sevgi ovsununa?

O da, Allah bilir, nə cavab verərdi... Bəlkə, elə indi bu xanımdan soruşum cavabını?

– Nə yaman gülməlisən xanəxarab! Ha-ha ... getdikcə lap ağ edirsən ha... Bu da bayaqkı səsə oxşayan o adamın səsi idi...

Özündən 22-25 yaş böyük bir qadının simasında, cavan bir qız uşağının obrazını yaradıb, onunla xəyallarında əcəb oyunlar qurursan, amma doğrudan da, indi yanında 20-22 yaşlı bir qız olsaydı – vallah xasiyyətinə bələdəm – dilin, ağzın bağlanıb, cəsarətin təəllüqündən çoxdan əl çəkmişdi. Əməlli-başlı suluğunu udub lal-dinməz maşınını sürürdün...

Ətiqə xanım da, kim bilir, hansı xəyallarının, hansı fikirlərinin sorağında nələri çözələyirdi...

Ötkəm bir az sakitləşdi, öz-özüylə zarafatına son qoydu, amma doğrudan, sonra qərara gəldi ki, belə də olmaz. "Daşı" tərpətmək vaxtıdır, gör neçə saatdır oturduğu yerdəcə ayıq-sayıq, gözləri açıq "yatır". Üç saatdan çoxdur ki, heç radionu da açmayıb. Səssizlik, kimsəsizlik elə bil hörümçək toru qurub maşının salonunda... danışsam, heç bəlkə də səsimi də eşitməz... içəridə elə bil göz-gözü görmürdü!

– Ətiqə xanım, olarmı bir şey soruşum?

İstədi ki, oradan-buradan söz-söhbət açıb onun ürəyinə yol tapsın, fikir-xəyaldan qoparsın onu.

Səs yerinə çatdı,"Daş" elə bil səksəndi, hürkdü:

– Əlbəttə... Əvvəla, deyin, sizin adınız nədir?

– Ötkəm.

– Hə, indi buyurun.

– Bu nə maşın qanadıdır belə, Gəncəyə aparırıq, bir hadisə olub bəyəm?

– Hə... oğlumun bəlasına düşmüşəm. Orada əsgərlikdədir. Ərköyünlükmü deyim, ya özbaşınalıqmı söyləyim, bilmirəm hələ – götürüb komandirinin maşınını sürüb aparıb vurub bir divara, Allah üzümüzə baxıb ki, adama-zada dəyməyib. "Villis"in sol "krılası" tamam yararsız hala düşüb. O maşınların da – yəni hərbi "Villis"lərin də ehtiyat hissələri hələm-hələm tapılmır, deyiblər təcili düzəltdirməsəniz... məhkəməyə gedəcək bu iş... Bir gizir var orada, heç adını, familini də bilmirəm – Sahil deyir ki (yəqin, oğlunun adıdır), məni görəndə elə bil qutuda ilan görür. Erməni millətindəndir özü də, elə hey təkid edir ki, bu iş məhkəməyə getməlidir.

Birdən maşının qabağına bir dovşan çıxıb qaçmağa başladı. Ötkəm üçün də gözlənilməz olan bu rastlaşma, bu qaçış onun qəfil siqnal verməsinə, sürəti birdən azaltmasına səbəb oldu.

– Nə oldu, – Ətiqə xanım narahatlıqla soruşdu.

– Heç... baxın, dovşandı, görün necə qaçır... Qırağa da çıxmır ey...

– Həəə... gördüm.

– Amma belə yerdə deyirlər ki, bir işin dalıycan gedəndə yolunuza dovşan çıxıb qabağınızca qaçsa, işiniz tezbazar, qaçaraq həll olacaq.

– Təki olsun, görək də...

Dovşan maşın işığının yaratdığı "yoldan" çıxmırdı, "öz yolu" ilə qaçırdı. Ötkəm maşının sürətini bir az da azaltdı ki, dovşanı çox qovmayım, yazığın

bağrı çatlayar... hə, axır ki, keçdi öz tərəflərinə – çöllü-biyabana... şose yolundan çıxdı.

– Sağ olsun iş yoldaşlarım, tapdılar bu "krılanı", siz də sağ olun... aparaq çatdıraq, usta gözləyir orda...

"Bu yazığın dərdi varmış ki... ona görə dinib-danışmırmış" – aydın olurdu hər şey Ötkəmə, yavaş-yavaş...

Yadına lap bu yaxınlarda vidalaşdığı öz əsgərlik çağları düşdü, istədi desin: "Ətiqə xanım, mən elə bəd xislətli hərbçi zabitlərin ağızlarının əyriliyini boyunlarının arxasından görüb tanımışam, onların arasında elələri var ki, əsgəri ilişdirmək, ləkələmək üçün sino gedirlər, "öz mayoru" – Çelyadniki yadına saldı, amma heç nə deмədi, istəmədi xanımı bir az da həyəcanlandırsın. Həm də bir az təəccüb etdi ki, Bakıda yaşayan çağırışçı, pasport qeydiyyatında olduğu yerdən cəmisi 4-5 saatlıq məsafəsi olan hərbi xidmət hissəsinə necə düşə bilər. Bu təsadüf idi, yoxsa burada da bir isti tanışlıq barmağı var?..

– Onda nə yaxşı ki, vaxtında üstünə düşmüsünüz.

– ...

Bir müddət heç biri dinib-danışmadı, danışmağa daha söz qalmamışdi həm də. Yol bu acı,üzüntülü sükutun içində acı bağırsaq kimi uzandıqca, uzanırdı...

Artıq təkəmseyrək əkin sahələri görünməyə başlayırdı, bir-birindən xeylı aralı evlər, dirriklər gözə dəyirdi. Kənd evlərinin işıqları uzaqlara zillənən nigaran insan gözləri kimi tez-tez qırpılırdı elə bil... Yolların lap yaxınlığında alaçıqlar qurulmuşdu, onların kənarında isə ocaqlar tüstülənirdi. Yolların kənarlarında alver edən cavan oğlanlar taxtadan görüncəklər düzəltmiş, yoldan keçənlərin diqqətini cəlb etsin deyə nar, heyva və xurmaların ən yaxşılarını seçib orada sərgiləmişdilər. Həmin meyvələri səbət-səbət yerə düzüb alıcı gözləyirdilər, gecənin bu vaxtında belə, işlərini dayandırmırdılar. Hətta maşınların işlək zolağına tərəf lap yaxınlaşıb sürücülərə əl edir, dolu səbətləri göstərirdilər, – "dayanın, meyvə alın" işarələri idi bunlar...

Yol göstəriciləri qaranlıqda par-par parıldayırdı. "Çəngəl-bıcaq" işarəsini görəndə Ötkəmin yadına düşdü ki, haçandı yol gəlirlər, yəqin, xanım da ac olar, işdən çıxıb birbaşa yola düşüblər. Hələ ola bilsin ki, subaşına da getmək istəyir, elə onun özü də günorta yediyinin üstə idi. Qarşıda gurhagur işıqları görünən böyük bir kafe görünməkdə idi, ona görə də:

– Ətiqə xanım, bəlkə, buralarda saxlayım, çay içək, – dedi.

– Yox, yox, mən heç nə istəmirəm, siz özünüz istəyirsiniz, saxlayın düşün, için.

Təbii ki, o, tək düşüb nə çay içən, nə də yemək yeyən deyildi. Bu təklifdən imtina etmək, həm də o demək idi: gedək, dayanmaq olmaz!

Yolun o tayı sol zolağı ilə maşınlar gəlib keçirdilər. Ötkəm də, Ətiqə xanım da yenə də əvvəlki kimi səssiz-səmirsiz gedirdilər, heç çınqırlarını belə çıxartmırdılar. Yeknəsəq sükut da ikinci sərnişin kimi, maşındakı uzunçu adam kimi susur, o da sakitcə yolların səbirli, davamli təmkininə qarışa-qarışa gedirdi...

Gəncə şəhərinə çatmağa, deyəsən, az qalırdı. Yuxusuz gözləri ilə bələdçilik edən işıqlı yol işarələri səmtləri göstərə-göstərə, onları həmin ünvana tərəf yönəldir, həm də nə qədər məsafə qaldığının xəbərdarlığını da edirdi.

Gecədən keçirdi... Yollarda gediş-gəliş səngiyirdi, maşınlar azalırdı. Getdikcə yolların ətrafları elə bil canlanır, "dolur", "ətə-qana" gəlirdi, yoğun gövdəli, iri, qollu-budaqlı çinarlar, şam ağacları, yekə gərdənli həmişəyaşıl kollar bir-

birini əvəz edə-edə sayca çoxalırdılar. Maşın işığında onların kölgələri lap böyük, nəhəng görünürdü. Payızın əl gəzdirib yarıçılpaq etdiyi ağacların ən yuxarıdakı budaqları qaranlığın içində sanki sıxılıb qalmışdılar, qımıldanmağa belə heyləri yox idi. Başlarının üstündəki uzaq o iki qoşa ulduz bir-birinin yanında olsalar da, gecənin tənhalığından darıxıb elə bil titrəşirdilər. Sonradan biri elə bil o birisinin güdazına getdi, görünməz oldu... Biri o birini uddu.

– Şəhərə girhagirdəyik... ünvan hara olacaq? Dayanaq, yoxsa içərilərə tərəf sürüm? – deyə Ötkəm bu uzun sükutu pozdu.

– Necə? hə... bilirsiniz, – xanım elə bil diksinən kimi oldu:

– Bizi şəhərin girəcəyində Elçin adlı bir oğlan gözləyəcək, atası ilə birlikdə – atasını, yəqin, tanıyırsınız, Altay müəllim; mavi rəngli “Volqa” maşınında olmalıdırlar.

O, bir az arxayınlaşan kimi oldu. Elə bilirdi nabələd olduğu o boyda böyük şəhərdə küçə-küçə gəzəcək, soraqlaşacaq, həmin hərbi hissəni soruşa-soruşa axtaracaqlar. Həm də Ötkəmə o da məlum idi ki, hərbi hissələrin yerləri, ünvanları həmişə gizli saxlanılır, hər adam onların harda yerləşdiyini bilmir, bilənlər də, demirlər... Ona görə də bütün bunlar Ötkəmin gözünə durmuşdu.

Çoxdan həsrətində olduğu qədim, yaraşıqlı Gəncə şəhərinin ərazisinə daxil olan kimi, sol tərəfdə dayanan “Qaz-31” – “Volqa” avtomobili elə uzaqdan “gəl-gəl” deyirdi. Həmin maşın hündür alüminium dirəyin üstündəki iri fənərinin işığı altında işım-işım işıldayırdı, elə bil zavoddan indicə çıxmışdı. Xırda, alt işıqları yanılı idi. – Yəqin, bu olacaq, – deyə Ötkəm öz maşınından enib həmin “Volqa”ya yaxınlaşdı. Sükan arxasında oturan sürücü Ötkəmin onlara tərəf yol aldığını görüb tez qapısını açdı:

– Bakıdan gələnlər sizsiniz? – dedi.

– Bəli, siz Elçinsiniz?

– Bəli bəli, – deyə Elçin cəld maşının sağ oturacağında əyləşən kişiyə sevinclə:

– Ata, onlardı... dedi.

Amma nədənsə Elçinin atası maşından düşmədi, bu arada Ətiqə xanım özü gəlib onlara yaxınlaşdı, Elçinlə görüşüb atasına tərəf döndü:

– Üzr istəyirəm, Altay müəllim, sizi çox gözlətmişik...

– Yox, nə danışırsınız, Ətiqə xanım, – deyə o, maşından enmək üçün əlini qapıya uzatdı, amma xanım qəti bir inadla onu tərpənməyə qoymadı:

– Altay müəllim, siz Allah, əziyyət çəkməyin, oturun...

– Əvvəl evə gedək, yoldan gəlmisiniz, çay için, sonra...

– Yox, yox, Altay müəllim, heç nə boğazımızdan keçməz, gedək, onları görək, sonra... həm də uşağı görüm, nigaranam ondan.

– Yaxşı, nə deyirəm, – deyə üzünü oğluna tutdu:

– Sür...

Elçin də, atası da, sən demə, həmin hərbi hissədə çox olublarmış, əlüstü gedib çatdılar. Ötkəm həməncə hiss elədi ki, onlar Sahil Əhmədovun xidmət müddəti ərzində oraya çox gedib-gəliblər, əsgəri çox ziyarət ediblər. Yollara yaxşı bələddirlər.

Hərbi hissə elə darvazasından bilinirdi ki, bura səliqəli, sahmanlı bir yerdi. İçəri daxil oldular. Həyətin sağ tərəfdə dörd yana xırda pəncərələri olan gözətçi köşkündən iki əsgər dərhal onların qabağını kəsdi:

– Sizə kim lazımdır?

Elçin kiminsə adını çəkdi. Əsgər tez harasa zəng etdi. Heç beş dəqiqə keçməmiş, kapitan rütbəsində olan bir zabit özünü çatdırdı. Elçinin atası Altay

müəllim onlara yaxınlaşanda Ötkəm gördü ki, onun hər iki ayağı şikəstdir, indi ona aydın oldu ki, bayaq şəhərin girəcəyində Ətiqə xanım onun maşından yerə enməsinə niyə razı olmamışdı.

Komandir həm Elçini, həm də Altay müəllimi yaxşı tanıyırmış. Hamı ilə hörmət və etiramla salamlaşıb görüşdü. Altay müəllim (təbii ki, rus dilində) Ətiqə xanımla komandiri tanış etdi:

– Əhmədovun anasıdır.

Zabit gülümsündü:

– “Krıla”nı gətirmisiniz?

– Əlbəttə.

– Nə yaxşı. Gəlin!

Ötkəm gördü ki, daha dayanmaq vaxtı deyil, cəld gedib maşındakı bürüncəkli maşın qanadını götürüb gəldi. Zabitlə Ötkəm bir-birinin arxasınca hərbi hissənin həyətinə girdilər. Altay müəllimlə Ətiqə xanım və Elçin hissənin gözətçi köşkünün yanında gözləməli oldular. Ötkəm yol boyu gedə-gedə hərbi hissənin həyətinə heyranlıqla baxırdı. O tay, bu tay həmişəyaşıl ağacların əhatəsində idi, bəzəkli daşlardan döşənmiş yolda nəinki kiçik bir tullantı, heç bir tilişkə belə gözə dəymirdi.

Adamlar üçün nəzərdə tutulmuş cığırın sol və sağ tərəfləri müxtəlif rəngli qızılgül kolları ilə dolu idi – ağ, qırmızı, narıncı, sarı... Artıq qış ayı olmasına baxmayaraq, güllər topa-topa idi, işıqların altında rəng verib, rəng alırdılar... Bir az uzaqda isə idman meydançası, üstünə “klub”, “mağaza”, hətta “kitabxana” sözləri yazılan tikililər gözə dəyirdi. Gecə olduğuna görə, hər tərəfdə sakitlik hökm sürürdü.

Ötkəmin yadına düz iki ilini zəhərə döndərmiş Türkmənistandakı Kazancıq rayonu, oradakı o mazarat hərbi hissə düşdü; paxıllıq yox, dərin qibtə hissi ilə düşündü ki, mənim vətənimdə xidmət edən əsgərlərin şəraitinə bax, mənim olduğum hərbi hissənin güzəranını göz önünə gətir!

– Çatdıq. Qoy onu bura. Gedə bilərsən, – dedi zabit.

“Gör nə amiranə, hökmlə danışır... – öyrənib axı... komanda ahəngində göstəriş verməyə.” – Ötkəm incik halda düşündü.

Mavi rəngli “ Qaz-31” – “Volqa” avtomobili öndə – içində Altay müəllim, Ətiqə xanım, arxada isə Ötkəm öz maşınında gəlib bir evə çatdılar.

Elçin öz maşınlarını qaraja salıb, Ötkəmə də saxlamaq üçün münasib yer göstərdi. Altay müəllim də, oğlu Elçin də, əsas qonağı – Ətiqə xanımı xususi mehribanlıqla müşayiət edə-edə evə aparır, “sürücü” Ötkəm isə onların dalınca, bayaqki kimi “öz axarı” ilə gəlirdi.

Ev sahibəsi – Altay müəllimin arvadı (yəqin ki, arvadı idi) dolu bədənli, bir az qarabəniz, orta boylu, üzügülər bir xanım... çöhrəsində elə bir ılıq təbəssüm, elə cəzbedici ifadələr gəzirdi ki... Sevinc və qonaqpərvərlik qığılcımları o qədər təbii və isti idi ki, Ötkəm: “– Həyatımda belə saf və insanlıq cövhəri – mehribanlığı üzdə olan gözəl insan görməmişəm”, – deyə təəccüb edirdi. Əsl Gəncə qonaqpərvərliyinin arxetiplərini görürdü onlarda. Gecədən xeyli keçməsinə baxmayaraq, xanımın üz- gözündə bir zərrə də inciklik və yuxusuzluq əlaməti hiss olunmurdu.

Böyük bir zal... hündür tavan... çox nəhəng bir çilçırağın altında, dünyanın hər cürə nemətləri ilə dolu geniş və zəngin süfrə... löyün-löyün yeməklər, cürbəcür salatlar... neçə çeşiddə plov, rəngli, müxtəlif biçimli şuşələrdə xarici sular... Ötkəmin heç yerdə, heç vaxt görmədiyi konyaklar, araq, şərab şüşələri düzüm-düzüm... irili, xırdalı... Gecikmiş şam yeməyindən sonra Elçin Ötkəmi

“öz otağına" apardı. Ona ancaq həmin otağa məxsus olan əlüzyuyulan yeri və hamam otağını göstərdi. Ötkəmin bir də yadında qalan o idi ki, nəinki otaqlarda, hətta dəhlizlərdə belə, yeriyərkən ayaqları rəngli xalçaların içində batırdı. Otaqların sayı-hesabını da unutmuşdu.

– Burada yatacaqsınız, bu da sizin paltar dolabınız... – dedi Elçin.

Yataq otağındakı mizin üstündə də yenə hər cürə şirniyyat, çeşidli sular, mer-meyvə – vaz dolusu... Həyatı boyu görmədiyi dəm-dəsgah içinə düşsə də, heç nə Ötkəmin gözündə deyildi, bircə onun fərqində idi ki, sabah özünü işə çatdırıb, xalxın maşınını sağ-salamat yiyəsinə qaytarsın. Gecənin hansı vaxtı idi, bilmirdi, durub hamam otağına keçdi, divarda hündürdə, öz asılqanında dim-dik durub adama şəstlə buynuz göstərən hamam ciləyinə nəzər saldı, – heyif ki, yeri deyil, öz evimizdə olsaydı, bu çiləyin iti, isti şırnağı ilə nə bədənimi iynələyərdim, – deyə təəssüflə düşündü. Ötkəm çox sonralar bildi ki, Altay Zahidov həm tanınmış alim, həm də Həsən bəy Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun prorektoru imiş...

Səhərə qədər narahat, səksəkəli yatan Ötkəm adəti üzrə tezdən oyandı, nigaranlıq içində idi; əvvəla, maşının sahibi – dostu, qohumu Əbülfəz, yəqin ki, səhərə kimi yatmayıb, axı həmin günün axşamı, o, maşını qaytarmalı idi, həm də indi bu saatlarda artıq o özü də işdə olmalıydı. O vaxtlar da hər adamın evində telefon olmurdu axı, yoxsa elə buradaca, Altay müəllimin evindən zəng eləyib həm Əbülfəzi, həm də öz evlərindəkiləri – ata, anasını da nigaranlıqdan qurtarardı.

Səhər süfrəsi açılmışdı. Yenə də həmin təmtəraqla, zənginliklə... Gəncə qaymağı (elə o vaxt da adnan idi!), hər cürə pendir, nehrə yağı, beçə balı, yumurta, soyutma toyuq...

Ev sahibəsi yenə də dünən gecədəki kimi şən, şux, gülərüz, şirin, xoş təbəssümü... Üz-gözündə bir zərrə də yuxusuzluq, yorğunluq əlaməti görünmürdü, elə bir ucdan da hey daşıyırdı... Müxtəlif şirniyyatlar – şokolad, kofe, kakao, rəngbərəng konfetlər, şəkərbura, paxlava, cürbəcür görünüşdə dilimlənmiş lumu...

Hətta Ötkəmin, az qalırdı, bu basırıqdan, tünlükdən ürəyi sıxılsın: “Allah, bu nə dəsgahdı, bircə buradan çıxaydıq”, – deyə ürəyində hətta and-aman da edirdi.

Əvvəlki mehribanlıqla sağollaşıb yola düşdülər, Elçin onları şəhərdən çıxana kimi müşayiət etdi.

* * *

Ətiqə xanımın əhvalı, ovqatı bir az düzəlmiş, eyni açılmışdı elə bil.

– Gəlin bu dəfə dağ yolları ilə gedək, oranın təbiəti gözəldi...

Ötkəmin təklifinə etiraz etmədi:

– Olar. Daha tələsmirəm, hara ilə istəyirsiniz, ora ilə sürün.

Səhər günəşinin şəfəqləri aləmi bürümüşdü, elə bil ətrafda nə vardısa, hamısı təzədən doğulurdu... Yol boyu boy-boya dayanmış qatar-qatar çinarlar başı müşəmbə papaqlı, uca boylu kişilər kimi əzəmətlə harasa boylanırdılar, başlarının üstündə səhərin buxarı dövrə vura-vura hərlənirdi. Yollar nəmli və islaq kimi görünür, ona görə də işıldayırdı.

Yol göstəricilərindən biri onların Göyçay rayonunun ərazisinə daxil olduqlarının xəbərini verirdi. Uzaqda çox nəhəng bir ağac görünməkdə idi, çox nəhəng! Ətrafında müxtəlif markalı avtobuslar, balaca minik maşınları dövrə

vurub dayanmışdılar. Belə nataraz ağaca Ötkəm heç vaxt, heç yerdə rast gəlməmişdi, heyrətlə:

– Bu ağaca baxın ey...

– Doğrudan, bu nə boyda ağacdır!

Ötkəm: – Azı iki yüz yaşı olar bu ağacın, baxın, özü də əsl çinar budur ha... Bəzi yerlərdə adamlar əbrüşüm ağacı ilə çinar ağacını qarışdırırlar. Əbrüşüm də çinar fəsiləsindəndir, yəni onun cır nəsli sayılır, – istədi desin tərcümələrdən doğub gələn haram, bic kəlmə kimi, ancaq demədi. – Amma bu əsl çinardır, əsl... Ağaclar dünyasının padşahına – əsilzadə çinara Göyçayda rast gəldik, – Rəsul Rza yada düşdü.

– Bura artıq Göyçaydır? – Hə... belə deyin... Rəsul müəllimin bu çinarlar haqqında çoxlu, mükəmməl şeirləri var...

– “Belə məğrur dayanmağa haqlıyam,
Mən kökümlə bu torpağa bağlıyam" – deyir!

– Doğrudan da Rəsul Rza torpağına, xalqına bağlı sənətkardır, böyük şəxsiyyətdir.

– Həm də bu çinarlara elə vurğun sairdi ki... Gözləri də elə bil bu çinarların qoşa, ekiz yarpaqlarıdır.

Ətiqə xanım gülümsəyən kimi oldu:

– Amma indi bir az xəstədir, şəkər sıxır onu...

– Həm də, təkcə şəkər yox... Bir məşhur seiri var onun, yazır ki: “Sıxdılar məni... maddələrlə, sözlərlə, – Dedilər sığallı dillə yaz, yağlı dillə yaz...”

Ətiqə xanım Ötkəmi indicə görürmüş kimi, onu diqqətlə, həm də bir qədər sirli nəzərlərlə süzdü, amma heç nə demədi.

Araya bir qədər səssizlik çöksə də, Ətiqə xanımın üzü, çöhrəsi getdikcə təbəssümlə isinir, bayaqkı tutqun ovqatı acılırdı. Elə bil bu çinarın nəhəngliyinə, gözəlliyinə tamaşa etmək onu bir az yumşaltmışdı.

Nədənsə, Ötkəmə elə gəlirdi.

O, bayaq xanımın güzgüdə seyr etdiyi irreal əksi ilə gerçəkdə gördüyü simasında böyük fərqi hiss etdi, onu qaşqabaqlı, insafsız sandığı üçün özü özünü qınadı, birdən elə bildi ki, xanım onun fikirlərini hiss edir, duyur, oxuyur, – sanki Ötkəmin düşüncələri muncuq-muncuq tər kimi onun üzünə çıxmış, alnında xətt-xətt olub sətirlənmişdi. Bu görüntülərin ağırlığından yayınmaq üçün dedi:

– Görəsən, bu çinarlar Göyçaydan Gəncəyə gedib, yoxsa Gəncədən Göyçaya gətirilib? Axı, el arasında “Göyçayın çinarları”, "Gəncənin qapıları” ifadələri çox gəzir, dolanır...

– Siz necə düşünürsünüz bu barədə bəs?

– Mənə elə gəlir ki, Göyçayın bu ağacları iri-iri, çinar-çinar addımları ilə gediblər, elə bil ki, Gəncənin qapılarını döyüblər – Məmmədxanovlar gənc Rəsul üçün növcavan Nigara elçi düşüblər... Nə olsun ki, o qapıları bir vaxt qənimət kimi harasa aparıblar, gedən quru qapılardı, ruhu həmişə Gəncənin girəcəyində, həndəvərində dolanır o qapıların... Rəsulla Nigarın sevgisində bu çinarlarla o qapıların ruhu çoxdan cılğalaşıblar!

Ətiqə xanımın qırışığı əməlli-başlı açılmışdı. Gəncəyə gedəndə yoldakı o “daş”la indiki bu xanım arasında çox böyük fərq vardı, gözlərində işıq damcıları cilvələnirdi, baxışları fəallaşmışdı, nəzərləri hansısa ılıq, naməlum duyğularla limhəlim dolmuşdu... Qəm, qüssə suluğu yırtılmışdı əməlli-başlı.

– Hə, burada çay içməyə dəyər... – bu artıq xanımın təklifi idi.

Payızın da öz gülləri var, bahar çiçəklərindən fərqli olaraq, amma nədənsə həmişə kədərli, qüssəli, bir az da soyuq görünüşlü olur payız gülləri...

"Ulduz patı" adlı bu gülün, qəribədir ki, rənglərini ayırmaq olmur. "Zinya" gülünün isə rəngi dörd tərəfə bərq vurur – çəhrayı, qırmızı, sarı, bənövşəyi, boyu da yarım metr uzunluğunda. – Ötkəm burada payızın xəlvətliyində "Portağal nərgizi" görüb Ətiqə xanıma tərəf çöndü:

– Xahiş edirəm, buna baxın bir, qəribə də adı var "Portağal nərgizi", portağal sözü hara, nərgiz sözü hara? Görün nə qədər qol-budaqları var, boyu da azı qırx santimetr olar, elə deyilmi? Baxın, özü də əl dəyən kimi, o da öz "buynuzlarını" göstərdi – iti, kəskin qoxusunu buraxdı, – yəni mənim də öz gücüm var, ya da bizi qorxutdu ki, güllərimə dəyməyin...

– Siz nə yaxşı tanıyırsınız bu gülləri...

– İnanın ki, yaz, bahar güllərinin heç birini tanımıram, heç birinin üzünə də baxmıram, amma payız gülləri elə bil arxasız, simsarsız adamlara bənzəyirlər, həm də bəzilərinin duruşunda, sakitliyində qüssəli bir tənhalıq hiss olunur. Ona görə də mən onların tərəfindəyəm. Amma bununla belə... onlar həm də tamam başqa gözəllikdə olurlar, – həmişə elə bil fikirli, ümidsiz görünürlər, ona görə meylim onlara tərəfdir mənim. Həm də, elə bil ki, bəzi nəsnələrin üzündə, sanki bir sevimli məhzun dostumun simasında payız çiçəyinin obrazını, surətini görürəm, üstündə də uzaq, soyuq, sakit Ay işığının bir qərib teli...

Baxın, baxın... bu isə "Quzuotu" adlanır, nədənsə onu heç bir qoyun-quzu yemir, amma onu da deyim sizə, ümumiyyətlə, qoyun-quzu heç bir gülə-çiçəyə ağız uzatmırlar... amma tapdayıb əzir, üstündən keçirlər!

– Qəribədi, görəsən, niyə ətirli, şirin gül-çiçəyi yemirlər?

– Vallah, mən də bilmirəm. Onu bilirəm ki, heyvan xislətlilər hələ-hələ duya bilməz gül-çiçəyin qoxusunu, dadını. Onlar üçün tapdamaq, əzmək daha yeydir! – istər gül-çiçək olsun, istərsə də...

Lap yaxınlıqda kolun altından qəfil "pırr " eləyib uçan bir quş Ötkəmin sözünü ağzında qoydu.

– Nə quş idi ki ? – deyə o, Ötkəmə maraq və təəccüb içində baxdı.

– Torağay quşu idi, onlar adətən bu vaxtlar yeyib doyandan sonra kolluqlarda gizlənirlər; görünür, hardasa yaxınlıqda xırman yeri var, orada tarçığını götürüb, yeyib doyub... indi kolluqda dincəlirmiş. Sonra Ötkəm başqa bir gül haqqında söhbətini davam etdirdi:

– Ətiqə xanım, görürsünüz də... bunun sıx-sıx salxımlarını, elə bil üzümdür, – o, salxımın birini dərib iylədi, – əsl bal ətri gəlir... Alın, siz də qoxulayın, "Quzuotu"nun salxımını xanıma tərəf tutdu.

Ətiqə xanım maraq və heyranlıqla salxımı qoxuladı:

– Təbiət necə də sirli-soraqlı, əsrarəngizdir, heyif ki, biz onu az öyrənir, az tanıyırıq hələ ki...

– Qədrini də az bilirik nədənsə...

Ətiqə xanım gülümsəyirdi... Güllərin bəzilərini yığır, dəstələyir, cavan bir qız uşağı kəpənəklərlə oynayan kimi, çiçəklərlə əylənirdi. Yəqin, elə bilirdi ki, o, tək-tənhadır burada... Əyilirdi, dururdu, hərdən otların arasına düşən xırda gül ləçəklərini qaldırır, donunun darlığının, qısalığının fərqinə belə varmırdı... Bu sakitlik, kimsəsizlik içində üzünə qonan isti, ilıq təbəssüm sanki onun ilk gəncliyinin, ilk sevgisinin uzaq qütblərindən uçub gəlmişdi. Ötkəm: – "Bəlkə də o, elə bilir ki, mən də bu sulara qoşulub getmişəm, ya da suların aşırı performans ruhu çəkib məni özünə... Sanır ki, o, burada tamam tək-tənhadır, ona görə belə sərbəst, asudəliklə gəzir, şellənir özüyçün."

Elə Ötkəmin özü də heç vaxt, heç yerdə belə qəşəng, bəzək-düzəkli, ənlik-kirşanlı şəhərli xanımını bu qədər yaxından, həm də belə xəlvətlikdə görməmişdi, onunla təbiətin kimsəsizliyində təkbətək qalmamışdı:

– "Görəsən, niyə kənd oğlanları ənlik-kirşanlı şəhər qızlarını görəndə ürəkləri gedir... Yəqin, görməmişlikdən irəli gəlir bu? Amma bununla belə, söz düşəndə də deyirlər ki, süni gözəllik hara, təbii görünüş hara!" – düşünürdü... Bir də axı, bu Ötkəm nə vaxt görmüşdü, harda yaxından seyr eləmişdi qadın, qız gözəlliyini? Kənd orta məktəbi, Türkmənistan əsgərliyi, – ora da çadralı qadınlar ölkəsi, sonra da üzümçülük sovxozunun bürüncəkli fəhlə qadınları, qızları...

Nə vaxtsa ağlına gələn bir fikrin üzərində öz köhnə gümanlarını və yəqinlərini indi bir daha dürüstləşdirdi: doğrudanmı qadının, qızın yaşlısı, cavanı olmur, gözəli, istiqanlısı olur, bir də qılıqsızı, təbsizi... Necə ki, bəzi qadınlar üçün də kişinin yaşı, yəni – qocası, cavanı, yaxud da yaraşıqlısı, eybəcəri önəmli sayılmır, pullusu, pulsuzu əsas götürülür, – bunlar Rövşən adlı bir dostunun "yaradıcılığı" idi.

Maşına tərəf qayıdanda Ətiqə xanım qabağa düşdü, amma gərək Ötkəm irəlidə gedəydi, eşitmişdi ki, ancaq meşədə kişi xanımdan öndə irəliləməlidir, başqa çağlarda xanım həmişə öndə getməlidir. O, arxadan Ətiqə xanımın ayaqlarına fikir verdi: "Bunun yaxşı ayaqları varmış ki... – düşündü, – özü də, bu yaşında." Sonra da əsgərlikdə olanda, qızlar və cavan qadınlar haqqında söhbətlər gedəndə eynəkli, cılız vücudlu Pak familiyalı (sonralar bilmişdi ki, o, Daşkənddən əsgərliyə çağırılsa da, koreyalı imiş) bir əsgərin centlmenlik konspiroloji düşüncə çaları ilə yan-yana qoyub seksual motivlər əsasında dediyi qəribə sözlərini xatırladı: "Mindən bir qadının həm üz gözəlliyi, həm də yaraşıqlı bədən quruluşu bir-birini tamamlayır, həmişə belə olub, – yəni üzdən gözəldirsə, yüzdə yüz faiz əmin ola bilərsən, ayaqları, bədən quruluşu namünasib olmalıdır, yaxud da əksinə, əgər yaraşıqlı bədəni, dolu yançaqları, cəzbedici qəşəng ayaqları, boy-buxunu varsa... daha qabağına keçib üzünə baxmağa tələsmə... əmin ola bilərsən: sifətdən heç nədir – meymun, əntər."

* * *

Bakıya çatana yaxın artıq vaxt axşama doğru idi. Günəş əyilirdi, amma Ötkəm elə bilirdi ki, günorta vədələrində şəhərdə olacaqlar. Ətiqə xanım yaşadığı ev, sən demə, elə "Yurd" nəşriyyatına lap yaxın yerdə imiş, həmin tərəfə çathaçatda:

– Sizin bizdə qovluğunuz varmı? – soruşdu.

– Bəli, var, Ətiqə xanım.

– Bilmirsiniz kimdədir?

– Yox, hələ bilmirəm kimə veriblər, amma Vidadi Yusuf deyirdi ki...

– Ona çox da inanmayın, bir az dələduz, əliəyri adamdır o...

Ötkəm təəccüb etdi: "Necə? dələduz, əliəyri?"

– Bu dəfə gələrsiniz, sizi bədii ədəbiyyat şöbəsinin müdiri ilə tanış edərəm. Əsərlər onun şöbəsinin xətti ilə keçir...

– Çox sağ olun, Ətiqə xanım, sizə minnətdar olaram.

O, maşını Ətiqə xanımın yaşadığı beşmərtəbəli binanın üçüncü girəcəyinin yanında saxladı, özü necə demişdisə, elə. Tez düşüb maşının arxa qapısını açdı. Xanım endi: "Daha ötürməyə ehtiyac yoxdu", – dedi.

* * *

Rayon mərkəzinə gəlib yetişəndə, artıq qaş qaralmışdı. Maşını birbaşa "Cümə məscidi" adlanan məhlədəki Əbülfəzgilin qapılarına sürdü. Sürdü deyəndə ki, maşın özü elə bil yolu tanıyan vəfalı köhlən kimi öz-özünə gedib həmin qapının ağzında dayandı. Alınandan indiyə kimi öz "cızığından" – ərazisindən qırağa çıxmayan maşın da elə bil bu qapı üçün darıxmışdı. Elə birinci "kişnərtisinə" – ilk siqnalına Əbulfəz bayıra atıldı, yazıq elə bil dünəndən qapının arxasında müntəzir dayanıbmış.

– Salamatlıqdır? Harda qalmışdın, ay qardaş, nigaranlıqdan batdıq, qırıldıq ki...

– Allaha şükür, hər şey yaxşıdır, amma bağışla ki, dediyim vaxtda gələ bilmədim.

– Nə olmuşdu ki? Bir hadisə-zad olmamışdı ki?

– Yox, xeyir idi, Allaha şükür, bir vacib adamla Gəncəyə getmişdik.

– Haraaa? Gəncəyə? – Əbülfəzin gözləri kəlləsinə çıxdı, elə bil dili topuq çaldı: – Nəə məsələə idi ki..?

– Yaxsılıq idi, bir lazımlı, vəzifəli adamın işi ilə əlaqədar getmişdim.

– Hə, yaxşı, indi get dincəl, yat. Sabah işdə geniş danışarıq. Maşın cəhənnəm, qorxurdum ki, bir hadisə olub...

– Yox, nə danışırsan, Allah eləməsin, hər şey yaxşıdır. Məni işdə soruşan, axtaran olmayıb?

– Yox, narahat olma, içəridə, maşının salonundakı kiçik yük yerində dəstərxanın arasında fətir, yuxa, pendir, gilə yumurta var idi, xarab olmayıb görəsən?

– Heç xəbərim olmayıb onlardan, indi özün baxarsan. Əbülfəz incəvara zıqqıçı adam deyildi, çox da dərinə getmədi, açıb-ağartmadı. Əsas o idi ki, hər şey salamatlıqla başa çatmışdı.

Sovxozda işlər əvvəlki ahəngində idi, quru budama başa çatmışdı. Tənəklər arıtlanmış, budanmış, qıpqırmızı, məhsuldar çubuqlar məftillərə bağlanırdı, bu işin də adına quru bağlama deyirdilər. Sahələr, üzüm bağları göz oxşayırdı. Hamı danışırdı ki, mövsüm yaxşı gəlib, bu il üzüm ilidir, məhsul bol olacaq. Elə gözlənilən, deyilən kimi də oldu. Qorabişən ay – avqust da başa çatdı, heç bir azar-bezardan əsər-əlamət belə olmadı, bağlara nə bir bəd nəzər, nə də bir zaval ilişgisi dəymədi. Allah eləməmiş, hər hansı bir xəstəlik-filan olsaydı, giləqurdu və ya bir başqa ziyanverici həşəratlar üzə çıxsaydı, Ötkəmin kələyini kəsərdilər. Çünki aqronom-entimoloq kimi bu işlərə nəzarət, əsasən onun üzərinə qoyulmuşdu. Plan da, öhdəliklər də ikiqat yerinə yetirildi. Hamının üzü gülürdü, əlləri sevinirdi. Yüksək pul mükafatları verildi. Ötkəm, ona düşən bu mükafatdan özünə işlənmiş də olsa, bir "Jiquli" maşını ala bildi. Sürücülük vəsiqəsini o, cibində çoxdan hərləyirdi, "sürürdü".

Amma məhsul yığımının qızğın çağında baş aqronom – "İrasim müəllim" üzüm oğurluğu faktı ilə tutuldu, sonra da vəzifəsindən qovuldu. Rayondan çıxmalı oldu.

* * *

...Aylar keçirdi. Ötkəm düşünürdü ki, artıq bir ilini yola salıb, daha bir ildən sonra, iki illik iş staji və müsbət xasiyyətnamə ilə hər hansı universitetə qəbul olmaq üçün sənədlərini verə biləcəkdir.

Məhsul yığımı mövsümü bitdiyi üçün, artıq bağlarda sakitlik idi, bir azdan yeni iş kampaniyası başlayacaqdı. Ötkəm hər gün işdən sonra ya evdə, ya da

M.Ə.Sabir adına rayon mərkəzi kitabxanasında mütaliə ilə məşğul olur, görməmişliklə kitablar dəryasında "qəvvaslıq" edirdi. Mart ayı yaxınlaşırdı, birdən ağlına gəldi ki, həm ziyarət, həm ticarət, qadınlar bayramını bəhanə edərək "Yurd" nəşriyyatına baş çəksin, "şef" direktoru – xanımı 8 mart Qadınlar bayramı münasibətilə təbrik etsin, həm də təzə yazılarını qovluğuna əlavə eləsin. Xatirində idi ki, o zaman – Gəncədən qayıdanda yeni yazılarla bağlı aralarında belə bir söhbət olmuşdu:

– Ətiqə xanım, bu Altay müəllimin ailəsi, yoldaşı da, uşaqları da qeyri-adi, gözəl insanlar imiş, yaman əziyyət verdik onlara...

– Altay müəllim həm də dəyərli ziyalımızdır. Bütün Gəncə onun hörmətini, izzətini uca tutur, özünüz də şahid oldunuz onların insanlığına...

– Əlbəttə, mən hələ ömrümdə elə qonaqpərvərlik, həm də elə ev-eşik, elə süfrə görməmişdim.

– Mən biləni, gələn mart ayında onun ad günü olmalıdır, 50 illiyi, yubiley ili... Bakıda keçirdəcək yəqin ki. Bizimlə əlaqə saxlasanız, vaxtını deyərəm, iştirak eləmək fikriniz olsa, siz də gələrsiniz.

– Mütləq gələrəm, inşallah, çox şad olaram, – dedi.

* * *

Həmin vaxtın, zamanın öncələri idi, yəni mart ayının 5, ya 6-sı olardı. Ötkəm deyir ki, dəqiq yadımda deyil, gəlib rayon mərkəzindəki telefon danışıq məntəqəsindən nəşriyyata – Vidadi Yusufin iş otağına zəng elədi:

– Vidadi müəllim, salam, mənəm, Ötkəmdi, – rayondan danışıram.

– Ay kişi, sən elə o gedən oldun ki... Bir gəlib demədin ki, necə getdiniz, necə qayıtdınız...

– Hə, düz deyirsən. Elə o axşam, Gəncədən gələn günü gecəynən rayona döndüm, bir macal eləmədim ki, səni görüm. Evdə də nigaran qalmışdılar məndən... Ona görə çox ləngimədim şəhərdə...

– Nə isə...

– Bilmirsən, Altay Zahidovun 50 illiyi nə vaxt olacaq? Sizin "şef" deyirdi Bakıda qeyd edəcəklər, mən də gəlmək istəyirdim.

– Eşitmişəm ki, martın 8-də olacaq... Bakıda.

– Yaxşı, onda tədbirdə görüşərik, həm də ətraflı söhbət edərik orada.

Səhər tezdən, birinci xoruz banında kolxoz bazarına çıxdı. Şüşə bərnilərdə zirinc satırdılar – içi qıpqırmızı, yumru-yumru, xırda soğanla dolu (yerli əhali ona "ziriş" deyir). Alıb qoydu maşının ehtiyatlı bir yerinə. Bıçaq batmaz padar qatığı, qaymağı, Avaxıl kəndinin balı, Pirquli qoruğunun mer-meyvəsi, yonulmuş- təmizlənmiş Qaleybuğurt kəndinin çolpalarını səliqə ilə maşının arxa yük yerindəki qutulara yerləşdirdi.

– Qaldı Vidadi müəllimin turş çaxırı. Əvvəl istədi getsin öz sovxozlarının baş şərabçısı İnqilab müəllimin yanına (yaxşı kişi idi, dost idilər), oradan götürsün şərabı, sonra fikirləşdi ki, niyə minnət çəkirəm, həm də zavoddan çıxanda görüb-eləyən olar, yaxşı düşməz. Mədrəsə kəndində elə şərablar satırlar ki, doşab kimi, özü də su qiymətinə. Dostu Xudaverdini də qoşub özünə, üz tutdu kəndə. Yolda çox mənzərəli bir yer diqqətlərini cəlb elədi. Başdan-başa iri-iri, sıx-sıx ağaclarla əhatə olunmuş bir guşə... Girəcəyində də, eləcə özünə yaraşan adı yazılmışdı – "Çinarlı".

– Kim fikirləşib qoyubsa bu adı, ona "afərin", dünyasını dəyişibsə, "rəhmət" düşür. Yoxsa indi hər tərəfi gic-gic adlar alıb ağzına, hamısı da xarici, heç kəsin

başa düşmədiyi yabançı adlar. Gül kimi doğma, halal adlarımız indi qalıb ögey uşaq kimi bir qıraqda.

– Vallah, düz deyirsən, ay Ötkəm, necə ki, yerli aşığın, sənətkarın öz elində, obasında o qədər də çəkimi, tutumu olmur... Görmürsən toy öncəsi hamı istəyir ki, gedib başqa, uzaq tərəflərin aşığını, müğənnisini gətirtsin, bu da elə həmin şeyə oxşayır... Yad obaların, yabançı ellərin qızı da şirin olur, deyə gülümsündü Xudaverdi. Qədim kitablarda da var, belə bir söz, özüm oxumuşam: “Rum övrətinin götü tatlı olur” deyə, təzədən biç-biç bərkdən güldü. Bu “Çinarlı" adının özünün, həm də bu yerin cazibəsinə qarışıq qərara aldılar ki, qayıdanda burada bir samovar çayı içərlər.

Getdikləri Mədrəsə kəndi və bu kəndin hər tərəfini bürüyən bağlardakı tənəklərin növü məşhur şərabın adını daşıyırdı – “Mədrəsə”. Sözün kökü, mənşəyi, məktəb, mədrəsə adından, mənasından, çağırışından götürülmüşdu. Amma indi həmin kənddə eyzən ermənilər yaşayırdı, həm də bu binəvalar elə bilirdilər ki, bu kəndin adı erməni kökənli sözdür.

Yol boyu söhbətləri gəlib-gəlib bu yerlərin dağ-dərəsini, el-tayfasını kənd-kənd, oba-oba gəzdi, dolandı. Gördülər ki, ən səfalı kəndlərdə – Çuxuryurdda (elə öz çuxurumuz, öz yurdumuz, onun adını dəyişə bilməyiblər), Kirovkada (əvvəlki tarixi adı Nağaraxana), Astraxanovkada (onun də əski adı Qızmeydanı) malakanlar (dini əqidəsinə görə Rusiyadan sürgün edilən ruslar), Meysəridə ("mey" sözünü yada salın), Saqiyanda ( "saqi" sözü "alış", "yan" kəlmələri), Qalaxanada (Alban qalaları olan yer), Kərkəncdə və Şirvanzadə kəndində ( “Namus” romanının müəllifi erməni yazıçısı Aleksandr Şirvanzadənin xatirəsinə adlandırılıb, “Şirvan” sözü) kəndlərində isə ancaq ermənilər yaşayırlar. Həmin kəndlərin saf ab-havası, zəngin təbiəti, ölçüyəgəlməz bərəkətli torpaqları, bol su arxları, şır-şır bulaqları adnan idi. Amma yerli əhali, yəni azərbaycanlılar isə ilan-çayan mələyən kəndlərdə məskunlaşmışdılar. Elə yerlərdə ki, nə bir abad yolu, nə təmiz suyu, nə də əkin-biçin üçün tam yararlı, əlverişli torpaqları vardı. Yerli əhalinin, əsasən, qərar tutub bağlandığı yerlər Hacıqədirli, Şıxzərli, Sündi, Nabur, Təklə, Cır-Təklə, Təklə-Mirzəbaba, Çarhan, Göylər, Çəyirli, Bağırlı, Kolanı, Poladlı, Quşçu və onlarla belə urvatsız tərəflərdə yerləşən kəndlərimiz var ki, orada yayda çöl-bayır, dərə-dağ susuzluqdan cəhənnəm qoxuyur. Bunun da səbəbi hamıya məlum olan bir mənbədən qaynaqlanmışdı. Bəli, siyasi düşməni çox olan azərbaycanlıların hədsiz qonaqpərvərliyi həmişə kəllə-çarxa vururdu. Hələ də heç kəsə məlum deyildi ki, bu bölgünü kim, nə vaxt aparıb, necə olub ki, ən bərbad kəndlər yerli adamlara, ən səfalı yerlər isə gəlmələrə – ermənilərə, malakanlara düşüb... Bu haqsız ayrı-seçkiliyin yol göstərəni, ideya verəni kimlər olub, hələ də heç kimə məlum deyildi.

Acınacaqlı hal həm də bu idi ki, hər 5-7 ildən bir dəyişən rayon rəhbərləri də bir-birinin ağzına tüpürmüş kimi, heç biri azərbaycanlılar yaşayan kəndələrin ən kiçik, ən adi probleminə belə gözünün ucuyla da nəzər salmır, heç bir abadlıq məsələlərinə – nə yol, nə su, nə məktəb, nə klub, nə kitabxana, heç bir mədəni-məişət məsələlərinə fikir vermirdilər. Hamısının fikri, diqqəti ancaq yuxarıdan göstərilən plan və öhdəliklərin vaxtında və artıqlaması ilə yerinə yetirilməsi ilə bağlı olurdu.

Kəndə çathaçatda maşını əyləyib qoyun-quzu otaran bir balaca uşaqdan soruşdular:

– Burada kimdə yaxşı çaxır olar?

– Elə hamısında. Hansı qapını döysəniz...

Rastlarına çıxan ilk göy rəngli dəmir darvazaya yaxınlaşdılar.Üstü günlüklü həyət darvazasının cəftəsi açıq idi. Əvvəl çəkinə-çəkinə qapını döydülər, içəri keçmədilər ki, birdən it olar həyətdə. Sonra gördülər sakitlikdi. Xudaverdi ucadan:

– Ay ev yiyəsi, Ay ev yiyəsi, – deyə bir-iki ağız çağırdı.

Çox keçmədi ki, içəridən qarabuğdayı, orta boylu, qara gözlü, ərlik yaşlarında olan bir qız çıxdı. Ev paltarında, qısa donda idi, duruşunda da işvə-naz... Bizimkilərdən fərqli, qaşqabaq töküb soruşmadı ki, kimsiniz, sizə nə lazımdır?

Salamlaşdılar.

– Çaxır almağa gəlmişik.

Gülə-gülə: – Bildim. Oturun orada, – evin qabağındakı üstü örtülü söhbətlik yerini göstərdi. Taxtadan düzəldilib, bir-birinə mismarlanmış masanın ətrafina taxta kətillər bərkidilmişdi. Geniş, abad həyətin sağ tərəfində tənəklər cərgə-cərgə düzümlənmiş, beton dirəklərə bağlanan tellərə sarmaşmışdı. Sol tərəfdə isə növbənöv meyvə ağacları boy-boya dayanmışdı, barı-bəhəri də üstündə pıtraq kimi... Lap o başda isə mişar daşlarından tikilmiş (sökülən Bayat kəndindəki kimi bəlimli-samanlı palçıq kərpiclərdən yox!) mal pəyəsi, qoyun-quzu tövləsinin üstündə də yekə bir ot tayası ucalırdı. Toyuq-cücə, hinduşkalar səs-səsə vermişdi.

Aradan çox vaxt keçmədi, bir də gördülər ki, bayaqkı qız gəlir. Ədalı, adam yıxan tırıqqa ilə... Yenə gözləri ulduz-ulduz yanır, çöhrəsi də nur içində. Əlində iri, gümüşü sini... üstündə də şərab dolu qrafin, qulplu fincanlar, yanında yuyulmuş açıq göy soğan dəstələri, pendir, çörək, quru, dilimlənmiş şor balıq...

– Gəlin, dequstasiya edin, sonra...

Xudaverdinin gözlərinə işıq gəldi. Ötkəm:

– Bu nə dəm-dəsgahdır, – narazı halda deyindi.

Xudaverdi artıq şərabı süzürdü:

– Çaxır satılan bütün evlərdə adət belədi, əvvəl dadına baxdırırlar, sonra... Gəl, bir görək Bakıya aparacağın çaxır nətəhərdi, birdən bakılıların xoşuna gəlməz, onların yanında biabır olarsan.

Bir... iki... üç...dörd...

Bir də gördülər ki, iş-işdən keçib. Üçüncü dəfədir qrafin dolub-boşalır. Daha heç birisinin durub getməyə həvəsləri qalmamışdı.

– Salaməleyküm!

Orta yaşlı bir kişi gəlib oturdu onların yanında:

– Mən bu evin xozeyniyəm, adım Surendi.

– Mən Xudaverdi, bu da dostum Ötkəmdi.

– Hardan gəlmisiniz, Bakıdan, yoxsa?..

– Yox, buradan, – deyə Ötkəm əlini rayon mərkəzinə tərəf uzatdı.

– Belə de da, axper!...

Qızına hay elədi, əlinin işarəsi ilə havada qrafinin şəklini çəkdi, sonra isə sağ əli ilə bir-bir laylar cızdı: yəni nəyisə doğra gətir – deyəsən, o, qonaqların nəzərində özü haqqında əməlli-başlı əliaçıq adam kodeksini yaratmaq istəyirdi. Süfrə təzələndi, qızı yenə də əvvəlki işvə-nazla gəldi. Lay-lay doğranmış kolbasa, donuz piyi, bişmiş gilə kartof, yumurta... düzüldü süfrəyə. Çaxır qrafini dolu gəlir, boş gedirdi. Fincanlar ara vermədən cingildəyirdi. Sağlıq, tost demək daha yada düşmürdü.

– Ara, necə çaxırdı, bəyəndiz? – üçillikdi ha... özüm düzəltmişəm.

– Lap əladır, Suren, – Xudaverdi çaxırı tərifləyə-tərifləyə dil boğaza doymurdu.

Suren də, görünür, yaxşı vuran adam imiş, içməyə bəhanə axtarırmış. Həm də ürəyi açılmışdı:

– Birinci qədəhi atırsan, içəridən səs gəlir ki, təkəm, – deyə, həvəslə söhbətə başladı. – İkincini göndərirsən onun yanına, deyirsən tək qalmasın, darıxmasın, həmsöhbət olsunlar. Bir az keçir... müsəlman qonşuları kimi yola getmirlər. Başlayırlar bir-birinin paxıllığını çəkməyə, bir-birini burunlamağa.

Xudaverdi tez səsini qaldırdı:

– Axper, müsəlmanlara sataşma ha, işini bitirərəm indi, baxmaram ki, evinizdəyəm, bizə də “qanlı quşçu” deyərlər...

– Yaxşı, yaxşı, özündən çıxma, zarafat elədim ara... Sizləri tanıyırıx...

Suren özünə gəlib, sözünə davam elədi:

– Üçüncü qədəhi atırsan ki, getsin onları barışdırsın, yola gətirsin, bu səfər olurlar iki bir, bir bir... spor genişlənir, dava qızışır, ikisi bir yanda, o biri bir yanda... Dördüncü qədəh özünü çatdırır ki, sizə nə olub, bu qıy-qışqırıqdır, genə də dava soyumur, bu dəfə bölünürlər iki fronta; səs-küy daha da artır, dartışma böyüyür, ikisi sağda, ikisi solda... Beşinci qədəh harayçılığa gedəndə... bir də görürlər ki, milis alıb başının üstünü: "Ayıltma məntəqəsinə!"

Gülüş sədaları həyəti başına götürmüşdü. Ötkəm bir də gördü ki, bayaqkı qız evin artırmasında durub, göz-qaş qəmzələriylə onlara baxa-baxa gülümsəyir...

O, masanın altından ehmalca ayağını Xudaverdinin dizinə toxundurdu, ciddi nəzərlərlə baxıb başı ilə işarə elədi: "Getmək vaxtıdır, özü də tez, üzüsulu!" Xudaverdi elə bil yuxudan ayıldı. Gedib maşından qoşa, bir-birinə iplə bənd edilmiş 10 litrlik plastik qabları gətirdi. Suren hər iki qabı götürüb həyətinin dalda – xəlvət yerinə tərəf yollandı. Sən demə, çaxır küpləri oradakı damda, yerin altında saxlanırmış. Hesablaşma vaxtı Ötkəm 20 manat əvəzinə, 3 dənə qırmızı onluğu mizin üstündəki qulplu fincanın altına qoydu. Kişi onluğun birini ayırıb qaytarmaq istədi. Ötkəm yaxın qoymadı. Əməlli-başlı dartışma düşdü. O pulu Ötkəmə, Ötkəm isə ona...

– Ara, qonağa yeyib-içməyi pulla verməzlər (erməni budaq cümləsi!) – dedi ev yiyəsi.

Ötkəm:

– Nə qonaq, ay Suren, əslində, siz burada qonaqsınız, bu tərəflər bizim dədə-baba yerlərimizdir.

Suren bir az tutulan kimi olsa da, bir söz tapıb cavab verə bilmədi.

Yol boyu evə çatana kimi, Xudaverdi onlara şərab daşıyan qızın ehtiraslı gözlərindən, yarıçılpaq sinəsindən, nazlı yerişindən danışdı. Ötkəm isə heç nə deməsə də, yol boyu “Əsli”nin surətini, tilsimli baxışlarını, sivri, yetkin döşlərini gözlərinin önündə dolandırırdı.

“Çinarlı” restoranında samovar çayı da yadlarına düşmədi.

***(Ardı var)***



*Zeynal VƏFA*

**HAQQIM VARMI YAŞAMAĞA**

Əgər bu dünyada varsa günahım,
Özüm balta verrəm məni çapana.
Xəlbirdən keçirib əzalarımı,
Əyrimi, düzümü qoyun qapana,
Lap astar üzümü qoyun qapana,
Görün yaşamağa haqqım varmıdır?!

Namərd balıncına baş qoymamışam,
İblis divarına daş qoymamışam,
Nə bilim, biləydim kaş, qoymamışam,
Bu da yaşam haqqım olaydı mənim.

Həqiqət möhürlü gümana dönsəm,
Ceyranı hədəfə almış ovçunun
Gözündə qatı bir dumana dönsəm;
Tanrıya xoş gəlsə bu çağım mənim,
Küçəyə atılmış körpə çağaya
İsti beşik olsa qucağım mənim,
Demək yaşamağa haqqım var hələ.

Hələ çox əzəni əzdirməmişəm,
Bəzi vəzifəli məmurlar kimi
Vətəni cibimdə gəzdirməmişəm.

Zəif bəmimi də mən zil eylədim,
Özüm mənzilsizkən vətən içində,
İçimi vətənə mənzil eylədim.
Alıb baş bakanın hərisini mən,
Bir acgöz oliqarx dərisini mən
Təpədən-dırnağa soyarı olsam,
Yurduma xor baxan namərd gözləri,
Nifrət xəncərimlə oyarı olsam,
Demək yaşamağa haqqım var hələ.

Gedirəm dünyanın oxuna tərəf,
Getmirəm mən haram toxuna tərəf.
Sıyrılıb dərdi az azlıq içindən,
Gedirəm dərdi çox çoxuna tərəf.
Hamıya gərəyəm, hamıya... bilsəm,
Sınmış bir ürəyi yamaya bilsəm,
Bir əyri bitmişi düzə çevirsəm,
Hansı bir üzdənsə maskanı yırtıb,
O üzü maskasız üzə çevirsəm,
Haram pul möhürlü villaları mən
Halal bünövrəli küzə çevirsəm;
Qeyrəti ömrümün qaş-daşı etsəm,
Qürbətdən yurduma atılan daşı
Atanın yurduna başdaşı etsəm;
Ürəyi inamla dolan vətəndaş,
Bir gün cənub, şimal, qərb torpaqları
Qayıdıb özünün olan vətəndaş
Olsam... yaşamağa haqqım var demək.
Onda... ölümüm də diriliyimdir.

**GƏLƏCƏYƏM DALINCA**

Sən adlı günəşim də
Batarıymış, batarı.
Son mənzilə apardı
Səni əcəl qatarı.

Ömrü boyu ömrümü
Ram eyləyib qorxu, ram.
Bu dünyada təkcə mən
Bölümlərdən qorxuram.

Yarımlar içindəyik,
Əsəblərim tarımdır.
Çoxu qürbətdə qalmış,
Torpağım da yarımdır,

Millətim də yarımdır.
İndisə biz... sənlə mən...

Əzrailə kim deyib,
İstədiyin ömürdən
Yarım saxla, yarım çıx.
Burda mən yarımçığam,
Ordasa sən yarımçıq.

...Hər gün işə gedəndə,
Hər gün işdən dönəndə
Məni sən yola salar,
Məni sən qarşılardın.

Sən gedəli qapımda
Özüm bir açar oldum.
Onu özüm bağlayıb,
Özüm də açar oldum.
Bu gün də özüm açdım
Yetim qalmış qapımı.
Ürək adlı iynədən
Dartaraq çıxardılar
Sanki damar sapımı.
Pəncərənin önündə
Oturmuş gördüm səni.
Bircə göz qırpımında
İçimə hördüm səni.
Yenə o solğun sifət,
Yenə o qəmli baxış.
Buludlu gözlərimdən
Yağdı şıdırğı yağış.
Quştək qol-qanad açdım,
Dərhal yanına qaçdım.
Batmış bulaqdım... qəfil,
Kükrəyərək çağladım.
Qucaqlayıb boynunu
Hönkür-hönkür ağladım.
– Niyə tərk etdin məni,
Hardaydın bu vaxtacan?
– Əlçatmaz yerdə idim,
Hər tərəfim qaranlıq...
O zülmətlər içindən
Sıyrılaraq bir anlıq
Gəldim ki, görüm sənin
Güzəranın necədir.
– Nə güzəran, nə filan,

Yuxum yuxusuz qalıb
Artıq neçə gecədir.
– Səbr elə, dözümlü ol,
Tanrı haqqı səbrdir.
– Axı necə səbr edim,
Sənsiz qalmış otaq da,
Mənim üçün qəbirdir...

...Bilirsən nə görmüşəm?
Bir quş qanad çalaraq
Dünən başının üstə,
Astaca qonar oldu
Məzar daşının üstə.
Baxdım, baxdım, tanıdım,
Hər gün bizə tuşdu o.
Qapımızın başında
Yuva qurmuş quşdu o.
Balalı vaxtı onun,
Aclığına çəpərdin.
Sən ona hər gün səhər,
Dəmir qabda su verib,
Önünə dən səpərdin.
Qəlbim heyrətlə dindi,
Həmin xeyirxahlığın
Əvəzini verməyə
Gəlmişdi bəlkə indi?..

– Xalça yaman tozlanıb!
– Elədir... bu başqa cür
Bəlkə yozula bilər.
Qorxuram təmizləsəm,
Xalçanın üstündəki
Zərif ayaq izlərin
Birdən pozula bilər.
– Niyə zəng eləmirsən?
– Mənim sənsiz ürəyim,
Tənha qalmış bəndədi.
Yer altdakı evinə
Necə zəng edim, axı,
Telefonun məndədi?
– Baxdım, divarda adi,
Bircə şəklim də yoxdu.
– Səbrimi çox basmışam,
Mən şəklini əzizim,
Beton divardan deyil,
Ürəyimdən asmışam.

Dünən oğlumuz Azər
Yenə "Ana" mahnısın
Oxudu yana-yana.
Sanki haray çəkirdi:
Niyə tərk etdin bizi,
Hardasan Ana, Ana...
Eşitdinmi əzizim,
O fəryadlı səsi sən?

Gözlərin yaşla doldu...

– Hava yaman bürküdür,
Tamam tər içindəyəm,
Mənə bir dəsmal gətir.

Dərhal qol-qanad açdım,
Qonşu otağa qaçdım...
Qayıtdım əldə dəsmal,
Heyhat... yerində yoxdun...
Çatım-çatım çatıldım,
Yuxudan dik atıldım.
Üzümdən tər axırdı...

Hicran qarası yaxma,
Mənim soy ağlığıma.
Çıx yuxumun içindən,
Qayıt oyaqlığıma,
Qayıt, qurbanın olum.

Məndən başqa de səni
Kim düşünə, kim ana?
Bir də qayıdarmısan
Mən adında limana,
Ay mənim batan gəmim?

Nə zaman ki, ömrümün
Yaşıllığı solacaq,
Bil ki, o vaxta qədər
Qəlb ölkəmin paytaxtı
Məzar yerin olacaq.

Söylə necə baş qoyum
Mən başınsız balınca?
Əcəl məni öz yaşam
Köhlənimdən salınca,

Sənsizliyi əynumə
Geyinərək qalınca,
Həsrətinlə yüklənib
Gələcəyəm dalınca.
Gələcəyəm əzizim,
Bir az da döz, bir az da...

**YAD REKLAMLAR ARASINDA**

Nə Londondur, nə Parisdir,
Nə Pomadır, nə Nyu-York,
Şəhərlərin ən bülluru,
Pakım mənim –
Azərbaycan böyüklükdə
Ürəyimin
Şah damarı Bakım mənim.

Onda niyə bilə-bilə
Sağımıza sol gedirik?
Mənaları anlaşılmaz
Reklamların bolluğunda
Yol gedirik.

Elə bil ki, ürəyimin
Yarasına köz basılıb.
Hər divarın yaxasından
Bir əcnəbi söz asılıb
Əcnəbi bir medal kimi.

Mən nə deyim
Yad reklamlı marketdəki
Vətən daşım, yurd daşıma?
Məgər onlar beş-on nəfər
Əcnəbiyə xidmət edir,
Ya on milyon yurddaşıma?

Mən istərəm öz içimdə
Özgə deyil, özüm olsun.
Yer üzündə mənə bircə
Şəhər göstər, divarında
Bircə kəlmə sözüm olsun,
Yoxdu, yoxdu belə şəhər.

Nə düşünür kökü türksüz
Bu gəlmələr?
Axı mənim dil şumumda

Bitməyəcək toxumlardır
Bu kəlmələr.

Dilim heç vaxt sığınmayıb
Yad dillərin kölgəsinə.
Bəs bu sözlər hardan girib
Dilimizin ölkəsinə?

Tanrı belə bəm möhürü
Vura bilməz zilimizə.
Heç kəs zorla öz dilini
Yamayammaz dilimizə.

Mən demirəm, qoy söyləsin,
Tanrı adlı
Başım üstə duranımız.
Dil lüğətim deyilmidir,
Bizim ilkin Quranımız?

Hər küçəni, hər dalanı
Addım-addım gəzməliyik.
Yad kəlməli reklamları
Ovcumuzda kağız kimi
Bürmələyib əzməliyik,
Atmaq üçün.

Hər kəlməmiz bir məlhəmdir
Ürəyimin yarasında.
Qoyarmıyam qanqal bitə
Qızılgüllər arasında?

*Vüsal NURU*

# *Dörd nömrəli kağız*



♦ *Hekayə*

...Qardaşım verdiyi sözə əsl kişi kimi əməl elədi; demişdi il təhvil olan gün mənə hinduşka kababı verəcək. Binamızın altındakı kafedə bişirtdirib isti-isti gətirdi, qoydu stola. Mən də bir litr "ceyran südü" gizlətmişdim, – xalamın əri həyətdəki ağ tutdan çəkmişdi. Deyirdim, elə bir gün olsun, anam evdə olmayanda, qoyum qarşıma, yavaş-yavaş dəmlənim. Onu da gətirib qoydum stola, bacım da süfrəni düzdü, qədəhləri gətirdi. Lənətə gəlmiş bu üzüqara telefon elə bizi güdürmüş. Mən heç, mənim dəstək götürməkdən zəndeyizəhləm gedir, bu işlərə həmişə bacım baxıb. Loxəbər bibim idi; dedi baban öldü. Uşaqlara denən, tez köməyə getsinlər. Ruhum elə bil sürüşüb əynimdən düşdü, çökdüm stola. Biz axı, bu günə xüsusi hazırlaşmışdıq, özü də nə həvəslə... Bu günə qədər həmişə qardaşımla sözümüz toqquşardı, bayram günü ilk dəfə üz-üzə oturub qədəh toqquşduracaqdım. Hinduşkanın kababı, dolu qədəhlər... Hirsimdən qəhərləndim!

Əlacım olsaydı, qabağına çıxıb deyərdim: Bu əziz bayram günü, göyün yerə ələndiyi bu şaxtalı vaxtda adam da yıxılıb ölərmi, ay Kəblə Məmməd? Niyə bizə yazığın gəlmədi? Nolardı, ikicə saat da canını dişinlə tutaydın, bir-iki tikə o hinduşkanın tikələrindən isti-isti göz doyunca yeyib, boğazımızı isladaydıq.

Qardaşım məndən tez durub paltosunu geyindi, şərfini boğazına doladı. O çəkmələrini geyinənə qədər tikənin birini oğurluq götürüb çeynədim. Di gəl, nə qədər elədim, udquna bilmədim, elə bil Kəblə Məmmədin o iri dəmirçi əlləri boğazımdan yapışmışdı.

Evdən çıxdıq, vallah, evdən çıxılası hava deyildi. Yaşımın bir ilini çıxsam, on altı ildə mən belə qar görməmişdim. Düz kəmərimə qədər qalxmışdı. Bir maşın da gözə dəymirdi. Düzdü, bəzi yolları birtəhər kürüyüb açmışdılar, ağ səngərin içiylə gedirdik. Elə onu fikirləşirdim ki, bu havada qarın altından torpaq tapıb, qazıb ölü basdırmaq olar? Yaxşı, torpağı da tapdın, qazdın, o boyda Kəblə Məmmədi çiyninə alıb o uzaqlıqda qəbiristanlığa sürüşə-sürüşə necə aparmaq olar? Deyirəm də, tərsin biriydi, gör nə cür havada ölüb hamını zülümə saldı. Babamı tanıyanın hamısı ona Kəblə Məmməd deyirdi, biz əmioğlanları dəyişib Kəlləmayallaq eləmişdik. Bir dəfə babam məsciddən çıxıb evə gedirdi, biz də məktəbdən qayıdırdıq, – hələ o vaxt bir həyətdə yaşayırdıq, – gördük kişi gedir. Qırmızı kərpicli divarın tinində dördümüz də gizləndik. Mən

burnumu tutdum səsimi tanımasın, qardaşım, əmim oğlanları səslərini bir az dəyişdilər, dalınca qışqırışdıq; Kəlləmayallaq! Kəlləmayallaq! Bir ayağımız qaçmağa hazır dayanmışdı. Onun əlindən dəmir-dümür canını qurtara bilmirdi, qalsın biz. Əlləri də poladı döyməkdən çəkicə dönmüşdü. Babamın bir qapazı adamın gözünü ovcuna tökərdi. Bilirdik eşidir, bilirdi onu çağırırıq, di gəl, özünü o yerə qoymadı. Bizi də şeytan qıdıqlayırdı. Arabir özümüzü yığışdırıb bir də çağırırdıq. O, uzaqlaşdıqca da cəsarət bizə güc kimi gəlirdi. Mən çöməldiyim yerdən durub bu dəfə lap ucadan, özü də açıq səslə çağırdım; Ay Kəlləmayallaq! Kəlləmayallaq he-ey! O getdi. Biz onun dalınca getmədik, şübhələnə bilərdi, adamın üzünə baxanda beynini oxuyurdu, bu da mənim xoşuma gəlmirdi. Qoymurdu adamın özünə sirri qalsın. Heç vaxt ondan xoş söz eşitmədik. Bir dəfə də olsun birimizi tərifləmədi, əzizləmədi. Əvvəllər at yerinə, it yerinə göndərirdi, gedirdik, bir quru sağ ol da demirdi. Üzündə adi bir qımışma, – təbəssüm də yox ha, elə-belə dodağı qaçsın, – görmədim. Qaşlarını düyünləməkdən iki qaşının arası həmişə qançır olurdu. Alnının ortasında da möhürün izi damğalanmışdı. Köynəyinin qollarını yay-qış dirsəyə qədər çirmələyirdi, sal dəmirdən tökülmüş biləklərini elə bil gözümüzə soxurdu. Barmaqları da armatura oxşayırdı.

Biz də qisas alırdıq. Onun dəmirçixanası həyətdə darvazanın lap yaxınındaydı; qapıdan girəndə sağda. Həmişə də orda olurdu, zindanın cingiltisindən nə səhər rahat yatmaq olurdu, nə axşam televizorun səsini eşidə bilirdik. Qapının başına kilsə zınqırovundan düzəltmişdi, kəndirini yoldan dartıb, qaçırdıq. O da elə bilirdi kimdisə sifarişə gəlib, gəlib açırdı qapını, görürdü heç kim yoxdu. Kəndiri qısaldanda başa düşdüm ki, bilib mənəm. Ən kiçiyi mən olduğumdan, boyum da nisbətən qısaydı. Amma mən də bir boyda qalmadım axı, genim ondan gəlmişdi, uzanırdım. Əlim çatanda ta zəngi çalıb qaçmadım. Məktəbdən gələndə durub gözləyirdim gəlsin qapını açsın, o da kəndir çəkməyimizdən məni, əmim oğlanlarını, qardaşımı, başqalarını tanıyırdı. Açmırdı. Mən zınqırovu çanqaçaranq eləyirdim, o da çəkici zindana daha möhkəm vururdu. Sonra da məcbur olub gəlirdi, əvvəl əlini belinə qoyub dururdu qapının arasında, yuxarıdan aşağı nifrətlə baxırdı, bircə qardaşımla mənim atamaanama söymürdü, amma özümüzü ən murdar məxluqa tay tuturdu, deyirdi mən sənin nökərinəm, sənə qapı açanam? Üzünə bir söz demirdim, arxasına dönəndə ağzımı-gözümü əyirdim, baş barmağımı burnuma yapışdırıb barmaqlarımı oynadırdım... Maral buynuzu edirdim.

Gəlib çatanda ayaqlarımız islanmışdı. Üşüyürdük. Heç vaxt bu qapıya sevinə-sevinə gəlməmişdim, bu gün də həm ac, həm də ayaqlarım suyun içində... Mənim nə işləməyə həvəsim qalmışdı, nə də buyruğa getməyə. Yaxın qonşular yoldan həyətə, ordan da pilləkənin ayağına kimi qarı sağa-sola kürüyüb yol açmışdılar, hələ də əlləşirdilər. İki iri samovarın tüstüsü yayılırdı.

Evin tinində, qar başına yağa-yağa, bir ayağını qoyub, o birini götürən, əllərini ovxalayan böyük əmim bizi görəndə yanına çağırdı. Dedi, düşün aşağı, Həsən əminiz gözləyir. Pilləkənin altından zirzəmiyə endik. Köhnə nə var idisə, hamısı burdaydı; yazıq nənəmin işlətmədiyi cehizlik sandıqlarından tutmuş, babam xəstələnəndə əlindən düşən çəkic-zindana qədər. Əmim nənəmin sandığının üstündə oturmuşdu, qarşısındakı stolun üstündə qazan var idi. Bizi görəndə elə bil sevincək oldu, əliylə tələsdirdi, gəlib onun qarşısında əyləşdik. İki qədəh çıxarıb qarşımıza qoydu, sonra əyilib böyründən butulkanı götürdü, süzdü, qazanın qapağını açıb hərəmizə bayram aşının yağlı qara tikələrindən uzatdı. Bu vaxta qədər o, həm də tapşırıq verirdi:

- Kömək lazımdı. Gələn-gedən çox olacaq. Yolu təmiz saxlayın. Vurun görüm, bu havada çöldə durmaq çətin olacaq. Qanınız donar.

İçdik, əmimim çəngəlin ucunda hazır saxladığı iri, yağlı tikəni hoppultuyla yedim. O, hələ də bizə tapşırıq verirdi. Öz oğlunu stul daşımağa göndərmişdi. İkincini də içəndə bədənimə mədəmdən yayılan istiliyi hiss elədim. Düyüdən qaşıqlamağa qoymadı. Dedi, araqla düyü olmaz, mədəndə şişər, durun gedin. Üşüyəndə gələrsiz. Əminə də denən gəlsin.

Biz aşağıdan çıxanda başım yüngülvari hərlənirdi. Qulaqlarımın qızardığını, istiləndiyini hiss edirdim. Gəlib durduq əmimin yanında. Qardaşım əmimə dedi ki, aşağı getsin. O da getməyə fürsət tapmırdı. Bu havada elə qonum-qonşu qatar-qatar gəlirdi. Gələnlər üçümüzün qarşısından keçir, biz də əmimə baxıb sağ əlimizi sol döşümüzə qoyub yüngülcə təzim edirdik. Hamıya da eyni sözü deyirdik: "Ölənlərinizə rəhmət." Bilirdim, yazıq əmim bu adamların əlindən təngə gəlmişdi. Axır dözmədi Həsən əmim, gəlib postu dəyişdi, o da qaçaraq aşağı getdi.

Mən üşümək istəyirdim, istəyirdim əmim görsün işləyirəm, özü də çox üşüyürəm. Gedib beli götürüb onsuz da açıq olan yolun üzünü qaşıdım.

Əmim gördü işə həvəsliyəm, dedi bağa tərəf yol açaq. Bax, bunu heç istəmirdim, amma məcbur olduq. İki qardaş qarı kürüyürdük. Qulağımız da səsdəydi, deyirdik indi əmim çağırar, bu saat çağırar. Ürəyinə insaf düşər. Elə başı açılanda yadına düşdük. Haqq üçünə, o, həmişə bizim qayğımızı çəkərdi. Göndərdi bizi aşağıya. Dedi əl-ayağınızı don vurar, özü qalxdı yuxarı. Biz özümüzü aşağı güclə saldıq. Əmim durub həyətə çıxdı. Qaldıq iki qardaş. Arağın yerini görmüşdük. Bir qazan şabalıdlı, ərikli, yağlı aş-qara stolun üstündə... Düzdü, bir az soyumuşdu, amma olsun də, yoxdan yaxşıdı. İlk dəfə qardaşımla qədəh toqquşdurmaq üçün uzatdım, dedi olmaz, yasda altın yerə vurub içərlər. Durmaq istəmirdik. Yaxşı ki, durmadıq da; əmim oğlanları da gəldi. Onlara da süzdük. İçdilər. Birdən əmim oğlu dedi ki, Kəblə Məmməd indi doğrudan da kəllə-mayallaq oldu. Gic gülmək tutdu bizi. Qəhqəhə çəkib gülürdük. Nələrsə yadımıza düşürdü, deyirdik, uğunub gedirdik. Bu arada da qardaşım süzür, biz içirik, süzür, onlar içirlər. Səsimizə əmim gəldi, gördü yox, bizim halımız o haldan deyil, qovdu, dedi bir də bura girməyin. Gedin, xar tuta çatana qədər enli yol açın. Gülmək dayanmırdı, hıçqırıq kimi tutmuşdu. Güləndə də adamın əli-qolu boşalır axı, bel əlimizdən düşürdü, bir metr gedə bilmirdik. Səsimiz də yəqin elə samovarın tüstüsü kimi həyətə yayılırdı. Amma biz o halda deyildik. Hərdən əmim qardaşını danlayırdı, deyirdi, nahaq uşaqları qudurtdun.

Axır ki, xar tutun yanına çatdıq, burda nə qədər istəsək deyib-gülə bilərdik. Nə görən var idi, nə səsimizi eşidən, di gəl, elə bil soyuq bizi ayıltdı, gülüşümüzü don vurdu. Həsən əmim işimizə baxmağa gəldi, tapşırdı ki, ətrafı bir az da genişlədin, sonra da gedin dincəlməyə. Qeyri-ixtiyari soruşdum ki, əmi, aşağı getsək olar? Ayağımız buz bağlayıb. O da baxdı, baxdı, başını tərpətdi. "Gedin..." deyib getdi.

Hərəmiz bir istiqamət götürüb həvəslə tala düzətdik, getdik aşağı. Əmim bu dəfə hərəmizə bir armudu stəkanda çay göndərmişdi.

Dəmirçixananı yuyat yerinə çevirdilər. Onda eşitdim əmimi; axunda məsləhət edirdi, istəyirdi babamı həyətdə dəfn eləsinlər. Deyirdi, yolların nə vaxt açılacağı məlum deyil, bu havada burdan qəbiristanlığa getmək də mümkün deyil, evdə də neçə gün saxlayasan? Elə ən yaxşısı həyətdi, adamın qəbri öz həyətində olar, mən də tez-tez ziyarət edərəm. Əmim dost-tanışına baxıb sözünə qüvvət axtarırdı. İstəyirdi sabah qınayan olmasın. Məscidə yığışanlar deməsinlər Kəblə Məmmədin oğlanları onu urvatsız elədi. Axır ki, sinif yolda-

şımın babası dilləndi. Dedi həyətdə qəbir olmaz. Bunun bu günü-sabahı var. Əmimin dostu razılaşmadı. Dedi ay ağsaqqal, qəribə adamlarıq ey, vallah, sağ olanda deyirik ana belə müqəddəsdi, ata belə ocaqdı, pirdi, övliyadı, mən nə bilim nədi, öləndə də kənddən çıxarıb bir-iki kilometr də uzağa aparıb atırıq çuxura, üstünə də piltə düzüb torpaqlayırıq. Elə bil qorxuruq çıxıb qaçar. Bir bayram gedərik, ikinci bayram kimsə yada salar, sonra yavaş-yavaş ayağımız kəsilir. Bəhanələr imkan verməz getməyə. Gedəndə də axtarıb yerini tapa bilmirik. Yaddan çıxıb gedir. Nəvə-nəticə də bilmir ey, babası, babasının atası kim olub. Elə bilir göbələkdi, yerdən çıxıb. Odey, qadasın aldığım yaponlar; bilirsiz neynirlər? Yandırırlar, sonra da külü yığırlar bir kuzənin içinə, üstünə də resept kimi ölənin adını, tarixini yazıb, qoyurlar rəfə. Hərə öz atasını, babasını qoyur yan-yana, uşaq da baxanda görür kökü, əcdadı kimdi, hardan gəlib. Uşaq da yeddi arxa dönənini tanıyır. Tez-tez də yad edir, deyir elə evimizin içindədi. Hələ bir onun sənətini də davam eləyir. Bizim nəvələr bilmir ey, babalarının qəbri hardadı. Şəxsən mən də bilmirəm. Yadlaşıb gedirik.

Axund etiraz elədi. Dedi, olmaz, şəriətdə də var: qəbir gərək itsin. Əmim dedi ay Məşədi, elə bizi bu günə qoyan şəriətdir də, niyə qəbir itsin? Kökümüz, ulu babamız kimdi, bilməyək? Orda ata-babamızın qəbri yoxdusa, bu torpağın nəyi müqəddəs olacaq? Otu-ələfi? Biz heyvan deyilik axı. Millətik, sürü ha deyilik. Sənin dediyin düşmən siyasətidi, fitnə-kələyidi, əşşi, həmişə istəyiblər bu torpaqlardan izimiz-tozumuz itsin. Gəlib sahib çıxsınlar.

Deyəsən, əmimin sözü çoxunu özünə tərəf çəkmişdi, onunla razılaşırdılar, bircə axund elə hey şəriətdən misal gətirirdi. Hər dəfəsində də əmim ağzından vururdu. Sən demə, babam vəsiyyət edibmiş ki, onu atamın yanında basdırsınlar. Axund da dedi, vəsiyyəti yerinə yetirmək oğulun borcudur, şəriət də bunu tələb edir. Kəblə Məmməd gərək oğlunun, arvadının yanında uyuya.

Əmim dilində söz saxlayan adam deyildi, nəyinsə xətrinə güzəştə getməyi də yox idi. Kəblə Məmmədin böyük oğluydu axı. Elə söz dedi ki, axundun burnu sallandı, o, küsüb gedəndə əmim əhvalını da pozmadı. Hələ o, darvazadan çıxmamışdı, dalınca eşitdirdi ki, dərdin, azarın qəbir yerinin puludursa, halal xoşun olsun, atam verib sənə, mən geri alan deyiləm, narahat olma.

Meyiti yumaq üçün qazanlar qaynayanda, həyətdə ara qızışdı, mübahisə böyüdü. Qonşu hamını başa salmaq istəyirdi ki, sabah siz də öləndə, qəbriniz batacaq. Ot-çayır bitəcək cığırında. Bu Kəblə Məmməd zülümlə, zillətlə, dəmir döyə-döyə anasız dörd uşaq böyüdüb. Bu həyət-bacanı, ev-eşiyi qurub. Bəs, rəhmətliyin haqqı yoxdu qəbri bu həyətin bir küncündə ola? Yurdunda qala? Böyür-başını uşaqları, nəvələri gülə-çiçəyə, bağa-baxçaya çevirə? Gərək elə kənddən çıxa? Vallah, birinizin də qəbri yada düşməyəcək o qəbiristanlıqda. Qəbri qorumaq lazımdı ey kişilər, itirmək yox. Orda yatan atamız-anamızdı. İldə bir dəfə yada düşür, ya yox. Bir yadınıza salın görüm, axırıncı dəfə nə vaxt ziyarətə getmisiz?

Qonşudan sonra, deyəsən, hamı susdu. O, əmimin qoluna girib bizim kimi bir neçə cavanı da dalınca həyətin ayağına gətirdi. Onda başa düşdüm əmim xar tutun altını niyə açdırıb. Bu tut ağacı atamdan yadigar idi. Babam da onu bu bağdakı ağaclardan daha çox bəsləyərdi. Qoymazdı çıxıb bir dənəsini qıraq, deyirdi budaqları qırılar. Mənim də bu bağda yediyim bircə elə bu tut idi; onu da Kəblə Məmməd qoymurdu. Deyirdi gedin heyva yeyin, əncir yeyin. Əncir dilimi dalayırdı, heyvanın da içində qurd olurdu. Oğrun-oğrun dırmaşırdıq tutun başına, ona da əl vuran kimi elə bil güllə dəyirdi adama, al-qana bulaşırdıq. Kəblə Məmməddən bunu gizləmək olardı? Bir də görürdün, uzun koğasını götürüb söyə-söyə gəlir. Kim cəld olurdu, düşüb qaçırdı, kim əlinə keçdi,

yediyi haram olurdu. Amma bir də görürdün özü qayçını, ləyəni götürüb gedirdi, nərdivanı qoyub ehtiyatla dərirdi. Gətirib qoyurdu ortaya. Ömrümdə iki dəfə onun ağladığını görmüşdüm. Hər axşam eyni vaxtda evdən çıxırdı; bir dəfə axşam güddüm, elə bilirdim hardasa arvadı var. O getdi, mən getdim, bir də gördüm qəbiristanlığa girdi. Atamla nənəmin qəbri yan-yanaydı. Oraları təmizlədi, gülləri suladı, sonra atama nə dedisə, ağladı. O boyda kişi əməlli-başlı ağladı. Mən də gəlib uşaqlara onun necə ağladığını yamsıladım, onlar da gülüşdülər. Bir dəfə də tut yığanda görmüşdüm. Onda bilmədim niyə ağlamışdı.

Qəbri qazmaq çətin oldu, palçıqlı yer, hər tərəf sel-su. Amma öhdəsindən gəldilər. Əmim qəbrin içinə, divarlarına enli quru döşəmə taxtalarını səliqəylə düzdü. Axund nə fikirləşmişdisə, arxayınlaşıb qayıtmışdı. Gəlib qəbrin içindəki taxtalara baxanda yenə etiraz elədi. Dedi gərək meyit cürüyüb torpağa qarışsın. Biz xristian deyilik taxtada, tabutda dəfn olunaq. Bu dəfə Həsən əmim dilləndi, çalışdı sözünü mülayim desin. Dedi Axund, tabutda qoyulanın ruhuyla torpağa qoyulanın ruhu eyni yerə getmirmi? Bəlkə, yuxarıda kostyumla gedəni qəbul eləmirlər, kəfənlə gedəni başa çəkirlər? “Yox, – əmim dilini saxlamadı. – Gərək ağ kəfəni palçığa qoyaq, təki məşədinin şəriəti razı qalsın. Bu mənim atamdı. Onu mən necə suyun, palçığın içinə qoyum?”

Məsciddən gələn kişi babamı dəmirçixanada yuyurdu. Hər tərəfə xalça, keçə örtük tutmuşdular. İçəridən qazanın, dolçanın səsi gəlir, su şırıltısını eşidirdim. Bir də suyun buxarı dəlmə-deşikdən qalxırdı. Mən də bir deşik tapıb bir gözümlə içəri baxdım. İlk dəfə meyit görürdüm. İlk dəfə gördüm adam öləndə onu necə yuyurlar. İçəridə iki nəfər var idi, biri su tökürdü, o biri babamı çimizdirirdi. Babam tərpənmirdi, yatmışdı. Elə bilirdim onu görsəm, qorxaram. Deyirdilər axı, meyidə baxma, qorxarsan, amma qorxulu olmadığını gördüm; həmişə yatılı gördüyüm Kəblə Məmməd idi. O, xəstə yatanda yazıq anam, küsülü olsa da, bizi bura gəlməyə, onunla görüşməyə məcbur edirdi. Deyirdi kişi xəstədi, gərək siz tez-tez gedib, babanıza baş çəkəsiz. Çox vaxt biz qapıdan girəndə, ya da həyətdən səsimizi eşidəndə özünü yatmışlığa vururdu. Girirdik, görürdük gözünü yumub. Qardaşım qayıdırdı, mən acığa dayanıb onun üzünə baxırdım, ona inad, yerimdən tənpənmirdim, gözləyirdim nə vaxtsa gözünü açsın. Açıb acıqlı-acıqlı baxırdı. Salam verirdim, halını soruşurdum. Deyirdi birbirinizə qoşulub həyəti dağıtmayın. Səs-küy salmayın, yatıram. Buna görə də həyətə gələndə gedib onun gözünə görünmək istəmirdim. Amma anamın sözündən çıxa bilmirdim. Deyirdi o kişiyə borcluyuq, o olmasa, atan olmazdı, atan olmasa, sən olmazdın. Sən onun qanını, genini daşıyırsan. Sənin oğlun da, onun oğlu da o qanı, o geni daşıyacaq... Mən o vaxtlar bu sözü o qədər də dərk eləmirdim. Amma yenə də onun çarpayısına yaxınlaşıb: “Baba, salam! Bu gün necəsən?” soruşurdum. O, heç vaxt tövrünü dəyişmədi. Yuyatın deşiyindən baxanda istəyirdim içəri girəm, gözünü açıb məni görənə qədər gözləyəm.

Kişilər onu gəbənin arasına büküb tabutu çiyinlərinə qaldıranda, axund dedi qəbir yeri çox yaxındı, gərək cənazəni xeyli piyada aparasan, çiyin verənlər yerlərini dəyişələr, qırx addımdan sonra günahları yuyula.

Tabutun qabaq tutacaqlarından əmilərim götürmüşdü, hamını birbaşa bağın ayağına gətirdi. Şaxtanın, göz yaşının kirpikdə buz bağladığı bu vaxtda kəndin küçələrində günah yumaq üçün qar yoğurmağa heç kimin həvəsi yox idi. Qadınlar, əsasən də, loxəbər bibim vay-şivən qopartmışdı, anam da, əmidostuları da babamı bağın qapısına qədər yola saldılar, özünü atıb-tutan bibimin qoluna girib evə qaytardılar. Şəriət qadınları dəfnə getməyə qoymurmuş.

İlk dəfə kəfənə bükülmüş meyidin qəbirə qoyulduğunu görürdüm. Kəfəni gördüm, babamın bizə dediyi söz yadıma düşdü. Bizə baxıb acıqlı-acıqlı de-

yirdi: “bunlar da adamdı?! Allah tuluğu götürüb, orasını, burasını deşdəkləyib, atıb yerə”. Ağzımızı-burnumuzu deyirdi.

Əmilərim palçıqlı ayaqqabılarını soyunub qəbirə girdilər. Cəsədi xalçaqarışıq alıb ehtiyatla yerə uzatdılar. Axund şəriətə görə xalçanı çıxartmağı tələb elədi, əmim razılaşmadı. Hələ bir üstünü də yaxşı-yaxşı örtdü. Balaca zindanıyla çəkicini də qəbirə qoydu. Basdırdılar. Adamın inanmağı gəlmirdi; o boyda, o zəhmdə Kəblə Məmməd bu həyatdan getmişdi.

Darvazanın üzünə sallanan kəndir çürüyüb qırılsa da, zınqırov dururdu. Hər dəfə bu həyətə gələndə, deyirdim ona bir kəndir bağlayacam, hər gələndə dartacam, çəkici zindana döyəcəm, qoy Kəblə Məmmədin ruhu eşitsin. Oturub yeyib-içirdik, nərd oynayırdıq, axşam düşürdü, yadımdan çıxırdı.

Sonralar da Kəblə Məmmədi görməyə gəlirdim bura, qəbiristanlıq qəbirləri kimi deyildi adam görəndə qorxa, xoflana. Əmilərim lap iri qaya parçasından başdaşı qoydurmuşdu, onu bura nə zülümlə gətirmişdilər. Ortasını da oyub, rəngli şəkil taxmışdılar. Bilmirəm o şəkil nə vaxt, harda çəkilmişdi, amma qaya babam dolu-dolu baxırdı. Hər bura gələndə mənə elə gəlirdi o, məni görür. Yenə də xar tuta nəzarət edir. Elə gözü üstümüzdədi. Tutun birini də qırıb ağzıma qoymurdum, elə bilirdim şirəsi Kəblə Məmmədin qanıdı. Sonra öyrəşdim, əmim qəbrin ətrafına gül-çiçəyi bizə əkdirirdi, ot-alağı bizə təmizlədirdi. Qəbrə gələn yola tamet düzdü, biz torpaq daşıdıq, qum daşıdıq...

Əmim oğlu qardaşımı da, məni də bu səhər həyətə çağırıb, dedi burda dördümüzün də payı var. Gəlin, bölüşək. Vəziyyət çətindi, hamının ailəsi, uşağı, nəvəsi var, qoy hərə öz işini bilsin. Qardaşım ağ kağızın birini götürüb çarpaz xətt çəkdi, dörd bərabər hissəyə böldü, nömrələdi. Sonra bir kağızı kəsib rəqəmlər yazdı, bükdü. Dedi, püşk ataq, arada narazılıq olmasın. Kiminsə ürəyində qalmasın, sonra deməsin mən həyətin bu tərəfini istəyirdim, niyə onun oldu? Hərə qismətinə düşəni götürsün. Dərhal razılaşdıq. O, dörd bükülü kağızı ovcunda çalxalayıb atdı. Hərə birini götürdü, açıb baxdı, rəqəmini kağızdakı xanaya qoydu. Hamının yeri məlum oldu. Mənə Kəblə Məmməd düşdü.

Bilirəm, bu gün-sabah hərə öz payını satacaq, onlar da olmasa – uşaqları. Mən yox. Kəblə Məmməd mənə yenə imkan vermədi, yenə qarşımı kəsdi. Bir az qazana bilərdim. Lap yaxşı olardı, xərcim-borcum var.

İndi gəlib oturmuşam burda, qonşu kişinin də, əmimin də sözləri qulaqlarımdadır. Bir də bu xar tut var; atamdan bizə qalan yeganə əmanətdi. Buna görə babam onu qoruyurmuş. Adam ata olmayanda atanın, baba olmayanda babanın qədrini, dərdini bilmirmiş. Mən nə biləydim babam sübhdən durub zindanı döyməsə, biz təzə paltar, ayaqqabı geyinib, tox qarınla məktəbə gedə bilməzdik. Bibim olanda nənəm ölmüşdü, sonra da cavanca atam, o kişi nəyə güləydi axı?! Ürəyi necə açılaydı?

İstəyirəm uşaqları bura çağırım, deyim, öləndə məni də bu qaya kişinin, bu Kəblə Məmmədin yanında dəfn eləsinlər. Nəvələrimin ağılları kəsib gələndə, babalarının babasını da görsünlər.

Bizdəkilər yəqin xəyallarında buranı çoxdan satıblar, pulunu da xərcləyiblər. Evdən çıxanda dilim dinc durmadı, dedim axı, kasıblıqdan çıxdıq. Nə bilim mənə dörd nömrəli kağızın düşəcək?

Bilmirəm, indi gedim evdə necə başa salım ki, bu yurdu satmaq olmaz. Onlar üçün kimdi axı Kəblə Məmməd? Ən uzağı, mən başımı yerə qoyan kimi, satacaqlar. Vəsiyyətə qulaq asan qalıb?! Bəs mən neyniyim? Mənim yerimə başqası olsaydı, neyniyərdi?



# YUNUS ƏMRƏ

***1240 – 1321***

Yunus Əmrə adı son illərdə Türkiyədə önəmli bir simvola çevrildi. Türkiyənin xaricə açılan üzünü ən yaxşı ifadə edən şəxsiyyətlərdən biri oldu. Belə ki, dost və xarici ölkələrdə türk dilini və mədəniyyətini tanıtmaq məqsədilə fəaliyyət göstərən bir qurumumuz da "Yunus Əmrə İnstitutu" adını daşıyır. Beləliklə, Yunus Əmrə, Türkiyənin və türk dilinin xaricə açılan üzü səviyyəsinə yüksəlmişdir, deyə bilərik. Bir də Türkiyədə cari ilin Yunus Əmrə ili olaraq elan edilməsi də sadaladıqlarımızdan daha önəmli görünür. Şübhəsiz, türk mədəniyyət və incəsənətində Yunus Əmrə kimi saysız dəyərli şəxsiyyətlər mövcuddur. Böyük şairin yaşadığı əsrdə önə çıxan Molla Nəsrəddin, Mövlanə və Hacı Bektaş Vəli də bunların içərisindədir. Bu şəxsiyyətlərin hər biri eyni dərəcədə dəyərli olub Türkiyəni təmsil etməyə layiqdirlər. Lakin belə anlaşılır ki, belə bir qurum üçün ən uyğun olan Yunus Əmrədən başqası ola bilməzdi.

Belə ki, Yunus Əmrə Anadolu türkcəsini inşa edən böyük bir şair və mütəfəkkir olaraq qarşımıza çıxır. Anadolu türklüyünün könül dilini quran və bunu böyük bir sənətə çevirən əmsalsız bir dil virtuozudur o! Yeddi əsrdən bəri şeirləri əzbərlərdə gəzən, ilahilər şəklində bəstələnərək davamlı olaraq təkrar edilən böyük bir könül memarı... Buna görə ehtimal olunur ki, Anadoludan Balkanlara, Krıma, Hələb və Şama, daha sonrasında "yuxarı əyalətlərə" qədər, demək olar ki, hər coğrafiyada onun məzar, türbə və məqamlarına təsadüf edilir.

Bir az əvvəl istifadə etdiyim "yuxarı əyalətlər" ifadəsi, şübhəsiz, sizin də diqqətinizi çəkdi. Bu ifadəyə həm Yunus Əmrənin bir şeirində, həm də Osmanlı arxiv qeydiyyatlarında tez-tez rast gəlmək olur. O ifadə ilə, Anadoluya görə, yuxarılarda, şimalda qalan türk yurdları nəzərdə tutulur. Belə ki, eyni ifadə Yunusun bir ilahisində bu şəkildədir:

***Gəzərəm Urum ilə Şamı, yuxarı əyalətləri kamu***

XIII əsrdə Anadolunu, Hələb-Şam diyarlarını, daha sonrasında bütün "yuxarı əyalətləri" gəzən bir Yunus Əmrə! Yunusun misrasından öyrənirik ki, XIII əsrin şərtlərinə baxmayaraq, o, Anadolu ilə kifayətlənməmiş, "yuxarı

əyalətlər" olaraq ifadə edilən Azərbaycan və Təbriz diyarlarına qədər uzunmalı olmuşdur.

XIII əsrin qarışıq siyasi mühitində Yunus Əmrənin oralara nə üçün getdiyi, necə getdiyi, şübhəsiz, düşünülə bilər.

Lakin xatırlatmaq lazım gəlir ki, "yuxarı əyalətlərə" uzanmaq, sadəcə, Yunus Əmrə ilə məhdudlaşmır. Eyni əsrdə izdihamlı türk qrupları ilə Qara dəniz üzərindən Balkan ölkələrinə keçən Sarı Saltuk Qazidə də eyni diqqəti görürük. Belə ki, Balkan ölkələrindən Krıma qədər gedən Sarı Saltuk çox vaxt Anadoluya olan səfərlərini "yuxarı əyalətlər" üzərindən həyata keçirirdi. Eyni şəkildə, Qızıl Orda bölgələrindən Anadoluya saysız köçlər baş tutur, bu köçlər də Qafqaz və "yuxarı əyalətlər" üzərindən həyata keçirilirdi. Bu vəsiləylə, şimali türk ölkələrindən Anadoluya saysız nəsr əsərləri gətirilir və bunlar Yunusun dili ilə Anadolu türkcəsinə köçürülürdü.

Bu arada Anadolu türkləri arasında Təbrizə, Şirvana, Ərdəbil ocaqlarına gedib-gələnlər də heç əksik olmazdı. Buradan məlum olur ki, "yuxarı əyalətlər", yəni bugünkü Azərbaycan türklərinin yaşadığı bölgələr Qızıl Orda, Türküstan və Anadolu türklərinin bir növ keçiş məntəqəsi və ya mərkəzi rolunu oynayırdı.

Beləliklə, o əsrlərdə Yunus Əmrə güclü şeiri və içinə sığmayan aşıb-daşan dili ilə haralara baş çəkmişsə, oralarda unudulmaz xatirələr qoymuş biridir. Bu gün bəhs edilən coğrafiyalarda Yunusun adına inşa edilmiş türbə və məqbərələrin, məqamların çoxluğu bunu sübut edir.

Lakin bir şeirində də dediyi kimi, Yunusun sevgisi bir davadan irəli gəlmir. "Mən gəlmədim dava üçün" deməsi bunu ortaya çıxarır. Yəni insanları bir fikir və siyasət ətrafında birləşdirmək düşüncəsi yoxdur onda! Bunun əvəzinə, içindən aşıb-daşan bir sevgi ilə yanaşır insanlara. Bu sevgi hansısa bir dünyəvi səlahiyyət sahibinin xalqı qucaqlamasına bənzəmir. Özünü qərib və yalnız bilən, içi yanan, dünyəvi heç bir məqsəd ilə bərabər tutulmayacaq bir sevgidir bu. Varlığın bütününü qucaqlayan bir sevgidir bu! Füzulinin və Nəsiminin öz içinə çəkilmiş, oradan danışan sevgisi. Bundan da başqa, ondakı sevginin bizə olan təsiri həmsöhbətlərinə deyil, öz-özünə xitab etməsindən irəli gəlir. Öz içindəki əsl "mən"i tapmağa çalışan, ona xitab edən, bitmək-tükənmək bilməyən yalvarışlar silsiləsidir onun şeiri.

Beləliklə, Yunusun şeirinin əsl gücü biradan irəli gəlir. Füzulinin bir qəzəlində dediyi kimi, o da davamlı olaraq,

***Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,***
***Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?***

şəklində öz-özünə xitab etməkdə, öz bəxtini oyandırmağa çalışmaqdadır. Burada diqqətimizi cəlb edən odur ki, şairin bütün axtarışlarının öz içində cərəyan etməsi bir həqiqətdir. Öz könlünü uçsuz-bucaqsız bir aləmə çevirən, hər problemi orada görən və orada həll etməyə çalışan bir şüurdur onda gördüyümüz. Eyni yanaşmanı Yunusda olduğu kimi, Füzuli və Nəsimi kimi böyük şairlərin çoxunda da görürük. Beləliklə, şeir ölkəsi onların ruhunda genişləndikcə genişlənir. Bütün fırtınalar orada qopur, bəşəriyyətin yaşadığı müxtəlif faciələri biz onların daxili aləmindən oxuyuruq. Beləliklə də, bu böyük ruhların eşqi, oradan doğan lirik və faciəvi dil bizə təsir edir.

Daha doğrusu da, biz o cür şairləri oxuyarkən, sadəcə, onlarla məhdudlaşmırıq. Eyni anda və özümüz də bilmədən, öz daxili gerçəkliyimizlə üzləşirik.

İçimizdəki qaranlığı, arınma ehtiyacımızı kəşf edir, biz də öz-özümüzə bunun dilini qurmağa çalışırıq. Budur, onun sənətinin gücü buradan irəli gəlir.

İnsanı öz içindən qavraması, hər insanı öz-özüylə üzləşdirməsinə imkan verməsi! Beləliklə, Anadolu türklüyü əsrlər boyu Yunusu oxuya-oxuya özünü tapdı, özünü kəşf etdi, deyə bilərik. Bu baxımdan, insanın öz könül zənginliyini kəşf etməsi necə böyük nemətdir. Buradan doğan və yarı-yarıya şeirli bir dil ilə ifadə edilə bilən bu dərin sevgi, Anadolu torpağını və insanını əsrlər boyunca mayalamağa davam etdi. Ona görədir ki, istər Səlcuqlu və Osmanlı dövrlərində, istərsə də bugünkü Türkiyədə Yunusla qarşılaşmamış, onu diqqətlə oxumamış bir türk şairi olduğunu düşünmək mümkünsüzdür.

Bu arada Yunus Əmrə XIII əsrdə yaşasa da, onun mesajı yaşadığı əsrlə də məhdudlaşmır. Çünki hər böyük şair kimi onda da həm yaşadığı dövrə, həm də gələcək bütün dövrlərə xitab edən bir tərəf görürük. Bu xüsusiyyətinə görə, Yunus Əmrəni davamlı olaraq içimizdə hiss edir, isti dili və yandırıcı nəfəsi ilə hələ də ürpətilərini duyuruq:

***Bir əcaib elə gəldim, kimsə halım bilməz mənim,***
***Mən söylərəm, mən dinlərəm, kimsə dilim bilməz mənim.***

Öz-özünə danışırmış kimi, insan üzərində ürpərtili təsirlər yaradan bu şeir daha diqqətlə oxunarsa, onun alt qatlarında bütün insanlığa istiqamətlənmiş örtük mesajlar derdiyi başa düşülər. Belə ki, o böyük şairin çox tez-tez təkrar etdiyi “72 millət” ifadəsi bu baxımdan əhəmiyyətlidir. “Yetmiş iki millətə qurban olmaq”, “yetmiş iki millətə birlik ilə baxmaq”, “yetmiş iki millətin məşuqu olmaq”, “yetmiş iki dil ilə oxumaq kimi”! Göründüyü kimi, Yunus Əmrədə öz dili ilə danışan xalqın xaricində, bütün insanlığı qavramaq istəyən, qucaqlayan bir tərəf də daha tapırıq. Dilləri, irqləri, mədəniyyətləri biri-birindən o qədər fərqli görünən bəşəriyyətə açılmaq, bütüb insanlığı daxilindən birləşdirmək istəyən eşqli bir ehtiras!

O, bunu edərkən, istər-istəməz insanlığın içində üzdüyü fərqləri və təzadları aşan bir yol icad edir. Mədəniyyətlərin, coğrafiyaların, yerinə görə fərqli inanc və siyasətlərin biri-birindən ayrı saldığı insanlığı, təbiətində olan həqiqətlə üz-üzə gətirir, gətirmək istəyir. Buna bəlkə də insanı özündən qavramaq, insanı öz həqiqəti ilə üzləşdirmək deyilə bilər. Belə ki, bunu da ancaq Mövlanə kimi, Yunus Əmrə və Nəsimi kimi böyük şairlər bacara bilir. Beləliklə, Yunusun bütün insanlığa şamil etdiyi dünyəvi dilinin qərb mərkəzli humanist/humanitar yanaşmalarla uzaqdan-yaxından əlaqəsi yoxdur.

Lakin bu yerdə demək lazımdır ki, Yunus Əmrənin dünyəvi mesajı hələlik türkcənin xaricindəki dillərə köçürülmüş hesab edilə bilməz. Nə divanının bir tərcüməsi, nə də fərqli dil və mədəniyyətlərə Yunus Əmrənin düşüncə dərinliyini və sənətini köçürə biləcək fəaliyyətlər mövcuddur. Beləliklə, biz də hələ ki, Yunusu qavramaqla, onun dəyərini milli ictimaiyyətə ötürməklə məşğuluq. Əgər Türkiyə bu vəzifəni lazımi qədər yerinə yetirə bilsə, Mövlanənin Məsnəvisindən sonra ikinci böyük həmləni həyata keçirmiş olar.



***Nəcməttin TURİNAY***

***Tərcümə: Aygün ƏLƏKBƏRZADƏ***

## ♦ Poeziya



*Zahid Afşar ELOĞLU*

**AY, BU YANDA DUR**

Sinəsi dağ qarı, çəmən lalası,
Qaşları, gözləri yay, bu yanda dur.
Gözəllər sultanı, mələklər xası,
Dara saçlarını, yay, bu yanda dur.

Qırmızı geyinib, al bəzənmisən,
Dolayıb gərdənə şal bəzənmisən,
Dinib danışmırsan, lal bəzənmisən,
Yelda gecəsindən Ay, bu yanda dur.

Pəjmürdə qalıbdı dəryada gəmin,
Üzündə gülüşün, gözündə qəmin,
Sağında qardaşın, solunda əmin,
Salma ortalığa vay, bu yanda dur.

Zahidin ürəyi zədən –zədəndi,
Ruh gedib, gördüyün quru bədəndi,
Sənin sevilməli, sevən vədəndi,
Düşməsin kimsəyə hay, bu yanda dur.

**ŞUŞA**

Çəmənlər al-əlvan bir xalı kimi,
Meşələr nənəmin yun şalı kimi,
Çaylar sonsuzluğun timsalı kimi,

Dərələr boyunca baş alıb gedir,
Dağların köksündən boşalıb gedir.

Əfsanə söyləyir bulağı, çayı,
İsağın, Musağın harayı, hayı,
Kəkliyin gülüşü, qartalın qıyı,
Elə bil yerimdən qoparır məni,
Nağıl dünyasına aparır məni.

Burda küləklər də muğam oxuyur,
Kəkotu, qantəpər ətir qoxuyur,
Buludlar leysandan hana toxuyur,
Ərişi, arğacı billurdan təmiz,
İlməsi tər-təzə bənövşə, nərgiz.

Yalçın qayaların qaşı sirlidir,
Torpağı sirlidir, daşı sirlidir,
Hər evin, barının yaşı sirlidir,
Sanki, əsrlərdən uludur, Şuşa,
Nədən söhbət açsam, doludur, Şuşa.

## VƏTƏN, AY VƏTƏN

İzin ver, başımı qoyum qoynuna,
Körpə balan kimi yatım, ay Vətən.
Uzun qollarımı, salım boynuna,
Arzuya, kamala çatım, ay Vətən.

Qeyrətin ilqarım, şöhrətin tacım,
Sən mənim vüqarım, mən sənin acın,
Gendə havadarım, darda əlacım,
Məzarda əcdadım, zatım, ay Vətən.

Üçrəngli bayrağın başımdan uca,
Yenilməz tarixin yaşımdan uca,
Harda bir torpaq var daşından uca,
Qanımı qanına qatım, ay Vətən.
İzin ver, qoynunda yatım, ay Vətən.

## DAŞA DÖNMÜŞƏM

Gecələr gəzirəm aranı, dağı,
Xəyallar içində quşa dönmüşəm.
Sevincim gülüncdü, gülüşüm ağı,
Sızqa bulaq kimi yaşa dönmüşəm.

Şirin arzularım sarı sim üstə,
Ruhum göylərdədi, cismim çim üstə,
Payızı sovulmuş, baharı xəstə,
Yayına qar yağmış qışa dönmüşəm.

Nəşəmin üstünə ələnir ələm,
Ələmim başıma sələm yazan qəm,
Qalxana dönübdü əlimdə qələm,
Vətəndə vətənsiz daşa dönmüşəm.

## SƏRHƏD DİRƏKLƏRİ...

Sərhəd dirəkləri kəsib aranı,
Arı pətəyinə dönübdü dərə,
Yazın gül-çiçəyi, qışın boranı,
Hönkürə-hönkürə axır Xəzərə.

Xallı kəpənəklər qrov bağlayan,
Kükrəyən haraydan, haydan xəbərsiz.
Gecənin qoynunda coşub çağlayan,
Gündüzə dartınan çaydan xəbərsiz.

Ormanın hakimi qoca yalquzaq,
İstixar çevirir, yenə bəd gəlir,
Marıqda dayanan ağ ayıya bax,
Yuxudan ayılıb, hələ, dincəlir.

O taylı, bu taylı şəkər balalar,
Oxuyur "Qarabağ şikəstəsi"ni.
Qarşıda çox çətin bir imtahan var,
Zaman sındıracaq buz pərdəsini.
Zaman sındıracaq buz pərdəsini...

## GÖRMÜŞƏM

Deyirlər ki, haqq nazilər, üzülməz,
Mən ki, haqqın üzüldüyün görmüşəm.
Polad sınar, parçalanar, əzilməz,
Mən poladın əzildiyin görmüşəm.

Düz keçmişəm əyrilərin yanından,
Üz seçmişəm astarı it qanından,
Bal gətirən boz arının şanından,
Zəhrimarın süzüldüyün görmüşəm.

Ömür yolu qaşla gözün arası,
Sözün solu haqsızlığın yarası,

Ha sağalsa kor şeytanın qarası,
Cəhənnəmə düzüldüyün görmüşəm.

**ALNIMIN YAZISI**

Yenə hürkütmüşəm lal xəyalları,
Fikrim dağdan keçir, Arandan keçir.
Sinəmin üstündə Qırxqızın qarı,
İçimin atəşi Turandan keçir.

Dolanıb gəlirəm Basarkeçərdən,
Təbrizdən, Mərənddən, Xoydan, Əhərdən,
Dərbənddən başlayıb neçə şəhərdən,
Qazaxdan, Gəncədən, Morandan keçir.

Mürgülü yollara gül ələyirəm,
Şehli çəmənləri silkələyirəm,
Göy-gölə, Çaylıya bal diləyirəm,
Şirin arzularım Gorandan keçir.

Başımdan getməyir Kirsin havası,
Burdakı hər qaya laçın yuvası,
Allah, nənələrin xeyir-duası,
Bəs niyə tufandan, borandan keçir.

Bir yanım didərgin, bir yanım köçkün,
Tale qismətidi gördüyüm hər gün,
Nə səmtdə səs qalıb, nə səmirdə ün,
Alnımın yazısı torandan keçir.

**DÜNYA İLƏ SÖHBƏTİM**

Mənim bu dünayayla söhbətim hələ,
Bitməyib, bitməyir, bitəsi deyil.
Gözümü göynədən o dağ hər kərə,
İtməyib, itməyir, itəsi deyil.

Yorulmuş yollarım cığır səngəri,
Cığırlar qoynuna yığır səngəri,
Qızmış buludların ağır ləngəri,
Getməyib, getməyir, gedəsi deyil.

Məni hər addımda burur yoxuşlar,
Qarşımda dağ kimi durur yoxuşlar,
Elə bil nəbzimdə vurur yoxuşlar,
Getməyib, getməyir, gedəsi deyil.

***Ağcabədi***



## *Məlahət MƏHRUQ*

İçin-için ovuluram
Dərd əlindən – ağac kimi.
Həsrət ilə qovruluram
Körpəsiz bir qucaq kimi.

Yan-yörəmə baxır gözüm,
Bir xəyallar, bir də özüm.
Nə odum var, nə də közüm,
Külə dönmüş ocaq kimi.

Harayıma haray çatar?
İtiyimi kimsə tapar?
Bax, ürəyim cadar-cadar
Suya təşnə torpaq kimi.

Yolçusuyam – yolsuz yolun,
Tapammıram sağın, solun.
Yaşayıram ömür sonun
Saralmış bir yarpaq kimi.

* * *

Olacaq ruhum köməyin,
Üzülmə, nazlı mələyim.
Nə zaman olsa gərəyin,
Səslən gülüm, səslən gülüm.

Ruhum sənlə qoşadır, bax,
Dərdə, qəmə açma qucaq.

Yoxsa ki, görən sanacaq
Təksən gülüm, təksən gülüm.

Taleyimin gül qisməti,
Vermə, namərdə fürsəti.
Bu ömrümün bal şərbəti
Sənsən gülüm, sənsən gülüm.

Həsrətimə alışmağı,
Yoxluğunla barışmağı,
Xəyalımla danışmağı
Öyrən gülüm, öyrən gülüm.

Kədər ilə olub sirdaş,
Gözlərinə dolmasın yaş.
Qopmasın dilindən eh, kaş...
Hərdən gülüm, hərdən gülüm.

Yolun üstə çıxan olsa,
Ürəyini sıxan olsa,
Yad baxışla baxan olsa,
Enəcəyəm göydən, gülüm.

***Füzuli***

**OXUCULARIN NƏZƏRİNƏ!**

**“AZƏRBAYCAN”**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

İmdat AVŞAR

# BİTMƏYƏN ROMAN



Aşıqlar Çayxanasının daimi sakinlərindəndir Nurullah qardaş... Kübarlıq abidəsi, nəzakət timsalı, simmetriya xəstəsi, təmizlik düşkünü... Ayaqqabısından kəmərinə, papağından qalstukuna, corabından əl dəsmalınacan hər paltarı, aksesuarı ahəngli, uyumludur. Taxdığı üzüyün qaşıyla dənələdiyi təsbehin daşı eyni olmasa, dərin xəcalət hissi keçirər, “Evdən tələsik çıxdım, əfəndim, qara kəhrəba daşımı alarkən səhvən kuka təsbehi götürmüşəm...” – deyə bəhanə bəyanatı verir. Pencəyinin döş cibində mütləq qalstukuyla eyni rəngdə bir dəsmalı olur.

Elə səliqəli, diqqətlidir ki, bığlarıyla qaşları xətkeşlə çəkilmiş kimi görünür. Mikroskopla baxsanız belə, biri digərindən bir millimetr uzun bir tük görə bilməzsiniz.

Valiyə xitab edirmiş kimi ofisianta səslənir:

– Əfəndim, mümkündürsə, bir çay ərz edirəm!

Aşıq Avazi əsəbiləşib özündən çıxır:

– Olmadı da, Nurullah! Məncə bir ərizə də yaz, Meydani Babaya həvalə edəndən sonra ofisianta uzat. Ofisiant sənin ağandırmı, qurban sənə? Niyə ərz edirsən? Yalvarmağa nə ehtiyac? Ofisianta “çay gətir” deyəcəksən, qurtarıb gedəcək də...

Avazinin qəzəbinə uğrasa da, kübarlığından qalmaz, nəzakəti əldən buraxmaz Nurullah qardaş.

Hər səhər sağ əlini sinəsinin sol tərəfinə qoyandan sonra iki dəfə əyilib küçədəki sənətkarları salamlayaraq çayxanaya elə gələrdi ki, axan sular dayanardı. Göy-göyərti, mer-meyvə satanın kassasına, bərbərin ülgücünə, çörəkçinin kürəyinə, şirniyyatçının börəyinə, dərzinin ütüsünə xeyir-dua verərdi.

Dərziylə bərbərin şagirdləri yaxşı tanıyır Nurullah qardaşı, o gəlib-keçəndə arxadan səsləyirlər:

– Şalvarın qırışıb, keç bir ütü çəkim, Nurullah qardaş!

– Gəl burnunun tükünü alım, bir siftə ver, Nurullah qardaş!

Nurullah qardaş oturmamışdan əvvəl masanı 180 dərəcəli bucaqla səkiylə paralel hala gətirib, masa örtüyünü üfürərək təmizlər, stulları bir-birinə doxsan dərəcəli bucaqla yerləşdirər, kül qabını zibil qabına boşaldıb içini yaş dəsmalla

silər, qəndqabını stolun tən ortasına qoyar. Sonra subaşına gedər, əlini yumamışdan əvvəl mütləq sabunu yuyar, əllərini kağız dəsmalla qurudub, bir çay sifariş edər! Dəftərlərini, qələmlərini, karandaşyonanını, silgisini stolun üstünə qoyub çayını qurtum-qurtum içə-içə yazmağa başlayar...

* * *

Bu məkanın sakinləri əzbərdən bilirlər onun hekayəsini. Yazdığı əsərin bütün səhnələrini də... Mənsə hələ bu yerdə yeniyəm, Nurullah qardaşın illərdir çayxana əhlinə şifahi danışdığı eşq romanı haqqında çox şey bilmirəm. Çayxana əhli ona qulaq asmaqdan yorulduğu üçün yazdıqlarını ən çox mənə oxuyur. Mətni oxuyandan sonra da mətnə axtardığı hadisəni danışmağa başlayır. Yəni hadisəni necə ədəbi hala gətirdiyini demək istəyir. Elə o anda yaxınlıqdakı stoldan söhbətə qarışır gənclər. Sözü onun ağzından alıb başlayırlar romanın xülasəsini verməyə...

Mən sadiq bir dinləyiciyəm, amma Tacəddin bəy bu romanın və Nurullah qardaşın bədii məsləhətçisidir! Tacəddin bəy durmadan müdaxilə edir, Nurullah qardaş da durmadan ağlamaya köçürür romanı...

* * *

Duyğuları romantizmin zirvəsində sevgi bayrağı kimi dalğalanır, amma qarşılıqsız eşqin sahibsiz limanıdır ürəyi! İllər əvvəl göydənmi enmiş, dənizdənmi çıxmış, yarıinsan, yarımələk, ahu gözlü bir dilbər, ağappaq yelkənlərini sevgi küləyiylə dolduraraq Nurullah qardaşın ətrafında dolaşmağa başlayır, bir neçə dəfə sahilinə də yan alır, hətta, bir gün siqaretini yandırmaq üçün "od" belə istəyir ondan!

İllər keçsə də, o səhnəni unuda bilmir Nurullah qardaş, əvvəlcə oxuyur yazdıqlarını:

"... Canqutun dili dolaşmışdı, danışa bilmirdi. Çinarın budağından bir yarpaq qopmuşdu, sovrularaq düşürdü..." Sonra mətn susur, yazıçı başlayır:

– O anda dilim tutulmuşdu, qəlbim yavaş-yavaş atırdı, nə edəcəyimi bilmirdim...

Məsələni dərindən bilən çayxana əhli oturacaqlarını sürüyərək söhbətə qarışırlar:

– Su Pərisi yeni bir yük almaq üçün limana yaxınlaşır, müəllim. Üstəlik, qızın qəlbi də bomboşdur. Sənin bildiyin kimi, qızcığaz yükü yükləmək üçün Nurullah qardaşdan lojistik dəstək istəyir!

Başqa biri söhbətə qarışır:

– Od istəyən səsin tufanından ruhu alt-üst olur bunun, yelkənləri suya düşür, qanadları islanır, bir şey söyləmək üçün kəkələyir, amma nə çarə, başda kəndçilik var...

Mövzuya hər girən kitabın ortasından davam edir:

– Nurullah qardaş təcrübəsiz bir çöl dəliqanlısıymış o vaxtlar, sütül, xam, sadəlövh...

Başqa birinin qəhqəhəsi eşidilir:

– Ha-ha-haaa! Sadəlövh bir çöl dəliqanlısı od istəyən dəniz qızının çaxdığı siqnalın şifrəsini necə yozsun, müəllim?

Nurullah qardaş romanına özü davam eləmək istəyir:

– Üstəlik, cibimdə kibrit, çaxmaq da yox...

Ona imkan vermirlər:

– Bir dəqiqə, Nurullah qardaş! Sən zəhmət çəkmə. Hə, harda qalmışdıq, müəllim?

Mən də özümü göstərirəm:

– Nurullah qardaşın kibriti yoxdu...

– Həə! Qaçıb yaxınlıqdakı masadan bir kibrit alıb həyəcanla gəlir qızın yanına...

Nurullah qardaş o mənzərəni xatırlayıb heyifsilənir:

– Ahhh! Əllərim titrədi, müəllim, kibriti yandırmağı ağlıma belə gətirmədim. Dur, o səhnəni oxuyaq...

Oxumağa başlayır: "...Canqut əlində kibrit gözləyirdi. Qızın üzünə belə baxa bilmirdi. Kibriti yandırmağı belə unutdu Canqut. Çinarın budağından düşən yarpaq ağır-ağır yerə düşürdü..."

– Oxumağına gərək yoxdur, Nurullah qardaş, müəllimə biz danışarıq.

Bu arada yandakı masadan Aşıq Hayrəti tələsik girir mövzuya:

– Axmaq oğlan! Qismət ayağına gəlmişdi, boyuna-buxununa baxıb səni adam bilmişdi. Kibriti möhkəm çək, gözlə, barıt qoxusuyla, duman çəkilsin. Sonra titrəyən alovu uzat qızın dodaqlarına sarı, alovun arxasından qızın gözlərinin içinə bax... İmkan ver qız siqaret kimi közə dönsün! Çək kibriti, nədən qorxursan, deyib fikrini yenidən əlindəki domino daşlarına cəmləyir.

Cavanlarla birlikdə Nurullah qardaş da gülür. Gənclərdən biri romana davam edir:

– O zamanlar hardaydı Nurullah qardaşda bu ağıl, bu çoxqatlı romantizm? O dəmlər "Xanım əfəndi", "Buyurun zəhmət olmasa", "Yandırmağıma izn verərsinizmi"... kimi sehirli kəlmələr də yoxuydu lüğətində...

Bu səhnəyə nöqtəni əlindəki daşları masaya qoyub bizə tərəf dönən Aşıq Hayrəti qoyur, üstəlik, Nurullah qardaşın bacarıqsızlığına heyifsilənərək:

– Sallana-sallana bir ceyran gəlib yüzlərlə ovçunun içindən səni seçsin, dayansın lülənin ucunda, "Vur məni qəlbimdən, ey ovçu!" – desin! Sən də tətiyi belə çəkə bilmə! Kibriti yandırmağı da unut həyəcandan, dilənçiyə sədəqə verirmiş kimi kibrit qutusunu uzat qıza: Al bacım, Ədrəmit hara, Tomarza hara? Zalım oğlu, zalım! Qızı ananmı doğub? Hardan bacın oldu?!

– Qız elə bir qəhqəhə çəkir ki, müəllim, o qəhqəhə illərlə fərsizliyini üzünə vuran bir şillə kimi qulağının dibində enib qalxır.... Elə deyilmi, Nurullah qardaş?

– Təəssüf ki, elə oldu, - deyir Nurullah qardaş.

– Qızın bir iti də var, müəllim, adı da Finoş. Hər axşam sahilə gəlib Finoşla gəzib-dolaşırmış. Hətta, bir dəfə axşamüstü Nurullah qardaşın sahilinə yaxınlaşmağa çalışır... Nurullah qardaş da uzaqdan yaşıllaşıb cücərir qıza. Yanına tərəf gedəsi olur. Amma patronu o arada bunun əlinə süpürgəni verib gur-gur guruldayır: "Ağzını ayırma da, təmizlə buraları!

– Vay-vay, qədərə bax!

– Əlindəki süpürgəylə başını yuxarı belə qaldıra bilmir. Bir baxış, bir meyil, bir işıq yox təbii! İskələyə yaxınlaşmağa çalışan qız onun fənərində bir işıltı görməyincə lövbər salmadan uzaqlaşır limandan.

Nurullah qardaşın bu romanı dillərə dastan olmuşdu buralarda. Ofisinat da özünü saxlaya bilmir, zalımın oğlu çaylardan əlavə bir dənə də artıq çayı gətirib masaya qoyur, stul çəkib oturur, çayından içə-içə Nurullah qardaşın həmsöhbətinin sözünü kəsir:

– Müəllim, qız iskələyə yanaşsa da, Nurullah qardaşın fənəri yanmırmış!

Qız bir işıq ucu görməyincə, yenidən gəminin sükanını döndərərək açıq dənizə çıxır. Hətta, o arada stollardan birinə yaxınlaşıb arxa ayağını qaldıraraq işini görməyə çalışan Finoşa da acıqlanır, itin ipini bərkdən çəkərək: " Gəl buraya, qanacaqsız!" – deyərək uzaqlaşır. Doğrudurmu, Nurullah qardaş?

– Doğrudu, vallah! Ofisiant bəyin buyurduğu kimi!

Bu arada Aşıq Firqətiylə Meydani Baba sazla deyişməyə başlayırlar. Gənclər məscidin həyətindəki göyərçinlər kimi bizim stoldan qalxıb onların stoluna qonurlar. Mən nədənsə bu eşqin iztirabının dərinliklərinə enmək istəyirəm, məni çəkən bir şeylər var:

– Sonra nə oldu, Nurullah qardaş?

– O gündən sonra mənə bir cəsarət gəldi, ustad! Maaşımın yarısını verib gözəgəlimli bir çaxmaq aldım. Cibimdə "Zippo" çaxmaqla illərlə sahildə dolaşdım, aylarca dalğalarla dərdləşdim, sahildəki çinar ağacıyla danışdım...

Nurullah qardaş siqnalın şifrələrini çözüb işə alışsa da, o dəniz qızı, o su pərisi bir daha zühür etmir... O gözəlim sahil qəsəbəsi də o gündən sonra çöl-biyabana dönür gözündə...

– Eşq deyilən o illət o gün yaxamdan yapışdı, ustad! Mən o gün bildim. Sonra Məcnun kimi o sahildə dolaşdım-durdum, nə çarə?

Sahildə itirdiyini dağda tapmaq ümidiylə çıxıb gəlir ölkəsinə... Gəlməyinə gəlir, amma yağışdan qaçıb doluya düşür. Dənizin ılıq mehinə aşiq olan Nurullah qardaş düşmürmü çöllərin ayazına?

– Söhbət aramızda qalsın, ustad, – deyir. –Arxama baxaraq döndümmü yurduma? Kənardan orta məktəbi bitirincə də hökumətdən dövlət qulluğu aldımmı? Sonra axşam liseyinə də yazıldım... Artıq əlisüpürgəli bir ofisiant deyildim. Gecə-gündüz su pərisinin xəyalını qururdum, gedib tapacaqdım, lazım gəlsə, ayağına düşüb yalvaracaqdım!

Ofisiant imkan vermir ki, Nurullah qardaş dərdini desin:

– Müəllim, tam o vaxt ailənin böyükləri: "Sənin əlin çörəyə çatdı, yaşın da gəlib çatdı, üstəlik keçir hələ, evlənməlisən", - deyib əmisinin evdə qalan qızını Nurullah qardaşa sırıyırlar!

Həmişə söhbəti uzaqdan dinləyən, atılmış kağızları toplayıb gələndə çuvalını bir kənara qoyub burada çay içib, dincələn Roman Baki yaxınlaşır bizim masaya.

– Qız da bundan yeddi yaş böyükmüş, müəllim! Üstəlik də pəhlivan kimi bir qız! Əmisi oğlanlarla güləşdirirmiş, güləşdə kəndin bütün uşaqlarını, hətta, yeniyetmələrini yıxarmış! Qar çox yağanda da bunu qoltuğuna vurub məktəbə aparırmış!

– Düzdümü?

Gülümsəyir Nurullah qardaş:

– Roman Bakinin dediyi kimidir, ustad! Dur, o səhnəni oxuyum:

– Yox, oxuma, danışsan daha yaxşıdı... Sən bu vəziyyətə etiraz etmədinmi?

– Nə etiraz, ustad, o zamanlar bizim söz haqqımız yoxuydu ki.

Romanın ardını Roman Baki danışır:

– Bir axşam məşvərətə yığışırlar, müəllim. Əmisinin qızını calayırlar buna. Bu eşqin iztirabı da eləcə ürəyində qalır qəribimin!

– İmam nigah duasını oxuyarkən, əslində Nurullah qardaşın ölüm fərmanını oxuyurmuş. İmama necə acığı tutursa, camidən, məsciddən soyuyur. Onun arxasında dayanıb namaz qılmır. Cümə namazına qonşu kəndə gedərmiş ondan sonra!

Mən bir neçə aydır gəlib-gedirəm çayxanaya, ara-sıra Nurullah qardaşın radarına düşürəm və məcbur olub hekayəni dinləyirəm. Yeni olduğumu bilir

çayxananın sakinləri, Nurullah qardaş detalları unudan kimi araya girib davam edirlər...

Gənc ədəbiyyat müəllimi Tacəddin isə tam bir donuzdu. Meydani baba “arsız” – deyir ona. Qoltuğunun altından qəzet, jurnal, kitab əksik olmur, Nurullah qardaşın romanının ən ciddi dinləyicisi, tənqidçisi də odur... Yorulub-usanmadan romanın qaralamasını oxuyur, qırmızı qələmlə bütün səhvləri işarələyir. Tacəddinin tənqidindən keçən dəftər qızılca çıxarmış uşağa dönür. Sonra şagirdlərinə tapşırıq verirmiş kimi Nurullah qardaşa nələr etməsini diktə edir...

Elə sahil qəsəbəsinə qayıdıb itik eşqini axtarmağa gedərkən əmisinin qızına ilişən Nurullah qardaş həzin səs tonuyla romana davam edir...

– Belə, ustad, - deyir, illərlə heç kimə aça bilmədim dərdimi...

Bu cümləni Tacəddin havada qapır:

– Ustad, – deyir, bu dərd sənətə, ədəbiyyata yönəldir Nurullah qardaşı! Heç şübhəsiz ki, onun içində müdhiş bir sənət cövhəri də vardı! Fəqət içindəki sənət cövhərini ortaya çıxarmaq üçün axtardığı mühiti heç cür tapa bilməmişdi. Hərçənd ki, burada Meydani Baba kimi ciddi bir xalq ozanı, Əmir bəy kimi, sizin kimi yazdıqları Boğazkörpünü çoxdan aşmış yazarlar da var. Amma siz də təsdiqləyərsiniz ki, Aşıqlar Çayxanasının sakinləriylə onun arasında ciddi bir kod fərqi var, ustad! Bax, buraya yazıram! Nurullah qardaş özünü və qabiliyyətini kəşf etmək ərəfəsindədir! Yaxında onun romanı yeri-yerindən oynadacaq, görəcəksiniz...

Gənclərin lağlağısından Roman Bakinin isladıb çuvala basdığı kağızlar kimi əzilən Nurullah qardaş Tacəddinin bu elmi təhliliylə özünə gəlib yenidən “dirilir”. Özünəinamı geri qayıdır.

– Nurullah qardaş bu romanı nə vaxtdan yazır, Tacədddin?

– On iki ildir. Amma mən son üç ilinə şahid oldum.

– Niyə bu qədər uzatdı?

– Əfəndim, məmurluq...

Nədənsə Nurullah qardaşın yazmasına, oxumasına, danışmasına heç imkan vermirlər. Tacəddin də danışmasına izn vermir:

– Dövlət məmurluğu ayaqqabı bağı kimi Nurullah qardaşın ayağına dolaşıb ölkəni silkələyəcək sənət hadisələrini ortaya qoymasına imkan vermirdi. Yaşadıqlarını yazmaq üçün vaxt tapmırdı. Yaz ərizəni, çıx təqaüdə, qardaş – dedim!

– Qardaş, bu üzdən təqaüdçü oldu, eləmi?

Bir az utanır Nurullah qardaş:

– Hə, ustad, Tacəddin bəy yazdıqlarımı oxuyanda çox təsirləndi, “Sən məmurluğu unut getsin, ədəbiyyat azad adamların işidir, diqqətini bu romana cəmləməlisən, bu bir sənət hadisəsidir”, – deyincə...

Yenə sözünü kəsir Tacəddin:

– Təsirlənmək də sözdü? Sənin romanındakı qəhrəmanın yaşadığı eşq əzabları yuxularımı qaçırır. Bu məsum sevgiyə qarşılıq verməyən qızı öldürməyim gəlir!

Bu arada Tacəddin mənə bir göz vurub davam edir: Nurullah qardaş da getdikcə gərginləşdirir oxucunu, ustad! Heyran olmamak mümkün deyil. Bu çayxana əhli illərdi bu romanın bitməsini gözləyir!

– Madam ki, oxucu bu romanı dörd gözlə gözləyir, niyə bitmir?

– Təbii ki, təqaüdə çıxınca Nurullah qardaş bir boşluğa düşdü. Uzun müddət diqqətini romana cəmləyə bilmədi. Amma birlikdə yoluna qoyacağıq bu məsələni. Nurullah qardaş bu mərhələdə böyük sənətkarlara xas yaradıcılıq həyəcanı yaşayırdı...

– Başa düşürəm...

Nurullah qardaş bir neçə gün əvvəl Tacəddindən eşitdiyi cümlələrlə özünü ifadə etməyə çalışır:

– Həyatın bir az fərqli tərəflərini kəşf etmək istəyirəm, ustad! Bu aralar bir az musiqiyə meyil edirəm. Fərqli insanları tanımaq istəyirəm.

Tacəddin məsələnin əslini izah edir:

– Əslində yaşadığı prosesi tam ifadə edə bilmir Nurullah qardaş! Məncə xaladan qaçış meydanı yaratmaq istəyir özünə. İçindəki eşq sızıltısını nəğmələrdə axtarmaq istəyi də ola bilər. Əslində, hər bir böyük sənətkar ruh kimi axtarış sorağındadır.

– İçimdə qəribə sözlər ilhamlanır, dilimdə bəstələr dolaşır bu aralar...

– Yaşamaq yaralanmaqdır, Nurullah qardaş, - deyir Tacəddin. Bu romana köklənmək üçün gərək daha çox yaralanasan!

Romanını yazıb qurtarmaq üçün təqaüdə çıxan Nurullah qardaş Tacəddin bəyin icazəsiylə bir müddət yeni axtarışlara başladı. Tacəddinin dediklərinə görə təəssüratlarını öz həyatının qəribəlikləriylə təsəvvür edib romanında əks etdirəcəkdir...

* * *

Xaladan qaçmaq yolları axtaran Nurullah qardaş bələdiyyənin pulsuz hüsnxətt kursları, ebru kursları, keçə və taxta boyama kurslarına bir müddət gedib-gəldi... Bunlar onun içindəki sənət eşqini qane etmədi ki, daha sonra bələdiyyə xoruna yazıldı. Orda da axtardığı nəğməni tapmayanda, bu dəfə də gedib bələdiyyənin ney kursuna yazıldı...

Günlərlə, həftələrlə nəfəsini qaraltsa da, neydən bir səs çıxarmayınca ümidsizliyə qapıldı. Ancaq neyin niyə bu qədər yanıq bir səs çıxardığını və ney səsinin arxasındakı təsəvvüf fəlsəfəsini dərk etmişdir. Üstəlik, bu alətdən səs çıxara bilməməsinin səbəbini ney ustadının sözləriylə izah edirdi:

– Bu aləti inlətmək üçün bizim də ürəyimizin dağlanması, köksümüzdə yeddi deşiyin açılması lazımdır ki, biz də bu ney kimi acıyla inləyək! Nəfəsimiz bu alətin nəğməsinə dönsün. Təəssüf ki, mən bu işi də bacarmayacam!

Fəqət Tacəddin bəy onun içindəki cövhərə inandığı üçün məyus bir şəkildə özünə qapanmasına izn vermədi, sıxıntısının qarşısını aldı, içindəki sənət yanğısını yenidən alovlandırdı. O gün səsini yüksəldib Nurullah qardaşa tərəf dönərək həmişə olduğu kimi tapança kimi açıldı:

– Səhv elədin, qardaş!

Nurullah qardaş çəçədi, udmaq istədiyi çayı püskürdü, islaq dəsmalını çıxarıb hər yeri təmizlədikdən sonra soruşdu:

– Nəyi?

Tacəddin bütün ciddiyyətiylə cavab verdi:

– Nəyi!

Nurullah qardaş əvvəlcə hadisəni dərk edə bilmədi, uzun-uzadı baxdı. Tacəddin onun ney üfürmədəki bacarıqsızlığının arxa planındakı fəlsəfəni izah etdi:

– Nəfəsli alətlər sənin içindəki dəli eşqi tərənnüm edə bilməz, Nurullah qardaş! Mistik bir çalğı alətidir ney. Qırx il çalışsan da, sən onu çala biməzdin!

– Niyə?

Tacəddin oturduğu stoldan qalxdı, divardakı sazlardan birini qapıb gəldi:

– Çünki səndəki coşqun dünyəvi ruh ilə uyuşan alət budur! Səndə Qaracaoğlan damarı var, qardaş. Sən hər çeşmə başında bir gözəl sevməli, duyğularını sazla ifadə etməlisən!

Meydani Baba müridlərindən biriylə nərd oyanırdı. Zərlər əlində qaldı. Tacəddinin bu sözlərindən sonra öz-özünə:

– Hər rəngi boyadınız, bircə qaldı fıstığı bənövşəyi, - deyərək zərləri tulladı.

Tacəddinin qazlamasıyla saz kursunu bir müddət davam etdirdi. Konservatoriyada öyrəndiklərini Aşıqlar Çayxanasında kimin olduğu bəlli olmayan sazlarla aylarla çalmağa çalışdı, amma “Gəlin Ayişəm”dən o yana keçməyəndə, aşıqların qəzəbinə uğradı:

– Gözünü sevim, Nurullah qardaş, bu dınqıltını kəs!

– Sənin üzündən səhvən oyunu bitirdim, Nurullah qardaş! Bir yük maşını say əlimdə qaldı!

– Allahı sevirsənsə, saza əziyyət vermə! Burax bu sazı! Sənin yaşıdların Həccə gedir, Nurullah qardaş!

Boş vaxtlarında domino oynayan aşıqlar sərt baxışlarıyla sazı divara asdırsalar da, Nurullah qardaşın içindəki melodiyalar susmurdu. Tacəddin isə hər gün dərsdən çıxanda gəlib Nurullah qardaşın hesabına günortadan sonrakı qəhvəsini içdikdən sonra onun içindəki sənət cövhərini üzə çıxarmağa çalışırdı:

– Yox, yanılmışıq, saz da sənə görə deyilmiş. Ən yaxşısı sən eşqi tərənnüm edən şeirlər; daha doğrusu, mahnı sözləri yaz. Sənin sözlərinə bəstələnmiş mahnılar üçün bir yanıqlı səs tapıb bir də kaset çıxardıqmı, işlər düzəldi. Milyonlarca kaset satarsan vallah, sonra pullar sel kimi gələr. Bir də sənin mahnılarından birini Müslüm Baba oxusa ha...

Bu dəfə də bazarı silkələyəcək mahnı sözləri yazmağa başladı, hətta, bəstələməyə başladı. Meydani Baba mənə doğru əyilib:

– Ustad, dedi, Tacəddin var ha, Nurullahı yeyib axırda çörəyə möhtac edəcək.

Maraqlandım:

– Nə oldu ki, Meydani Baba?

– Tacəddin var ha, müəllim, tam bir donuzdu! Şirin diliylə saman altdan su yeridər. Bir ilanın köynəyini soyundurub, o biri ilana geyindirər. Bizim yazıq İrfanı yox etdi bu.

– İrfan kimdir?

– Yan-yörəmizdə dolanıb, şeir yazmağa həvəslənirdi. Ara-sıra bir şeylər də yazardı, biz də könlü xoş olsun qəribin, – deyə, “yaxşıdır” – deyərdik. Tacəddinə ilişdi, aşıq oldu, o da bunun ağlını oğurladı. “Səndə könüllərdəki dəmiri əridəcək bir eşq nəfəsi var”, - deyə başını doldurdu, bir də təxəllüs verdimi buna?

– Haddadi!

– Off! Təxəllüsü də dəmiri əridən eşq nəfəsinə uyğunmuş. Sonra nə oldu?

– Sonra kredit kartıyla 36 hissə ödəyəcək bir nəşriyyat tapıb kitab çıxardı Haddadiyə. Kitabların bazarda bomba kimi partlayacaq, - deyib qazladımı bunu?

– Həə, sonra nə oldu?

Ofisiant Aşıqlar Çayxanasının tarixçəsini bilir, sözü həmişə olduğu kimi Meydaninin ağzından qapır:

– Kitablar Haddadinin əlində partladı, müəllim! Kredit kartının borclarını ödəyə bilməyincə, evinə icra məmuru gəldi. Bir kisə kitabı yüklənib birbaşa bələdiyyəyə getdi. “Hər kəsin kitabını satın alırsınız, mənim kitabımı da alın, yoxsa bələdiyyənin qarşısında yandıraram bu kitabları”, – dedi.

Meydaniyi buraxıb ofisianta tərəf çöndüm:

– Yandırdımı kitabları?

– Yox, başçı buna: Yaxında “Qarpız festivalı” var, orada şeir yarışması olacaq, sən bizim həmşəhərlimizsən, gəl, orda şeirlərini oxu, sənə bir hörmət edək – deyir. Festivalda da buna bir-iki şeir oxutdurub mükafat olaraq bir yük maşını qarpız verdilər.

– İndi nə edir Haddadi?

–Bazarda qarpız sartır.

–Haddadinin şeiri necədir, Meydani baba?

–Necə olacaq, təzəkdən düzəldilən tərəzinin keçi qığından olur dirhəmi! Bizim Qul Tahir ona bir həcv yazmışdı, o şeirdən bir dördlüyü xatırlayıram:

***Eşq xamurum daşa döndü,***
***Qədir bilməz oxlavdan!***
***Haddadi xəyala daldı,***
***Pay umur, paxlavadan!***

Ofisinat yenə ortaya atılır:

– Burada çox adamın ocağını söndürdülər, müəllim. Bu Tacəddin bəy var ha, dələduz adamdır, Nurullah qardaşı Haddadinin gününə salacaq, bax ha, buraya yazıram!

– Onun gününə salacaq, bu gavur. Bir şirin dili var ki, yalanı doğru kimi danışır, – deyir Meydani. Belə ağlı qıtları başına toplayır, ağıl verir, axşama qədər onların hesabına çay, qəhvə içir, sonra ortadan yox olur... Sənin əsərlərinə kaset çıxaracağıq, – deyə təqaüdə görə ödənilən birdəfəlik pulu xırman edib sovurdular, ustad! Amma bu Nurullah heç ağıllanmadı.

–Necə yəni, hələ bir kaset işi də var?

–Hələ çox şey var, ustad. Sən işdən sonra bizim ofisinatı gör, ondan soruş, sənə hər şeyi danışsın.

Səhəri gün Nurullah qardaşla söhbət edərkən gördüm onları. Tacəddindən kaset məsələsini soruşdum, dilucu cavab verdi:

– Ustad, Nurullah qardaşın şeir sözlərini və bəstələrini, daha doğrusu “yanıq könül nəğmələrini”, ruhuna uyğun oxuyan bir istedadlı gənc tapa bilmədik. Əgər tapa bilsəydik, kasetlər partlayacaq, yox, satacaqdı! Çünkü sözləri də, musiqisi də möhtəşəmdi, – deyir və irişərək oxuyur:

***Eşq kədərin nəticəsi,***
***Qəlbim onun məskəni***
***Olmaz eşqin heç keşkəsi***
***Sevəcəksən, sev, gözəlim...***

– İstedadlı gənc tapmadınızmı?

– Axırda qardaşımın bəstələrini səsləndirəcək “kədərli” və “qarşıqlıqsız sevgini” tərənnüm edəcək orijinal, yanıqlı, könül oxşayan mahir bir “səs” tapdıq təbii ki... Nurullah qardaş da, təqaüdçü pulunu qoydu ortaya! Əslində ürəyini qoydu ortaya! Elə deyilmi, Nurullah qardaş?

– Elədi, elədi, Tacəddin ustadın buyurduğu kimi...

– Necə oldu, Nurullah qardaş?

Tacəddin “dərsim var”, – deyib sivişib aradan çıxdı. Nurullah qardaşsa utancaq-utancaq:

– Ustad, gecələr qulağıma sözlər və melodiyalar pıçıldayırdılar. Mən də həmən not dəftərimə qeyd edirdim. Demə bunlar mənə ilham verilirmiş. Tacəddin bəy belə deyirdi. Nəsə, ustad, fikir vermə bunlara...

Nurullah qardaş bu uğursuzluğu danışmaq istəmədi nədənsə. Mən də üstünə getmədim. Səhəri gün ofisiantdan soruşdum. O danışdı mövzunu:

–Tacəddin bəyin layihəsi idi, müəllim. Nurullah qardaş bir neçə il əvvəl musiqi bazarını yerindən oynadacağını söyləmişdi. Sözləri və musiqisi Nurullah qardaşa aid parçaları yanıq səsli bir qızcığaza oxutdular... Qul Mustafanın dəstəsi sazla müşayiət etdilər. Nurullah qardaş təqaüdünü səsyazma şirkətinə yatırdı!

– Sonra?

– Sonra, – deyir, gənclərdən biri sözü ofisiantın ağzından alaraq: Sonra kaset bazara çıxana qədər kaset dövrü bitdi, CD dövrü başaldı. Maqnitafonlar da antik mala döndü!

– Eee?

Əlində sazı dınqıldadan gənclərdən biri söhbətə qarışır:

– Xala Aşıqlar Çayxanasını basdı, şüşəni-çərçivəni qırdı. Hamımız pərən-pərən düşdük. Xalanın atdığı daşlardan biri Qul Hikmətin başını yardı. Sənin biləcəyin müəllim, kasetlər Nurullah qardaşın əlində partladı, gurultu qopardı yəni. Kaset məsələsinin finalını ofisiant danışır:

– Müğənninin pulunu ödəmək üçün ümidini kaset satışına bağlamışdı, kasetlər partlamayınca, borcları ödəmək üçün maşınını da satdı. Kaset işi bir az uzun çəkdi, texnologiyanın qurbanı oldu Nurullah qardaş.

* * *

Musiqi bazarını alt-üst edəcək gənc bir istedadı kəşf etmək üçün sərmayəni yelə vermişdi Nurullah qardaş... İçindəki sənət eşqi isə susmaq bilmirdi. Sənətin hər hansı bir sahəsində mütləq partlayış edəcəkdi!

İndilərdə daşa dəyən bir eşq romanını ikinci (!) dəfə yazır. Təbii ki, xaladan gizlin. Daha əvvəl iki dəfə çap olunub bu roman! Təbii ki, mətbəədə yox. Roman qaralama halında olarkən əvvəlcə xala tərəfindən hücuma məruz qalmışdı! Xala baxıb görmüşdü ki, bu gizli bir eşq romanı yazır! Qiyamət qoparmışdı! Nurullah qardaşın dediyinə görə xala ədəbiyyatın və sənətin düşmənidir. Romanın qaralamasını gözünü qırpmadan sobaya təpmişdi... Yəni roman bir də sobaya atılmışdı!

Eşq atəşiylə illərlə yanıb kül olmuş bir ürəyin və kül olmuş bir roman qaralamasının müəllifidi Nurullah qardaş! Xalanın qəzəbinə gəlmədən bu romanı qurtara bilsə, ədəbiyyat dünyasını silkələyəcəyindən əmindir. Tacəddin elə deyir...

Hər gün stoluna çay qoyan ofisiant soruşur:

– Roman nə vaxt qurtaracaq? Səs-küy nə vaxt olacaq, Nurullah qardaş?

Həmişə olduğu kimi Tacəddinin bir gün əvvəl ona söylədiklərini söyləyir, bığ altdan gülənlər də eşitsin deyə yüksək səslə təkrarlayr:

– Gerçək bir həyat hekayəsidir bu roman, – deyir. Hər cümləsi yaşanmış bir kədəri ifadə edir, yaxında ədəbiyyat bazarında bomba kimi partlayacaq!

Gənclər ipə-sapa yatmır ki? Həmən hücuma keçirlər. Üstəlik təkləyirlər Nurullah qardaşı. Gəncləri iki bədii cümləylə yerində oturdacaq Tacəddin də yox.

– Ehtiyatlı ol! Xala səni yaxalasa, roman əlində partlamasın, Nurullah qardaş!

– Bu roman da kaset işi kimi gurultu qoparmasın, Nurullah qardaş!

– Bu roman da on iki ildir yazılır, qardaş. Barı bu roman bitənə qədər cəmiyyətin roman anlayışı dəyişilməsin?

– Kitab hər dövrdə kitabdır! Sən yaz, Nurullah qardaş, - deyirəm, Tacəddinin rolunu oynayıram.

Xalanın qəzəbindən qorxduğu üçün Aşıqlar Çayxanasında öz cibindən kilidli bir dolab aldı. Romanın qovluqlarını burada qoruyub mühafizə edir. Üç dəftərə üç mərhələni yazır. Birinci dəftərə yaşadıqlarını necə gəldi nəql edir, sonra bir həftə boyunca yazdıqlarını ağlamaya çıxarıb sənətsevər gənclərə oxuyur. Çayxanada vaxt keçirən xalq ozanları, şair-yazıçı heyəti bu romanı on iki ildir eşitdikləri üçün artıq yazdıqlarını onlara oxumağa, fikirlərini öyrənməyə cəsarət etmir.

Bu işə niyyətlənsə də, həmən susdururlar onu, sonra ardından söz atırlar:

– ¬Mənim bildiyim 132 dəftər oldu, hər ay ağlamaya çıxarır, amma bitmədi bu roman...

– Xala bu nüsxəni da yaxalasa, bu dəftərləri də sobaya bassa, hamımızın canı qurtarar, yenisinə cəsarət eləməz daha...

– Nurullah bu romana başlayanda bizim oğlan orta məktəbdə oxumağa təzəcə başlamışdı. Oğlum müəllim oldu, roman hələ qurtarmadı!

– Qardaş, romanı mənə ilk dəfə oxuyanda bir çinar yarpağı vardı, budağından qopub yerə düşürdü... Keçən gün o bölümü gənclərə oxuyanda qulaq müsafiri oldum, o yarpaq hələ də yerə düşməyib!

– Romanın qəhrəmanı on iki ildir sahildə qızı gözləyir. Limana gedib-gəlməsi 48 səhifə davam edir. Keçən gün yazırdı, boynumu uzadıb arxadan gizlincə baxdım, qız hələ də gəlməyib!

– Romanın bir hissəsində oğlan qıza məktublar göndərib məktubun sonunda sahildə gözlədiyini yazırdı. Qız da 8 il əvvəl məktubların birinə cavab vermişdi, sahilə gələcəyini yazmışdı. Demək, sözünü tutmadı qəhbə!

Cavanlarsa küyləyirlər Nurullah qardaşı:

– Müdhiş bir eşq romanıdı, qardaş!

– Başdan-ayağa eşq əzabı, melanxolik!

– O qız o sahilə gələcək! Bu roman xoşbəxt sonluqla bitəcək!

– Sən yaz, Nurullah qardaş, o qız gəlməsə, zorla gətirərik, elə deyilmi, dostum?

– Evindən alıb saçından sürüyə-sürüyə gətirərik, dostum! Nurullah qardaşa bu zülm yaraşarmı? Adam səkkiz yüz əlli səhifədir qızı gözləyir!

– Bunu ssenariyə uyğunlaşdırsana, qardaş, dəhşət bir film olar!

– Tacəddin bəylə ssenari texnikası üzərində araşdırmalar aparırıq, gənclər. Əvvəlcə romanı bitirim, əlbəttə, ssenari də yazacağam...

Tacəddin müdaxilə etməsə, bu roman on beçinci ildə bitər, amma zalımın oğlu Nurullah qardaşın ağlını deşdəkləyir durmadan. Meydani babaya görə saman altından su yeridən arsızdı Tacəddin. Yeni dəftərlər aldırıb ən azından yeddi dəfə ağlamaya çıxartdırdı romanı. Əslində, o da xala qədər ədəbiyyat düşmənidir. Amma son on iki ildə ofisiantların belə əzbərlədiyi romanının bu sadiq dinləyicisini, məsləhətçisini itirmək istəmir Nurullah qardaş.

Səbirlə və ciddi-ciddi dinləyir Nurullah qardaşın oxuduqlarını, onun dəftərindən bir-iki səhifə qopardıb qeydlər aparır, tələbələrinə ev tapşırığı verirmiş kimi başlayır sonra:

– Nurullah qardaş, zəmanəmizin gənclərinin bu romandan ötrü ürəkləri gedəcək... Amma sənin bu romanını bir az hərəkətə gətirmək lazımdır.

– Necə yəni?

– Qəhrəmanın xəyalında da olsa, bir-iki dəfə görüşsün bu sevgililər, heç olmasa oğlan bir dəfə sahildə öpsün qızı, belə birlikdə qumluqda uzansınlar,

dalğalar ayaqlarını yalasın, gün batanda paltarlı-paltarlı suya girsinlər, sonra yaxınlaşsınlar bir-birlərinə, qaranlıqda yox olsunlar, o yoxolma oxucunun xəyal dünyasında gizli bir vüsala işarə etsin... Roman çox qurudu, qardaş! Oğlan qızı bir kərə öpmədən roman bitəcək, eləmi?

Səhəri gün on səhifə xəyali vüsal səhnəsi yazır Nurullah qardaş və Tacəddinin, cavanların münasibətini öyrənmək üçün oxuyur:

... Kədərli bir payız günüydü. Bir çinar yarpağı budağından qopub, üzüntü içində yerə düşürdü. O sarı yarpaq küləkdə sallana-salana aşağı enirdi. Dəniz ümidləri ölən yarpağa qəmli bir şərqi söləyirdi. Yarpaq havada o şərqini dinləyirdi. Cankut dərin bi qüssə içində o yarpağa baxır, qumsalda Selini gözləyirdi. Yaralı xəyallarla dərin bir düşüncəyə daldı. Birdən dəniz coşmağa başladı və dalğalar arasında bir su pərisi peyda oldu. Cankut bunun xəyalmı, gerçəkmi olduğuna qərar verə bilmirdi. Qız çılpaq ayaqlarıyla qumluqda yeriyərək Cankutun yanına gəldi, iki sevgili illərin həsrətiylə bir-birlərinə sarılacaqdılar ki... Cankut bunun bir xəyal olduğunu kədərlə anladı... Çinar yarpağı ağır-ağır yerə düşürdü.... Necədi? Oldumu, Tacəddin bəy?

– Təəssüf ki, olmadı!

– Niyə?

– Filmin ağladacaq yerində “kəsdik”, - deyən rejissor kimisən, qardaş! İmkan ver, bu uşaq qıza bir sarılsın, heç olmasa islaq saçlarından öpsün. Qəm, kədər, ələm, üzüntü, dərd, iztirab... Romanı boğursan, qardaş! Qız gəlsin, tut əlindən, çək özünə sarı, qolunu belinə dola, imkan ver, islaq saçları üzünü oxşasın!

Gənclər də başlayır romanı və Nurullah qardaşı tənqid etməyə:

– Artıq özünü yorma, Tacəddin müəllim! Roman xalanın əlinə keçər deyə, qorxur qardaşım. Bax, buraya yazıram, o qız o sahildə Nurullah qardaşın yanına anadangəlmə üryan gəlsə, Nurullah qardaş “Üşüyəcəksən bacım”, - deyə qaçıb yorğan gətirər!

– Hahhaaaaa!!!

Tacədin əlindəki qələmlə qarşısındakı kağıza nəsə yazıb davam edir:

– Əlli il əvvəlin romanını o utancaq dəliqanlının o anki duyğularıyla yazırsan, qardaş! İndiki ağlınla o gəncin ruhuna girməlisən! Nəsə, romanda başqa bir məsələ diqqətimi çəkdi...

– Hansı məsələ?

– Sənin romanın geniş oxucu kütləsinə yönəldilməli, hər kəsə xitab edilməlidir. İndi mühafizəkar axınlı bir gənclik də var. Fərqli nəsillər tərəfindən bəyənilərsə, əsil partlayış o zaman olar. İndi sən neyləyirsən bu roman boyunca?

– Mənmi?

– Kim olacaq, ya sən, ya roman qəhrəmanın Cankut! Nə fərq edər? Cankut nə edir? Aylardı sahildə dolaşır, Selini gözləyir, Selin də gəlmir. Burada qəhrəmanın daxili dünyasına girməli, iç dünyasındakı çarpışmaları oxucuya göstərməlisən!

– Necə olacaq bu iş?

– Cankut bir ümidlə yenə getsin sahilə, qız da gəlməsin!

– Tacədin müəllim, roman 850 səhifə oldu, qız onsuz da gəlmir, bundan sonra da gəlməyəcək.

– Burada ciddi şeylər danışırıq gənclər, susun görək. Hə, nə deyirdim, qardaş? Hə... Sən yenə necə olsa da gecə boyunca gözlə qızı!

– Mənmi?

– Ya sən, ya Cankut qardaş. Sən Cankutun şəxsində öz romanını yazmırsanmı?

– Həə, hə, elədi...

– Sən desəm də, Cankutu nəzərdə tuturam. Sən gözlə, qız gəlməyincə daxili bir ziddiyyət xəyal et.

– Necə xəyal edim?

– O arada yaxınlıqdakı məsciddə səhər azanı oxunsun... Yanıq bir müəzzin səsi, səhər vaxtı bir azan... Özünü günahkar hiss elə və o anda dəstamaz alıb məscidə get. Namazdan sonra sevdiyinə qovuşmaq üçün dua et... İçində bir hidayət işığı yansın.

Yan tərəfdən biri söz atır:

– Tacəddin müəllim doğru söyləyir. Elə boş-boşuna sahildə gəzmək olmaz. Yer-göy dua üstündədir. Dua edəndə Allah da yardım edir.

Tacədin özünü eşitməməzliyə vurur, tənqidə davam edir:

– Bu yerdə romana xəfif bir təsəvvüf küləyi də əlavə etsəkmi, əcaba?

– O vaxt roman çox dağılmazmı, Tacəddin bəy?

– İmkan ver dağılsın, qardaş. Qorxma! Elə bitişdirəcəyik ki, oxucu zehnində bütövləşəcək o dağınıqlıqlar. Sən bu səhnəni yaz, gəl, sonra müzakirə edərik.

Səhəri gün Nurullah qardaş yeni oxucu kütləsinə romandan xitab edir:

“... Səhər açılırdı. Çinar yarpağı budağından qopub, sovrula-sovrula düşürdü. O arada səhər azanı oxunmağa başladı. İçindən nəsə bir şeylər qopdu Cankutun. Eynən çinar yarpağı kimi içindən bir şeylər düşürdü. Sanki başqa bir aləmə köçdü ruhu. Selinin xəyalı yox oldu gözlərinin qabağından. İçində bir işıq yandı. O azan səsi qulağından tutub onu məscidə çəkirdi. Bu günahlardan təmizlənmək lazımdı, dedi. Kədərlə qollarını çırmaladı, dəstəmaz aldı və azan səsinin gəldiyi tərəfə qüssəylə getməyə başladı...

Sevdiyi gəlməmişdi, amma sanki o həqiqi sevgiliyə doğru yaxınlaşırdı. Çinar yarpağı sovrula-sovrula düşürdü...”

– Bravo! Bravo! Nə yaman bir daxili ziddiyət yaxaladın, qardaş! Belə romanın 15 səhifəsində bir dəfə Cankut dəstəmaz alsın. Ancaq dəstəmazını kədərlə deyil, sevinclə alsın! İki rükət də namaz qılsın, yaxşı olar. Çox yaxşı irəliləyirsən, qardaş. Fəqət düşündüm də... Romana belə bir az da postmodern çeşid qatsaq, deyirəm...

– O necə olacaq?

– Bunu soruşacağını bilirdim. Al bu kitabı, oxu. Sənin üçün gətirmişəm.

– O kitab nədir ki?

– Yeni başlayanlar üçün Postmodernizm.

– Bacara bilərəmmi?

– Kralını yazarsan həm də. Onsuz da sənin tərzin də, bu romanın mövzusu da, buna çox uyğundur. Əslində, bu kitabı oxumağına belə ehtiyac yoxdur.

– Mən postmodernizm dediyin şeyi bilmirəm ki!

– Mən qısaca xülasə edim sənə postmodern ədəbiyyatı, romanı... Çox sadədir.

– Buyur, dinləyirəm, qeydlər də edirəm...

– Əvvəlcə gerçəkliyi ortadan qaldıracaqsan. Hadisə bütövlüyünü dağıdıb atacaqsan. Hadisələr zincirini qıracaqsan. Hər şeyi bir-birinə qatıb-qarışdıracaqsan. Yəni bir şey danışır kimi edib, danışmayacaqsan... Heç bir şeyi tam danışmayacaqsan. Hətta, yazıçını - danışanı öldürəcəksən, bəzən yarpaq danışacaq, bəzən çinar... Ölü danışanın yazdığı mətn, ölü bir mətin olacaq yəni! Ölü, cəsəd halında bir roman!

– Yaxşı da, Tacəddin bəy, oxucu nə başa düşəcək bu ölü romandan?

– Oxucuya əhmiyyət vermə, hər oxucu öz cənazəsini qaldıracaq!

– Çox qəribədir, vallah!

– Hə! Bir də başqa mətnlərlə əlaqə quracaqsan. Eşqdən danışırsan, məsnəvidən bir iki misra kopyalayıb yapışdır, araya da bir-iki cümlə atdınmı, al bu da sənə mətnlərarası əlaqə. Bir yazıçı var, son illər şişirdib dururlar, oxumadınmı? Adam illərdi Mevlanə ilə Şəmsin kisəsindən yeyir. Dövlət otlağı, necə olsa, hamı otlayır, sən də küncündən-bucağından qırpıdarsan, qardaş!

Heç ağlıma batmadı, Tacəddin bəy, amma dediklərini qeyd etdim, sınayacağam.

Nurullah qardaş qeydlərini götürdü və ertəsi gün postmodern mətnə yüksələrək gəldi: "...Cankut sahildə gözləyirdi. Əslində, gözləmirdi. Gözləyən Cankut deyil, Selen idi. Cankut hələ bu sahil qəsəbəsinə gəlməmişdi. O zaman çöllərdəki bir kənddə qoyun otarırdı. Sahildə görüb Selen zənn etdiyi isə qonşularının qızı Züleyxa idi. Züleyxa sahilə hardan gəlmişdi? Cankut qaranlıq bir uçuruma yuvarlanmışdı. Bəlkə də Yusif idi, quyuya düşmüşdü. Sonra bulağa getdi. Bulağın yanında bir çinar vardı. Çinarın səsini eşitdi bir an. Çinarın səsiydimi, yoxsa bulağın səsiydimi ayırd edə bilmədi. Ama o səsin danışdığı hekayəni dinləməyə başladı: Ayrılıq ruhun dünyaya sürgünündən başqa bir şey deyildi! Gerçək eşqin acısı - hicranın yarası burdan başlar. Neyin yanıq səsini eşitmədinmi? Onu qamışlıqdan kəsib vətənindən ayırdılar və köksünü dağladılar. O üzdən inlər, ayrılıqlardan şikayət edər... O anda çinarın budağından bir yarpaq qopdu. Yarpaq xəfif mehdən sovrularaq düşməyə başladı..."

– Çox yaxşı! Çox yaxşı! Hadisə zəncirini qırmısan, gerçəkliyi alt-üst etmisən, Cankutun aşiq olduğu qız Selendirmi, Züleyxadırmı, quyuya düşən Cankutdurmu, Yusifdirmi, zəhmət çəksin, oxucu düşünsün. Mətni yavaş-yavaş öldürürsən, qardaş, bu çox gözəldir.

– Vallah bu işi başa düşdüm, Tacəddin bəy!

– Başa düşsən də Mövlanədən sitatları bir az şişirtmisən, qardaş. Mətni kopyalayıb yapışdırmısan, dil birdən-birə dəyişir. Barı araya bir-iki cümlə soxuşduraydın? Nəsə... Romanın modelini dəyişdirdik, artıq sonuna gəldik, indi müdhiş bir sonluq səhnəsi olmalıdır... Əsl partlayış burada olmalıdır, əslində roman bitməməli, oxucunun zehnində davam etməlidir... Get romanını son səhnəsini yaz, bitirəndən sonra gəl, qardaş. Yaddan çıxarma, təsirli bir sonluq olmalıdı...

Nurullah qardaşın romanını qırx dəfə dəyişdirən, yetmiş dəfə ağlamaya çıxaran, otuz iki hissə əlavə etdirən Tacəddin bir gün anidən ortadan yox oldu... Nurullah qardaş romanın final səhnəsini yazmamış onun təyinatı çıxdı, başqa bir şəhərə təyin edildi. Nurullah qardaş üzə-üzə quyruğuna gətirdiyi romanı qurtarmaq üçün yenə axtarış içindəydi. Tacəddin gedərkən bərk-bərk tənbeh etmişdi:

"Unutma, Nurullah qardaş, bu müdhiş bir roman oldu. Amma son səhnəni çox təsirli yazmalısan!

Elə bitirəcəkdir ki, romanı, roman əslində bitməyəcəkdir! Bu ölü romanı oxuyan hər oxucu öz cənazəsini qaldıracaqdır!

Roman boyunca altmış dəfə təkrarlanan səhnə son bölümə də hökm etdi: kədərə, hüznə, qəmə boğulan, sevdiyi qızı xəyalında belə öpməyə qıymayan qəhrəman yenə sahilə gəlib, sevdiyini qumsallıqda görmək ümidiylə dolaşmağa başladı...

Aşıqlar Çayxanasına arada-bərədə baş çəkən, Nurullah qardaşın romanının ilk doqquz ilinə şahidlik edən, sonrakı illərdə də romanın gedişatından xəbərdar olan usta bir yazar vardı. O gələndə hamımız başına yığışar, onu dinləyərdik. Meydani Babanın danışdığına görə Nurullah qardaşın romanına doqquz il səbr edən Əmir bəy axırda onu başından eləmişdi. Əmir bəyin yeni bir kitabı çıxmışdı, ona kitabını imzaladırdıq. O arada Nurullah qardaş da gəldi, kitabını imzalatdı və qovluğunu stola qoyaraq sözə başladı:

– Əmir bəy, çox xahiş edirəm, bir-neçə dəqiqə zəhmət çəkib məni dinləyə bilərsinizmi? Bir şey soruşmaq istəyirəm. Sizin kimi ustad bir yazıçıdan son bir tövsiyə almaq istəyirəm, - dedi.

Əmir Bəy az əvvəl kitabını imzaladan adamı qırmaq istəmədi, bezikmiş səslə:

– Hə, dinləyirəm, - dedi.

– Nəhayət romanımı bitirmək üzrəyəm, Əmir bəy! Amma romanı necə bitirəcəyəm mövzusunda bir az tərəddüdlərim var. Tacəddin bəy, təsirli bir səhnə olsun, - dedi, bu mövzuda sizin tövsiyənizi bilmək istəyirəm.

Doqquz il yaxından, üç il də uzaqdan bu romanı izləyən Əmir Bəy ciddi-ciddi bəzi suallar soruşdu:

– Oğlan yenə o sahildədirmi?

– Hə!

– Qız gəlib çıxdımı?

– Yox, gəlmədi!

– Sahildəki çinar ağacı durturmu?

– Durur.

– Yenə axşamüstüdürmü?

– Hə, hava qarlamaq üzrədir...

– O vaxt qeydlər elə, - dedi usta yazar.

– Hə, dinləyirəm, - deyərək qələmə-kağıza sarıldı Nurullah qardaş.

– Günəş batsın, - dedi hökmlü bir səslə. Hava da qaralsın... Cankut yenə kədərli bir şəkildə çinar ağacına doğru getsin. Selinin çinar ağacının altında olduğunu görsün. Cankut qızın onu gözlədiyini zənn edib həyəcanlansın. O arada qızın yanına gənc bir oğlan gəlsin. O gənc oğlan gələr-gəlməz, qızı çinara söykəyib öpməyə başlasın! Sonra qızla birlikdə çinarın dibindəki qumsallığa uzansınlar... Finoş da sənə üç dəfə hürsün. Sən də kədərlə evinə qayıt!

Gənclər qəhqəhələrlə gülməyə başladılar. Əmir Bey gözlərini ağardanda özlərini yığışdırdılar...

Səkkiz yüz əlli səhifə boyunca öpməyə qıymadığı qızı başqa bir oğlana qapdırmasının kədəriylə qeydlərini edib romanı bitirmək üçün oturduğu stoldan güclə qalxan Nurullah qardaş oradan ayrılarkən usta yazar arxasıyca səsləndi:



– Nurullah!

– Əfəndim, Əmir bəy!

– Çinarın budağından qopan o yarpaq da Selinlə sevişən oğlanın üstünə düşsün!

***Çevirəni: Təranə VAHİD***

***Leonid İVANOV***



# MİLAD GECƏSİNDƏ...

***Leonid Kirilloviç İvanov Tümen vilayətinin tanınmış yazıçılarındandır, amma bütün Rusiyada çap olunur, çeşidli ədəbi ödüllər qazanıb. Hekayələri reallığına və yığcamlığına görə seçilir və onlardan biri də Sizə təqdim etdiyimiz bu ədəbi örnəkdir.***

...Qarılar bayrama can-başla hazırlaşmışdılar. Matveyevna iki cür piroq bişirmişdi; qarağatla, həm də moruqla. O, döşəmə öz yerində, pəncərə şüşələrini də yumuşdu və sonra da qəzetlə silmişdi ki, parıldasın. Nyura arvad onun yanına əliboş gəlməmişdi, bir tava göbələk qovurmuşdu və bir butulka da qapağı açılan kimi itburnu gülünün qoxusu ilə diqqət çəkən ev arağı gətirmişdi.

Ev sahibəsi həmişə oturduğu yerdə – İkonanın altında, Nyura arvad isə onunla üzbəüz oturmuşdu. Təzəcə qaynamış samovarı masanın küncündə elə yerləşdirmişdilər ki, lüləsinə hər ikisinin əli çatsın.

– Hə, Milad bayramın mübarək, Nyura! – Deyə Matveyevna dolu qədəhi əlinə aldı.

– Mən də səni təbrik eləyirəm.

İçdilər və tavada hələ də buğlanan göbələkdən hərəsi bit dilim götürdü.

– Birinci dəfədir biz müqəddəs Miladı ikilikdə qeyd eləyirik, – Nyura arvad dedi, – özü də qaranlıqda...

– Bəsdi, Nyura, ağlaşma qurma yenə, əziz gündü... Sən elə həmişə deyinirsən, gah təqaüdün azlığından, gah bahaçılıqdan. Şükr etmək lazımdı bu günə.

– Bu günün nəyinə şükr eləyim? İncəvara yayda işıqlarımız yanırdı. Allahın hər günü televizora baxırdıq, başımız qarışırdı. Deyirdilər ki, güzəranımız düzəlir, xoşbəxt günlər gələcək... Matveyevna, de görüm, hanı o xoşbəxt günlər? Yüz evlik kənddə iki qarı qalmışıq, bu kınddə də nə işıq var, nə sabaha ümid. Hələ nə yaxşı ki, Kolya öz “Belarus”uyla yollrımızın qarını təmizləyir, yoxsa, heç kim bizdən xəbər də tuta bilməzdi.

– Elə danışırsan ki, guya bizi itirib-axtaran var... Arxayın ol, bizə bir şey olsa, heç kimin xəbəri olmayacaq... İndi mobil telefon zəmanəsidir, amma bu andıra qalmış telefonu harda şəbəkəyə qoşasan?.. Hələ Stepan payızda deyirdi ki, “daçniklər” köçən kimi kəndin işıqlarını söndürəcək, çünki göstəriş belədir. Yuxarıdan belə tapşırıblar... Düzünə qalsa, heç yuxarını da qınamağa

dəyməz; iki qarıya görə o boyda transformatoru gecə-gündüz işlətməyəcəklər ki? Axı, burada rentabel, səmərə məsələsi də var. İki qarıya görə gərək bütün işıq sisteminə nəzarət eləyələr. Bəs onda qənaət necə olsun?

Nyuraya elə gəlrdi ki, qulaq həyanı onu dəstəkləyir. Ona görə də sözünə qüvvət vermək istədi.

– Hə, indi hər şeyə qənaət eləyirlər. Əvvəllər təqaüdü evə gətirirdilər, amma indi gərək özün hər ay poçta gedəsən.

– Getmə də, səni məcbur eləyən var? Lap tutaq ki, gedib aldın, harda xərcləyəcəksən? Rayonun bir avtolavkası var, o da buralara yaydan-yaya gəlir. Onsuz da qəndi, unu kisə ilə alırıq, qurutduğumuz meyvələr də bizə yeni meyvə yetişənəcən çatır, samaqonu da özümüz çəkirik, daha bizə nə lazımdı ki?

– Orası elədi, amma ayıbdı axı... Belə çıxır ki, hamı bizdən üz döndərib. İşığımız yananda, telefonlarımız işləyəndə, heç olmasa, nəvələrimiznən danışırdıq hərdənbir, amma indi bayquş kimi oturmuşuq. Nə zəng eləyən var, nə bir məktub yazan, nə bir namə göndərən.

– Sən də söz danışdın da, lap tutaq ki, namə göndərdilər, hansı poçtalyon onu gətirəcək? Poçtdan bizim kəndə on kilometr yoldu, düz demirəm?

– Əlbəttə, düz deyirsən, lap ürəyimdən xəbər verirsən...

– Dərd birdi? İkidi? Axı, hansını deyim? Mənim böyük qızım payızda, – hələ onda kəndin işıqlarını söndürməmişdilər, – zəng eləyib dedi ki, ay ana, mənə kənd sovetindən bir arayış lazımdı, soruşdum, nə arayış? Nə yazsınlar o arayışda? Dedi, yazsınlar ki, sən mənim ijdiveniyamda yaşayırsan.

– Bu onun nəyinə gərəkdi ki?

– Pensiyaya çıxmaq istəyir, onu qandırıblar ki, ijdiveniyanda kimsə olsa, sənə əlavə lqotlar, imtiyazlar düşür. Mən də o poçt xarabaqalmışa bu çəliknən necə gedib çıxa bilərəm? On kilometr yoldu, paputni bir maşın düşə, ya düşməyə... Hələ razvilkada maşından düşəndən sonra da dörd kilometr yolu piyada getməlisən.

Nyura arvad sanki birdən-birə öz aləmindən qayıtdı və qeyzlə dilləndi:

– Hələ bilmək olmaz, kim kimin ijdiveniyasında yaşayır. Mən biləni, sən öz pensiyanı da ona göndərirsən, elə deyil yoxsa?

– Hə, orası elədi, əlimdən gələni eləməliyəm də... İpotekaya yazılıblar, nəvəmə mənzil alıblar. Heç onları da qınamıram. Altı baş külfət bir otaqda qalmışdılar. Bura bax, Nyura, bəyəm sən nəvələrinə məndən az xərcləyirsən? Bu yaşında ot biçib satırsan! Nəyə görə? Bütün yayı meşədən zənbil-zənbil mer-meyvə daşıyıb qurudursan. Bəyəm sənə meyvə qurusu lazımdı? Ağzımızda dişimiz var qax gəmirməyə?

Nyura arvad özünə haqq qazandırmaq istədi:

– Bostanın bir yanı meşəyə çıxırsa, o meşənin barını-bəhərini necə daşıyıb gətirməyəsən axı?

– Düz eləyirsən, Nyurka, axı, sən həm də hələ cavansan.

Nyura onun sözünü məzə ilə kəsdi:

– Hə, çox cavanam, cəmi yetmiş yaşım var.

– Elə mənim də dediyim budu da, hələ cavansan mənə baxanda. Mən səndən on yaş böyüyəm. Mənim yaşıma çatanda görəcəyik hər şeyi. Əlbəttə, mən o günü görməyəcəyəm, amma sən mənim bu sözümü xatırlayarsan.

– Naümid olma, ömür Allahın payıdı, həm də, göz dəyməsin, gümrahsan, yaşına görə canın suludu. Becərdiyin kartofun yarısı bostanda qalır. Payızda nəvələrin kisə-kisə daşıyıb aparırlar.

– Bəs özümüz?

– Mən də elə bunu deyirəm də, bizim özümüzə qalsa, bizə nə lazımdı? Hər şey, hər şey onlar üçündü... Təki nəvə-nəticə korluq görməsin.Yayda, bilmirəm televizorda eşitdin, ya eşitmədin, dedilər ki, bostanlara vergi qoyacaqlar. Nə əkiriksə, hamısına. Kartofa da, kələmə də, kədoya da. Guya qocalara təqaüd verməyə dövlətin pulu çatmır, təzə vergi yeri fikirləşib tapıblar. Görək sonra nə hoqqa çıxardacaqlar? Sonra necə dolanacağıq?

– Amma, bilirsən, məni ən çox düşündürən nədi? Daha çox nə düşünürəm? Yaradanın bizə rəhmi gəlsin, bizi xəstə eləyib yatağa salmasın... Bu barədə düşünməyə də qorxuram! Yatağa düşəndən sonra mən kimə lazımam?..

Matveyevna yerindən qalxıb taxçadakı neft lampasına əl atdı ki, görsün içində yanacaq qalıb, ya yox? Lampanın qulpundan tutub yüngülcə silkələyəndən sonra fitilini tərpətdi və birdən heyrətlə dilləndi:

– Nyura, sən bir başını qaldır, bayıra bax, yaxşı-yaxşı bax, nə görürsən? Hər yan nur içində üzür! Bu, Yaradanın qüdrətidir! – Və üç dəfə xaç çevirib ikonaya sarı çöndü, elə bu anda da onu titrətmə tutdu, – Nyurka, bəlkə yanğındı? Sən qıvraqsan, çıx küçəyə, gör bu nə məsələdi? Tez elə...

Nyura arvad keçən il qızının ona gətirdiyi, bir neçə yerindən tükləri tökülmüş şubanı çiyninə atıb, qaloşlu valinkalarını geyinib eyvana çıxdı və dərhal da anladı ki, ətrafı çıraqban eləyən dirəklərə bərkidilmiş elektrik lampalarıdı. Və gözlərinə inanmadığı üçün, evə keçərək otaqların da işıqlarını yandırdı. Və o ana qədər közərən neft lampası, sanki xəcalətindən öləziyib söndü.

– Matveyevna, gözün aydın, işıqları qoşublar! – Nyura arvad sonsuz sevinc və həyəcanla qışqırdı.

– Görürəm, kor deyiləm ki, – Matveyevna da titrək səslə mızıldandı. – Bu, Yaradanın inayətidir, Miladın təntənəsinə görə. Qurban olduğum istəməyib ki, biz peyğəmbərin mövludunu qaranlıqda qarşılayaq...

* * *

Əslində isə... Kolya işdən sonra, iş yerində peyğəmbərin mövludunu, necə lazımdı, qeyd eləyəndən sonra evə getmək istəyirdi ki, arvadı və uşaqları ilə də şənlik etsin. Amma yolda, ağlına nə gəldisə, buruldu dükana və bir butulka araq alıb üz tutdu montyor Stepanın komasına. Çatan kimi adama yüz qram gillətdilər və yalnız bundan sonra Stepan təbəssümlə:

– Kolya, bilirəm ki, mənim komama boş-boşuna araqla gəlməmisən, – dedi və astadan soruşdu, – de görüm, niyyətin nədir?

Kolya birbaşa mətləbə keçdi:

– Stepan İvanoviç, qarılara işıq ver. Qoy bu mübarək gündə şadlansınlar.

Stepan bir qədər sərt tərzdə soruşdu:

– Sən gecə ilə gündüzü qarışdırmamısan ki? Payız girəndən bütün işıq tellərini şəbəkələrdən ayırmışıq, sonra da güclü küləklər əsib, indi nə bələsən ki, işıq dirəkləri yerindədir, ya yox?

– Nə dirək, hansı dirək, Stepan İvanoviç? Heç bu payız külək olub ki ya, hələ dirəkləri də aşırda? Gəl bu müqəddəs gündə o kimsəsiz, Allah umuduna qalmış arvadları sevindir, nə olar, Allah xatirinə.

Stepan yenə yumşalmadı:

– O arvadlar, indi çoxdan kəlləni atıb yatıblar, yaxşı da eləyiblər, qaranlıqda neynəyəcəklər ki?

– Mən dəqiq bilirəm ki, Matveyevna yatmayıb. Yəqin ki, ikonanın qarşısında oturub Müqəddəs kitabı oxuyur. Hə, Styopa, nə baxırsan? Qoş o kəndin işığını! Hə, tərpən görək, mən heç vaxt sənin bir sözünü iki etməmişəm. Nə istəmisən, əlimi qoymuşam gözümün üstünə. Hə, tərpən görək!

– Ə, sən lap qırsaqqız imişsən ki! Yaxşı, gedək... Amma anla ki, nə isə baş versə, mənim mükafatımı kəsəcəklər və o zaman sən o mükafatın əvəzini öz cibindən verməli olacaqsan.

– Mən razı, Stepan İvanoviç! – Kolya sevincək dilləndi və bir də qədəhləri doldurdu, – içək bizim qarıların, qocaların sağlığına, – dedi.

Sonra da yeyin addımlarla yarımstansiyaya səmt yönəldilər. Mənzil başına çatanda Stepan həyəcanla dilləndi:

– Kaş, qısa qapanma baş verməsin! – Və üstünə "Радужное" yazılmış əyləci özünə sarı çəkdi.

Kolya təlaşla soruşdu:

– Qapanma baş vermədi ki?

– Yox, qapanma baş vermədi, – Stepan titrək səslə dedi və sol əlini ehmalca, tıppıltısı qulağına çatan ürəyinin üstünə qoydu.



***Rus dilindən çevirən:***
***Məmməd ORUC***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

# Qərib Mehdi tənhalığı



1979-cu ildə orta məktəbi bitirən kimi Gəncəyə gəldim. Şəhəri tanımırdım. İlk dəfə idi ki, kənddən kənara çıxırdım. Bu boyda şəhərdə bir nəfər də olsun tanışım yox idi. Bircə ağaclar, küləklər, yağışlar tanış idi. Onları kənddə görmüşdüm, elə bil mənimlə şəhərə gəlmişdilər.

Gəncə Dövlət Universitetinə (Köhnə KDPİ) qəbul olundum, dil-ədəbiyyat fakültəsinə. Bakıda oxumaq istəyirdim. Məni instituta qəbul etdirən adam demişdi ki, səni Bakıdakı universitetlərin birinə köçürtdürəcəyəm (“perevod”). İki aydan sanra Qərib Mehdi ilə tanış oldum. Qərib Mehdiyə “aldanıb” qaldım Gəncədə. Yaxşı ki, qaldım.

Gəncədə ilk tanış oldğum insan Qərib Mehdi idi. Qərib müəllim o qədər yeni idi ki, hələ Mehdiyev soyadından “-yev” şəkilçisini ixtisar etməmişdi. İlk tanış olduğum yazıçı da, müəllim də, dost da Qərib Mehdi oldu. O vaxta kimi canlı yazıçı görməmişdim, kitab hədiyyə almamışdım, mənə avtoqraf yazmamışdılar. Hamısını Qərib Mehdi ilə tanıdım.

1979-cu ildə gördüyüm, tanıdığım Qərib Mehdi indiyə kimi dəyişməyib. Elə həmin hisslər, həyəcanlar, yaxşı şeirə heyrətlənmək (bu hiss diri şair kimi qalmaq üçün əsas şərtdir), sevinmək düyğuları onu heç vaxt tərk etməyib. Çox adamlar dəyişdi, qocaldı, özünü inkar elədi, amma Qərib müəllim heç vaxt özündən ayrılmadı.

İndi mən Bakıda yaşayıram, işləyirəm, xarici ölkələrdə olmuşam, kitablarım çap olunub, çox ədəbi simalar tanıyıram. Amma mən Qərib Mehdi kimi təpədən-dırnağa yazıçı olan, həyatı bilən, sözlə yaşayan az qələm adamı tanıyıram. Mən şeir yazmağı ondan öyrənmişəm. Obraz yaratmağın sirlərini mənə o öyrədib. Həmişə rəqib qapısına topu necə vurmaq lazımdır? – fkrini və çəmini o mənə başa salıb.

Təkcə mənə yox, o dövrün bir çox qələm sahibləri ondan ustad dərsi alıblar. Həyatım boyu mənə yaxşılıq eləyən ancaq Qərib Mehdi olub. Pulumuz olmayanda cibimizə pul qoyub, yerimiz olmayanda evində gecələmişik. Ac olanda bizi qonaq eləyib. Mənim şeirlərimi makinada özü yazıb. O vərəqləri indi də saxlayıram.

Qərib Mehdi Gəncəni bizə o qədər doğmalaşdırdı ki, axırda şəhəri öz kəndimiz bildik. Qərib Mehdi Gəncə ədəbi mühitini 80-ci illərdən canlandırdı.

Bu gün ədəbiyyat adına Gəncədə nə varsa, hamısı Qərib müəllimin adı ilə bağlıdır. O vaxt hamımız onun başına toplaşırdıq. O, bir ədəbiyyat şamı idi. Onun şamının işığına gəlməyən yox idi.

O vaxt Qərib müəllim Alimlər evinin nəzdində "İlham" Ədəbi Birliyini yaratdı. Böyük bir ədəbiyyat ocağı alovlandı. Bizə söz verdi, şeirlərimizi oxuduq. Təhlillər apardıq. Biz gənclər "İlham" Ədəbi Birliyində şeir haqqında fikir bildirməyi, mühakimə yürütməyi öyrəndik. Şair üçün bu, əsas məsələ idi. Adlı-sanlı şairlər məşğələlərdə şeir oxumaqdan çəkinirdilər. Hər həftə "Gəncənin səsi"(o vaxt "Kirovabad kommunisti") qəzetində bir səhifə şeirlərimiz çap olunurdu. Qərib müəllim hər dəfə birimizi oxuculara təqdim edirdi, tanışlıq kimi şeirlərimizə ön söz yazırdı. Bizi müdafiə edirdi, qoruyurdu. Hətta bizim şeirlərimizdəki yeniliyi dəyərləndirdiyinə, müdafiə etdiyinə görə, ən yaxın dostları və qohumları ilə üz-göz olurdu.

Qərib Mehdi həyatın dibindən gələn yazıçıdır. Yaşadığı dövrün "sancıları"ni ifadə edən, olduğu kimi göstərən, daim təzələnən yazıçıdır.

Qərib Mehdi nəsri bəzən emosional, bəzən "ağıllı", bəzən isə tamamilə poetik görünən nəsrdir. Vaxtilə onun gənclik çağlarında yazdığı "Rast", "Qərib hey" əsərlərinin əks-sədası indi də kəsilməyib.

Professor, unudulmaz müəllimim Sadıq Şükürovun xatirələrində oxuyuram: "Mən 1960-cı illərin əvvəllərində gənclik ehtirası ilə çalışır, tədbirlərdə iştirak edir, ədəbi-nəzəri toplantılarda məruzələr oxuyurdum. Bir dəfə M.Qorki adına kitabxanada "Müasir Azərbaycan hekayələri" mövzusunda məruzə ilə çıxış etmişdm. Bunu bilən Mir Cəlal müəllim maraqla soruşdu:

– Əyə, Şükür (bu ifadə ilk dəfə S.Vurğunun dilindən çıxmışdır), o məruzədə Qərib Mehdinin "Qərib hey..." hekayəsindən danışmısanmı?

Mən suçlu adam kimi astadan cavab verdim:

– Xeyr, professor. Hələ ki, Qərib Mehdinin yaradıcılığı ilə tanış ola bilməmişəm.

Elmi rəhbərim incik bir qınaqla səsləndi:

– Bəs onda nədən danışmısan?"

Sadıq Şükürov yenə xatirələrində yazır:

"Qərib Mehdi ilə bağlı ikinci bir söhbətin də şahidi olmuşam. Direktor Əzizə Əhmədova ilə görüşmək üçün "Gənclik" nəşriyyatına getmişdim. Bir azdan Mir Cəlal müəllim də içəri daxil oldu. Sən demə, Əzizə xanım ona vaxtı olanda yolunu nəşriyyatdan salmağı xahiş edibmiş.

Əzizə xanım:

– Mir Cəlal müəllim, siz bu il 10 çap vərəqi həcmində bizim nəşriyyatın planındasınız. Əlyazmalarınız isə 8 çap vərəqi həcmindədir. 2 çap vərəqi də gətirsəniz, həcm tamamlanacaq.

Mir Cəlal:

– Əzizə xanım, xahiş edirəm məni öz payına qane olmayıb, onun-bunun payına göz dikənlərlə qarışdırmayasınız. 8 çap vərəqi bəsimdir. Qalan 2 çap vərəqini gələcəyinə ümid bəslədiyim istedadlı gənclərə verirəm. Elə biri Qərib Mehdi. Onun yaradıcılığı ilə tanışsınız? Gəncəli cavanın "Qərib hey..." hekayəsi kövrək hisslərin poetikasıdır. Narahatlığa dəyməz, bizi əvəzləyəcək istedadlı gənclərimiz var".

Göründüyü kimi, Mir Cəlal müəllim istedadlı gənclərə köməyini əsirgəməmişdi. Ona görə də Qərib Mehdi Mir Cəlal müəllimdən gələn işıq silsiləsini yeni istedadlı gənclərə ötürürdü. Bu gün də o işıq seli axmaqda davam edir.

Yuxarıda dediyim kimi, mənim şeirlə, daha doğrusu, özümlə ilk tanışlığım onunla başlayıb. Orijinal şair səciyyəsi, doluxsunmuş gözlər (bəlkə də dolmuş), üzündə həyat məmnunluğu (bəlkə də, ılıq bir təbəssüm) yaşayan bu gözəl insan əlimdən tutaraq həyatın, ədəbiyyatın yolu ilə irəliləməyə kömək edib. Təkcə mənimmi? Sərvaza da, rəhmətlik Nizami Aydına da, Valehə də, Xosrova da, Xəzangül xanıma da qayğı göstərib. Bir sözlə, Gəncə kimi böyük bir şəhərin son 40 illik bir dövründə yeni ədəbi nəslin yetişməsində onun müstəsna, xüsusən, yaratdığı "İlham" Ədəbi Birliyinin əhəmiyyəti olub.

Mən Qərib Mehdini həmişə tənha görmüşəm. Ona görə tənhadır ki, o, böyükdür. Bəzən ona qarşı olan kiçiklər birləşirlər ki, nəyəsə oxsasınlar. Amma Qərib Mehdi böyüklüyünün qarşısında bütün çoxluq mənasız və acizdir.

Bakı ədəbi mühitində də Qərib Mehdini yaxşı tanıyırlar. Hamı bilir ki, mən görkəmli yazıçı Qərib Mehdinin tələbəsiyəm. Bununla fəxr edirəm. Hər dəfə gözəl tənqidçimiz Vaqif Yusifli məni görəndə "Qərib hey" deyir. Məncə, bu, qəribsevərlərin hesabatı kimi səslənir. Yəni özündəsənmi, yerindəsənmi? Bakıdakı bütün qələm dostlarım Qərib Mehdini çox sevirlər.

Bu gün "Gəncə" deyəndə mənim üçün ilk yada düşən Qərib Mehdi olur. Düzdür, qələminə hörmət bəslədiyim başqa qələm sahiblərinin də adlarını çəkə bilərəm. Ancaq mənə görə Qərib Mehdinin öz yeri var. Qərib Mehdi mənim üçün yaralı bir könüldür, yaxud yaralı bir şikəstədir.

Məni ilk dəfə o təqdim edib mətbuata. Mənə görə münaqişələrə düşüb. Təkcə mənəmi görə? 1980-ci illərdə ədəbi gəncliyi müdafiə etdiyinə görə onu gözümçıxdıya salırdılar. Bunların hamısı yaxşı yadımdadır.

Qərib Mehdinin nəsri, yuxarıda dediyim kimi, daim təzələnən, "nəfəs alan", "genişlənən", öyrədən bir nəsrdr. O, hər bir əsərinin sonunda oxucunun danışmağı üçün yer qoyur. Ədəbiyyata gələn gənc yazıçılar, şairlər üçün onun bütün əsərlərinin sonunda yeni bir abzas var. Hər yazıçıda belə abzas olmur. Ədəbiyyata yeni gələnlər ilk əsərlərini bu abzasdan başlayırlar. Çünki Qərib Mehdi öyrədən yazıçıdır.

Bu gün Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri Gəncədə yaşayır və gözəl əsərləri ilə oxucuları sevindirir. Onun əsərlərində Azərbaycan dilinin saflığı nəfəs alır və bu dillə Azərbaycan dövlətçiliyinə, vətəninə, müstəqilliyinə böyük məhəbbət ifadə olunur.

Bu il Qərib Mehdinin 85 yaşı tamam olur. Onun yazılarındakı səmimiyyət, enerji, ruh, ilham, üzündəki sevinc və məmnunluq elə 40 il bundan qabaq gördüyüm kimidir. O, yeni bir çoşqu ilə yazıb-yaradır.

Mən Azərbaycanın ədəbi xəritəsini qələm adamları ilə işarə edirəm. Şəhərlər ən çox qoynunda yaşayan qələm adamları ilə tanınır indi.



Adi bir fakt. Bakı şəhərində taksiyə oturub deyəndə ki, məni Zəlimxan Yaqubgilə apar, sürücü unvan soruşmur, eləcə aparır Zəlimxan Yaqubgilə. Taksiyə desən ki, Musa Yaqubgilə gedirəm. Aparır İsmayıllının Buynuz kəndinə. Belə də deyə bilirəm: Mən Qərib Mehdigilə gedirəm, taksi o dəqiqə aparacaq Gəncə şəhəri, Abdulla Şaiq küçəsi, 14-ə. Bax, bu elə-belə hadisə deyil. Şairlər artıq şəhərlərin ünvanı olur. Sadəcə, bu çevrilməni unutmayaq.

***Qəşəm NƏCƏFZADƏ***

## ♦ Kamil Əfsəroğlunun 70 yaşı

# ADSIZ RƏNGİN ÇALARLARI



70 il bundan qabağın Azərbaycan mühitini təsəvvürə gətirsək, tarix üçün bir an qədər kiçik olan bu vaxt kəsiminə hərə öz yaşı və yaddaşı qədərində açıqlıq gətirə bilər. Xalq deyimlərimizdə olduğu kimi, «Kim nə gördü, nə götürdü».

Yazıçı Kamil Əfsəroğlunun 70 yaşı tamam oldu. 70 il həm bizim üçün, həm də içində olduğumuz dünya üçün çox şey deməkdir. Kamil Əfsəroğlu bir yazıçı kimi yaşadığı, içində olduğu və havasını, ruhunu duyduğu vaxtın konturlarını cızır və bəzən biz onun əsərlərində zamanın özünün obrazını görürük. Müəllifin zaman kəsimindən boylanan personajlarının simasında tanıdığımız, tanımadığımız insanlarla qarşılaşır, tanıdıqlarımızı qayıdıb bir də tanıyırıq.

Müharibə mövzusunda Azərbaycan ədəbiyyatında kifayət qədər əsər yazılıb. Bu əsərlərin böyük əksəriyyəti İkinci Dünya müharibəsinə, bu müharibənin doğurduğu mənəvi-psixoloji ab-havaya, otuz ilə yaxın içində olduğumuz Qarabağ münaqişəsinin, müharibəsinin ağrılarına qarışan dərdlərinə, acılarına, insan talelərinə həsr olunub. Yazıçı müharibə mövzusundakı əsərlərində müharibədən müharibəyə uzanan bir dövrü gerçək hadisələr fonunda, real insanların simasında uğurla ədəbiyyata gətirir. Alman faşizmi üzərindəki qələbədən bir neçə il sonra dünyaya gələn, əllərində taxta tüfəng – tapança dava-dava oynayan, “nemeslərlə” vuruşan uşaqlar, sən demə, irəlidə başlayacaq həqiqi davanın əsgərləri doğulubmuşlar. Hekayədə oxuyuruq: “Müharibə haqqında öz təsəvvürümüz vardı, elə bilirdik bizim dava-dava oyununa bənzəyir, adamlar yorulub əldən düşənəcən döyüşüb vuruşur, sonar hər kəsin anası gəlib oğlunu aparır evə...”

Kamil Əfsəroğlu 50-ci illərin kövrək qəlbli, balaca seyrçisi kimi həmin dövrə tez-tez müraciət edir, uşaq vaxtı gördüklərini, eşitdiklərini vaxtın, zamanın yarım əsrdən çox uzaqlığından öz havasına uyğun, yazıçı fəhmi ilə gözlərimiz qarşısında yenidən canlandırır. 50-60-cı illər nəsrinin nümayəndələrindən – öz sələflərindən fərqli olaraq Kamil Əfsəroğlu ilk hekayələrində müharibəni xatirə içində xatirə kimi təqdim edir – kirpiyi ilə od götürən böyüklərin müharibə xatirələri onun öz xatirələrinə, kövrək uşaqlıq xatirələrinə qarışır. Bəzi əsərlərində müşahidə olunan bu manera incə bir lirizm, içdən, könüldən gələn bir ovqat yaradır və oxucunu özünə çəkir. «Soyuq ocaq»da Umud kişinin, «Qaratikan»da, «Ülgüc»də Əvəz kişinin xatirələri işığında bunu aydın görürük.

Mühribədən sonrakı Stalin despotizmi, qayğılar, problemlər… Bu dövrü yaşayan insanların mənəvi dünyası, keçirdikləri daxili sarsıntılar Kamil Əfsəroğlu

yaradıcılığında xüsusi yer tutur. Yazıçı o dövrün insanlarıyla bizi indi yaşadığımız vaxtdan o qədər də uzaq olmayan müasir zamanda qarşılaşdırır ki, bu da oxucuda müqayisə və təhlil aparmaq, Stalin dövrünün dəhşətlərini tam çılpaqlığı ilə duymaq imkanı yaradır. «Şanxaydan əsən xəzri» povestindəki general Pankratovun faciəvi taleyi dediyimə parlaq misal ola bilər. Müharibənin bütün dəhşətlərini yaşamış, canı-qanıyla vuruşaraq o boyda rütbəyə yüksəlmiş Pankratov axırda arvadına gözü düşmüş bir KQB zabitinin güdazına gedir, ağlını itirir, ondan-bundan «araq pulu» uman səfilə, dilənçiyə çevrilir. «Bəraət» hekayəsindəki müharibə iştirakçısı starşina Abutalıb obrazı da o vaxtkı quruluşun ədalətsiz, qəddar qayda-qanunlarına, rejimə qarşı qoyulub. Canında-bədənində alman mərmisinin qəlpələrini daşıyan starşina Abutalıb ordudan tərxis olub milis sistemində işləyir, cəbhədən cəbhəyə düşür və sonda saf əqidəli, namuslu bu insanın özü də rejimin qurbanına çevrilir.

Kamil Əfsəroğlunun o dövrü dolğun boyalarla əks etdirən əsərlərində rast gəldiyimiz bəzi dəli obrazları məhz mövcud rejimin qurbanları olduğu üçün yazıçı təxəyyülünün məhsulu kimi yox, bilavasitə real həyat faktı kimi gözlərimiz önündə canlanır. «Qisas» povestindəki dəli Bərşad gecələr Stalinin heykəlini daşlayır, onu canlı bilir. Kənddə öz əcəliylə vəfat edənin, hətta avtomobil qəzasında ölənin dəfni zamanı havalı Bərşad cənazənin qabağınca qarğı «at» çapır, Stalinin heykəlini göstərib təlaşla qışqırır: «Stal öldürdü! Pisdi Stal!..»

Kamil Əfsəroğlunun yaradıcılığında 1941-45-ci illər müharibəsi ilə 30 ilə yaxın bir dövrdə içində olduğumuz Qarabağ müharibəsi sanki biri digərinin davamı kimi iç-içədir. Bu gün bu mövzuya yeni rakursdan yanaşmaq, yeni söz demək zərurəti yaranıb və biz bunu Kamil Əfsəroğlunun da yaradıcılığında aydın görürük. Müəllifin «Dava-dava oyunu» hekayəsində məhz bu yaşantılar öz bədii inikasını tapıb. Hekayədə müharibənin uşaq dünyagörüşündəki əksi o qədər sadə, o qədər təbiidir ki, əslində müharibənin nə demək olduğu elə bu oyunla rəngsiz-boyasız açıqlanır. Təsadüfi deyil ki, hekayə tanınmış Belarus yazıçısı Georgi Marçukun diqqətini çəkmiş və əsər haqqında belə bir fikir söyləmişdir: «Bu hekayə, bir güllə atılmadan müharibəni bütün ağrı və faciələrilə müharibə kimi göstərən əsərdir».

Qarabağ müharibəsi dalğasında yaşadıqlarımız, başımıza gələnlər və gətirilənlər, qaçqınlıq-köçkünlük dərdi, yurdsuzluq-yuvasızlıq zülmü bu gün tarixdə qalmış acı gerçəklikdir. Qarabağ müharibəsi ədəbiyyatımızda aktual bir mövzuya çevrilib. Bu mövzuda saysız-hesabsız şeir, hekayə, povest, roman yazılıb, filmlər çəkilib. Kamil Əfsəroğlu bu mövzuda bəlkə də ən çox yazan yazıçılarımızdandı. Bu da təbiidir, yazıçı Qarabağda – Cəbrayıl rayonunda doğulub, böyüyüb boya-başa çatıb, ermənin hər üzünü görüb. Bu baxımdan, erməni məkri, erməni xisləti ona yaxşı tanışdır. Onun roman və poveslərindəki, hekayələrindəki erməni obrazları yazıçının tanıdığı adamların prototipləridir. Ayrı-ayrı hekayələrində yazıçı bilavasitə Qarabağ mövzusuna dəxli olan bir sıra mətləblərin bədii həllini tapsa da, «İt qanı» və «Çadır» romanıyla son 30 ildə yaşadığımız acıların, çəkdiyimiz ağrıların, keçirdiyimiz təbəddülatların bədii salnaməsini, bir-birini sürətlə əvəz edən ictimai-siyasi olaylar burulğanında min bir çətinliklərlə üz-üzə gələn adamların real bədii obrazını yaradıb. Tarix həm də bədii əsərlərdə, bədii ədəbiyyatda yaşayır.

Qaçqın və köçkünlərimizin çəkdiyi acılar, onların sıxıntı və sarsıntıları «Çadır» romanında da hərtərəfli, dolğun və yaddaqalan bədii boyalarla verilir. «Çadır» adı ilk baxışdan nəsə deyir. Əsərin ideya-bədii məzmunundan çıxan nəticə onun həm də rəmzi xarakter daşıdığını və tutumlu olduğunu sübut edir.

Bir zamanlar yurtalarda, çadırlarda yaşayan, dünyanın boyu uzunu köç eləyən, hərbi yürüşlərdə çadır qurub düşərgə salan, şanlı tarixi olan bir xalqın törəmələri indi də çadır qurub çadırda yaşayır. Amma bu çadır o çadırdan deyil… Bir vaxtlar dağlara, yaylalara köçüb çadırını quran adam üçün «üzü dəmrov tökmüş bozqırdakı boz-bozanaq çadırlar insanların boyuna biçilmiş kəfən» kimi görünür. Zaman qaçqınları sınağa çəkir, qarşılaşdıqları çətinliklər onların ümidini, inamını qırmır və işğal olunmuş toraqlarımızın azadlığına, Qələbəyə aparan yol da bu inam və ümiddən keçir. Müəllif qaçqınların həyatınının ağırlığını real və təsirli epizodlarla təsvir edir və bunun bədii həllini ustalıqla tapır. Əsər ilan mələyən susuz bozqırda qaçqınların çadır qurduğu epizodla başlayır. Gecələr çadırlara ilan girir. Altı-yeddi yaşlarında bir uşaq cadar bağlamış torpaqdakı çatları palçıqla doldurur ki, ilanlar yerin altanda qalsın, çıxa bilməsin. Uşaq çatları həm də ona görə doldurur ki, yer paralanıb dağılmasın… Daha bir epizod – vaqonməktəbdə dərs keçən ibtidai sinif şagirlərinə müəllim rəsm mövzusu verir – «Mənim doğma yurdum». Uşaqların hamısı çəkdikləri rəsmlərdə susuz çöllük, sırayla düzülmüş boz-bozanaq çadırları təsvir eləyirlər…

Yazıçı erməni xislətinə yaxşı bələd olduğundan onların bədii obrazlarını ədəbiyyata gətirməkdə çətinlik çəkmir. O millətin xəstə psixologiyası, mənəviyyatı obrazların öz diliylə, sözləri-söhbətləriylə açılır. Pinəçi Sağatel hər dəfə kirvəsi Xalıqgildən qayıdanda arvadını döyür ki, dolmanı niyə musurman arvadları kimi dadlı bişirə bilmir. Arvadı Satenik deyəndə ki, bir musurman arvadını üstümə günü gətir, sənə dolma bişirsin, Sağateli od götürür, deyir, a köpəyin qızı, harda görmüsən ki, musurman qızı erməniyə ərə getsin?! Bəs bizim axçiklər niyə musurmana ərə gedir deyib Satenik soruşanda Sağatel cavab verməyə söz tapmır… Başqa bir nümunə – kənd sovetinin sədri Şahnazar içiqurdlu adamdır, türklərə nifrət bəsləyir, amma bazar günləri radioda səslənən muğamat konsertinə qulaq asmayınca evdən çıxmır. Toylarda da oynadığı öz havası var – “Sənin o cadu tellərin”. Qızının toyuna Xankəndindən erməni çalğıçıları gətirir, amma onların da çaldığı “Nazeləmə”, “Uzundərə”, “Mirzeyi” olur. Hər bir xalqın qədimliyi onun şifahi yaradıcılığında da öz təcəssümünü tapır. Amma Qarabağ ermənilərinin nə şifahi yaradıclığında, nə məişətində, nə incəsənətində, nə ədəbiyyatında bunu görmürük. Əsərin sonunda müəllif heç gözlənilmədən oxucunu yeni bir personajla qarşılaşdırır – hərbi liseyin müdavimi olan yeniyetməylə. Bu o uşaqdır ki, on dörd il əvvəl düşmən əlindən qaçanda, Araz çayını adlayanda dünyaya gəlmişdi və adını da Araz qoymuşdular. Bu obraz ötəri görünsə də, ideya və məzmun baxımından əsərin süjet xəttini tamamlamağa xidmət eləyir – düşmən üzərində Arazlar qələbə çalacaqlar.

«Qladiator» hekayəsində söhbət şəhərdə yaşayan qaçqından gedir, «qul bazarı»nda iş axtaran qaçqından. Müəllif çox maraqlı bədii formadan istifadə edir – iki qaçqını «qul bazarında» qarşılaşdırır. Onlar başqa-başqa adamlardı – biri arada-bərədə fəhləlik eləyib halal zəhmətilə dolanır, digəri isə haram yolla pul qazanan varlıdır. Varlı qaçqın «qul bazarına» başqa fikirlə gəlib, gəlib ki, Qladiator ləqəbli qaçqını bağ evinə aparsın. Ona çoxlu miqdarda pul təklif eləyir ki, uşağının ad günündə qəfəsdəki ayıyla vuruşsun…

Mövzu “İştah” hekayəsində də davam etdirilir. Qaçqınlıqdan əvvəl kənddə it oğrusu kimi tanınan Cin Cəfərqulu şəhərdə də dolanışığın yolyunu tapıb, mallı-pulludur. Amma həmkəndlisi maşınyuyan, təkərqaraldan Səməddən fərqli, malı-pulu halal zəhmətlə qazanmayıb. Onun həyatdaki bir qazancı da düçar olduğu şəkər xəstəliyidir. Cin Cəfərqulu ellisini bahalı restorana aparır. Amma dilinin altından şordan başqa heç nə keçmir. Deyir, Səməd, sən mənə baxma, ye,

sənin qarnın, mənim gözüm doysun. Cibindən əllilik paçkası çıxarıb deyir, eloğlu, götür bu pulu, iştahını sat mənə…

«İt qanı» romanında da Qarabağ mövzusuna toxunulur. Əsərin çox da dərinliyində gizlənməyən bir ümid, bir inam var – öz gücünə, öz qüdrətinə dönə bilmək, qayıtmaq ümidi. Qarabağ döyüşlərində kantuziya almış Kaftar Kərim çox dəyişib, qılıqsız, amansız olub. Əvvəlki adam olmaq üçün sanki ölüb, yenidən dirilməlidir. İçkiyə meyl salsa da, içinin dərinliklərindəki qisas hissi, döyüş ruhu onu tərk eləmir. Bəli, insanlar dəyişıblər, başqalaşıblar, onları özlərinə qaytaracaq bir yol var – düşmən işğalındakı torpaqların azadlığı. Yazıçı mövşuya planetar yanaşır, yəni, dünyanın harasında, hansı qitsində baş verdiyindən asılı olmayaraq müharibə insanlığın faciəsidir.

Kamil Əfsəroğlunun əsərlərində incə, könüldən gələn bir lirizm var. «Səmanı mənə bağışla», «Şanxaydan əsən xəzri», «Daşlı qala», «Biri vardı», «Rus toyu», «Çat», «Nisgil», «İttiham», «İlan öcü», «Kamikadze», «Ülgüc», «Mərc» və digər əsərlərində bu keyfiyyəti duymaq mümkündür. Bu lirizm yazıçının dilinin koloriti, təmizliyi və şirinliyi ilə birləşəndə daha güclü və təsirli olur. Məhz dilinin gözəlliyinə və ekspressivliyinə görədir ki, onun təsvirləri gözlə görünəcək qədər aydın və yaddaqalandır. Tanınmış tənqidçi Akif Hüseynli yrzır: «Ədəbiyyat dil və üslub cazibədarlığından başlayır. Kamil Əfsəroğlunun «Dəlilərin son padşahı» əsərini oxuyanda mən buna bir daha əmin oldum…»

Kamil Əfsəroğlunun bir yazıçı kimi başlıca məziyyətlərindən biri də onun «mənfi-müsbət», «dost-düşmən» anlayışlarına bitərəf olmasında, oxucusunun işinə qarışmamasındadır. Belə baxanda, onun əsərlərində mənfi obrazlarla elə də çox rastlaşmırıq, bu o demək deyil ki, yazıçı belələrini nəzərdən qaçırır, yox, o, sadəcə, həyatı pis, qəbih insanlarsız görmək istəyir. Bir də müəllif pis, miskin insanın içində belə işıq görməyi bacarır. «Sovet küçəsinin serenadası» povestindəki cibgir tramvayda kasıb-kusubun, şikəstin cibinə girmir, bunu özünə sığışdırmır, hətta 1 May bayramını qeyd eləmir ki, bu, zəhmətkeşlərin bayramıdı… “Sovetski” qırmızı tramvayı, yastı-yapalaq evləri, insanları, ab-havasıyla şəhər içində şəhərdir və bu gün həyatda qalmayan o “şəhərin” serenadası illər sonra da “Sovet küçəsinin serenadası”ndan eşıdiləcək.

Təbii ki, Kamil Əfsəroğlu sovet dövrünün adamıdı, ömrünün çox hissəsini o dönəmdə yaşayıb, o dövrdə məktəb bitirib, ali təhsil alıb, işləyib, gəzib, görüb. Bu mənada o, həmin dövrün yaxşısına yaxşı, pisinə pis deməyi bacarır. Rayondan şəhərə oxumağa gələn gəncin duyğuları, o dövrün tələbəlik həyatı, tələbə yataqxanaları «Daşlı qala» romanında bədii sənətkarlıqla əks olunub. O dövrü yaşayan nəsil üçün bu əsər həm gənclik xatirələri, nostalji hisslər oyadır, həm də tələbəlik illərinin bir «həyat məktəbi» olduğu qənaətini formalaşdırır. Aralıdan sırayla düzülmüş domino daşlarını xatırladan tələbə yataqxanaları, əslində, sosializm cəmiyyətinin kiçik modelidir və müəllif o dövrün sosial problemlərini, sabahkı günə ümidlə, inamla baxan gənclərin acılı-şirinli həyatını dolğun və canlı boyalarla qələmə alır. Tələbə həyatının dadını təzəcə çıxarmaqda olan, birinci kursda oxuyan Saatxanı qızlar yataqxanasına durbinlə baxdığına görə məişət pozğunu adlandırıb universitetdən qovurlar. Əslində isə o mənən saf, haqsızlıqlarla barışmayan, sözünü deyən tələbədir. Saatxan sanki bu günə sığmır, zamanı qabaqlamaq istəyir, sabahla yaşayır. O, həyata baxışı, davranışı, hətta geyimilə belə başqalarından seçilir. hamı kimi olmaq istəmir, birinci kursda oxusa da, şlyapa qoyur, yataqxananın pambıq mitilində yatmaqdan imtina edir. Təəssüf ki, həyatda sözü üzə deyənlər, haqsızlıqla barışmayanlar daha çox zərbə alır, ədalətsizliyin qurbanı olurlar. Kamil Əfsəroğluna görə bədii ədəbiyyat ictimai proseslərdən kənarda qalmamalı, həyati reallıqdan bir qədər yüksəkdə dayanmalıdır.

Yazıçı cəmiyyətdəki çatışmamazlıqları, ictimai, sosial problemləri ədəbiyyata gətirməyi bacarır və göstərir ki, bədii sözün təsiri daha güclüdür. «Qladiator» hekayəsində əlini yaralamış qaçqının yarasına təcili yardımda üç tikiş qoyurlar. Həkim ondan otuz manat tələb eləyir, deyir hər tikişə on manat verməlidir. Qaçqın deyir ki, Qarabağ müharibəsi iştirakçısıdır, imkansızdır, o qədər pulu yoxdur, amma həkim dediyindən dönmür. Naəlac qalan qaçqın çibində olan iyirmi manatı çıxarıb həkimə uzadır, deyir olan budur, tikişin birini sök.

Kamil Əfsəroğlunun ən kiçik hekayələrindən tutmuş romanlarına qədər bütün əsərlərində sadə, aydın bir fəlsəfi ümumiləşdirmə var. Bu, hər gün üz-üzə gəldiyimiz adi həyat olaylarından və yaşadığımız, içində olduğumuz vaxtdan, zamandan doğan fəlsəfədir. «Qan qoxusu», «Burulğan», «Kor seyrçilər», «Divar», «Tüfəng açıldı», «Qaratikan», «Kor quyu» kimi hekayələrində yazıçı «damlada dəryanı» görə bilir, adi həyat həqiqətlərini fəlsəfi düşüncə süzgəcindən keçirərək bədii ədəbiyyat faktına çevirir. «Divar» hekayəsi həm də yazıçının milli ədəbi ənənələrimizə bağlılığını, klassik irsimizə varislik münasibətini göstərmək baxımından maraq doğurur. «Divar»da sanki Mirzə Cəlilin usta Zeynalını görürük – 100 il sonra, başqa biçimdə, başqa mənəvi aləmdə…

Kamil Əfsəroğlunun publisist yazıları da yazıçılığının bir yönüdür əslində. O, uzun illərdir ki, Azərbaycan radiosunda çalışır, «Çağdaş qələmlər» verilişiylə dinləyicilərin görüşünə gəlir. Dünyanın tanınmış kino sənəti xadimləri, rejissorları, aktyor və aktrisaları haqqında yazdığı «Rac Kapurla baş tutmayan müsahibə, «Tacsız kraliça», «Türkanlı filmlər», «Stenli Kramerlə görüş», «Yaşılçamın ulduzları», «Kinonun çirkin kralı», «Ulduzlar xoşbəxtdirmi», «Əfsanə qadın», «Çalı quşu», «Xaç atasının atası» və digər yazıları oxuculara yaxşı tanışdır. Bu mənada Kamil Əfsəroğlunun sənət adamları ilə görüşlərindən, onlarla söhbətlərindən ibarət «Bəyaz pərdə», «Hollivuddan Yaşılçama» kitabları onun bədii əsərlərindən heç də az maraq çəkmir. Bu kitablardakı hər bir portret-oçerk bədii publisistikamızın gözəl örnəyidir və oçerkdən, publisistik qeydlərdən daha çox müxtəlif taleli böyük insanlar haqda maraqlı hekayə təsiri oyadır.

Kamil Əfsəroğlunun yalnız nəsr yaradıcılığını götürsək, 70 yaşının hər ilinə gözəl bir əsər düşür. Bir vətəndaş, ziyalı kimi gördüyü işləri də bunun üstünə gəlsək, onun mənalı bir ömür yolu keçdiyinin şahidi olarıq. Kanadanın ədəbiyyat portalında, Rusiyanın, Belarusun, Özbəkistanın, Türkmənistanın, Gürcüstanın, Moldovanın tanınmış ədəbi-bədii jurnallarında çap olunan əsərləriylə, rus dilində çıxmış «Slepıye zriteli» povest və hekayələr toplusuyla, Türkiyədə nəşr edilmiş «Kor seyrçilər» kitabıyla, İstanbul, Ankara radiolarında səsləndirilən pyesləriylə Kamil Əfsəroğlu çağdaş Azərbaycan nəsrini yaxın-uzaq xaricdə layiqincə təmsil etməkdədir. Müəllifin «İt qanı» romanı Qarabağ müharibəsini, onun gerçək mahiyyətini Rusiya mətbuatına çıxaran, rus oxucusuna çatdıran ilk iri həcmli əsərdir. Qarabağımızın öz azadlığına qovuşması, qazanılan Şanlı Qələbə, əsgərlərimizin misilsiz rəşadəti, qəhrəmanlığı, şübhəsiz, yazıçı kimi Kamil Əfsəroğluna da yeni mövzular verir.

Bu yaxınlarda çıxan «Gilavar», «Çadır» kitablarıyla Kamil Əfsəroğlu oxucularla yeni görüşə gəlib. Maraqlı mövzulara toxunan əsərlərdə biz müəllifin yaradıcılıq dünyasına dalır, həyatı fərqli, daha əsrarəngiz və rəngarəng görürük. Onun nəsrində bir rəng də var – adsız rəng. Oxucu bu adsız rəngin sehrinə düşür, sirrinə tapınmaq istəyir. Özünə sığmayan dünya bəzən yazıçının bircə hekayəsinə sığır. Bu, bizim dünyamızdır…

***Əhməd OĞUZ***

*Paşa ƏLİOĞLU*



# I Şah Təhmasib dövrü Azərbaycan ədəbiyyatında Nəsimi təsiri*

XVI əsrdən başlayaraq Azərbaycan ədəbiyyatında səfəvilik, qızılbaşlıq ideyalarını təbliğ edən poeziyanın mövcudluğundan danışa bilərik. Bu poeziya istər klassik, istərsə də şifahi ədəbiyyata məxsus formalardan istifadə edirdi. Həmin dövrdə qızılbaş ideyaları elə geniş yayılmışdı ki, hətta Azərbaycan türkcəsi mənasında «qızılbaşca» sözü də işlədilirdi. Professor Turxan Gəncəyi yazır: «Qızılbaşca» Səfəvi dövründəki türkcəni göstərmək üçün işlədilən bir isıtilah idi və bu sülalənin süqutundan sonra siyasi və məzhəbi çalara malik olduğundan aradan qalxdı». Səfəvi təriqətinin ilk təbliğatçısı, bu təriqətin banisi, Şah İsmayılın ulu babası Şeyx Səfiəddin Ərdəbili (1252-1334) olmuşdur. Lakin Səfəvi ideyalarını təbliğ edən türkdilli qızılbaş şeiri məhz Xətaidən sonra formalaşır və özünün ardıcıllarını tapır. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, qızılbaşlıq ideyaları Xətai divanında daha aydın ifadəsini tapmışdır. Səfəvilərin ideyalarını, şiəliyi təbliğ edən, döyüşə gedən qızılbaş əsgərlərini «igid yektalar», düşməni Yəzid, Şümri-Mərvan adlandıran Xətai qızılbaş ədəbiyyatının klassik nümunələrini yaratmışdır. Xətainin şeirlərində təriqətin, siyasi ideyalarının təbliği, Səfəvi bayrağı altında birləşməyə çağırış, igidlərin haqq-ədalət yolunda döyüşlərə səslənməsi, Həzrət Əlinin müqəddəsliyinin nəzərə çarpdırılması mühüm yer tutur. Şah İsmayıl Xətaidən sonra qızılbaş poeziyası ənənələrini davam etdirən Məhəmməd Əmani, Mürtəzaqulu xan Zəfər, Məsihi, Qurbani, Məlik bəy Avcı və s. şairlərimizin adını çəkmək olar. Şeirlərində qızılbaş ideyalarını hərarətlə təbliğ edən, elmi risalələrində şiəliyin, səfəviliyin digər məzhəblərdən üstünlüyünü, Səfəvilərin, Şah İsmayıl Xətainin müqəddəsliyini sübut edən XVI əsr müəllifi Qəribi barədə son dövrlərdə məlumat əldə etmişik. Şairin Tehranın Məclise-Şuraye-İslamiye-İran kitabxanasında saxlanan əlyazma külliyyatının surətini almağımız onun həyat və yaradıcılığı barədə müəyyən fikir söyləməyə imkan verir.

Qəribi külliyyatını ilk dəfə görüb araşdıran, buraya daxil olan şeirlər toplusu – divanı və «Təzkireyi-məcalisi-şüərayi-Rum» adlı osmanlı şairləri təzkirəsini 2003-cü ildə «Əxtər» nəşriyyatında ön söz və izahlarla nəşr etdirən Cənubi Azərbaycan alimi doktor Hüseyn Məhəmmədzadə Sədiq (Hüseyn Düzgün) olmuşdur. Külliyyatın ayrı-ayrı yerlərində rast gəlinən məlumatlar əsasında

***– İxtisarla***

Qəribinin Anadolunun Məntəşə bölgəsində böyüyüb boya-başa çatdığını, sonradan şiəlik, səfəvilik, qızılbaşlıq ideyalarını qəbul edərək I Şah Təhmasibin dövründə (1524-1576) Azərbaycana gəlib Təbrizdə saraya yaxınlaşdığını, burada şeirləri, dini risalələri ilə Səfəvi xanədanına, şiəlik, qızılbaşlıq ideyalarına xidmət etdiyini söyləyə bilərik. Oqtay Əfəndiyev «Azərbaycan Səfəvilər dövləti» adlı kitabında göstərir ki, «1501-ci ildə şiəlik Təbrizdə dövlət təriqəti elan olunduğu zaman yeni təriqətin əsaslarını möhkəmlətmək barədə məsələ qalxdı və məlum oldu ki, şiə dini təliminə dair bir kitab da yox idi». Cəsarətlə deyə bilərik ki, yeni Səfəvilər dövlətinin ideoloji əsaslarını yaradan, bu məsələyə dair Azərbaycan türkcəsində əsərlər yazan ilk alimlərdən biri də Qəribi olmuşdur. Onun külliyyatının yeganə əlyazma nüsxəsinə daxil olan əsərləri nəzərdən keçirək: 1) Mənaqib – Nəzmlə və səcli, qafiyəli nəsrlə yazılmış bu əsər 12 imamın fəzilətindən bəhs edir; 2) «Hekayəti-Yuhənna təkzibü məzəmməti-münafiqin və təsdiqi-yəqin-əhli-iman» risaləsi. Müəllifin ərəbcədən tərcümə etdiyi, sonunda öz fikirlərini əlavə etdiyi bu əsərdə dinlər və məzhəblər müqayisə edilir, islamın və şiəliyin üstünlüyü sübut edilir; 3) 14 məsuma, xüsusi olaraq Əliyə və Hüseynə, I Şah Təhmasibə həsr edilmiş qəsidə, tərcibənd və tərkibbəndlər. İ.Babacan bu şeirləri Səfəvi dövrü türkcəsinin ilk nümunələrindən hesab edir. «Çahar fəsil» adlı nəzm və nəsrlə yazılmış risalədə Qurana və peyğəmbər hədislərinə istinad edən müəllif şiə məzhəbinin üstünlüyundən, Həzrət Əlinin vilayət və kəramətlərindən danışır; 5) Qəribi divanı; 6) «Təzkireyi-şüərayi-Rum» adlı şairlər təzkirəsi.

Göründüyü kimi, Qəribi əsərləri ilə Səfəvi dövlətinin ideoloji təməllərinin yaradılmasına xidmət etmişdir. Fikirlərini geniş kütlə arasında yaymaq istəyən və şübhəsiz ki, Səfəvi sarayının sifarişini yerinə yetirən şair əksər əsərlərini Azərbaycan türkcəsində yazmışdır. Qəribi külliyyatının 184 vərəqdən ibarət yeganə əlyazması XVI əsrdə Səmərqənd kağızına nəstəliq xətti ilə köçürülmüşdür. Üzərindəki qeydlərdən məlum olur ki, nüsxəni 1590-cı ildə Muxtar ibn İraqi Marağî köçürmüşdür. Bu qeyd əsərin müəllif tərəfindən yazılmasından xeyli sonrakı dövrə aiddir.

Qəribinin həyatı barədə danışarkən ilk növbədə onu qeyd etmək istərdik ki, onun doğulub boya-başa çatdığı Məntəşə bölgəsi, bütövlükdə Şərqi Anadolu şiəlik, qızılbaşlıq ideyalarının geniş yayıldığı məkan olmuş, I Şah İsmayılın başçılığı ilə Səfəvilər dövləti yaradılarkən Anadolunun bir çox türk oymaqları onun səsinə səs verərək ətrafında toplaşmışdır. Qızılbaş poeziyasının bir sıra nümayəndələri burada yetişmişlər. Şair təzkirəsində Şahidi Dədənin Məntəşə və Muğla bölgəsindən olduğunu bildirdikdən sonra «Mən də ol vilayətdə ikən hələ cəhl aləmində idim, əksər ovqatda nəzərinə varub Məsnəviyi-Mollayi-Rumdan və nəhv və sərf kitabından dərs oxurdum» yazmışdır. Təzkirəsində müəllif İbrahim Gülşəni Bərdəi I Sultan Süleyman tərəfindən ölkəyə dəvət edildikdə İstanbulda olduğunu, onun əlini öpdüyünü məlumat verir. Buradan belə nəticəyə gəlmək olar ki, Gülşəninin 1528-1529-cu illərdə İstanbula gəldiyi vaxt Qəribi orada olmuş, Təbrizə 1530-cu illərdə köçmüşdür. İ.Babacan ərəb və fars dillərini mükəmməl bilən şairin ömrünün sonuna qədər Təbrizdə qalıb burada vəfat etdiyi ehtimal edir.

Qəribinin demək olar ki, bütün əsərləri Azərbaycan türkcəsində yazılıb. Onun osmanlıca yazdığı «Təzkireyi-məcalisi-şüərayi-Rum» təzkirəsində Azərbaycan türkcəsinin güclü təsiri hiss edilir. Təzkirənin dibaçəsində Qəribi ayə və hədislərdən sitat gətirdikdən sonra Peyğəmbərdən də şeir sadir olduğunu (onun da şeir yazdığını) deyir, Həzrət Əlinin, imamların şeirlərindən nümunələr verir,

Şah İsmayılı və şairliyini tərifləyərək qəsidəsini, babası Şeyx Səfiəddin Ərdəbilinin türkcə 2 beytini verir. 54 şair barədə məlumatdan, əsərlərindən nümunələrdən ibarət təzkirədə müəllif şiəliyə, sufiliyə, dərvişliyə, Mövlana Cəlaləddin Rumiyə meyl edən şairlərə üstünlük vermişdir. Təzkirənin yazılma səbəbi barədə Qəribi yazır ki, ərəb və fars şairləri barədə məlumatlardan ibarət əsərlər olsa da, türk şairlərinə həsr edilmiş belə bir toplu yoxdur. Buna görə bir təzkirə tərtib etmək fikrinə düşmüşdür. Burada Mövlanadan nümunə gətirilmiş türkcə şeir misralarına başqa heç bir mənbədə rast gəlmirik. Cəlaləddin Ruminin türkcə 2 beyti Peyğəmbərə və Həzrət Əliyə həsr olunub:

***Olar kim, bəndeyi-xasi-Xudadır,***
***Mühibbi-xanədanı-Mustafadır.***
***Həqiqət Kəbəsinin qibləgahi,***
***İmamü pişnəvamız Mürtəzadır.***

Osmanlı şairi Cəfər Məddah barədə müəllif yazır: «Bir kitab dəvazdəh imam əleyhüssəlam üçün tənzim qılmışdır». Safi barədə belə deyilir: «Divanında dəvazdəh imam və həzrət İmam Həsən əleyhüssəlam üçün mədh və mərsiyələr yazmışdır». İbrahim Gülşəni barədə müəllif yazır ki, I Sultan Süleyman şiə alimi olduğunu bilib onu yanına dəvət etmişdir: «Sədayi-səma və səfası padşahi-Rum qulağına yetib «isni-əşəridir» deyə dəvət qılıb xunkara gətirdilər». Təzkirənin dili sadədir, bəzi yerləri «Kitabi-Dədə Qorqud» dilini xatırladır. Rövşəni barədə oxuyuruq: «Aydın elində, Yaylıca adlı köydən qopmuşdur».

Qəribinin əsərləri, xüsusilə də divanı onu XVI əsr Azərbaycan ədəbiyyatının, qızılbaş şeirinin görkəmli nümayəndəsi kimi nəzərdən keçirməyə imkan verir. Onun şeirlərinin dili Azərbaycan türkcəsidir.

Əsərlərində Qəribinin daha çox farsdilli şairlərdən Nizami, Sədi və Hafizdən, türkdilli şairlərdən Nəsimi və Xətaidən təsirləndiyini görürük. O, şeirlərində Şah İsmayıl Xətainin, I Şah Təhmasibin müqəddəsliyindən danışmış, fəxrlə özünün qızılbaş olduğunu bildirmişdir:

***Biz əzəl gün dəsti-qüdrətdən qızılbaş olmuşuz,***
***Taci-şahi geymişüz, eşq əhlinə baş olmuşuz...***
***Talibi-eşqiz, bizə mürşid yetər bu şahi-eşq***
***Çox şükür Allaha kim, şah ilə yoldaş olmuşuz.***

«Şah ilə yoldaş olmuşuz» dedikdə, ehtimal ki, müəllif I Şah Təhmasibin sarayına yaxınlaşdığını, onunla həmsöhbət olduğunu nəzərdə tutmuşdur. Özünü Şah İsmayıl Xətainin müridi sayan, onun şeirlərinə nəzirə və təxmislər yazan Qəribi Xətainin təsiri altında olduğu İmadəddin Nəsimi yaradıcılığından, hürufilərin dünyagörüşündən də xeyli dərəcədə bəhrələnmişdir. Nəsimişünas tədqiqatçı Səadət Şıxıyeva Şah İsmayılın hürufilik və Nəsimi ilə əlaqəsi barədə yazır: «Xətainin bir sıra şeirləri mahiyyət və təsirlənmə səviyyəsi baxımından hürufilik düşüncəsinin ifadəsi xarakterlidir. Başqa sözlə, hürufilik Şah İsmayılın təkcə yaxın çevrəsində deyil, Qaraqoyunlu Cahanşahda olduğu kimi, onun təfəkküründə də özünə möhkəm yer almışdı... Şah İsmayıl hürufi şeyxləri Fəzlullah və Nəsiminin adlarını məhəbbətlə şeirinə gətirirdi. Qeyd etməliyik ki, Xətai digər sufi şəhidlərə, o cümlədən, Həllac Mənsura da heyranlığını gizlətmirdi». Filologiya elmləri doktoru Əzizağa Məmmədov Xətainin Nəsimi yaradıcılığından həm məzmun, həm də forma baxımından bəhrələnməsi barədə yazır: «Xətai hər kəsdən çox Nəsimi yaradıcılığından təsirlənmişdir. O, bir tərəfdən Nəsimi şeirinin ideya və məzmun xüsusiyyətlərindən, digər tərəfdən sənətkarlığından faydalanmış, onun cəsarətli fikirlər söyləmək bacarığını təqdir etmişdir. Xətai də bir çox şeirlərində Nəsimi kimi gözəli ilahiləşdirirdi:

***Rüxlərin müshəf, nigara, qaşlarım mehrablər,***
***Baxdım, ol yüzdən mana fəth oldu yüz min bablər ».***

Qeyd edək ki, Nəsimi şeirlərinin dilindən Xətaiyə keçən bir sıra xüsusiyyətlərə, ənənəviləşməyə başlayan hürufi anlayışlarının, Quranın surə və ayələrinin adlarının çəkilməsinə Qəribi şeirlərində də rast gəlirik:

***Yüzünü əhli-nəzər nuri-yəqirdir dedilər,***
***Sünbülün dövrəsini həbli-mətindir dedilər.***

Nəsimi kimi Qəribi də insanın üzündə ilahi müqəddəsliyin əlamətlərini görür:

***Yüzündür əhli-eşqin Kəbəsi, ey qibleyi-hacət,***
***Rüxündən qeyrə edən səcdəni səhvi-namaz eylər.***

Nəsiminin, Xətainin ardınca Qəribi də məslək aşiqi Həllac Mənsuru əqidəsi uğrunda fədakarlıq, mübarizlik rəmzi kimi tərənnüm edir. Sələflərindən örnək alan şair həyat dəftərinin vərəqlərini oxuyub buradakı ilahi rəmzlərin mənasını anlayanların kamil insan olacağına inandığını bildirir:

***Oxudunsa kitabı masəbəqdən,***
***Yürü, cəhd et, səbəq al, hər vərəqdən...***
***Nə mənadır bu, gör, ey əhli-tövhid,***
***Nə der bir növhədə min dürlü təmcid.***
***Bu rəmzi anlayanlar oldu kamil,***
***Bəsirət əhli isən olma qafil.***

Qəribinin farsdilli poeziyaya münasibətində də Nəsiminin və Xətainin təsirini görmək mümkündür. Əsərlərində Sədi və Hafizin adını hörmətlə çəkən Nəsimi bir qəzəlində Sədi Şirazinin onun şeirindən cuşa gəldiyini deyir:

***Şurə gəlibən eşq sözünü söylə, Nəsimi,***
***Şövqündən anın cuşə gələ Sədiyi-Şiraz.***

Qəribinin əsərlərinin Sədi ruhu tərəfindən rəğbətlə qarşılandığından bəhs edən beyti Nəsimi misraları ilə səsləşməkdədir:

***Bu əbyatı eşidib ruhi-Sədi dedi kim, Allah***
***O təbin bağına xak etsin abi-bustanimni.***

Qəribinin elə qəzəlləri vardır ki, onun dolayısıyla Mövlana Cəlaləddin Rumi irsi ilə yaradıcılıq əlaqəsinin mövcudluğundan danışmağa imkan verir. Nəsimi Mövlana Cəlaləddin Ruminin «Divani-Şəms Təbrizi» adlı divanına daxil olan, fars dilində yazılmış «Məst» rədifli qəzəlinə Azərbaycan türkcəsində iri həcmli, 34 beytlik, eyni rədifli nəzirə yazmışdır. Nəsimi də Mövlana kimi qəzəlində ilahi eşqdən, vəhdət şərabından məst olmaqdan, bütün kainatın məstliyindən danışır:

***Şöylə məstəm ta qiyamət daxi hüşyar olmazam,***
***Çün bəni vəhdət meyindən eylədi dildar məst...***

***İns məstü cinni məstü cümlə bu vəhşü tüyur,***
***Xak məstü bad məstü ab məstü nar məst.***

Xətainin həmin qəzələ yazdığı altı beytlik nəzirəsinin məzmunu eynidir:

***Sərxoşi-cami-ələstəm ta əbəd hüşyar məst,***
***Məstü layəqəl gəzərmən şəhr içində ar məst.***

Qəribinin bu şeirlərə yazdığı altı beytlik nəzirədə Nəsimi təsiri daha çoxdur. Nəsimi kimi o da bütün kainatın ilahi eşq şərabından məst olduğundan danışır. Beytlərindən birində mülki-cavidanın da məst olduğunu deyən Qəribi, fikrimizcə, hürufiliyin banisi Fəzlullah Nəiminin “Cavidannamə” əsərinə işarə edir:

***Şərabi-eşq ilə dil məstü can məst,***
***Cahan məstü zəmin məstü zaman məst.***

***Dolubdur aləmə qovğavü şuriş,***
***Həme fanivü mülki-cavidan məst.***

***Qəribi bir nigara oldu heyran,***
***Ki, anınçün Kəbə məst, deyri-Muğan məst.***

Bir sıra sənətkarların yaradıcılıq əlaqələrindən danışmağa imkan verən əsərlərdən biri də mövzusu Nizami Gəncəvi qəzəlindən gələn Hafiz Şirazinin “Qəm məxor” (“Qəm yemə”) rədifli farsca qəzəli və ona Nəsimi tərəfindən yazılmış farsca eynirədifli nəzirədir. Tədqiqatçı Qasım Cahani “Nəsiminin sələfləri ilə bəzi yaradıcılıq əlaqələrinə dair” adlı məqaləsində bu üç sənətkarın haqqında danışılan bu nikbin ruh aşılayan əsərləri arasındakı əlaqə barədə yazır: “Qəm yemə”. Bu nida Nizami qəzəlinin əvvəlində verilmiş, Hafiz şeirinin rədifinə çevrilmişdir. Lakin həmin şeirlər arasındakı yaxınlıq təkcə bədii ifadə vasitələrinə deyil, məzmuna da aiddir. Nizami qəzəlindəki nikbin ruh, səadət müjdəsi verən məğrur nida, insanın fədakarlığı və cəsarəti ilə yaradılacaq səadətə inam ruhu Hafiz sənətində də eyni əzəmətlə tərənnüm olunmuşdur... Nəsimi şeiri ilə Hafiz qəzəli arasında şəkli uyğunluq deyil, məna rabitəsi vardır. Hafiz dünyanı “dəyişən karxana”ya bənzədir, müvəqqəti həyatda qəm yeməyi sadəlövhlük hesab edir. Nəsimi də bu şeirində varlığa sələfi kimi dəyişən və keçici baxır, “tamaşası beş gün olan” “həyatı şən keçirməyə çağırır”.

Qəribinin «Qəm yemə” rədifli yeddi beytlik nəzirə qəzəlində dahi ustadların, xüsusilə Nəsiminin təsiri görünür. Allahın qəhrini lütf kimi qəbul edib, xoş günlərin gələcəyinə inanmağa çağıran Qəribi şeirinin sonunda Səfəvi şahına sidqlə inananların məqsədlərinə çatacaqlarını deyir. Burada o, əsl qızılbaş şairi kimi çıxış etmişdir:

***Qəhrini lütf anla Allahın, gəl ey can, qəm yemə,***
***Vəslə istibdal ola hər gün bu hicran, qəm yemə...***

***Bir-iki gün dövr əgər keçdisə bər əksi-murad,***
***Böylə qalmaz daima əhvali-dövran, qəm yemə.***
***Ey Qəribi, sidq ilə şahın eşigin bəkləgil***
***Kim, irür məqsudinə dərvişü sultan, qəm yemə.***

Məlumdur ki, Nəsimi Həzrət Əlinin, şiə imamlarının mədhinə şeirlər həsr etmişdir. Bu əsərlər içində onun on dörd bənddən ibarət, hər bəndi “La fəta illa Əli, la seyfə illa Zülfiqar” (“Əli kimi gənc, Zülfiqar kimi qılınc yoxdur”) misrasıyla bitən mürəbbe-tərcibənd xüsusi yer tutur. Hər bənddə Məhəmməd Peyğəmbərin Əli barədə dediyi bu kəlamını təkrar edildiyi şeirdə Həzrət Əlinin müqəddəsliyi, Allaha yaxınlığı, islam dini qarşısındakı xidmətləri nəzərə çatdırılır:

***Qüdrətindən Haq yaratdı qibleyi-zərrin nigar,***
***Qübbənin həm gərdişindən oldu bu leylü nahar,***
***Çərxi-gərdunu onun ismiylə döndərdi mədar,***
***“La fəta illa Əli, la seyfə illa Zülfiqar”.***

***Əhmədü Mahmudü Qasım çıxdı bər ərşi-məcid,***
***Həm Əsədullahı gördü dərgaha olmuş mürid,***
***Bər məzid olsun ana bu ismi dövlət, bər məzid,***
***“La fəta illa Əli, la seyfə illa Zülfiqar”.***

Bu şeir Səfəvilər dövlətində, şiə, hürufi şairlər arasında məşhur olmuş, bir müddət Şah İsmayıl Xətainin sarayına yaxın olmuş, Nəsimi ardıcılı, hürufi şair Süruri ona yeddi bənddən ibarət nəzirə yazmışdır:

***Ey Süruri, padşahi-ləmyəzəldür Mürtəza,***
***Aftabi-mətleyi-sübhi-əzəldür Mürtəza,***
***Bəlkə zatullah, əgər dersəm, məhəldür Mürtəza,***
***“La fəta illa Əli, la seyfə illa Zülfiqar”.***

Nəsiminin bu şeiri Qəribinin də diqqətini cəlb etmiş, o, həmin əsərə dörd bəndlik nəzirə yazmışdır. Qəribi də nəzirəsində Həzrət Əlini Adəm, Musa, Əyyub, Süleyman və s. peyğəmbərlərlə müqayisə edir, onun üstün cəhətlərindən danışır. Bəndlərdən birində şair hürufi ədəbiyyatında, Nəsimi şeirlərində tez-tez işlənən, Quranın “Əlləməl-əsma” ayəsini [Əslində, Quranın “Bəqərə” surəsindən götürülmüş ayənin (31-ci ayə) əvvəli belədir: “Əlləmə Adəmə əl-əsma kulləha” (“Adəmə bütün adları öyrətdi”)] sitat gətirir:

***Əlləməl-əsma ki, Adəmdir səfiyi-kirdigar,***
***Elmü aləm içrə bu ismi ilə buldu iftixar,***
***Zikri-şükri bu idi billah anın leylü nahar,***
***“La fəta illa Əli, la seyfə illa Zülfiqar”.***

Qəribi Nəsiminin söz sənətkarlığından, onun dilin imkanlarından, bədii ifadə vasitələrindən istifadə etmək məharətindən öyrənən, bəhrələnən şairdir. Aşağıdakı beytdə Nəsimi “can” sözünün çoxmənalılığından (ruh və bədən, insan) bəhrələnir, ondan cinas və təkrir kimi istifadə edir, şeirin axıcılığına nail olur:

***Can necə tərk eyləsin, ey can, səni,***
***Canımızın canısan, ey canımız.***

Nəsimi şeirlərinə yaxşı bələd olan, onun əsərlərini örnək götürən Qəribi də qəzəlində “can” sözünü məharətlə işlətməyi bacarmışdır:

***Canına canlar qoyar, cana, Qəribinin ləbin,***
***Gərçi canından neçə üşşaqı bizar eyləmiş.***

Qəribi böyük Azərbaycan şairi Nəsimi yaradıcılığından istər məzmun, istərsə də forma, söz sənətkarlığı baxımından bəhrələnmiş şairlərdəndir. O, bəzən Nəsimi poeziyasının o cəhətlərindən təsirlənmişdir ki, mürşidi hesab etdiyi Şah İsmayıl Xətai həmin cəhətlərə diqqət yetirmişdir. Bir çox hallarda isə Qəribi özü birbaşa Nəsimi irsinə müraciət etmiş, onun yaradıcılığından sənətkarlıq nümunəsi kimi bəhrələnmişdir.



*Nərgiz CABBARLI*

# Mübariz Cəfərlinin “Ərəfə” romanı

Mübariz Cəfərlinin imzası ədəbi mühitdə kifayət qədər tanınsa da, açığı, onun heç bir əsəri haqqında heç vaxt yazmamış, fikir bildirməmişəm (icmallarımda bəzi qeydlərimi çıxmaq şərtilə). Səbəbi barədə dəqiq nəsə demək çətindir. Türklərin bir sözü var: dəng gəlməyib. Həqiqətən də, sadəcə, belə alınıb.

Lakin “Azərbaycan” jurnalının sonuncu sayında dərc edilən “Ərəfə” (kiçik) romanı haqqında bir neçə qənaətimi bölüşmək istərdim.

Romandan alınan qarışıq təəssüratlar fonunda (tamamlanmamış, sonuna qədər yerinə oturdulmamış xətlər, açıq qalan, cavablandırılmayan suallar, sonu naməlum buraxılan hadisələr və s.) romanın sona qədər yazılmadığını (sonluq verilsə də!) və ya hansısa hissələrinin ixtisarla verildiyini düşünsəm də, bir çox “zərbə”lərin dəqiqliyi, qaldırılan problemlərin kəskinliyi, uzun zaman yaddaşda qalacaq təsvirlərin və hadisələrin mövcudluğu, aktuallığı bu mətnə diqqətimi cəlb etdi.

Roman müasir zamanla – pandemiya dövrünün insanı ilə bağlıdır. Ədəbiyyat və bədii mətn üçün nə qədər arzuolunmaz, qəribə və yabançı görünsə də, “maskalı insanlar” müasir nəsrə – romana da daxil edildi. Əslində, “reallıqla, müasir cəmiyyətin, müasir dünyanın həyatı, problemləri, gedişatı ilə bağlıdır, niyə də olmasın” sualı bu məqamda mütləq veriləcək. Amma iş orasındadır ki, bu romanda o obrazlarla qarşılaşdığım an hiss etdim ki, sən demə, “maskalı insan” modeli, onların var olduğu cəmiyyət, həyat, hələ ki, tam gerçəkliyi, çılpaqlığı və dərinliyi ilə şüurumuz tərəfindən qəbullanmayıb. Sanki başqa bir yaşam mərhələsinə – azadlıqların, məsələn, nəfəs almaq və vermək azadlığının itirildiyi bir mərhələyə adladığımızı şüurlu bir şəkildə qəbul edə bilmirik. Xaotik bir dünyanın xaotik, düzənsiz, “dəli” yaşam tərzinə “calandığımızı” dərk etmək sürəcini keçmək hələ də bizim üçün çətindir. Bəşəriyyət “ağıllı” hesab etdiyi mərhələnin “pik” səviyyəsinə (“çoxağıllılıqdan dəli olma” səviyyəsinə) yetişdiyini hələ də tam anlamında idrak edə bilməyib.

Amma yazıçı bunu açıq bir şəkildə sərgiləməyi bacarır. Daha doğrusu, təsvirə məhz dəlixanadan, ağlını itirənlərin mühitindən başlaması və onunla “ağıllılar”ın “maskalı cəmiyyəti” arasında paralel xətlər cızması təsadüfi deyil. Bu yolla çox asan bir şəkildə oxucunun diqqətini bəşəriyyət üçün hər zaman aktual olan “dəlilik” probleminin dərinliklərinə yönləndirməklə bərabər, ağıllı olan (və ya özünü ağıllı hesab edən!) zümrənin nə dərəcədə ağıllı olduğunu sorğulayır (oxucunu da sorğulamağa vadar edir). Məhz bu səbəbdən də “Ərəfə”, ilk növbədə, “ağıllıların” mühiti ilə “dəlilərin” mühiti arasında keçidlərlə yadda qalır. Sanki “bunların hansı ağıllıdır?” sualı hər an baş

qaldırıb boy vermək üçün fürsət gözləyir. Bəzi məqamda hətta əsas qəhrəmanın (Baş həkimin) dili ilə səsləndirilir də.

İçəridəki (dəlixanadakı) "azadlıq" ilk hissədəcə diqqəti cəlb edir. "İkiləşən", "sən də elə mənsən" deyərək oradakı (azad olmayan mühitdəki) azadlığı dəyərləndirən qəhrəmanlar onu həbsxanadakı "azadlıqla" müqayisəyə qoyaraq birinciyə üstünlük verirlər. İnsanlara (dəlilərə!) "azadlıq" verildiyi bu xəyal kimi görünən məkanın sakinlərinin fərqli olduğu hər dialoqda diqqətə çatdırılır. Günahları, daşıya bilmədikləri ağrıları ilə birlikdə "hamı kimi olmadıqlarını" dərk edə-edə yaşayan bu insanların idrak səviyyəsi (bir çox ağlınıitirmişlərdə olduğu kimi!) oxucunu heyrətləndirir: "– Biz hamı kimi deyilik axı... – Necəyik? – Bax sən pişiyin ölümünü yaddan çıxara bilmirsən, mən balaca uşağın ölümünə görə əzab çəkirəm... Bayırda yaşaya bilmək üçün gönüqalın olmalıyıq... Orda nələr baş verdiyindən xəbərdaram mən... Ona görə bura xoşuma gəlir... Sənin dediyin o azadlıq mənə lazım deyil..."

"Bayırda yaşaya bilmək üçün gönüqalın olmalıyıq..." dərki günahı və real həyatın ağrılarını daşıya bilməyənlərlə onu qəbul edib yaşayan "gönüqalınları" üz-üzə qoyur. O ağrıların bir daşıyıcısı Mürsəldirsə, digəri də Baş həkimdir. Biri öz ruhi xəstə olacaq övladını körpə yaşında əlləri ilə öldürən Axund, digəri isə ermənidən olan oğlunun "ərə getməsi" yükünü ürəyində daşıya-daşıya yaşayan (və ya yaşaya bilməyən!!!) Baş həkimdir.

İlk hissədə diqqəti çəkən bu dialoq sona qədər oxucunu izləyir. Hətta o dərəcədə ki, başa düşürsən: istər ağıllı ol, istərsə dəli, istər azadlıqda ol, istərsə dörd divar arasında – əsas problem dəyişməyəcək. Sən yenə də azad olmadığını düşünəcəksən, hiss edəcəksən. (Bəlkə də, azadlıq bildiyimiz heç azadlıq deyilmiş?!) Sən yenə də insanlardan – öz həmcinslərindən qaçmağa çalışacaq və xilas yolunu bu qaçışda görəcəksən:

"– Sən quşsan ki, qəfəsə salsınlar?

– Elə quş olmaq isrəyərdim ki...

– Quş olsaydın, neyləyərdin?

– Tənha bir adaya uçardım. Adamlardan iyrənirəm..."

İki dəlinin (ikiləşən insanın) arasındakı bu dialoq Baş həkimin qaçışının da səbəbidir: "Adamlardan iyrənirəm...". Halbuki o, ağlı başında olan biridir. Amma öz duyğularını və fikirlərini bir yerə toplaya bilmədiyindən qaçış arzusundadır: "Lal-mat havada ləpələri heysizləşib "dincələn" dənizə diqqətlə baxsa da, fikri o qədər uzaqda və adda-budda idi ki, düşündüklərini cəmləşdirib bir yerə yığa bilmirdi" (yeri gəlmişkən, bu cür dəqiq və orijinal təsvirlər də (Lal-mat havada ləpələri heysizləşib "dincələn" dəniz obrazı kimi) M.Cəfərlinin romanında diqqəti çəkən xüsusiyyət kimi qeyd edilməlidir). Çıxış yolunu içində yaşatdıqlarını da götürüb qardaşının yanına – doğulduğu və doğmalarının uyuduğu məkana qaçmaqda görür. İstefa ərizəsi yazıb qoyduğunu, oğlu ilə bağlı ağrılarını etiraf edərək qəbiristanlıq yanındakı evdə qısamüddətlik mənəvi sakitlik tapmağa çalışır. Onun düşüncələrinin, duyğularının təqdimi və ifadəsi də "ağıllı" bir insanın "itkinliyi"nin sübutudur. Yazıçı onun söyüd haqqında düşüncələrini verməklə yanaşı, müasir dünya insanının tənhalığına da diqqət yönəldə bilir: "gözünü açandan bu ağacı başıaşağı, "kədərli", "qəm-qüssəli" görmüşdü. Baş həkimə elə gəlmişdi ki, külli-aləmin dərd-sərini indi altında bardaş qurub ədəb-ərkanla əyləşdiyi söyüd çəkir, bu ağac olmasa, onun çəkdikləri cəmi bəşərin qəddini əyəcək. Bəlkə, şəhərdə məhrəm adam tapmadığından kəndə qayıdıb ağacla dərdləşməyə, yükünü ağacın boynuna şələləməyə gəlmişdi?"

Müəllif (qəhrəmanı) bu tənhalığın səbəbini də başqaları ilə deyil, insanın özü ilə bağlayır: "Bir ömür yaşadığın şəhərdə bölüşməyə bir yaxın adam tapmırsansa, deməli, vaxtında kiminsə yükünü çəkməmisən, indi də hamı bir-bir aradan çıxır ki, sən allah bağışla, məni üzürlü say, qarnım ağrıyır, öz canımla əlləşirəm, nəinki özgənin, heç öz yükümü də gəzdirməyə halım yoxdu... Yaxşı ki, halı olmayanlar kimi deyil ağac, yoxsa o da aradan çıxardı".

Romanda baş həkimin (tənha insanın) daşa, ağaca, ota – təbiətə inamı, etibarı başqa məqamlarda da ortaya çıxır. O, təkcə yaddaş haqqında düşünəndə deyil, ölüm haqqında düşünəndə belə, məhz təbiətlə həmahəng ruhda olur: “Lapdan Baş həkimin ağlına gəldi ki, ölüb eləsə, gərək onun üstünə ağır daş qoymasınlar. O ağırlıqda yükü əbədiyyən çəkməyə gücü çatmazdı. Heç balaca başdaşı da qoymasınlar. Şəkil, ad-filan da lazım deyil. Basdırsınlar, üstünə də güldən, koldan nə isə əksinlər, vəssalam... Daş olmaqdansa, gülə, kola, lap belə, ağaca çevrilmək yaxşıdı. Burası vardı ki, elə ağac özü də ağırdı”.

Daşa, ağaca, quşa, kola çevrilmək istəyi ədəbiyyatımızda hər zaman aktuallıq kəsb edən bir xətt olubdur. Əslində, bütün çevrilmə istəklərində olduğu kimi, bu çevrilmə istəyinin də əsasında yenə də insanın azadlıq istəyi durur. Ağac, daş, torpaq olaraq (yaddaşdan, onun daşıdığı ağırlıqdan, acılardan, problemlərdən qurtularaq) daha azad ola biləcəyini düşünür insan.

Romanın əsas ideyası məhz insan “ağlı” ilə, “yaddaşı” ilə insan “tənhalığı” arasındakı əlaqənin varlığının sübutudur. İnsan nə qədər tənhadırsa, ağlı bir o qədər zərbə altındadır. İnsan nə qədər bu tənhalıq səbəbindən ruhundakıları, düşüncəsindəkiləri paylaşmaq imkanından məhrumdursa, yaddaşın ağırlığı öz ardınca onun dağılmasını, sınmasını gətirəcəkdir: “Baş həkim utana-utana həqiqəti dedi: – Elə bil burdakı yaddaşım itib, salxım söyüddən, bir də sənin həyətindəki küknardan savayı, heç kimi, heç nəyi xatırlamıram”. Onun rəhbərlik etdiyi xəstəxananın sakinlərinin yaddaşında yalnız bəzi hadisələrin qaldığı kimi... (Əslində, yaddaşın itməsi də insan orqanizminin hansısa gedişata və hadisəyə verdiyi reaksiyadır!) Və bu tənhalıq insanlardan uzaqlaşanların daşa, kəsəyə, ağaca yaxınlaşması deməkdir. Ağacla, daşla, kəsəklə dərdləşməsi deməkdir. İnsanların xəyanətinin olduğu dünyada, sən demə, ağaclar, daşlar xəyanət etməzmiş. Müəllif buna da işarə edir: “Unudulmuş, yaddan çıxmış yol ömrünü başa vurmuşdu, keçilməyən, gediş-gəlişi olmayan yollar, çığırlar, izlər də ölürmüş, mal-qara təzəyinin qalıqları isə Baş həkimə yol göstərirdi elə bil”.

Əslində, müəllif bütün roman boyu kontrastda olan, bir-birini təkzib edən “dərk etmə” və “dəlilik” anlayışlarını eyni müstəvidə yanaşı işlədir. Dəli olan, amma eyni zamanda da danışdıqlarında müəyyən məntiq qorunan insanların varlığındakı bu ziddiyyət hər kəsi (bu fakta diqqət yetirmiş!) düşündürür. Romanın ən uğurluq məqamı da bu bəlkə hansısa məqamda hər kəsi düşündürən bu problem(lər)ə diqqət yönləndirməsidir. Hətta o, bunu qəhrəmanlarının öz dili ilə təsvir edərək bu ziddiyyətə diqqət çəkməyə çalışır: “– Yox, ağlamadım, ağlaya bilmirəm mən... Ağlamağım gələndə gülürəm... Bəlkə, elə ona görə neçə gün qəhqəhə çəkdim öz-özümə... Burdakı həkimlər də çaş-baş qalmışdılar mənim halımın qəfil dəyişməyinə görə...” Bu, bir dəlinin dilə gətirdikləridir. Məntiqdən uzaq olmayan fikirlərdir.

Amma eyni zamanda da insanı çaşqınlığa salan psixoloji (ziddiyyətli) bir məqamın izahına edilən cəhd kimi maraqlıdır. Yazıçı “ağlamağım gələndə gülürəm” ifadəsinin məzmununda bir çox faciələrin, ağrıların, yaşantıların xəritəsini verə bilir. Müəllif sanki məhz bu fikirlərin seçimi və ifadəsi ilə insanların “ağıllılıq” dedikləri ilə “dəlilik” adlandırdıqları hal arasında necə incə bir cizgi olduğunu diqqətə çatdırır. Hətta o incə cizgini dəfələrlə öz qəhrəmanları ilə birlikdə o üz-bu üzə adlayır: “– Düz deyirsən, sahibsizlik dəhşətdi... Elə yiyəsiz adam olmaq da zülümdü... – Gəl özümüzü itliyə, pişikliyə vuraq...” Bu dərketmə hətta o qədər yüksək səviyyəyə qalxır ki, təsvir edilən qəhrəmanların ağıl sağlığının olmadığına belə şübhə edirsən: “– Yəqin, gec-tez, bizim küçəmizdə də bayram olacaq... – İnanmıram... – Niyə? – Çünki bizim küçəmiz yoxdu...”

Romanda sona çatdırılmayan proses çəkilən filmlə bağlıdır. Dəlilərin çəkdiyi filmlə. Əlbəttə, bunun nəticəsizliyi də əvvəlcədən “planlaşdırılmış” kimi görünür. Amma səbəb kimi müəllif belə bir seçimə izah verməyə çalışır: “Depressiyaya düşüb get-gedə şizofrennikə çevrilən insanlardasa, sağalmağa bəzən illər gərək olur... Onların beyninin, yaddaşının xəzinəsindəki ağrılı məqamları silmək asan deyil... Bəzi xəstələrimiz yad-

daşlarını tamam itirirlər. Ona görə də biz ən effektiv yolu seçdik..."

Bu film başa çatdırıla bilərdimi? Bəlkə də, yox. Amma çatdırılmadığı xəttinin özü, heç olmasa, tamamlanmalı idi.

Dəli olmayan, amma işlədiyi günahı bütün ömrü boyu ruhunda daşıyan, gözünün qarşısında böyüdən (küknar ağacı kimi!) Mürsəl də, Baş həkim də, bacıları Ayna da insanın etdiyi günahlarla yaşaya bilməsinin (necə yaşadığının) simvoludur. Hətta onların bu ağrı ilə necə yaşadığı sualının yaratdığı heyrət hissi əsl gerçək dəlilərin onlar ola biləcəyi ehtimalını da ortaya atır. Baş həkimin etirafı da elə bunu deyir: "Amma o vaxtlar mən kim idim, kim məni tanıyırdı, nə hünərim vardı ki, ananı baladan ayırım? Evim yox, eşiyim yox, kim baxacaqdı tifilə? İndisə tüstüm təpəmdən çıxır, görən yoxdu, çünki təpəmdən çıxan tüstü içimə dolur, içim tüstü ilə dolandan sonra mən partlayacam, eşidirsən, mən sakit ölməyəcəm, mən partlayıb parça-parça olacam... Eşidirsən?"

Romanda cəmiyyət – maska ilə yaşamaq məcburiyyətində olan insanların həyatı, əslində, fon rolunu oynayır. O insanlar əsas qəhrəmanların özü, taleyi fonunda öz qayğıları, çətinlikləri ilə birgə görünüb yox olurlar. Amma bu görünüş – yox olma belə mənəvi-ruhi problemlərin daha çox qabarmasına yardımçı ola bilir. İnsan zəkası hər hadisədən təsirlənmir. Qlobal masştablı tətikləyici faktorlardır onu yerindən oynadan. Məsələn, top oynamaqdan qorxan iki dəlidə olduğu kimi. Çox incə bir ştrixi qeyd edilən məqam, əslində, romanda ən yaddaqalan məqamlardan birinə çevrilir: "– Niyə oynamayacaqlar? Qadın da dayanmalı oldu: – Çünki onlar topdan qorxurlar... – Nəyinnən qorxurlar topun? – Çünki... çünki... – qadın uyarlı sözlər axtarsa da, ağlına heç nə gəlmədiyindən həqiqəti söyləməli oldu. – Çünki onların gözünün qabağında uşaqlarının başını kəsib top kimi oynadıblar... – Uy!.. – inciyən səntirləyən kimi olub bir addım gerilədi, bir anda həm hayqırdı, həm də içini çəkdi. – Harda kəsiblər uşaqlarının başını? – Davada kəsiblər... – Kim kəsib? – bu dəfə inciyən qorxa-qorxa və yazıq-yazıq xəbər aldı. – Ermənilər..." Və bu hadisə haqqında oxuduqca qlobal "maskalanma" prosesinin rəvac verdiyi, intiharlar, ağlını itirmələr və s. kimi səbəb olduğu və bundan sonra da səbəb ola biləcəyi böyük problemlər haqqında düşünməkdən özünü saxlaya bilmirsən. Ümumiyyətlə, müəllif bu kiçik romanında kiçik və ilk baxışdan bir o qədər diqqət çəkməyən ştrixlərlə çox böyük problemlərə toxunub və bunu təsirli bir şəkildə edə bilibdir. Roman boyunca da, çox maraqlıdır ki, məhz həmin ştrixlər oxucunun yaddaşında ilişib qala bilir.

Belə qeydlərdən biri də Baş həkimlə müəssisəni (batmış sestra üzündən) yoxlamağa gəlmiş müstəntiq arasında baş verən söhbət zamanı edilir: "– Bura demokratiyanın beşiyi sayılan bir ölkənin yaratdığı reabilitasiya mərkəzidi. Həm də bilirəm ki, siz xoş niyyətlə gəlməmisiz... Müstəntiq: – Birincisi, beşik məsələsini çox şişirtməyin... Sizin qürrələndiyiniz ölkədə, demokratiya pərdəsi altında nələrin baş verdiyi hamıya məlumdu... Beş almasaz, bir verməzsiz..."

Bu cür məqamların üstündə xüsusi olaraq dayanılmasa da, qaldırılan problemin dərinliyi də, ona diqqət çəkilmə səviyyəsi də təsirsiz ötüşmür.

Əsərdə qaldırılan əsas problemlərdən biri də o dünya, cənnət və cəhənnəm məsələsidir. İnsanın dərk etməyə çalışdığı, bəzən kor-koranə inandığı, bəzənsə, sadəcə, üzərindən keçdiyi problemə axundun dili ilə gətirilən izah da bir çox mətləblərdən xəbər verir:"cəhənnəm elə yer üzündəki olaylara bənzəyir ki, bəşər nəsə qana bilsin. Aləmlərin sirrini məntiqlə yox, insan ağlına gəlməyən məntiqsizliklə anlamaq olar ki, bu da bizlər üçün əlçatmazdı.." Din xadiminin – axundun, əslində, övladını itirmiş bir günah sahibi olaraq seçilməsi də təsadüf deyil. Öz övladının qatili olan bir ata (bu qətldə ona haqq qazandıranlar, yəqin ki, az olmayacaq!) insanlara yol göstərən, ilahi həqiqətləri izah edən biridir. Bunun özü də həyatda tez-tez rastlaşdığımız ziddiyyətlərdən biridir: "Elə məclislər olur ki, orda qırğın düşür, hərə öz dediyində durur, axıracan bir nəticə hasil eləyə bilməyəndə, hamı pişik kimi mənim ağzıma marıtlayır.

Dəbdə olan xanəndələr kimi axundun da qiyməti bahadı. Məclislərin birində mən: "Əməlsiz iman ölüdür," – dedim." Və bu düşüncənin qətl kimi bir əməl sahibinin dilindən verməklə də müəllif maraqlı bir ziddiyyətlə qarşı-qarşıya qoyur oxucunu. Həmin an istər-istəməz düşünürsən: görəsən, onu dinləyən insanlar mənim (yazıçının!) bildiyini bilsəydilər, nə edərdilər? Lakin eyni anda da başa düşürsən ki, elə ilahi həqiqətlər var ki, ona yetməyin yolu böyük faciələrin, sarsıntıların içərisindən keçir. Din xadiminin, insanlara hər zaman ilahi həqiqəqtin yolunu göstərən birinin fikirləri, həqiqətən də, təsirli səsələnir:"Mənə elə gəlir ki, Adəmnən üzü bəri bütün seçilmişlər əsl həqiqətdən xəbərsizdi. Çünki ölçülər dəyişməlidi... Bunu da eləmək üçün bəndə bəndəliyindən çıxmalıdı, əsl həqiqəti öyrənmək məxluqa yasaqdı, qadağandı, qanırsanmı"...

Bu dərkedilməzlik, bu acizlik elmlə dinin qarşı-qarşıya durduğu bu məqam Baş həkimin varlığına da təzahür edir. Tənhalaşdığı, yaddaşını itirməyə başladığı, xəstəxanasının bir sakininə çevrilmək anına yetişdiyi məqamda o (bütün insanlar kimi!) şübhəsini (inanmalı olmadığı bir şeyi) dilə gətirir: "Həqiqətən ruh deyilən bir şey vardısa, qəbrinə baş çəkmək istədikləri onsuz da Baş həkimin gəlişindən xəbər tutmalıydı, daha məxsusi qəbir üstündə, başdaşının yanında dayanmağa ehtiyac yoxdu. "Əzizlərim, mən burdayam, siz orda, bəlkə də, əksinədi, siz burdasız, mən orda..."

Bəlkə də, Baş həkimin yaşadıqları təkcə ağılla, tənhalıqla bağlı deyil, eyni zamanda da "ölüm anı"nın dərki ilə bağlıdır, kim bilir? Amma əsərdən görünən odur ki, Baş həkim şüurunun, ağlının onunla oynadığı oyunla üz-üzədir. Yeriyən qəbirlər, üstünə gələn qəbirdaşları, hər halda, bundan xəbər verir: "İlahi, yeriyən qəbirlər görəsən hara yol almışdı? Gözü qaranlığa tamam alışdığından Baş həkim qarşıdan "gələnləri" getdikcə daha aydın görürdü və qəribəydi ki, onun ürəyində-qəlbində zərrəcə xof, qorxu-ürkü yox idi. Bir məzarlıq müxtəlif başdaşı qoyun-quzu kimi bütün küçəni tutsa da, nizamla, laldinməz üzü bəri hara gedirdi görəsən?" Hətta həmin anda onu gördüyü görüntünün qorxutması yerinə "gələnlər" arasında doğmalarını axtarmağa çalışması kimi bir təskinlik ruhu içərisində olması da bir mesaj ötürür oxucuya: ölüm yaxındır, doğmalarımız, əzizlərimiz qədər. Ölümdən qorxmayın – doğmalarınız, əzizləriniz qədər: "İlahi, görəsən onlarla qabaq-qənşər "gələnlərin" arasında atası, əmisi, məzarlıqda dəfn olunan yaxınları var idimi, vardısa, onlar hansı qiyafədə gəlirdi? Kol, ağac, yoxsa elə daş kimi?.."

Əsərdə dəlixanada film çəkilişlərindən söhbət gedir. Bilərəkdən bu yolun seçildiyi qeyd edilir, lakin son açıqlanmır. Son dəlixanada yanğın olması və Baş həkimin bu səbəblə geri yola düşməsi ilə bitir. Amma o bitməyən bir filmin bəzi maraqlı məqamları əsərdə dəqiq canlandırılır. Və yuxarıda qeyd etdiyim o qısa məqamlar (məsələn, başla oyun oynamaq kimi!) çox gözəl yaradıla bilən kadrlara çevrilə bilərdi. Elə çevrilir də. Eynilə bu səhnə kimi: "Çox sağ olun ki, yiyəsiz pişiklərə kömək eləyirsiniz". Qadın mənə baxıb əlini yuxarı qaldırdı: "Ona sağ ol deyin ki, heyvanlara kömək eləmək üçün bizə imkan verir".

Romanda müyyən dil qüsurları, yerində düşməyən fikirlər, ifadələr də vardır (məsələn, dəlinin birinin dilindən verilən: "Yox, bizə dəli kimi baxmırlar axı... Xəstəxananın həmişəyaşıl ağaclı, ucsuz-bucaqsız həyətində yorulub əldən düşənəcən gəzişirik, hacan yuxumuz gəlsə, yatırıq, haçan istəsək, daş pilləkənlərlə sahilə enib dənizdə çimirik..."– şifahi nitqi deyil, bədii üslublu yazı mətnini xatırladan cümlələr kimi...). Amma bir daha qeyd edirəm: mənə elə gəlir ki, çox aydın şəkildə diqqəti çəkən boşluqlar, tamamlanmasını gözləyən xətlər müəllifi mətnə yenidən qayıtmağa vadar edəcəkdir.

# ♦Kitab rəfi




**QƏZƏNFƏR PAŞAYEV**
**XİLASKAR**
**BAKI, “TƏHSİL” NƏŞRİYYATI, 2021**

“Xilaskar” əsəri professor Qəzənfər Paşayevin xalqın tarixi müqəddəratında müstəsna rol oynamış xilaskarımız Heydər Əliyev epoxası və İlham Əliyev erasına dair könül çırpıntılarıdır.

Müəllifin ürəyinin istəyi ilə yazılan, daha çox gələcək nəsillərə ünvanlanan bu yığcam əsər xalqını, dövlətini, Vətənini sevən hər bir azərbaycanlıya həsr olunub.



**ZƏLİMXAN YAQUB**
**“QARABAĞ ŞİKƏSTƏSİ”**
**BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2021**

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Zəlimxan Yaqubun “Qarabağ şikəstəsi” adlı yeni kitabı işıq üzü görüb.

“Qarabağ şikəstəsi” adlı kitabında şairin Qarabağ mövzusunda yazdığı şeirləri və 11 poeması yer alıb.

Kitabı nəşrə hazırlayan və redaktoru Azərbaycan Aşıqlar Birliyinin katibi, “Ozan dünyası” jurnalının Baş redaktoru, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur.




**MƏMMƏD ORUC**
**KÖÇÜRÜLMƏ (təkrar nəşr)**
**BAKI, “RENESSANS-A” NƏŞRİYYATI, 2021**

Sovet hakimiyyətinin çökməsi ərəfəsində meydana gələn “Köçürülmə” romanı son otuz ildə dəfələrlə çap olunub. Bu bədii örnəyin ictimai-siyasi, tarixi dəyəri var. Müəllif romana qarşı səngiməyən oxucu marağını nəzərə alaraq, əsəri bir daha nəşr etməyi qərarlaşdırıb. Romanın kiril əlifbası ilə nəşr edilən nümunələrindən sonra latın əlifbası ilə bir daha çap olunması, sözsüz ki, ədəbiyyatımızda iz qoymuş bu əsərin oxucu dairəsini xeyli genişləndirəcək.




**MÜBARİZ CƏFƏRLİ**
**ZƏNCİR**
**TƏBRİZ, “QARAÇUXA” NƏŞRİYYATI, 2021**

Yazıçı Mübariz Cəfərlinin “Zəncir” romanı Təbriz şəhərində çap olunub. Romanın qayəsi insan və tənhalıqdan yaranan, milyon adam arasında tək-tənhalıqdan qurtula bilməyənlərin yaşadığı faciəvi sonuclardır...

Əsər boyu insan və ölüm fəlsəfəsi əsasında maraqlı əhvalatlarla üzləşirik. Yazıçı rəvayətin gedişatında xəyali-həqiqi olaylarla qəhrəmanın iç dünyasını və onun psixi durumunu oxucuya çatdırır.

Əsəri ərəb əlifbasına Elyar Polad uyğunlaşdırıb.




**GÜLƏMAİL MURAD**
**AKULA LƏQƏBLİ KƏŞFİYYATÇI**
**BAKI, "QANUN" NƏŞRİYYATI, 2021**

Kitab 44 günlük Vətən müharibəsinin şəhidi Anar Gülverdi oğlu Novruzovun anadan olmasının 45 illiyinə həsr edilib. Anar Novruzov 2016-cı ilin aprelində və 2020-ci ilin Tovuz döyüşlərində göstərdiyi xüsusi qəhrəmanlığı ilə seçilib. O, Milli Qəhrəman Polad Həşimovla, İlqar Mirzəyevlə, Namiq Əhmədovla birgə düşmənə qarşı döyüşüb, şəhidlik məqamına yüksəlib. Kitabda şəhidimizin həyat və döyüş yolundan bəhs edən xatirələr, ona həsr olunmuş şeirlər, yaxınlarının, döyüş yoldaşlarının, doğmalarının xatirələri toplanıb.




**SƏYYAD ARAN**
**"ДОХОД ГЕЙБУЛЛЫ" (RUS DİLİNDƏ)**
**MOSKVA, "RİDORA" NƏŞRİYYATI, 2021**

Yazıçı Səyyad Aranın "Доход Гейбуллы"(Qeybullanın qazancı) adlı hekayələr kitabı Moskvada çap olunub. Kitabda müəllifin müxtəlif illərdə yazdığı hekayələr toplanıb. Sovet imperiyasının çöküşündən sonra Azərbaycanda insanların keçirdiyi hiss və həyəcanlar, yenilik və müstəqillik ritmlərinin oyatdığı sevinc və qürür düyğuları hekayələrin əsas mövzusudur.

Hekayələri rus dilinə tanınmış təcüməçi Püstə Axundova çevirib.




**NİZAMİ İSRAFİLOV**
**MƏKTƏBLİ QIZIN GÜNDƏLİYİ**
**BAKI, "QANUN" NƏŞRİYYATI, 2021**

Sənət aləmində peşəkar rəssam kimi tanınmış Nizami İsrafilovun "Məktəbli qızın gündəliyi" adlı kitabı uşaqlar üçün nəzərdə tutulub. Kitabda üçüncü sinif şagirdi olan bir qızın gündəlik həyatı, düşüncələri, arzuları, qurduğu xəyallar və saf sevgilər əsasında yazılmış hekayətlər-əhvalatlar yer alıb. Təqdim olunmuş əhvalatları rəssam-nasirin peşəkarcasına yaratdığı yüzə yaxın qrafika örnəkləri tamamlayır.




**MÖVLUD TEYMUR**
**DÜNYA EŞİTSİN**
**BAKI, "TƏKNUR" NƏŞRİYYATI, 2020**

Kitab şairin oxucularla on səkkizinci görüşüdür. Kitabda müəlifin müxtəlif illərdə yazdığı şeirləri toplanıb. Təbiət təsvirləri, yurda, vətənə sevgi, bəşəri hisslərin tərənnümü, gənclik, qocalıq şeirlərin əsas mövzusudur:

***Söylə görüm, yeddi nədi, sıfır nə?***
***Əsadı, eynəkdi, bir də azarım.***
***Ələnib ələyim, xəlbirim göydə,***
***Fələyin borcuyla keçir güzarım.***